AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
FOLKLOR İNSTİTUTU

# SMOMPK: AZƏRBAYCAN FOLKLORU MATERİALLARI

## 1-ci cild

BAKI – 2018

**Layihə rəhbəri:** **Muxtar Kazımoğlu (İmanov)**
AMEA-nın həqiqi üzvü

**Tərcümə və**
**transliterasiya edən:** F.ü.f.d, dosent **Rza Xəlilov**

**Tərtib edənlər və**
**ön sözün müəllifləri:** F.ü.f.d, dosent **Rza Xəlilov**
F.ü.f.d, dosent **Afaq Xürrəmqızı**
F.ü.f.d, dosent **Aynur Hüseynova**

**Redaktor:** F.ü.f.d, dosent **Səbinə İSAYEVA**

**Rəyçi:** F.ü.f.d, dosent **Güldanə Pənahova**

**SMOMPK: Azərbaycan folkloru materialları, 1-ci cild.** Bakı, Elm və təhsil, 2018, -232 səh.

folklor.az

S $\frac{4603000000}{\text{N-098-2018}}$ Qrifli nəşr

© Folklor İnstitutu, 2018

***SMOMPK toplusunun nəşr edilməsinin 135 illiyinə və Azərbaycan şifahi xalq ədəbiyyatı örnəklərinin ilk azərbaycanlı söyləyici və toplayıcılarının əziz xatirəsinə ithaf edilir.***

# ÖN SÖZ

XIX əsrin 20-ci illərində Qafqaz çar Rusiyası tərəfindən imperiyanın tərkibinə qatıldıqdan sonra bölgənin inzibati və mədəni mərkəzinə çevrilmiş Tiflisdə fəaliyyət göstərən çar general-qubernatorluğu yeni torpaqları və burada yaşayan xalqları yaxından tanımaq və daha uğurla idarə etmək məqsədilə humanitar, kulturoloji istiqamətlərdə müxtəlif tədbirlər həyata keçirməyə başladı. Əsas məqsəd burada yaşayan yerli xalq və millətlərin tarixini, dilini, həyat tərzini, mentalitetini, psixologiyasını, folklor və etnoqrafiyasını və s. öyrənməkdən ibarət idi. Elə həmin məqsədlə də Tiflisdə rus dilində "Qafqaz təqvimi", "Qafqaz arxeoloji komissiyalarının aktları", "Qafqaz dağlıları haqqında məlumatlar toplusu", "Tiflis xəbərləri", "Qafqaza dair materiallar toplusu" və s. qəzet, kitab və jurnallar nəşr edildi. Lakin 1881-ci ildən başlayaraq, Tiflisdə Qafqaz Tədris Dairəsi İdarəsi tərəfindən rus dilində «Сборник материалов для описания местностей и племен Кавказа» – SMOMPK-un ("Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" – QƏXTMT-in) nəşri Qafqaz xalqları, o cümlədən Azərbaycan xalqı üçün xüsusilə əlamətdar bir hadisə oldu. Toplu tezliklə özünün diyarşünaslıq, kulturoloji materiallarının çoxşaxəliliyinə, əhatə dairəsinin genişliyinə görə digər nəşrlərdən seçilməyə başladı. Nəşr edilən materialların mövzu genişliyi toplunun əsasən üç şöbədən ibarət olan daxili quruluşuna da təsir göstərdi. Belə ki, diyarşünaslıq, kulturoloji aspektlərdə yazılmış məqalələr, əsasən, onun 1-ci

şöbəsinin, etnoqrafik və folklor materialları isə 2-ci və 3-cü şöbələrinin mövzularını təşkil etdi.

1881-1929-cu illər arasında nəşr edilən toplunun 46 buraxılışı (cildi) işıq üzü görmüşdür. Onun 44 buraxılışı Tiflisdə (1881-1915-ci illər), son iki – 45-ci və 46-cı buraxılışları isə 1926-cı və 1929-cu illərdə Mahaçqalada nəşr edilmişdir.

SMOMPK-un bir çox buraxılışlarında sırf diyarşünaslıq, kulturoloji yönlü elmi məqalələrlə yanaşı, Azərbaycan şifahi xalq ədəbiyyatının əfsanə, rəvayət, atalar sözü və məsəllər, tapmacalar, lətifələr, nağıllar və s. kimi janrlarına aid örnəklər də işıq üzü görmüşdür.

İrəvan şəhər gimnaziyasının müəllimi S.Zelinskinin toplunun 1881-ci ildə nəşr edilmiş 1-ci buraxılışındakı "Tatar atalar sözləri, məsəlləri, tapmaca və qadın adları"[1] başlıqlı yazısı burada işıq üzü görmüş ilk Azərbaycan folklor materiallarıdır.

Azərbaycan folklor janrlarından nağıllar, əfsanə və rəvayətlər, lətifələr, dastanların yurd yeri topluda yalnız rusca nəşr edildiyi halda, atalar sözləri və məsəllər, tapmacalar, aşıq şeirləri, nəğmələr və s. həm rus, həm də Azərbaycan dillərində işıq üzü görmüşdür. Azərbaycan folklor örnəklərinin nəşr edildiyi buraxılışların müqəddimələrində onlardan elmi müstəvidə bəhs edilmiş, ayrı-ayrı xalqların müvafiq şifahi xalq ədəbiyyatı örnəkləri ilə qarşılaşdırılmış, onların müqayisəli-tipoloji aspektdə araşdırılması yolunda ilk addımlar atılmışdır.

Azərbaycan folklorunun topluda geniş şəkildə təmsil edilməsi milli kimliyi təsdiqləyən amillərdən birinin və ən vacibinin məhz şifahi xalq ədəbiyyatı olduğunu dərindən dərk edən və buna görə də bu örnəklərin unudulmaması, itib-batmaması, qorunub saxlanaraq gələcək nəsillərə ötürülməsi gərəkliyini irəlicədən görən ziyalılarımızın fədakar əməyi sayəsində müm-

[1] Topludakı yazıların adlarında və mətnlərdə işlənmiş "Tatar" sözü "Azərbaycan" kimi oxunmalıdır (Tərtibçilər).

kün olmuşdur. Zaqafqaziya (Qori) Müəllimlər Seminariyasının məzunları olan F.Köçərli, M.Mahmudbəyov, R.Əfəndiyev, S.M.Qənizadə, M.H.Əfəndiyev, M.H.Vəzirov, T.Bayraməlibəyov, H.K.Sanıyev, A.Qiyasbəyov və başqaları kimi təqribən 40 nəfər azərbaycanlı ziyalı və kənd müəllimi Azərbaycan folklor örnəklərini toplayıb yazıya almış, rus dilinə tərcümə etmiş və beləliklə də, Azərbaycan folklorunun adları bizə məlum olan ilk toplayıcıları kimi tarixə düşmüşlər. Azərbaycan folklorşünaslığının əsasını işləyib hazırlayan H.Zeynallı bu kimi ziyalı və kənd müəllimlərinin əməyinə son dərəcə yüksək qiymət verərək yazırdı: “Azərbaycan el ədəbiyyatı deyil, bütün Qafqaz miqyasında olaraq xalqlar tarixi, etnoqrafiyası və xalq ədəbiyyatı ilə məşğul olan Lopatinskinin ətrafında çalışan Azərbaycan müəllimlərinin adını həmin “Сборник материалов для описания местностей и племен Кавказа” məcmuələrində oxuduqca insanın heyrəti artır. O adamların nə qədər həvəsi, nə qədər qeyrəti varmış!.. Qəpik-quruş bir mükafata uzun-uzun hekayələri, mənzumələri türkcə toplayıb tərcümələri ilə bərabər Tiflisə göndərmişlər. Əlbəttə ki, xalq ədəbiyyatı tarixi yaradılarkən böylə adamların adları qızıl su ilə ən görkəmli yerdə yazılmalıdır!..”[1] H.Zeynallının SMOMPK-la əməkdaşlıq edən ziyalı və kənd müəllimlərimizin fəaliyyətinə verdiyi dəyər toplunun artıq o vaxtdan Azərbaycan elmi ictimaiyyətinin diqqət mərkəzində olduğunu göstərməkdədir.

Yerli azərbaycanlı ziyalı və müəllimlərlə yanaşı, rus və qeyri-rus maarif işçiləri − S.Zeliniski, A.İoakimov, A.Kalaşev, N.Kalaşev, B.Veniaminov, K.A.Nikitin, P.A.Vostrikov və başqaları Azərbaycan folklor materiallarını yazıya alıb toplunun səhifələrində nəşr etdirməklə günümüzə çatdırmışlar.

---

[1] Zeynallı H. Seçilmiş əsərləri (Toplayanı və çapa hazırlayanı f.e.n.Rasim Tağıyev). Bakı: Yazıçı, 1982, s.116-117

Toplu həmçinin Aşıq Oruc, Abdulla Əfəndiyev, İrza Miriyev, Salman Şərifbəyov, Əhməd Məlikov, İskəndər Şirinov, Aşıq İskəndər, Süleyman Cəfər oğlu, Zeynal bəy, Səftər Əzizov və başqa bu kimi ilk azərbaycanlı folklor söyləyicilərinin adlarını qoruyub bizə tanıtmaqdadır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, azərbaycanlı söyləyicilərin dilindən yazılmış folklor mətnləri ilk dəfə olaraq toplunun 1892-ci ildə nəşr edilmiş 13-cü buraxılışında yer almışdır.

Topluda folkor örnəklərinin toplanılması və nəşri ilə bağlı proqram xarakterli materiallardan çıxış edərək deyə bilərik ki, o, nəşrə başladığı ilk gündən öz fəaliyyət profilinə uyğun olaraq yerlərdə çalışan müəllimlərə diyarşünaslıq, kulturoloji istiqamətlərdə araşdırmalar aparılmasını tövsiyə edir və eyni zamanda, folklor örnəklərinin canlı ifadan toplanılmasını, yazıya köçürülməsini və rus dilinə tərcüməsini nəzərdə tuturdu. SMOMPK-u nəşr edən Qafqaz Tədris Dairəsi İdarəsi yerlərdə folklor materiallarının toplanılmasına xüsusi fikir vermiş və kənd müəllimlərinə bu işdə yardım etmək məqsədilə toplayıcılıq işinin əsas prinsiplərini ehtiva edən 12 bölmədən ibarət tövsiyə-proqram tərtib edib göndərmişdir. Həmin proqram toplunun 1-ci buraxılışında da yer almışdır. Daha sonra SMOMPK-un 1882 və 1900-cu illərdə müvafiq olaraq nəşr edilmiş 2-ci və 27-ci buraxılışlarında bəzi əlavələr edilərək proqram daha da təkmilləşdirilmişdir. Əsas proqrama əlavə olaraq toplunun 27-ci buraxılışında nəşr edilmiş "Rəvayət, nağıl, mövhumat adətləri və ənənələrinin öyrənilməsi üzrə bəzi suallar" adlı materialı xüsusilə qeyd etmək gərəkdir. Bu tövsiyələrin nəşri sonrakı illərdə müxtəlif janrlardan olan folklor materiallarının toplanılmasına, rus dilinə tərcüməsinə və nəşrinə geniş vüsət verdi. Azərbaycanın müxtəlif bölgə və kəndlərində çalışan yerli ziyalı və müəllimlər folklor örnəklərini yazıya alarkən və yaşadıqları və ya toplayıcılıq fəaliyyəti ilə məşğul olduqları ərazi haqqında

topluya kulturoloji-diyarşünaslıq aspektlərindən məqalələr yazarkən sözügedən proqram-tövsiyələri rəhbər tutmuşlar və bu səbəbdən də onların məqalələri arasında mövzu, quruluş və s. cəhətlərdən müəyyən yaxınlıqlar, səsləşmələr gözə çarpmaqdadır. Bu məqalələr həm də yaxından-uzaqdan toplunun daxili quruluşu ilə uyğunluq təşkil edir.

Azərbaycan folklor örnəkləri toplunun əsasən aşağıdakı buraxılışlarında yer almışdır:

– İnanclar, sınamalar (5-ci, 17-ci, 20-ci buraxılışlar).

– Atalar sözləri və məsəllər (1-ci, 9-cu, 13-cü, 34-cü buraxılışlar).

– Tapmacalar (1-ci, 13-cü, 18-ci buraxılışlar).

– Əfsanə və rəvayətər (2-ci, 7-ci, 9-cu, 11-ci, 13-cü, 14-cü, 17-ci, 18-cü, 21-ci, 26-ci, 32-ci, 34-cü, 42-ci buraxılışlar).

– Bayatılar, ağılar, şikəstələr, laylalar, beşik nəğmələri, vəsfi-hallar, sayaçı nəğmələri, holavarlar (18-ci, 20-ci, 41-ci buraxılışlar).

– Lətifələr (9-cu, 26-ci, 29-cu buraxılışlar).

– Aşıq şeirləri (2-ci, 13-cü, 41-ci, 42-ci buraxılışlar).

– Dastanlar (13-cü, 19-cu buraxılışlar).

– Mərasim folkloru (9-cu, 18-ci buraxılışlar).

– Uşaq folkloru: laylalar, sanamalar, uşaq nəğmələri, şeirlər, uşaq oyunları, uşaq nağılları, heyvanlardan bəhs edən nağıllar (9-cu, 13-cü, 14-cü, 19-cu, 20-ci, 35-ci buraxılışlar).

– Xalq mahnıları (18-ci, 42-ci buraxılışlar).

– Sehrli nağıllar, məişət nağılları və heyvanlardan bəhs edən nağıllar (3-cü, 6-cı, 7-ci, 9-cu, 13-cü, 19-cu, 20-ci, 21-ci, 26-cı, 35-cı, 42-cı buraxılışlar).

Azərbaycan folklor materiallarından Azərbaycan türkcəsində olanlar SMOMPK-da ərəb və kiril əlifbalarında verilmişdir.

Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin 1927-ci ildə rus dilində nəşr edilən "Xəbərlər"inin 4-cü sayında Cəmiyyətin

folklor komissiyasının üzvlərindən biri olan A.Sübhanverdixanovun "L.Q.Lopatinskinin irsindən olan Azərbaycan və qonşu ölkələr xalqlarının folkloru üzrə materialların siyahısı və qısa icmalı" adlı hesabat xarakterli yazısında folklorşünaslığımız üçün maraq doğuracaq məlumatlar vardır[1]. Bu məlumatlardan bəlli olur ki, topluda dərc edilmiş Azərbaycan folklor örnəkləri ziyalı və kənd müəllimlərimizin onun ünvanına göndərmiş olduqları folklor materiallarının heç də hamısı deyildir. Belə ki, A.Sübhanverdixanovun çox böyük dəqiqliklə tərtib etdiyi və adı çəkilən jurnalda nəşr etdirdiyi siyahıda nağıl, dastan və əfsanə olmaq üzrə 42 adda müxtəlif folklor örnəyi vardır. Siyahıda nağıllar ağırlıq təşkil etməkdədir. Materiallar əsasən Ə.Vəlibəyov, H.Vəzirov, A.Qiyasbəyov, İ.Əlibəyov, M.Mahmudbəyov və başqaları tərəfindən Aşıq Qurbanəlidən, Usub Əsgər oğlundan, Aşıq Kərim Babaoğlundan, Aşıq Orucdan, Aşıq Şirəlidən və digərlərindən yazıya alınmışdır.

SMOMPK toplusunun 6-cı, 14-cü, 17-ci, 20-ci, 32-ci, 34-cü, 43-cü buraxlışlarında Azərbaycanın müxtəlif bölgələrində yaşayan udinlər, talışlar, ingiloylar, avarlar, saxurlar kimi azsaylı xalqların folklorundan müxtəlif örnəklər də dərc edilmişdir. Bu, hələ XIX əsrin ikinci yarısında, yəni bu örnəklərin toplanılıb yazıya köçürüldüyü, nəşr edildiyi vaxtda Azərbaycan folklor məkanında multikultural dəyərlərin hakim olduğunu, tolerantlıq ideyalarının prioritet mövqedə dayandığını göstərməkdədir. Əsrlər boyunca Azərbaycan türkcəsinin bu məkanda dominant statusda olmasına baxmayaraq, bu ölkədə yaşayan azsaylı xalqlar öz dillərini, adət-ənənələrini, milli-etnik mədəniyyətlərini qoruyub saxlamış, inkişaf etdirmişlər.

---

[1] А.Субханвердиханов. Перечень и краткое изложение материалов по фольклору Азербайджана и прилегающих стран из наследия Л.Г.Лопатинского. Отдельный оттиск из Известий Общества Обследования и Изучения Азербайджана. Баку, 1927, 19 стр.

Topluda erməni folklor materiallarına geniş yer verilmişsə də, "Erməni xalq filologiyası" adı altında təqdim edilən örnəklərin böyük əksəriyyəti Azərbaycan folklorunun müxtəlif janrlarını təmsil etməkdədir. Belə ki, toplunun 2-ci, 5-ci, 7-ci, 13-cü, 24-cü, 28-ci və s. buraxılışlarında erməni iqtibasçılığının, plagiatçılığının nə qədər uzun tarixi olduğunu göstərən faktlar vardır.

SMOMPK-un Azərbaycan folklor məkanında təqribən 50 illik fəaliyyəti milli folklorşünaslığımızın təşəkkülü və inkişafı yolunda ilk addımların atılmasına, toplayıcılıq işinə xüsusi təkan verdi. Bu vaxtadək təsadüfi, fərdi təşəbbüslərə əsaslanan toplayıcılıq işi kütləvilik, sistemlilik qazanmaqla yanaşı, müasir elmi prinsiplər əsasında aparılmağa başlandı. 1923-cü ildə fəaliyyətə başladığı ilk gündən respublikanın müxtəlif bölgələrinə ekspedisiyalar təşkil edən, folklorumuzun toplanılıb nəşr edilməsinə xüsusi fikir verən Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinə SMOMPK-un təsirini də qeyd etməmək mümkün deyil.

SMOMPK-da nəşr edilmiş folklor mətnləri bizə rus dilinə tərcümədə gəlib çıxsa da və bu tərcümələr bəzən qüsurlu olsa da, XIX əsrin ikinci yarısında Azərbaycan şifahi xalq ədəbiyyatı məkanında dövriyyədə olan folklorumuz haqqında müəyyən təsəvvür yaradır. Üstəlik, bu materiallar hər hansı folklor örnəyinin bu günədək keçdiyi yolu, siyasi, iqtisadi və ictimai dəyişikliklərin ona etdiyi müxtəlif təsirləri izləməyə də imkan verir.

SMOMPK-un müxtəlif cildlərindəki Azərbaycan folklor materiallarından daha sonralar H.Zeynallının "Azərbaycan atalar sözü[1]", "Azərbaycan tapmacaları[2]", A.V.Baqrinin "Azərbaycanın və qonşu ölkələrin folkloru"[3], A.V.Baqri və

[1] H.Zeynallı. Azərbaycan atalar sözü. Bakı, Azərnəşr, 1926-cı il.
[2] H.Zeynallı. Azərbaycan tapmacaları Bakı, Azərnəşr, 1928-cı il.
[3] А.В.Багри. Фольклор Азербайджана и прилегающих стран. Т.1-3. Б., 1930.

H.Zeynallının "Azərbaycan türk nağılları[1]" kitablarında geniş şəkildə istifadə edilmişdir.

Azərbaycan ədəbiyyatşünas və folklorşünasları özlərinin elmi əsərlərində yeri gəldikcə SMOMPK-un Azərbaycan folklor məkanındakı fəaliyyətindən bəhs etmiş, onun folklorumuz, folklorşünaslığımız qarşısında olan xidmətlərini qədirbilənliklə yüksək qiymətləndirmişlər. Son bir neçə il ərzində SMOMPK toplusundakı Azərbaycan folklor materialları ilə bağlı "Azərbaycan folklor materiallarının XIX əsrdə toplanılması, rus dilinə tərcüməsi və nəşri problemləri (SMOMPK-un materialları əsasında)" (Səhər Hidayət qızı Orucova) mövzusunda elmlər doktoru, "SMOMPK məcmuəsində paremioloji vahidlər" (Maqsud Rafiq oğlu İmrani), "XIX əsrdə rus mətbuatı və ədəbiyyatında Azərbaycan folkloru" (Aynur Laçın qızı Səfərəliyeva) və "SMOMPK məcmuəsində Azərbaycan folkloru (1881-1894-cü illər)" (Lətafət Firuddin qızı Ələkbərova) mövzularında fəlsəfə doktoru dissertasiyaları uğurla müdafiə edilmişdir.

Oxucuların ixtiyarına verilmiş bu cildin tərtibində köməkçi vasitə olaraq filologiya elmləri namizədi, tanınmış biblioqraf (mərhum) Əmin Əfəndiyevin "Qafqaz əraziləri xalqlarının təsvirinə dair materiallar toplusu – QƏXTMT (SMOMPK) izahlı biblioqrafiya" və gənc tədqiqatçı Validə Həsənovanın "Qafqaz əraziləri və xalqlarının nağılları" biblioqrafik göstərici kitablarından istifadə edilmişdir.

Biz SMOMPK toplusunda yer almış Azərbaycan şifahi xalq ədəbiyyatı nümunələrini yenidən dövriyyəyə buraxmaqla folklorumuza "yeni" süjet və mətnlər, obrazlar sistemi qazandırmaq yolunda kiçik bir addım atmaqla yanaşı, XIX əsrin sonlarında bu örnəkləri söyləmiş, toplayıb yazıya almış və sonra

[1] Азербайджанские тюркские сказки. Перевод, стат.и коммент. А.Багрия и Х.Зейналлы. М.Академия, 1935, 668 с.

da rus dilinə tərcümə edib toplunun Tiflisdə yerləşən redaksiyasına göndərmiş ziyalı və kənd müəllimlərimizin, söyləyicilərimizin böyük və fədakar əməyini üzə çıxarmaq məqsədini də həyata keçirmişik.

Biz Azərbaycan folklor materiallarından rus dilində olanları Azərbaycan türkcəsinə tərcümə etmiş, ərəb və kiril əlifbalarında nəşr edilənləri isə yalnız transliterasiya edərək orfoqrafiyası gözlənilməklə latın qrafikasına çevirmişik. Hər bir əsər, özəlliklə də, folklor əsəri bir dildən başqa dilə tərcümə edilərkən müəyyən itkilərə məruz qaldığı üçün işə başlayanda vaxtilə Azərbaycan türkcəsində toplanılıb sonra rus dilinə tərcümə edilmiş materiallara necə yanaşmaq məsələsi qarşımızda mühüm bir çətinlik kimi dururdu. Hər halda, qarşımızdakı mətn rus dilinə tərcümə edilmiş və ədəbi üslubda nəşr edilmiş Azərbaycan folklor mətni idi. Sonda məhz bu amil həlledici rol oynadı. Təqribən 135 il bundan əvvəl Azərbaycan türkcəsində toplanılıb yazıya alınmış və rus dilinə tərcümə edilmiş bu folklor mətnlərini yenidən dilimizə tərcümə etmək qərarına gəldik, düşündük ki, bu əsərlərin folklor məkanında yenidən dövriyyəyə buraxılması burada onların orijinallarının üzə çıxmasına təkan verə bilər. Etiraf etməliyik ki, tərcümə əsnasında böyük çətinliklərlə qarşılaşdıq. Bu çətinliklər, əsasən, folklor mətnlərinin, xüsusilə nağıl mətnlərinin XIX əsr rus mətbuatına xas olan yüksək ədəbi, bədii üslubda olması, buradakı cümlələrin ağır, mürəkkəb quruluşları ilə bağlı idi. Bu səbəbdən nağılları tərcümə edərkən onların daxili quruluşuna, arxitektonikasına, süjetinə, motiv və epizodların sıralanmasına xələl gətirmədən həmin nümunələri bir qədər sadələşdirilmiş şəkildə tərcümə etməyə çalışdıq.

Çoxcildliyin 1-ci cildinin tərtibində toplunun nəşrindəki tarixi ardıcıllığı gözləməyə çalışdıq. Bu üsul digər cildlərin tərtib və nəşrində də gözləniləcək.

1-ci cildin tərtibində SMOMPK-un 1-ci, 2-ci, 3-cü, 5-ci, 6-

cı, 7-ci, 9-cu və 11-ci buraxılışlarındakı ayrı-ayrı Azərbaycan folklor örnəklərindən, bununla yanaşı, diyarşünaslıq, kulturoloji aspektdə yazılmış bəzi məqalələrdən də istifadə edilmişdir. İstifadə olunan məqalələrin başlığı, müəllifi və müvafiq topludakı yeri göstərilmişdir. Bu cildin tərtibində tərcümə üçün rus dilində olan Azərbaycan folklor materiallarını seçərkən həmin örnəklərin, hər şeydən əvvəl, folklorumuzun ümumi ruhuna, abhavasına uyğun gəlməsini göz önündə tutmağa, folklor və etnoqrafiya informasiyası daşımayan mətnlərdən faydalanmamağa çalışmışıq.

Çoxcildliyin növbəti cildlərindən biri Azərbaycan ərazisində yaşayan və folkloru Azərbaycan şifahi xalq ədəbiyyatının ümumi mənzərəsini, ayrılmaz hissəsini təşkil edən, onun folklor məkanının etnik-milli müxtəlifliyini, multikultural səciyyəsini göstərən azsaylı xalqlardan bəzilərinin SMOMPK-da yer almış materiallarına həsr ediləcəkdir. Artıq bu istiqamətdə müəyyən işlər görülməkdədir.

Çoxcildliyin bu və sonrakı cildlərində folklor mətnlərinin təqdim edilməsi şəklinə gəlincə, burada xronoloji prinsipə uyğun olaraq, əvvəlcə toplu buraxılışının sayı, ili, müəllifin və ya toplayıcının adı, mətnin başlığı (əgər örnək hər hansı bir məqalədən, yazıdan alınmışsa, həmin ilkin mənbənin adı) göstərilmişdir. Mətnin sonunda isə söyləyicinin adı (əgər varsa), toplanıldığı yer və yazıya alınma tarixi verilmişdir.

Ümid edirik ki, AMEA Folklor İnstitutunun bu nəşri oxucu marağına səbəb olacaqdır.

## 1-ci buraxılış, 1881-ci il

# ZELİNSKİ S. TATAR ATALAR SÖZLƏRİ, MƏSƏLLƏRİ, TAPMACA VƏ QADIN ADLARI

## I. ATALAR SÖZÜ VƏ MƏSƏLLƏR

1 Cins cinsə əsər eyləməz.
2 Xeyir Allahdan, şər şeytandan.
3 Artıq tikə baş yarar.
4 Nə doğrarsan aşına, o çıxar qaşığına.
5 İştaha diş altında olur.
6 Heç kəs öz ayranına turş deməz.
7 Eşidib parağı qırxarlar, amma bilmir necə qırxarlar.
8 Yetimi nə döy, nə söy, başına vur, çörəyini al əlindən.
9 Heç yatanın dalısınca oyaq olmasın.
10 Xasiyyətini bilmədiyin atın quyruğunu əlləmə.
10 Ağız ilə plov olmaz, yağnan düyü gərək.
11 “Halva, halva” deməklə ağız şirin olmaz.
12 İstək gözdə olur.
13 Sirrini dostuna demə, o da öz dostuna deyər.
14 Doğan tavuq doğmaz övrətdən yaxşıdır.
15 Nə əkərsən, onu biçərsən.
16 Evi tikilmiş al, övrəti bilmiş.
17 Dəli dəlini görəndə çomağını gizlər.
18 Dəvədən böyük fil var.
19 Bugünkü işini sabaha qoyma.
20 Qonaq özgə evində səliqəli olur.
21 Ağıllı düşmən, nadan dostdan yaxşıdır.
22 Taylı tayını tapmasa, günü ah-vayla keçər.
23 Hər zadını bab ilə görən desin habelə.
24 Ucuz ətin şorbası olmaz.
25 Ucuzdan baha zad olmaz.

26 Nisyə içən iki dəfə keflənər.
27 İtin axmağı qayqanaqdan pay umur.
28 İstədi qaşını düzəldə, vurdu gözünü çıxartdı.
29 Oynaşa ümüdlü olan ərsiz qalar.
30 Qonşuya ümüdlü olan şamsız yatar.
31 Lüleyinə verə-verə aftaba pulu çıxar.
32 Dişin ağrır, çək qurtul, qonşun pisdir, köç qurtul.
33 Ağıllı fikir edincə dəlinin oğlu olar.
34 Meşədə yemişin yaxşısını ayı yeyər.
35 Meşə çaqqalsız olmaz.
36 Bildirçinin bəyliyi darı sovulanadəkdir.
37 Dəvəçi ilə dost olan darvazasını uca edər.
38 Xəlvətdə halva yeyənin sirrini Allah bilir.
39 Pinəçinin mayası iynə və bizdir.
40 Susuz it kəhrizə baxar.
41 Ac toyuq yuxusunda darı görər.
42 Dəyirmanın yaraşığı torba, çuvaldır.
43 İtlə yoldaş ol, amma ağacını əldən qoyma.
44 Sabahın naharı bədənin mismarıdır.
45 Bir gül ilə bahar olmaz.
46 Ot kökü üstə bitər.
47 Axtaran tapar.
48 Bir qazanda iki kəllə qaynamaz.
49 Bir evdə iki hava olmaz.
50 Utanmasan oynamağa nə var?
51 İlan vurmuş ipdən də qorxar.
52 İlan vurmuş yatmaz.
53 İlan hər yerə əyri gedər, amma öz yuvasına düz.
54 Yoldan çıxmaq eyib deyil, yola gəlməmək eyibdir.
55 Ərsiz övrət çilovsuz at.
56 Toyun yaraşığı oynamaq, təziyəninki ağlamaqdır.
57 Quş quş ilə tutulur.

58 Bəy verən atın dişinə baxmazlar.
59 Keçinin qoturu bulağın gözündən su içər.
60 Dərə xəlvət, tülkü bəy.
61 Yük əyməsə, daş qəribliyə düşməz[1].
62 Atın ölməyi itin bayramıdır.
63 Daş düşdüyü yerdə ağır olur.
64 Başın yekəliyi dövlət, ayağın yekəliyi nikbətdir.
65 Göz görməz, üz utanmaz.
66 Kəsik baş danışmaz.
67 Uzunsaqqal axmaq olur.
68 Yağışdan götürüb növdan altına qoydu.
69 Dəyirman bildiyini eylər, çaq-çaq başını ağrıdar.
70 İt yediyini qusar.
71 Ayrana getməyə utanmaz, çanağını dalında gizlədər.
72 Dəli dəlini görəndə xoşuna gələr.
73 Xoruz olmasa, sabah açılmaz.
74 İt hürər, karvan keçər.
75 İt qursağı yağ götürməz.
76 Söhbətin şirin yerində moltanı gəldi: “Allah saxlasın!”
77 İtin dişi, donuzun dərisi.
78 Qız alanın bir çuval ya qızılı gərək, ya bir çuval yalanı.
79 Tavuq bir su içər, bir də Allaha baxar.
80 Gül xarsız olmaz.
81 Naəhlin başmağını qoyanda deyər: “...gözümü çıxartdı”.
82 Malını yaxşı saxla, qonşunu oğru tutma!
83 Hər yoxuşun bir enişi olur.
84 Cücəni payızda sayarlar.
85 Siçandan olan torba kəsən olur.
86 Əl-əli yuyar, əl də dönüb üzü yuyar.
87 Samanın tüstüsü göz çıxarar.

[1] Yükün tərəfləri ağırlıq cəhətdən bərabər olmadıqda, yüngül olan tərəfə daş qoyurlar, yük boşaldılan yerdə həmin daşı bir tərəfə atırlar.

88 Sürü çobansız olmaz.
89 Gülün qədrini bülbül, pencərin qədrini erməni bilir.
90 Oddan kül, küldən od.
91 İlan ulduz görməsə, ölməz.
92 İt itin ayağını basmaz.
93 Ağıllıya işarə, nadana kötək.
94 Unu əlində duyarsan.
95 Anlayan bir qıldan anlar.
96 Adamın yavan çörəyi özgənin plovundan yaxşıdır.
97 Balığın ölümü sudan çıxmağıdır.
98 Heyvası yox, narı yox, görən desin Şahbudağın bağı var[1].
99 İtin başını xonçaya qoyanda diyirlənib düşər.
100 Min dost az, bir düşmən çoxdur.
101 Hər oxuyan Molla Pənah olmaz.
102 Dövlətliyə: "Bəli!", kasıba: "Dəli!"
103 Hər atasının gözünü çıxardana "Koroğlu" deməzlər.
104 Qızıldan çarıq geysən, yenə adı çarıqdır.
105 Ölmüş inək südlü olur.
106 Kənd aşırı it hürməz.
107 Toxum götür, yer axtar.
108 Gördün yemək, dəxi nə demək.
109 Almadığın heyvanın quyruğundan tutma!
110 Gəzən ayağa daş dəyər.
111 Cəhd eylə dost qazan, düşmən ocaq başındadır.
112 At təpiyinə at tablaşar.
113 Tovuq durub qaz yerişi yerisə, çeçənəgi ayrılar.
114 Hər saqqaldan bir tük çəksən, kosa da saqqallı olar.
115 Xalqın ağzını bağlamaq olmaz.
116 Bir əl ilə iki qarpuz saxlamaq olmaz.

---

[1] Tiflis-Culfa tranzit yolundan solda Baş Noraşen və Sədərək stansiyaları arasında nə vaxtlarsa guya Şahbudaq adlı bir qəribə adam tərəfindən salınmış bağın xarabalıqları vardır.

117 Qurd qaranlıq sevər.
118 Kor atın, kor da nalbəndi olar.
119 Doğru söz acı olur.
120 Süd ilə girən can ilə çıxar.
121 Eyibsiz dost axtaran dostsuz qalar.
122 Gözdən uzaq olan ürəkdən də uzaq olur.
123 Dəli qırmızı sevər.
124 Ağacı içindən qurt yeyər.
125 Adamın başına nə gəlsə, dilindən gəlir.
126 Dəmir qapının taxta qapıya ehtiyacı olur.
127 Əməl azmasa, qada yeriməz.
128 Eyibsiz gözəl olmaz.
129 Hürüşünü bilməyən köpək önünə qurd gətirər.
130 Kasıb xərcini bilsə, gündəliyinə məxmər geyər.
131 Dəvə oynayanda qar yağar.
132 Camadarın şahlığı hamamçılıqdır.
133 Oğru hamını oğru bilir.
134 Özünə umac ova bilməz, özgəyə əriştə kəsir.
135 Heç kəsin çırağı sabahadək yanmaz.
136 Dərdli adam çox danışar.
137 Saqqız çiynənəndə çürür.
138 Kənd koxasız olmaz.
139 Yavaş gedən yorulmaz.
140 Ya dağ ətəyində, ya bəy ətəyində.
141 İnsan öz-özünə eylədiyini aləm yığılıb ona eyləyə bilməz.
142 Axmaq özünə düşməndir, özgəyə necə dost olar?
143 Hər zadın tazəsi yaxşı olur.
144 On dəfə ölç, bir dəfə biç.
145 Yekə başın faydası yoxdur, içində beyin gərək.
146 Bir tikəni bilməyən, min tikəni də bilməz.
147 Məsləhətli don gen olar.

148 Ac donuz darıdan çıxmaz.
149 Pişiyin əli ətə yetişməz, deyər ki, qoxuyubdur.

## II. TAPMACALAR

1. Dəryada bir gül bitib, adı yox,
   Şirinlikdən yemək olmaz, dadı yox.

   **(Uşaq)**

2. Bu gün çərşənbədir
   Qəlbimə düşən nədir,
   Dəraydan tüstü qalxır,
   İçində bişən nədir.

   **(Qəlyan)**

3. Ay gedər, il gedər,
   Gecə-gündüz yol gedər.

   **(Su)**

4. Yerir, yerir, izi yox,
   Dərə-təpə, düzü yox.
   Yayda, qışda balalar,
   Dərisi var, tükü yox.

   **(Cilov)**

5. Otuzunda nadan olur,
   On dördündə kamala yetər.

   **(Ay)**

6. Bir qutum var: firəngi
   Özü açılır, özü bağlanır,
   Heç kəs bilməz onun fəndini.

   **(Fikir)**

7. Hacılar həccə gedər,
Cəhd eylər gecə gedər.
Bir yumurtanın içində
Qırx-əlli cücə gedər.

**(Nar)**

8. Bazarda tapılmaz.
Tərəzidə çəkilməz.

**(Yuxu)**

9. Dağdan gəlir dağ kimi,
Qolları budağ kimi.
Əyilib su içməyə,
Bəyirir ulaq kimi.

**(Araba)**

10. Üçü bizə yağıdır,
Üçü cənnət bağıdır,
Üçü yığar, gətirər,
Üçü vurar, dağıdar.

**(İlin fəsilləri)**

11. Sarıdır, zəfəran deyil,
Yazıdır, Quran deyil.

**(Qızıl sikkə)**

12. Bir balaca boyu var.
Dərayidən donu var.

**(Pəşat[1])**

13. Qara toyuq
Qarnı yarıq.

**(Buxarı)**

[1] Eyni adlı kolun meyvəsi.

14. Bizim evdə dörd gəlin var,
Dördü də bir boydadır.

**(Otağın küncləri)**

15. Quyruğu ilə su içər
Dimdiyi ilə balalar.

**(Buğda)**

16. Yaşıl əkdim, al biçdim.

**(Xına)**

17. Suya girdi dağıldı,
Sudan çıxdı yığıldı.

**(At quyruğu)**

18. Otuz iki qoşunun bir sərkərdəsi var.

**(Dil və dişlər)**

19. Bir bölük atlar çəməndə otlar,
Vaxtı gələndə dimdikləri çatdar.

**(Pambıq qozası)**

20. Bir tabaq alma sabaha qalmaz.

**(Ulduzlar)**

21. Baldan şirindir, yemək olmaz.

**(Yuxu)**

22. Uzun uzun uzanar,
Həftədə bir bəzənər.

**(İp)**

23. Yaş girər, quru çıxar.

**(Çörək)**

24. Zir kilim, zəncir kilim,
Götürə bilmərəm, ağır kilim.

**(Torpaq)**

25. Göy və yer onun içindədir.

**(Göz)**

26. Yerə vurdum, qırılmadı,
Daşa vurdum, qırılmadı,
Suya saldım, qırıldı.

**(Kağız)**

27. Qazan asdım, quyruq saldım,
Qazan əridi, quyruq qaldı.

**(Uzunboğaz çəkmə və ayaq)**

28. Atdım atana, dəydi kotana,
Dəryada balığa, çöldə ceyrana.

**(İldırım)**

29. Min-min minarə,
Dibi qarə,
Yüz min çiçək bir yarpaqda.

**(Ay və ulduzlar)**

30. Bu yanı daş, o yanı daş
İçində qırx-əlli baş.

**(Hamam)**

31. Aləmi bəzər,
Özü lüt gəzər.

**(İynə)**

32. Başında tabaq, əlində cida, osmanlı deyil,
Qələmləri qırıldar, qurbağa deyil.

**(Qəlyan)**

33. Bir quşum var, iki qanadlı,
Ha uçar, yenə yerindədir.

**(Qapı)**

## III. QADIN ADLARI

Əfruz
Anaxanım
Bibixanım
Bəyim
Bülbül
Kişvər
Gülzar
Gülrux
Güllü
Gövhər
Gözəl
Cəvahir
Dilbər
Zərli
Zərrintac
Ziynət
İmmi
Leyli
Leyla
Lalə
Laləbəyim
Məleykə
Nazlı
Məhbubə
Nabat
Nübar
Püstə
Pəri
Ruqiyyə
Sənəm
Səlbi
Sona
Səadət
Səkinə
Səltənət
Sara
Tutu
Telli
Tərlan
Tavus
Füruzə
Fəxrənsa
Fəxrintac
Xanımcan
Həvva
Həcər
Xurşid
Xatun
Şeyda
Şirin
Şeyrəbanu
Şövkət

## 2-ci buraxılış, 1882-ci il.

## ERMƏNİ XALQ AŞIĞI VARTAN XOYSKİNİN NƏĞMƏSİ (Yazıya alan və tərcümə edən: S.Zelinski)

### Tərcüməçidən bir neçə söz

Tatarların (türklərin və iranlıların) Ermənistandakı dördəsrlik hökmranlığı buradakı ermənilərin həyat tərzində dərin izlər buraxmışdır. O nəinki onların ənənələrinin xarici şəklini, ailə və ictimai həyatlarını xeyli dəyişdirmiş, həmçinin onların mənəvi həyatlarına və dillərinə də təsir etmişdir. Ermənistanın bəzi yerlərində ermənilər öz doğma dillərini tamamilə unutmuşlar və tatarca danışmağa başlamışlar, erməni ləhcələrinin qaldığı yerlərdə isə çox sayda tatar sözləri, ifadələri, atalar sözləri və məsəlləri işlənməyə başlanmışdır. Zaman keçdikcə ermənilər tatar dili ilə o qədər yaxınlaşdılar ki, hətta öz xalq nəğmələrini oxumaqdan vaz keçərək məmnuniyyətlə tatar nəğmələrini dinləməyə başladılar. Bunun nəticəsi olaraq aşıqlar (xalq nəğməkarları) hətta tatar dilində nəğmələr yaratmağa, yazmağa və oxumağa başladılar. Erməni nəğmələrini tatarca oxumaq adəti Ermənistanda elə güclü kök saldı ki, indinin özündə belə analar, məsələn, öz uşaqlarını tatar nəğmələri ilə lay-lay çalıb yatırırlar, toy, xaç suyuna salmaq münasibəti ilə təşkil edilən qonaqlıqlar və s. kimi ictimai yığıncaqlarda nəinki tatarca oxuyurlar, hətta lətifələr, nağıllar və müxtəlif zərbi-məsəllər danışır, nəql edirlər.

Tatar-erməni nəğmələrinin repertuarı yetərincə müxtəlifdir. Sevgi qəhrəmanlarının müxtəlif macəraları, şərq fəlsəfəsi və i.a. çox vaxt bu nəğmələrin mövzusunu təşkil edir. Həmin nəğmələr avropalılar üçün maraq doğurur, çünki Şərqin mənəvi həyatı ilə tanışlıq üçün zəngin material verməkdədir. İn-

san həyatının bütün mərhələlərinin yetərincə aydın surətdə təsvir edildiyi qədim nəğmələrdən birinin oxuculara maraqlı olacağını düşünərək təqdim edirəm:

Əvvəl başdan bu dünyaya gələndə,
Xudadan əmr oldu düşdüm ərkana.
Anamın rəhmində qaynayıb bitdim,
Buruluban döndüm bir qətra qana.

Doqquz ay, doqquz gün, doqquz saatda,
Baş yazım yazıldı qüdrəti-xəttatdan.
Gördüm dəxi sıxışmənəm bu həddə,
Vədəm tamam oldu, gəldim cahana.

Cahana gələndə gəldi bir qoca,
Azacıq üstümə duz səpdi barı,
İki şamamadan əmdim nübarı.
Yengi bildim ki, gəlmişəm cahana.

Ayın, günün şövqü düşdü yüzümə,
Şad oluban güldüm özüm-özümə,
Ağlamaq pərdəsi çəkdim yüzümə,
Həm gecə, həm gündüz incitdim, ana.

Kirvəm məni qucaqlayıb götürdü,
Götürübən kəlisayə yetirdi,
Keşiş məni isti suya batırdı,
Zəmzəm suyu anında qoydu nişanə.

Bir yaşında çiçəgə bənzər idim,
Yaş yarımda dört ayağlı yeridim.
Palçıqda, torpaqda canım sürüdüm,
Nə ögütə baxdım, nə yalvarana.

İki yaşda su istədim, içmədim,
Böyük, kiçik bir-birindən seçmədim,
Daşdan və atəşdən, sudan qaçmadım.
Nadanlıqdan dönmüş idim sultana.

Üç yaşında döndüm açılmış gülə.
Açılıban dilim döndüm bülbülə.
Gələn, gedən istər dindirə, gülə,
Şirin dilim oxşatdılar bal şanə.

Dört yaşında ofsarını çiynədim,
Beş yaşında bir azacıq qaynadım.
Altısında yaş daşımla oynadım,
Səkkizində su tək axdım hər yana.

On yaşında uşaqlıqdan ayıldım,
Böyük-kiçik arasında bir az sayıldım.
Eşq oynadı, hər tərəfdən yayıldım,
Görən dedi: bu nə dəli-divanə.

On birində yedim ağıl nübarı,
On ikidə fəhm eylədim hünəri,
On üçündə, itirmədim dinarı,
On dördündə istədim ad qazanam.

On beşində bədirlənmiş ay oldum,
Atama, anama külli hay oldum,
Belim qüvvətləndi, qatı yay oldum,
Dönmüş idim şişəgi cavana.

İgirmi yaşında sərimdən keçdim,
Könül havalandı, qaynadım, coşdum,

Qolum qüvvətləndi, həddindən aşdım,
Güclənib, zərlənib döndüm aslana.

Otuzunda heç kimsəni saymadım,
Mərdlik etdim, namərdligi duymadım.
Qisasımı heç kimsədə qoymadım.
Hər nə iş tutdum mərdi-mərdanə.

Qırx yaşında bənz kimi quruldum,
Eşqdən usandım, yardan yoruldum.
Sel təkin bulanıb, yem tək duruldum,
Dalğam yatdı, dəxi gəlməz çalxana.

Əllisində bir az keyfim pozuldu,
Ömrüm damarları bir-bir sarsıldı,
Bir ayağım pilləkandan üzüldü,
Onda bildim dünya qalmaz insana.

Altmışında keçdi qılçım sovu,
Çox çalışdım, ala bilmədim ovu,
Naçarlıqdan genə çəkərdim dav,
Güc keçmədi, dostluq saldım düşmənə.

Yetmişində ağrı məni çevirdi,
Yığdı bənd bərim, sinəm qovurdu.
Yandırdı küləşim, gülüm sovurdu.
Diş ağrısı gətdi məni amana.

Səksənində oğul sözüm tutmadı,
Qohum-qardaş mənə kömək etmədi.
Könül istər yer, ayaq getmədi,
Gedəndə dəyərdi bu yan, o yana.

Doğsanında əcəl gəldi asıldı,
Yüz yaşında lap nəfəsim kəsildi.
Bürc kimi bədənim yerə basıldı,
Can getdi, cəsəd də qaldı virana.

Can cəsəd ilə halallaşıb ayrıldı,
O yol üstə çox bəndələr var idi.
Məlayikələr onda mənə yar idi,
Nə zülümlər çəkib keçdim o yana.

Əvvəlində rübəmi tamam soydular,
Qohum-qardaş ağladılar doydular,
Beş arşın ağ içrə məni qoydular,
Apardılar, tapşırdılar zindana.

Xeyir və şər kitabın ələ aldılar,
Oxuyuyuban yaxşı-pisi bildilər,
Cənnətə və cəhənnəmə böldülər,
Apardılar hərəmizi bir yana.

Xoylu Vartan qoy dildə əzbər olsun,
Eşidənlər hamı xəbərdar olsun,
Qəni Mövlam hər kimsəyə yar olsun,
Olar sədəqəsindən Xoylu Vartana.

Mal ki var, əmanətdir insana,
İnsan ki var, əmanətdir dünyaya.
Əbləh odur, dünya üçün qəm yeyə,
Kim bilməz ki, kim qazana, kim yeyə.
Nə Haruna qaldı dövlət, nə təxti-Süleymana.

***İrəvan. 1881-ci il.***

# NİKİTİN K.A. NAXÇIVAN QƏZASINDA XALQ RƏVAYƏTLƏRİ

## 1. İLANDAĞ HAQQINDA ƏFSANƏ

Naxçıvan şəhərindən şimali-şərqdə, ondan 18-25 verstlik məsafədə, Araza bitişik düzənlikdə bir-birinə yaxın olan üç dağ – İlandağ, Əshabi-kəhf və Nəhacir dağ yüksəlməkdədir. Onlardan birincisinin zirvəsi iki yerə parçalandığından, gözəl şəkli var, yerdə qalan iki dağ isə öz şəkli etibarı ilə heç bir maraq doğurmur. Bu dağlarla bağlı Naxçıvan qəzası ermənilərinin yaddaşında bir neçə əfsanə qalmaqdadır.

...Belə əfsanələrdən biri İlandağ haqqındadır. Bu dağın haçalanmış zirvəsi onun vulkanik mənşəyi ilə bağlı olaraq haqqında danışılan bu əfsanəyə başlanğıc vermişdir.

Əfsanədə deyilir ki, Ararat dağında qiymətli tacla bəzənmiş padşah yaşayır. Burada həmçinin müxtəlif qanadlı əjdahalar da yaşayır. Hər yeddi ildən bir Padşah-ilana tabe olan ilanlar İlandağa onun hüzuruna gəlirlər.

Bir dəfə çox qədimlərdə Padşah-ilan öz arabasında gəzmək fikrinə düşür. O, yolda bir dağa rast gəlir, araba dağın zirvəsini iki yerə böldü. Elə o vaxtdan bu hissələr yenidən bir-birinə bitişmir.

İlandağ haqqında digər əfsanə tufan zamanına gedib çıxır. O vaxtlar yer üzü hələ su ilə örtülü olduğu vaxt Nuhun gəmisi gecə vaxtı bu yerdən üzüb keçərkən dağa toxunub. Zərbə o qədər güclü olub ki, dağ ikiyə bölünüb, gəmiyə də böyük zərər dəyib, Nuh hirsindən bu dağı lənətləyib, ilan və əjdahaların bu dağda yaşamalarını əmr edib.

Əfsanədə deyilir ki, elə o vaxtdan dağ haçalanmış qalıb, müxtəlif nəhəng həşəratlar buranı özlərinə məskən etmiş, dağ isə İlandağ adlanmağa başlanmışdır.

Nuhu mömin insan olaraq tanıyan müsəlmanlar deyirlər ki, gəmisi İlandağın zirvəsini iki yerə kəsib ayırdıqdan sonra istehza ilə dedi: "İnan ki, bu dağ!" Bu tatar sözlərinin rus dilinə tərcüməsi belə bir məna kəsb edir: "поверьте что и ето гора!" Tatar dili biliciləri belə şərh edirdilər ki, Nuh bununla demək istəmişdir ki, İlandağ nə qədər də çox kiçikdir, lakin o özünü göstərmək istəmiş və gəminin suda üzməsinə mane olmaq istəmişdir. Buna görə də dağ keçmişdə, bəzən də indi də "İnan Dağ" adlanır. (Qafqaz ölkəsinin 1830-40-cı illərdə nəşr edilmiş qədim xəritələrində bu dağ "İnan Dağ" adlandırılmışdır).

## 2. ƏSHABİ-KƏHF DAĞI HAQQINDA ƏFSANƏ

Əshabi-Kəhf dağı İlandağı ilə Nəhacir dağının ortasında yerləşir, çox qədim zamanlardan bəri bu dağ haqqında qəribə hekayətlər, əhvalatlar yaranmışdır.

Çox qədimlərdə Naxçıvan şəhərində Daqyanus adlı bir padşah var idi. Bir dəfə bu padşah öz xalqına elan etdi ki, o, yalnız padşah deyil, həm də Allahdır və xalqına əmr etdi ki, ona Allah kimi ehtiram göstərsin. Xalqın ona tabe olmaqdan və onu Allah kimi tanımaqdan başqa bir çarəsi qalmamışdı.

Lakin aralarında Təmliha adlı bir nəfərin də olduğu əsilzadə mənşəli altı nəfər onu Allah kimi tanımaq istəməyərək və şəhərdə qalmaqdan qorxaraq öz aralarında belə qərara gəldilər ki, başqa şahlığa qaçsınlar.

Gecə Təmliha və onun beş yoldaşı gizlicə şəhərdən çıxdılar və ertəsi günün axşamı bir təpənin yanına gəlib çatdılar, burada onlar dincəlmək və aclıqlarını yatırmaq üçün atlarından yerə endilər. Onlardan bir qədər aralıda qoyun sürüsünü otaran bir çoban var idi. Qaçqınların yemək-içmək azuqəsi olmadığından onlar çobandan xahiş etdilər ki, yemək üçün onlara nə isə versin.

– Sənin yeməyə çörəyin varmı? – onlar çobandan xəbər

aldılar.

Çoban cavab verdi:

– Vardır.

Çoban yeməyə nəyi var idisə, onlara verdi. Padşahdan qaçmış altı nəfərlə görüşəcəyi haqda mələk tərəfindən öncədən xəbərdar edilmiş çoban xəbər aldı:

– Məgər siz Daqyanusdan qaçmış adamlardan deyilsinizmi?

– Sən niyə belə düşünürsən? Sən bizi necə tanıdın? – tanınmaqdan təəcüblənmiş və qorxuya düşmüş qaçqınlar ondan xəbər aldılar.

Lakin çoban onların narahatçılığını sezib söylədi ki, onların burada olacaqlarını öncədən bilirdi və onlara qoşulmaq üçün burada gözləyirdi, çünki o da onların etiqadlarını bölüşdürür və Daqyanusu Allah olaraq qəbul etmir. Qaçqınlar çobanı da öz sıralarına aldılar. Çoban qoyun sürüsünü sahibinə təhvil verdi. O, yeni yoldaşlarının yanına geri dönəndə ona yan alan bir qırmızı itə rast gəldi və it də onunla qaçqınların yanına gəldi.

Qaçqınlar iti gördükdə qorxu içində qışqırışdılar: “O haradan bura gəldi? Onun bizim aramızda olmağı təhlükəlidir, o hürüşü ilə bizi ələ verər, bizi məhv edər”.

Sonra onlar onu qovmağa başladılar, lakin bütün ciddi-cəhdləri boşuna getdi, nə qədər çalışdılarsa, o getmirdi. Nəhayət, qırmızı it adam səsi ilə danışdı:

– Siz niyə məni qovursunuz? Mən bilirəm siz kimsiniz, mən bilirəm ki, siz təhlükədəsiniz və buna görə də kimsə sizi qorumalıdır. Mən bura sizə sədaqətlə xidmət etmək üçün, sizi qorumaq üçün gəlmişəm, mən getməyəcəyəm, mən sizin keşikçiniz olacağam, sizin keşiyinizi çəkəcəyəm.

Qırmızı itin sözləri hamının xoşuna gəldi və qaçqınlar sevinə-sevinə ovçu iti öz yanlarında saxladılar.

Digər bir rəvayətə görə, it kimlər tərəfindənsə öldürül-

müşdü, onun basdırıldığı yerə çoban öz çomağını sancmış və həmin anda çomaqdan bir ağac böyüyüb qalxmışdı. Deyilənə görə, o ağac bu vaxtadək mövcuddur.

Bu yerdə uzun vaxt qalmaq təhlükəli idi. Buna görə də naxçıvanlı qaçqınların altısı da çoban və itlə (birinci rəvayətə uyğun olaraq) burada qalmayıb öz yollarına davam etdilər.

Yolda onlar dağ gördülər, ona yaxınlaşdılar və dağda bir mağaraya rast gəldilər, lap yaxınlığında bulaq var idi. Mağaraya giriş ağaclıq və əsasən də meyvə ağaclarından ibarət olan bağ ilə örtülmüşdü.

Yer o qədər gözəl idi ki, yolçuların böyüyü Təmliha dedi:

– Bundan gözəl sığınacaq tapa bilmərik.

Onların altısı da dincəlmək üçün mağaraya girdilər. Bu vaxt Allahın göndərdiyi yuxu mələyi gəldi və özünün enli qanadlarını açdı, qanadları ilə onların üstünü örtdü və onları yatırtdı. Onlar mağarada dərin ölüm yuxusu ilə yatdılar.

Bu arada Daqyanus padşah öyrəndi ki, Təmlihanın başçılığı altında onun altı təbəəsi ona Allah olaraq ehtiram etmək istəməyərək şəhərdən qaçıblar və indi mağarada gizlənirlər.

Özünü Allah adlandıran öz hakimiyyətinə qarşı öz təbələrindən açıq müqavimətlə qarşılaşmayan padşah qorxuya düşdü. O, ötkəmləri cəzalandırmaq üçün döyüşçülərini götürüb mağaraya tərəf yola düşdü. Gəlib mağara çatdı və nə gördü?

Qaçqınlar mağarada dərin yuxu içində yatırdılar. Mağaranın girişində alov saçan qılınclarla silahlanmış döyüçşü mələklərdən dəstə dayanıb, qılıncları yellədərək adi insanlardan heç kimi mağaraya yaxınlaşmağa imkan vermirdilər.

Padşah həqiqi Allahın bu qorxunc əzəməti qarşısında özünü itirdi, tabe oldu, boyun əydi və fikirləşdi "Mən haradan Allaham, hamı kimi mən də insanam, mağarada yatan, Allahın özü və mələkləri tərəfindən qorunan bu adamlar adi adamı Allah olaraq tanımaq istəməməklə ədalətli hərəkət etmişlər.

Padşah heyrət içində olan və qorxudan donub qalmış döyüşçülərə üzünü tutub dedi:

– Bunlar müqəddəs insanlardırlar.

Sonra o, mağaraya yaxınlaşdı, daşlarla oranın girişini bağladı və dedi:

– Allah uzun əsrlər boyunca sizi qorusun!

Padşah gördüyündən heyrətlənmiş halda çıxıb getdi və həmin saat özünə Allah kimi ehtiram göstərilməsi haqqında olan əmrini ləğv etdi. Bu işin üstündən üç yüz doqquz il keçdi.

Bu müddət ərzində mələk ildə bir dəfə mağaraya uçub gəlirdi.

Üç yüz onuncu il gəlib çatdı. Tutqun bir gün idi. Göy üzü qara buludlarla tutulmuşdu. Günəş gizlənmişdi. Birdən dəhşətli qorxunc ildırım guruldadı, çox güclü qasırğa əsdi. Qasırğa mağaraya girdi, Təmliha və onun yol yoldaşlarını üç əsrlik dərin yuxudan oyatdı. Onlar mağaradan çıxdılar və nə gördülər? Nə bulaq vardı, nə də mağaranın girəcəyindəki meşə və ağaclıq. Bu nə deməkdir? Dünən onlar burada yıxılıb yatmışlar, vur-tut bir gecə keçmiş, amma birdən belə dəyişiklik baş vermişdir! – onlar düşündülər.

Onlar belə düşünüb təəccübləndilər, üç əsrdən çox yatdıqlarını belə güman etmədilər.

Təmliha acdıqlarını hiss etdikdə yoldaşlarına tez geri dönəcəyini deyib, şəhərə çörək almağa yola düşdü.

O, şəhərə gəlib çatdı və bazarda öyrəndi ki, Daqyanus ölüb və indi burada müsəlman və xaçpərəst padşah vardır. Şəhərin qapısının üstündə “Allahdan başqa ilah yoxdur!” yazılmış bayraq asılmışdı.

Bazarda, meydançalarda, küçələrdə, ümumiyyətlə, hər addımda Təmlihanın heyrət və təəccübü artırdı, hər addım böyük dəyişiklik görürdü. “Bu nə deməkdir? ”İki gün bundan əvvəl mən burada idim, onda bir şey görürdüm, indi isə başqa

bir şey görürəm. Hətta heç bir tanışla belə rastlaşmamışam! Xalq da elə bil başqadır. Mən bütün bunları yuxudamı görürəm, mən hardayam?” – Təmliha düşünürdü.

Təmliha özünə çoxlu suallar verir və onların heç birinə cavab tapa bilmirdi. Bu şəkk-şübhələr içində istər-istəməz o, öz vəziyyəti ilə razılaşdı və nəhayət, ac yoldaşlarının onun yolunu gözlədiklərini xatırladı, çörək satılan yerə gəldi. Satıcıya xırda gümüş verib çörək istədi. Çörək satan sikkənin üzərində padşah Daqyanusun təsvirini görüb Təmlihadan xəbər aldı:

– Bu nə puldur? Sən bunu haradan götürmüsən? Sən yəqin padşah Daqyanusun xəzinəsini tapmısan?

– Mən üç gün bundan əvvəl burada gilas satmışam və bunun müqabilində bu pulu qazanmışam, – Təmliha cavab verib getmək istədi.

– Yox, mən səni buraxmayacağam. Sən bu sikkəni haradan götürdüyünü deməlisən. Sən bilirsən ki, Daqyanus padşah üç yüz il bundan əvvəl ölmüşdür və üzərində onun təsviri olan sikkələr artıq çoxdandır ki, dövriyyədə yoxdur. Deməli, sən bu padşahın xəzinəsini tapmısan və onu özündə gizlədirsən. Gedək padşahın yanına o, bu məsələni ayırd edər.

Təəccüblənmiş və karıxmış Təmlihaya tabe olmaqdan başqa bir şey qalmadı.

Onlar padşahın yanına gəldilər. Çörək satan padşahı məsələdən agah etdi, o, gümüş sikkə məsələsini padşaha xəbər verdi və belə bir ehtimal da irəli sürdü ki, çox güman ki, Təmliha ölmüş Daqyanus padşahın xəzinəsini tapıb.

Müsəlman padşah dedi:

– Təmliha, qorxma, həqiqəti aç, söylə. Yəqin sən bilmirsən ki, qanuna görə sən tapdığının yalnız beşdən birini mənim xəzinəmə verməlisən, qalan hissə isə sənindir.

Təmliha and içir və padşahı inandırır ki, o, heç bir padşah xəzinəsi tapmamışdır və bu çörək satanın yalnız gümanı və

uydurmasıdır.

Onda padşah ona dedi:

– Şəhərdə tanıdığın adamların adlarını mənə söylə, əgər onlar təsdiq etsələr ki, sən yaxşı adamsan və sənin heç bir yaramaz hərəkətini şahidi olmamışlar, onda mən səni sərbəst buraxacağam.

Təmliha mindən çox adamın adını bir-bir saydı. Təəccüblü idi ki, onun adını çəkdiyi adamlardan heç biri sağ deyildi, o hər dəfə hər hansı bir adamın adını çəkdikdə bir cavab eşidirdi. "Ölmüşdür, ölmüşdür, ölmüşdür". Padşah və onun adamlarını son dərəcə heyrətləndirən o idi ki, o yalnız ölmüşlərin adlarını çəkirdi, bir nəfər də olsun həyatda olanın adını çəkməmişdi.

Padşah Təmlihadan xəbər aldı:

– Sənin evin haradadır?

Təmliha dedi:

– Buradadır. Mən Daqyanus padşahın ən yaxın adamlarından biriyəm, əgər istəsə mən ona öz evimi göstərərəm və əgər padşah mənə şərəf göstərib evimi ziyarət etsə, mən çox şad olaram.

Padşah mühafizəçiləri və yaxın adamlarının müşayiətində göstərilən evə getdi. Qapını döydülər, amma heç kim açmadı, qapını sındırıb içəri keçdilər..

Evin həyətində çox qorxunc bir kişiyə rast gəldilər. Padşah üzünü kişiyə tutub dedi:

– Bax, bu adam deyir ki, bu ev onundur.

Təmliha dedi:

– Bəli, bu babamdan mənə miras qalmışdır.

Bunu deyib həmin saat otaqdan bir taxt lövhə çıxardıb gətirdi. Lövhənin üzərində başda Təmlihanın adı olmaqla Daqyanusdan qaçmış altı şahzadənin yazılmış adlarını oxuyaraq xəbər aldı.

– Təmliha kimdir?

– Mənəm, – Təmliha dedi.

Qoca Təmlihanın sözlərini eşidərək üzüqoylu düşərək Təmlihanın ayaqlarını öpüb, ağladı və dedi:

– Bu sənsən, mənim balam.

Bu vaxt şəhərdə iki padşah – xaçpərəst və müsəlman padşah hakimiyyət sürürdü.

Hər iki padşah Təmlihanın qalan yoldaşları ilə tanış olmaq üçün öz müşayiətçiləri ilə Əshabi-Kəhf dağına tərəf getdilər. Onlar artıq bu adamların kim olduqlarını, şəhərdən nə üçün qaçdıqlarını, üç yüz ildən yuxarı yatdıqları mağarada neçə xilas olduqlarını bilirdilər.

Hər iki padşah Əshabi-Kəhfə yaxınlaşdıqda Təmliha onlara dedi:

– Xahiş edirəm, burada gözləyin və mənə icazə verin ki, sizin gəlişiniz və görüşmək arzusunda olduğunuz barədə onları xəbərdar edim.

Padşahlar razı oldular.

Təmliha mağaraya daxil oldu, yoldaşları onu sorğu-suala tutdular, şəhərdə bu qədər çox qalmağının səbəbini xəbər aldılar. Yoldaşları dedilər ki, artıq onunla nə vaxtsa görüşəcəklərini güman etmirdilər. Elə düşünürdülər ki, o, Daqyanus tərəfindən tanınmış və öldürülmüşdür. Təmliha dedi:

– Qardaşlar, bizim bu mağarada olduğumuz vaxtdan bəri üç yüz doqquz il keçmişdir, bizə isə elə gəlir ki, bir gecə yatmışıq. Daqyanus padşahla bir xristian padşah hökm sürür. Onların hər ikisi buraya gəlmiş və sizinlə görüşmək arzusundadırlar. Bayıra çıxın!

Yoldaşları ona dedilər:

– Ey Təmliha, diqqətli ol, onlar bizi tutmaq və öldürmək istəyirlər. Allaha dua etməyə başlayaq və ondan xahiş edək ki, bizi həmişəlik yatırtsın!

Padşahlar Təmlihanın və onun yoldaşlarının mağaradan

çıxmasını çox gözlədilər, amma onlar mağaradan çıxmadılar. Onlar mağaraya girdilər və onları axtarmağa başladılar, lakin tapmadılar. Təmliha və yoldaşları möcüzəli bir şəkildə gözdən itmişdilər. Onda padşahlar başa düşdülər ki, onlar müqəddəs adamlar imiş və onlardan hər biri bu yerdə bir məbəd tikmək istədi.

Müsəlman padşah xaçpərəst padşahı qabaqlayıb burada məscid tikdirdi.

Əshabi-Kəhf dağının yanında tikilmiş məscid indi də mövcuddur.

Yazın və yayın əvvəlində müsəlman dindarlar, möminlər buraya gəlir, bu məsciddə dua edir, altı müqəddəs insanın şərəfinə qurban kəsirlər.

Əshabi-Kəhfin yaxınlığında Dəmçixana adlı bir dağ vardır. Bu mağaradakı su damcısını rəvayət belə izah edir.

Təmliha və onun dostları Əshabi-Kəhfdə yatdıqları zaman mağaranın girəcəyində olan bulaq möcüzəli şəkildə Dəmçixana dağına keçmiş və müəyyən vaxtlarda bu mağaradakı su damcılarına çevrilmişdir.

Naxçıvan tatarlarında belə bir inam vardır ki, öz taleyini bilmək istəyən hər bir kəs Dəmçixanaya getməli və oradakı mağaraya girib su damcısının başına damcıladığı vaxtadək orada dayanmalıdır. Damcının başına düşməsi həmin şəxsin arzusunun gerçəkləşəcəyi deməkdir. Əgər bu baş verməsə, nəzərdə tutulmuş işin uğurlu nəticəsini gözləməyə dəyməz.

## III. XƏSİS QARA ÇÖRƏK VƏ YEZİD TƏPƏSİ HAQQINDA RƏVAYƏT

Naxçıvan şəhərinin cənub-şərq qurtaracağında "Qara çörək" deyə ayamalanan bir xəsis erməni haqqında rəvayətlə bağlı yaranmış təpə vardır.

Başqa bir rəvayətə görə, bu təpə Yezidin nəslindən olan birisinin qəbri və ya təpəsi adlanır. O, Nuhun qəbrindən çox da uzaqda olmayan tatar qəbiristanlığının yaxınlığında yerləşir.

Birinci rəvayət aşağıdakıdır:

Bir zamanlar burada öz xəsisliyi ilə şöhrət qazanmış məşhur varlı adam yaşayırmış. Özünün bu xəsisliyinə görə o, "Qara Çörək" deyə ayamalanmışdı. Belə ki, o, böyük var-dövlətə sahib olsa da, özünü hər şeydən, hətta yaxşı yeməkdən də məhrum etmişdi, yalnız təkcə qara çörək yeyirdi.

O, bütün ömrü boyu pul toplayır və demək olar ki, heç xərcləmirdi, həyatının məqsədi və ən böyük nəşəsi yığılmış qızıl qalağını görmək, özünü sərbəst və varlı hiss etmək idi.

Həyatda insan həyatı əbədi olmadığı kimi heç nə əbədi deyil.

Qocalıq gəldi, onunla da onun ayrılmaz yol yoldaşları – xəstəliklər. Qara Çörək ölüm haqqında düşünməyə başladı.

Bir vaxtlar sərbəst və məğrur olan Qara Çörək qorxaq və yazıq oldu, hər zaman cəsarətli və ötkəm olan indi müti və çalışqan oldu, gecə-gündüz ölüm haqqında fikir onu təşvişə salır və təqib edirdi, hər şeydən ağırı isə var-dövlətindən ayrılmaq fikri idi.

Nəhayət, Qara Çörək həyatdan ayrılmalı oldu.

O nə qohumları, nə də varisləri olmadığından keşişi yanına çağırtdırdı. Keşiş ondan xəbər aldı:

– Sən pullarını kimə bağışlayırsan və onları harada saxlayırsan?

Ölüm ayağında olan Qara Çörək qışqırdı:

– Necə! Sən məni ömrüm boyu topladığım öz pullarımdan ayrılmağımı istəyirsən?

O, keşişi öz yanından qovdu. Molla çağırdı ki, bəlkə, o daha yaxşı məsləhət verər ki, var-dövlətiylə nə etsin?

Molla gəlib dedi ki, narahat olmasın. Sən öləndə sənin

bütün pullarını səninlə birlikdə qəbirə qoyacağıq. Xəstə təsəlli tapdı.

Bir neçə gündən sonra Qara Çörək öldü və onu müsəlman qaydası ilə dəfn etdilər.

Ertəsi gün axşam vaxtı bazarda adamların üstünə atılan kəfənli bir kölgə göründü.

Digər bir rəvayətə görə, Qara Çörək it görkəmində olub insanların üzərinə atılıb, iki körpəni də yeyibmiş.

Xalq dəhşətə gəldi, hamını qorxu basdı və hamı söylədi ki, bu, yırtıcı şəklini alıb qəbirdən çıxmış Qara Çörəkdir. Allah onun pula olan iyrənc ehtirası üçün dinini dəyişdiyindən cəzalandırmışdır və onu nəyin bahasına olursa olsun, məhv etmək lazımdır.

Bir qaranlıq gecədə kölgə qəbirdən çıxmağa başladıqda onun gəlməsini gözləyən adamlar onu daşqalaq etdilər.

Bu daşlardan da iyrənc qüsura abidə olan, ildən-ilə böyüyən təpə əmələ gəldi.

***Naxçıvan şəhər məktəbinin***
***müəllim-müfəttişi K.Nikitin***
***Naxçıvan, 1882-ci il.***

## 3-cü buraxılış 1883-cü il

# VENİAMİNOV B. SALAHLI KƏNDİ VƏ ORADA YAZILMIŞ TATAR NAĞILLARI

## 1. MƏLİK MƏMMƏD VƏ MƏLİK CÜMŞÜD

Bir vilayətdə iki xan arvadı yaşayırdı, onlardan birinin adı Gülzar, o birisinin isə adı Əsli idi. Uzun müddət idi ki, onların uşaqları olmurdu. Onlar uşaq sahibi olmaqdan ötrü çox çalışdılar, nə qədər dava-dərman etdilərsə, heç bir nəticə alınmadı. Bir gün uzaq bir ölkədən bu vilayətə bir yolçu dərviş gəldi və o, pay almaq üçün xan arvadlarının sarayına gəlib çıxdı. Xan arvadları öz dərdlərini ona açıb söylədilər. Onların söylədiklərinə qulaq asan dərviş xan arvadlarının hər birinə bir alma verdi və tapşırdı ki, almanın yarısını özləri yesinlər, o biri yarısını isə yemək üçün ərlərinə versinlər. Əgər buna əməl etsələr, bundan sonra onların uşaqları dünyaya gəlməli idi. Dərviş onlardan birinə Məlik Məmməd və o birisinə isə Məlik Cümşüd adını qoymağı əmr etdi. Dərviş doğulacaq uşaq-pəhləvanların taleyini də söylədi. Xan arvadları məsləhətinə görə dərvişi əliaçıqlıqla mükafatlandırdılar və onu mürəxxəs etdilər.

Bir müddət sonra, doğrudan da, xan arvadlarının uşaqları anadan oldu. Gülzar öz oğluna Məlik Məmməd, Əsli isə Məlik Cümşüd adını qoydu.

Bu uşaqlar günlərlə deyil, saatlarla böyüyüb-başa çatdılar və on iki ildən sonra ucaboylu, qəddi-qamətli və gözəl cavanlar oldular, artıq onların pəhləvan gücü var idi. Xan arvadları uşaqlarını çox istədikləri üçün onlara hər cür bahalı hədiyyələr edirlərdi. Elə hədiyyələrdən biri də top idi. Bir dəfə hər iki pəhləvan bağa gəzməyə getdilər. Məlik Cümşüd özünün qızıl topunu bağda elə bir qüvvətlə atdı ki, top bağı keçib

küçəyə düşdü. Bir qoca qarı topu yerdən götürüb gizlətdi. Məlik Cümşüd bunu gördü və qarıdan topu ona verməsini tələb etdi, qarı isə verməkdən imtina etdi. Onda Məlik Cümşüd çox da fikiləşmədən qarını başıüstə qaldırıb yerə elə çırpdı ki, qarı elə yerindəcə öldü. Bundan sonra Məlik Cümşüd öz topunu götürdü. Lakin qoca bir qarını öldürdüyü üçün vicdanı ona əzab verirdi və o, anasının öyüd-nəsihətlərinə baxmayıb evdən baş götürüb getmək qərarına gəldi.

Məlik Məmməd dostundan ayrılmaq istəmirdi, o da Məlik Cümşüdlə getmək qərarına gəldi. Hər iki pəhləvan bir gecə silahlarını götürüb atlarına süvar oldular.

Az getdilər, üz getdilər, gəlib bir şəhərə çatdılar. Bu şəhərin Ərgünaş adlı çox gözəl bir çariçəsi var idi. Bu şəhərə gələn çox az adam geri qayıda bilirdi.

Onlar gəlib şəhərin divarlarına yaxınlaşdılar. Bir neçə pəhləvan şəhər qapılarının keşiyini çəkirdi. Onlar Məlik Məmmədlə Məlik Cümşüdü şəhərə buraxmadılar. Onda hər iki pəhləvan qılınclarını çəkib keşikçilərin üstünə getdilər. Bir azdan keşikçilərin hamısını öldürüb şəhərə girdilər. Pəhləvanlar şəhərə girib atlarını düz saraya sürdülər. Ərgünaş onları mehribançılıqla qarşıladısa da, çox məəttəl idi ki, onlar şəhərin qapılarının keşiyini çəkən pəhləvanları necə öldürüblər, çünki başqa vilayətlərdən gələn adlı-sanlı pəhləvanlar onları öldürə bilməmişdilər. Bu çariçənin yeddi qardaşı var idi. Onlar Məlik Məmməd və Məlik Cümşüd kimi pəhləvanlarla qohum olmaq istəyirdilər. Ona görə də onlar Məlik Məmmədə bacılarını almağı təklif etdilər, lakin Məlik Məmməd Məlik Cümşüdün daha münasib olduğunu dedi. Qardaşlar bununla razılaşdılar, böyük toy məclisi qurub bunları evləndirdilər.

Qardaşlar toydan sonra yenə ova getməyə başladılar. Bir dəfə onlar ova gedəndə Məlik Məmmədi də özlərilə götürdülər, sarayda çariçə ilə Məlik Cümşüd qaldılar. Elə həmin gün

saraya boyu bir qarış, saqqalı beş qarış pəhləvan Xəmşin gəldi. O, Məlik Cümşüddən tələb etdi ki, onu yedirsin. Məlik Cümşüd əmr etdi ki, pəhləvana bir böyük qazanın yarısıynan aş versinlər. Xəmşin aşı yedi, amma doymadı və tələb etdi ki, ova getmiş pəhləvanlar üçün böyük qazanda bişirilən plovu ona versinlər. Bunu eşidən Məlik Cümşüd əmr etdi ki, onu qovsunlar, Xəmşin ona elə bir şillə vurdu ki, o, ömrü boyu belə təhqir olunmamışdı. Məlik Cümşüd dərin fikrə gedib bahadır yuxusu ilə yatdı. Xəmşin bundan istfadə edib Ərgünaşı özü ilə aparıb çıxıb getdi.

Çox keçmədən çariçənin qardaşları və Məlik Məmməd ovdan qayıtdılar. Qardaşlar hadisədən xəbər tutub çox qeyrətləndilər, Məlik Məmmədə dedilər ki, qırx günün içində bacılarını tapmasa, onlar Məlik Cümşüdü öldürəcəklər. Məlik Məmməd razılaşdı. O, özü ilə ox-yayını götürüb Ərgünaşı axtarmaq üçün at belində səfərə çıxdı.

Məlik Məmməd az getdi, üz getdi, iki gün yol gedəndən sonra iki pəhləvana rast gəldi. Onlardan biri dağın başında durub dəyirman daşını başıaşağı diyirlədirdi, o birisi isə bu dəyirman daşını tutub saxlayırdı. Məlik Məmməd onların ikisini də özü ilə götürdü. Onlardan birinin adı Nadir, o birisinin adı isə Usub idi. Beş gün yol getdikdən sonra onlar yolda böyük bir daşa rast gəldilər. Məlik Məmməd hər iki pəhləvana təklif etdi ki, ikisi də birlikdə daşı qaldırsınlar. Onlar nə qədər qantər tökdülərsə, daşı yerindən tərpədə bilmədilər. Onda Məlik Məmməd özü bir əlilə daşı yerindən kənara atdı. Sən demə, bu daş Xəmşinin sarayının qapısı imiş. Onda Məlik Məmməd pəhləvan Nadirə dedi ki, quyuya düşsün. Məlik Məmməd ipin bir ucunu ona verdi, o biri ucunu isə öz əlində tutdu. Nadir quyunun ortasına çatmamış “Yandım!” qışqırdı və Məlik Məmməd onu çəkib quyudan çıxardı. Sonra pəhləvan Usub da quyuya salındı, “Yandım!” qışqıranda onu da Məlik Məm-

məd çəkib quyudan çıxardı. İndi isə Məlik Məmmədin növbəsi çatdı. Məlik Məmməd quyuya düşəndə pəhləvan yoldaşlarına dedi ki, o nə qədər "Yandım!" qışqırsa da, onu quyudan çıxarmasınlar. Məlik Məmməd bir otaga girdi. Bu vaxt burada çariçə Ərgünaş xalçanın üstündə oturmuşdu, pəhləvan Xəmşin isə başını onun dizinin üstə qoyub yatmışdı. Ərgünaş Məlik Məmmədi görüb sevincindən ağlamaga başladı, Məlik Məmməd isə vaxt itirmədən ox atıb Xəmşini cəhənnəmə vasil etdi və çariçəni otaqdan çıxardı. Məlik Məmmədlə qız quyuya düşdüyü yerə gəldilər. Məlik Məmməd qıza dedi ki, yuxarıdan sallanmış iplə birinci o qalxsın. Lakin çariçə razı olmayıb dedi ki, əgər yuxariya birinci o qalxsa, yuxarıda olan pəhləvan Nadir və Usub onun gözəlliyini görüb onu özlərinə götürə və onu isə quyudan çıxarmazlar. Buna görə də o, Məlik Məmmədə məsləhət gördü ki, birinci özü qalxsın, sonra isə onu çıxarsınlar. Lakin Məlik Məmməd razı olmadı, çariçəni quyudan birinci çıxardılar. Pəhləvanla qızı görüb Məlik Məmmədi quyudan çıxarmadılar. Məlik Məmməd çox kədərləndi və o, Xəmşinin böyük evini gəzməyə başladı. Məlik Məmməd bu evi gəzə-gəzə bir yerə gəlib çıxdı və gördü ki, burada çoxlu qapılar var və qapılardan birini açdı. Açdıqca çox təəccübləndi. Burada gözünün qabağında bir şəhər açıldı. O, sevincək şəhərə tərəf yollandı və qoca qarının evinə qonaq düşdü. Məlik Məmməd ondan şəhəri xəbər aldı. Qoca ona nəql etdi ki, şəhərin içindən bir çay axır, şəhər əhli içməli suyu bu çaydan götürür. Bu çayda yeddibaşlı bir əjdaha yaşayır. Bu əjdaha da suyun qabağını kəsib adamlara su vermir. Ona görə də hər həftə ona yemək üçün bir qız verirlər ki, o da onlara su versin. Qarı Məlik Məmmədə dedi:

– Sabah bizim padşah öz böyük qızını ərə verir, onun kiçik qızı isə yeyilmək üçün əjdahaya veriləcək.

Ertəsi gün Məlik Məmməd yay-oxunu da götürüb çaya

tərəf getdi. Padşahın kiçik qızı da çayın kənarında oturub əjdahanı gözləyirdi. Məlik Məmməd qıza dedi:

– Ay qız, mən yatmaq istəyirəm, əjdaha gələndə məni oyadarsan.

Padşahın qızı çayın kənarında oturub əjdahanı gözləməyə başladı. Birdən suyun içindən yeddibaşlı əjdaha göründü, padşahın qızı qorxudan özünü itirdi, bilmədi nə etsin, nə qədər elədisə Məlik Məmmədi oyada bilmədi. Bu vaxt onun gözündən bir damla göz yaşı Məlik Məmmədin yanağına düşdü. Məlik Məmməd o saat yuxudan oyanıb ayağa qalxdı, oxla əjdahanı vurub öldürdü. Padşah Məlik Məmməddən bunun müqabilində nə istədiyini xəbər alanda o, heç bir şey istəmədiyini dedi.

Məlik Məmməd hər gün, gecə-gündüz fikirləşirdi ki, ata-anasının, dostu Məlik Cümşüdün və çariçə Ərgünaşın yaşadığı dünyaya necə gedib çıxsın.

Bir gün evində qaldığı qarı onun kədərli olduğunu görüb bunun səbəbini ondan xəbər aldı. Məlik Məmməd işıqlı dünyaya getmək istədiyini ona dedi. Qarı bunu eşidib dedi:

– Oğul, çölün düzündə uca bir ağac var, həmin ağacda bir qartal özünə yuva tikib. Hər il bir əjdaha onun balalarını yeyir. Əgər sən əjdahanı öldürsən, qartal səni öz qanadlarına alıb işıqlı dünyaya çıxarar.

Məlik Məmməd bunu eşidib, dərhal həmin yerə getdi, elə bu vaxt əjdaha qartalın balalarını yemək istəyirdi. O, tez oxu yaya qoyub atdı, əjdahanı öldürdü. Bundan sonra Məlik Məmməd həmin ağacın altında yuxuya getdi. Çox keçmədən qartal uçub gəldi. Məlik Məmməd qartalın qanadlarının yellənməsindən əmələ gələn güclü küləkdən oyandı. Məlik Məmməd qartalı məsələdən xəbərdar etdikdən sonra ondan xahiş etdi ki, onu işıqlı dünyaya çıxarsın. Qartal razı oldu və bir neçə vaxtdan sonra Məlik Məmməd artıq işıqlı dünyada idi.

Məlik Məmməd işıqlı dünyaya çıxan kimi özününküləri

axtarmaq üçün yola düşdü və elə yolda çariçə Ərgünaşı özləri ilə götürüb gedən pəhləvan Nadirə və Usuba rast gəldi, onları görəndə aslan kimi onların üzərinə şığıyıb, parça-parça etdi. Sonra da çariçə Ərgünaşı özü ilə götürüb şəhərə yollandı. Şəhərin qapısında Məlik Cümşüd və Ərgünaşın qardaşları onları səbirsizliklə gözləyirdilər. Bu görüş əsnasında onun qardaşlarından biri sevincdən ox ilə özünü öldürdü.

Çox keçmədən Məlik Məmməd və Məlik Cümşüd çariçə Ərgünaşla öz vilayətlərinə geri qayıtdılar, anaları, qohum-qardaşları ilə görüşdülər.

Məlik Məmmədlə Məlik Cümşüdün anaları Allah rəhmətinə getdikdən sonra onların var-dövləti oğullarına qaldı. Onlar şad-xürrəm yaşadılar.

## 2. ƏVİL QASIM VƏ ƏVİL MƏMMƏD

Biri var idi, biri yox idi, Allahdan başqa bir kimsə yox idi. Bir vilayətdə çariçə Nigar var idi. O, uzun illər uşağa həsrət qalmışdı.

Pəhləvan Nərman bunu eşidib təğyir libası oldu, dilənçi libası geyinib, çariçənin hüzuruna gəldi. O, çariçəyə bir alma verib dedi ki, almanın yarısını özü yesin, o biri yarısını isə əri Aşant şaha versin, bəs bundan sonra onun iki oğlu olacaq. Birinci oğlunun adını Əvil Qasım, ikinci oğlunun adını isə Əvil Məmməd qoysun. Çariçə ona vəd verdi ki, onun dediyini edəcək. O, pəhləvan Nərmandan xəbər aldı ki, əgər hər şey yerinə yetsə, o hansı uşağı özünə oğulluğa götürəcək? Nərman özünə birinci oğlanı – Əvil Qasımı istədi. Çariçə onun dediyinə əməl edəcəyini vəd etdi. Doğrudan da, bir ildən sonra onun iki əkiz oğlu oldu, oğlanlara Nərmanın dediyi adları qoydu.

Bu işin üstündən bir qədər vaxt keçdi. Nərman çariçənin uşaqları olduğunu bilib onun yanına gəlib vədini xatırlatdı.

Çariçə vədinə xilaf çıxmayıb Əvil Qasımı ona verdi. Əvil Qasım da onunla getməyə razı oldu.

Günlərin bir günü Nərman başını Əvil Qasımın dizləri üstünə qoyub dərin yuxuya getmişdi. Əvil Qasım Nərmanın saçları arasında bir qızıl açar gördü. Sən demə, bu, qonşu otağın açarı imiş və Nərman bir dəfə də olsun Əvil Qasımın yanında həmin otağı açmamışdı. Əvil Qasım açarla həmin otağı açdı və orada bir qızıl, o birisi isə gümüş olan iki bulaq gördü. O, ətrafı yaxşıca gözdən keçirib otağın qapısını qızılı açarla bağladı və onu saçları arasında gizlətdi.

Nərman yuxudan oyanıb ondan xəbər aldı ki, qızıl açar haradadır. Əvil Qasım cavab verdi ki, bilmir. Nərman hirslənmiş halda özünü bilmədən baş götürüb getdi. Bu vaxt Əvil Qasım Nərmanın otağının qapısını açdı. Bu otaqda yel atı vardı. Əvil Qasım ata minib qızıl bulağa girdi, atı ilə bərabər özü də qızılla örtüldü. O elə bu halda Şah Mərdin vilayətinə tərəf yola düşdü. Əvil Qasım mənzilbaşına çathaçatda at dil açıb ondan təvəqqe etdi ki, onu sərbəst buraxsın. O, onun quyruğundan bir neçə tük çəkib onu buraxanda dedi ki, nə vaxt onu çağırsa, o saat yanında hazır olsun.

Əvil Qasım təğyir libas olub, dilənçi libasın geyinib Şah Mərdin yanında mehtər işləməyə başladı. Bu şahın üç gözəl qızı var idi və Əvil Qasım çox keçmədən şahın Nigar adlı qızına bir könüldən min könülə vuruldu. Nigar iki bacısından da gözəl idi. Qız bir dəqiqə də olsun, Əvil Qasımın ağlından çıxmırdı. Günlərin bir günü Əvil Qasım dilənçi libasını əynindən çıxartdı, gecə vaxtı şam işığında qızılla örtülmüş bədəni bərq vurdu və o, göz yaşları axıdaraq bir mahnı oxumağa başladı. Bu vaxt pəncərənin yanında oturmaqda olan Nigar Əvil Qasımın səsini eşidib tövləyə gəldi, burada qızıldan bərq vuran bir gözəl-göyçək oğlan gördü. Qız özünü saxlaya bilməyib Əvil Qasımın ağuşuna atıldı, Əvil Qasımın xoşbəxtliyinin həddi-

hüdudu yox idi. Uzun müddət onlar bu xoşbəxtliyi yaşadılar.

Günlərin bir günü şah qızlarını ərə vermək fikrinə düşdü. O, özü qızları üçün adaxlı seçməli idi, şah əvvəlcədən iki xanı seçmişdi, püşkə görə isə mehtər Əvil Qasım da adaxlı idi. Şahın üç qızı üç adaxlının qarşısında durdular. İki böyük bacı iki xanı özlərinə adaxlı seçdilər, kiçik bacı isə Əvil Qasımı seçdi. Hamı qızın mehtəri seçməsinə məəttəl qaldı, qız şahı da rüsvay etdi, belə ki, heç kim mehtər libasında kimin gizləndiyini bilmirdi. Olan oldu, keçən keçdi, şah böyük qızlarına qırx gün, qırx gecə toy etdi, kiçik qızına toy etmədi, ona bir kiçik daxma verib yola saldı. Böyük qızlarına isə iri saraylar bağışladı.

Günlərin bir günü şah naxoşladı. Hər yerdən tökülüb gələn loğman, təbiblər dedilər ki, əgər qibleyi-aləm Baməd bağındakı almalardan nuş etsə, sağalar. Bu bağ isə bir-birindən aralanıb, sonra isə yenidən birləşən iki dağın arxasında idi. O bağdan alma gətirmək müşkül iş idi. Heç kim ora getməyə razı olmadı. Onda şahın kürəkənləri istər-istəməz həmin bağa getməyə razı oldular. Onlar başlarında bir dəstə atlılarla həmin bağı axtarmaq üçün yola çıxdılar, mehtər Əvil Qasım da şahdan yalvar-yaxar bir at istədi ki, onun üçün gedib alma gətirə bilsin. Şah əvvəlcə onu məsxərəyə qoydu, sonra isə əmr etdi ki, ona bir axsaq at versinlər. Əvil Qasım həmin ata minib yola düşdü. Şəhərdən bir az aralanandan sonra o, axsaq atı açıb buraxdı, yel atının tükünü yandırdı, qızıl yel at silahla o saat yanında hazır oldu. Əvil Qasım əvvəlcə mehtər libasını çıxartdı və ulduz kimi parlamağa başladı, sonra isə yaraq-əsləhəsini geyinib-keçinib yel atına mindi, əlində nizə bağa tərəf yollandı. Yolda şahın kürəkənlərinə rast gəldi, onlar onu günəş pırıltısında yaydan qopmuş ox kimi at belində çapan görüb onu pəhləvan saydılar, yoldan kənara çəkildilər və ona ehtiram göstərib dərin nifrət etdikləri mehtər olduğunu bilmədilər.

Əvil Qasım iki dağın olduğu yerə gəlib çatdı, onların bir-

birindən aralanmasını gözləyərək bir anda uçub bağa girdi, üç alma dərdi və geri qayıtdı, sonra iki dağ yenidən birləşdi.

İndi Əvil Qasım ox kimi geri çaparaq gedirdi və yenidən təkəbbürlü xanları gördü. Əvil Qasım xanlardan hara getdiklərini xəbər aldı, onlar səfərlərinin səbəbini dedilər. Əvil Qasım həmin bağdan dərilmiş almaların onda olduğunu xanın kürəkənlərinə dedi. Şahın iki kürəkəni bunu eşidib çox sevindilər, ona almalar üçün böyük pul təklif etdilər. Əvil Qasım razı olmayıb, almaların müqabilində onların dabanlarına damğa vuracağanı dedi. Hər iki xan sevincək razı oldular, Əvil Qasım hər ikisinin dabanına damğa vurub, Baməd bağından dərdiyi almaların yerinə başqalarını onlara verdi. Hər iki xan almaları ondan alıb şahın sarayına yola düşdülər. Əvil Qasım isə onlardan əvvəl şəhərə çatıb atını sərbəst buraxdı, yaraq-əsləhəsini çıxardı, şahın ona verdiyi axsaq ata mindi və evinə qayıdıb gəldi.

Ertəsi gün şahın kürəkənləri gəlib şəhərə çatdılar və Baməd bağından şaha alma gətirdiklərini dedilər. Onlar Əvil Qasımdan aldıqları almaları ona verdilər. Şah bir alma yeyən kimi naxoşluğu daha da artdı, onda kürəkənlər başa düşdülər ki, yolda rast gəldikləri adam onları aldadıb.

Ertəsi gün şahın kiçik qızı ərinin Baməd bağından dərdiyi iki almanı atasına gətirdi. Şah bir alma yeyən kimi sağaldı. Şah qızından almanı hardan aldığını xəbər aldıqda qızı hal-qəziyyəni ona nəql etdi. Onda kürəkənlər bildilər ki, onları yolda aldadan adam Əvil Qasım imiş və şahın damğa məsələsindən də xəbər tuta biləcəyindən qorxuya düşdülər.

Bir vaxtdan sonra şah Aşant şah Mərdin üstünə qoşun çəkib müharibə etməyə gəldi, qan su yerinə axdı. Axırda belə qərara aldılar ki, hər tərəfdən bir pəhləvan gəlib vuruşsun, kim qalib gəlsə, həmin tərəf də qalib olsun. Belə də razılaşdılar. Şah Aşant tərəfdən boyu iki sayın olan bir pəhləvan çıxdısa, şah Mərd tərəfdən qorxudan bir adam irəli çıxmadı. Əvil

Qasım isə işi belə görüb tələm-tələsik atın tükünü yandırdı. At o saat Əvil Qasımın yanında hazır oldu. Əvil Qasım mehtər libasını çıxarıb yaraq-əsləhəsini geyindi, ata minib əlində nizə düşmənin üstünə atıldı. Onu nizəsinin ucunda yuxarı qaldırıb yerə elə çırpdı ki, bir tikəsi də ələ gəlmədi. Əvil Qasım onun başını şah Mərdə verdi. Beləliklə, şah Aşant şah Mərdə tabe olmalı idi. Şah Mərd bu işin müqabilində Əvil Qasımdan nə istədiyini xəbər aldı. Əvil Qasım hər şeydən imtina edib şah Mərddən xahiş etdi ki, əmr versin kürəkənləri soyunsunlar və o, onların dabanlarına baxsın. Şah Mərd kürəkənlərinin dabanlarında Əvil Qasımın damğasını gördü.

Şah Mərd qocalmışdı və buna görə də taxt-tacını Əvil Qasıma verdi. Əvil Qasım uzun illər bu şahlığı idarə etdi, vaxt gəlib vədə çatanda isə öz taxt-tacını oğlu Əzizə verdi.

Göydən üç alma düşdü, biri mənim, biri nağıl söyləyənin, biri də yoldan ötənin.

## 3. ŞAH RÜSTƏM

Biri vardı, biri yoxdu, Allahdan başqa heç kim yoxdu, Rüstəm şah deyilən bir şah vardı. Günlərin bir günü Rüstəm şah öz əyanları ilə ova getməli olur. O, öz əyanlarından Kərimzadəyə xüsusi hörmət bəsləyirdi. Onların hamısı bir kəndin yaxınlığında gecələməli olurlar. Həmin gecə Kərimzadə yuxuda gördü ki, bu kənddə bir neçə il bundan əvvəl bir gözəl oğlan dünyaya gəlmişdir və Rüstəm şahın qızı da təsadüfən həmin oğlanı görüb. Qız oğlana vurulub, onu özünə ər seçir. Kərimzadə yuxudan oyanıb yuxusunu şaha nəql edir. Şah o saat adamlarına əmr edir ki, bu gecə kənddə doğulan oğlan uşağının kimin övladı olduğunu öyrənsinlər. Heç çox keçmədən ona xəbər verdilər ki, bəs kənddə filan dövlətlinin bu gecə bir gözəl oğlu olmuşdur. Şah həmin dövlətlinin evinə gedib

gözəl uşağı gördü. Uşağın atasından təvəqqe etdi ki, uşağı ona oğulluğa versin, belə ki, onun oğlan uşağı yoxdu. Uşağın atası heç nədən şübhələnməyib, onu Rüstəm şaha oğulluğa verdi. Rüstəm şah Kərimzadəyə əmr etdi ki, uşağı bir uca qayadan atıb öldürsün. Şah qorxurdu ki, bu uşaq böyüyüb yaşa dolanda Kərimzadənin yuxusu çin olar və şah aləm arasında biabır olar ki, bəs onun kürəkəni şah nəslindən deyildir. Kərimzadə çox nəcib adam olduğundan şahın bu əmrini yerinə yetirməkdən boyun qaçırtdı. Belə olduqda zalım şahın özü uşağı qayadan atdı. Sonra şah əyan-əsrəfilə sarayına qayıtdı.

Amma Allah uşağı ölümdən qurtardı. Onun yanına bir dişi maral göndərdi. Bu maral uşağı üç yaşına qədər öz südü ilə bəslədi. Oğlan on beş yaşına qədər meşələrdə və dağlarda dolaşıb ovladığı heyvanlardan özünə libas və yemək əldə edirdi. On beş il sonra Rüstəm şah yenə bu yerlərə ov ovlamağa gəldi. O, başının dəstəsi ilə uşağı qayadan atdığı yerə gəldi. Kərimzadə həmin qayaya tərəf atını sürüb gələndə gözəl bir cavan oğlan gördü və o saat barmağını dişlədi, bildi ki, bu, elə həmin uşaqdır ki, bir vaxt şah onu qayadan atmışdır. Kərimzadə öz gümanından Rüstəm şahı hali etdi. Rüstəm şah o oğlana yanaşıb ondan kim olduğunu xəbər aldı.

Cavan oğlan dedi:

– Ata-anamın kim olduğunu heç bilmirəm.

Oğlanın cavabından Rüstəm şah yəqin edəndə ki, Kərimzadənin gümanı doğrudur, saraydakı əyanlardan birinə məktub yazdı. Şah məktubda yazdı ki, bu məktubu gətirəni öldürsün. O, məktubu yazıb oğlana verdi ki, saraya çatdırsın. Oğlan şahdan məktubu alıb yola düşdü. O, altı gündən sonra şəhərə çatdı. Şəhərin kənarında bir bulağa rast gəldi. Bu bulağın suyunda əl-üzünü yuyub uzandı ki, bir az dincəlsin. Amma oğlan şahın məktubunu əlindən buraxmırdı. Elə bu vaxt Rüstəm şahın qızı öz xidmətçiləri ilə gəzintiyə çıxmışdı. O, gəzə-gəzə həmin

bulağa gəlib çıxdı və burada bulaq başında yatan həmin oğlanı gördü. Oğlanın əlindəki məktubu ehmalca əlindən götürdü. Qız məktubu oxuyub bildi ki, oğlanı öldürəcəklər. O, məktubu cırdı, atasının adından başqa bir məktub yazdı. Rüstəm şahın qızı məktubda yazdı ki, bu məktubu alan kimi şahın qızını məktubu gətirən oğlana versinlər. Rüstəm şahın qızı məktubu yazıb oğlanın əlinə qoydu, özü isə saraya yola düşdü.

Şahın qızı gələndən sonra oğlan yuxudan ayılıb əlində məktub saraya yol aldı. Oğlan saraya gəlib, məktubu əyanlardan birinə verdi. O, məktubu oxuyub o biri əyan-əsrəfi də şahın məktubundan hali etdi. Onlar da məktubu oxuyub, ertəsi gün toy edib, şahın qızını oğlana verdilər. Kərimzadənin yuxusu da çin oldu. Toydan sonra o biri gün Rüstəm şah gəldi, o, toydan xəbər tutsa da, iş işdən keçmişdi. O, kürəkəninə yüksək rütbə verdi, ölənə yaxın isə taxt-tacını ona tapşırdı.

Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də nağıl söyləyənin.

## 4. ŞAHZADƏ QƏMBƏR

Şahzadə Qəmbər çox ehtiraslı bir ovçu idi. Bir dəfə o öz əyanlarından biri ilə gedib yolda bir kimsənin otardığı qaz sürüsünə rast gədi. Əyan gördü ki, sürüdəki bir qaz ağırlıqdan güclə gəzir və şahzadənin icazəsi ilə qazı aldı. Bunu yoldan keçən bir ərəb görürdü və o ərəb əyana yaxınlaşıb qazı ona satmasını xahiş etdi. O razı oldu və ərəb qazı alıb evinə getdi. Evinə gəlib qazı arvadına verdi və əmr etdi ki, onun tüklərini yolsun, amma içalatını təmizləməsin. Bu vaxt şahzadə ilə əyan düşünürlər ki, qazın qiyməti əlli qəpik ikən nə üçün ərəb onun üçün yüz rubl verdi. Onlar vaxt itirmədən qazı qaytarmaq və onun içalatında nə olub olmadığına baxmaq arzusu ilə onun dalınca yola düşdülər. Çox keçmədən onlar ərəbin

yaşadığı kəndə çatdılar. Və onun getdiyini izləməyə başladılar. Ərəb qazı arvadına verib, evdən çıxıb işə yollandıqda ərəbi izləyən şahzadə və onun əyanı evə girdilər və gördülər ki, ərəbin arvadı qazın tükünü yolur. Əyan israrla ondan xahiş etdi ki, qazı on rubla satsın və ərəbin arvadı hər şeydən xəbərsiz qazı belə böyük qiymətə satmağa razılıq verdi. Şahzadə Qəmbər və əyan qazı götürdülər və yaydan çıxmış ox kimi öz şəhərlərinə tərəf at çapdılar.

Saraya çatdıqda şahzadə özü qazın içalatını çıxartdı və onun mədəsində qəribə bir üzük tapdı. Üzük hər yana işıq saçırdı. Şahzadə ertəsi gün üzüyü barmağına taxıb həmin əyanla İbrahim şahın qızını istəmək üçün onun paytaxtına getdi. İbrahim şahın qızı bir dünya gözəli idi. İbrahim şah qızını ən varlı adama vermək istəyirdi. Şahzadə Qəmbər İbrahim şahın paytaxtına gəlib varlı bir dul arvadın evinə qonaq düşdü və ondan xahiş etdi ki, İbrahim şahın hüzuruna gedib onun gözəl qızını onun üçün istəsin.

Dul arvad İbrahim şahın hüzuruna getdi və söhbət zamanı ona şahzadənin qızına evlənmək istədiyini söylədi. İbrahim şah ona söylədi ki, əgər şahzadə Qəmbər elə sabah onu əyan və qoşunları ilə birlikdə razı salacaq şəkildə qonaq etsə, o, qızını gecikdirmədən ona verəcək, əks təqdirdə xahiş etdi ki, hirslənməsin.

Dul arvad bütün bunları şahzadəyə nəql etdi və o, böyük sevinc içində şahın təklifini qəbul etdi.

Ertəsi gün şahzadə Qəmbər özünün qəribə üzüyünə dedi:

– Ey üzük, mən səndən elə indicə bu yerdə qızıldan tikilmiş on iki mərtəbəli evin durmasını istəyirəm, otaqların içi şahlara layiq bəzənməlidir, bu binanın qabağında bütün dünyada tayı-bərabəri olmayan bağ olmalıdır, bu bağın xiyabanlarında qızıldan masa və kürsülər, masaların üstündə çox gözəl yeməklər, hər ağacda içində bülbül olan qızıl qəfəslər asıl-

malıdır, şah bağa ayaq basanda bu bülbüllər toy nəğməsi oxumağa başlamalı və şah bağdan sarayına gedəndə nəğməni oxuyub qurtarmalıdır.

Şahzadə sözünü yenicə deyib qurtarmışdı ki, gerçəkdən də onun dediyi hər şey yerinə yetdi. Bütün paytaxt belə bir heyrətli şey görüb vəcd və dəhşətə gəldi, lakin şahzadə və saray adamından başqa heç kim bunun necə baş verdiyini bilmirdi.

Budur, şah öz qızı, əyan və qoşunları ilə gəldi, bülbüllərin toy nəğməsi səsləndi. Şah bağın, binanın, qonaqlığın cahcalalına valeh oldu və buradaca qızını böyük ehtiram və şəräflə şahzadə Qəmbərə ərə verdi.

Ertəsi gün şahzadə Qəmbər və əyanlar ova getdilər. Şahzadə Qəmbər üzüyü itirməkdən qorxub, onu öz arvadına verdi. Və üzüyün möcüzəli xüsusiyyətlərindən ona heç bir şey demədi, arvadı da üzüyü barmağına taxdı.

Bu arada ərəb baş verənlərdən xəbər tutub yola çıxdı və İbrahim şahın paytaxtına gəldi. O, şahzadə Qəmbərin sarayını görüb o saat başa düşdü ki, bu saray qazın mədəsində olan üzüyün möcüzəli gücü ilə tikilmişdir. Ərəb saraya girdikdə şahzadənin bağda gəzən arvadını gördü, ona yaxınlaşdı və ona iki yüz çervon təklif edib, onun qarşısında diz çöküb xahiş etməyə başladı ki, üzüyü ona satsın. Çariçə pulu alıb üzüyü ona verdi. Bundan sonra ərəb dərhal paytaxtı tərk edib öz evinə qayıtmaq üçün yola düşdü, lakin yolda dənizə yollanmaq ağlına gəldi və bir qədər səyahət etdikdən sonra dənizin sahilinə gəlib çıxdı. Burada duraraq o, qəribə üzüyü çıxardı və dedi:

– Ey üzük, mən səndən istəyirəm ki, şahzadə Qəmbərin İbrahim şahın paytaxtındakı sarayı qarşısında olan bağ və şahzadənin xanımı elə indicə bu dənizin ortasında durub mənə məxsus olsun.

O, sözlərini elə yenicə deyib qurtarmışdı ki, şahzadə Qəmbərin sarayı dənizin ortasında peyda oldu və şahzadənin arvadı

öz gözəl sarayı ilə birlikdə ərəbə məxsus olmağa başladı.

Çox keçmədən İbrahim şah və şahzadə Qəmbər ovdan qayıtdılar. Sarayın qəribə, sirli şəkildə yox olması haqqında xəbər şahı və şahzadəni heyrətləndirdi və onları kədər bürüdü. Şahın ətrafındakılar onu inandırırdılar ki, bu, qaranlıq işdir, onun kürəkəni şahzadə Qəmbər cin, şeytana yiyəlik edir, ona görə də onunla bir yerdə olmaq təhlükəlidir, buna görə də ona başqa evdə yer eləmək lazımdır. Şah buna inandı. Və onu tamam başqa bir evdə yerləşdirərək özündən uzaqlaşdırdı və ona saraya daxil olmağı qadağan etdi.

Şahzadə özünün yeni evində qapanaraq gecə-gündüz yox olub getmiş sarayı və arvadı haqqında düşünürdü.

Bir dəfə onun əyanı bazardan keçərkən gördü ki, iki oğlan pişiklə iti boğuşdurur. Onlara yaxınlaşıb pişiklə iti azad edib öz evinə apardı. Bir neçə gündən sonra pişik itə dedi:

– Dostum, bilirsən ki, ağamızın bir üzüyü var idi. Bu üzüyün möcüzəli gücü ilə o, saray tikdi və İbrahim şahın qızına evləndi. İndi onun sarayı dənizin ortasındadır, üzük isə indi ağamızın arvadı ilə həmin sarayda yaşayan ərəbdədir, dənizə gedək, mən sənin kürəyinə minərəm, sən isə saraya tərəf üz, mən saraya girərəm, birtəhər bu üzüyü oğurlayaram və biz onu ağamıza gətirərik.

İt buna razı oldu və budur, günorta yeməyindən sonra onlar gizlicə evdən qaçdılar və dənizə tərəf yollandılar. Bir neçə gündən sonra onlar mənzil başına gəlib çatdılar. Pişik itin belinə çıxdı və beləlikdə, onlar ikisi də sağ-salamat saraya çatdılar, sonra pişik itin belindən aşağı atıldı, itə həyətdə qalmağı əmr edib özü saraya girdi. O, uzun müddət üzüyün harada olmasını izləməyə çalışdı və yemək vaxtı gördü ki, ərəb onu ağzından çıxartdı, masanın üstünə qoydu və yeməkdən sonra yenidən onu ağzına qoydu. Onda pişik gözləməyə başladı ki, ərəb nə vaxt yatacaq ki, birtəhər üzüyü onun ağzından əldə

etsin. Xoşbəxtlikdən yeməkdən sonra ərəb tez yuxuya getdi. Onda pişik ərəbin çarpayısına hoppandı və quyruğunu ərəbin burun deşiyinə soxdu, ərəb bir pislik hiss edib yerindən azca qalxdı və döşəməyə tüpürdü. Üzük onun ağzından sıçrayıb düşdü, lakin o, bunu hiss etmədi və çox keçmədən yenə yuxuya getdi. Onda pişik üzüyü götürüb saraydan qaçıb çıxdı, itin belinə sıçradı və onlar geriyə üzməyə başladılar, üzüb sahilə yaxınlaşdıqda it israrla pişikdən xahiş etməyə başladı ki, üzüyü ona göstərsin, pişik itin xahişini yerinə yetirərkən üzüyü suya saldı. Yazıq heyvanlar bu itkidən çox kədərləndilər.

Çox keçmədən sahilə tutacağı balıqlardan birini onlara verəcəyini vəd edən bir balıqçı gəldi. Balıqçı bir balıq tutdu, onu da vəd etdiyi kimi onlara verdi. Pişik balığı ağzına alıb bir tərəfə çəkildi və yeməyə başladı. Xoşbəxtlikdən üzük bu balığın içalatından çıxdı. Pişiklə it sevincək onu götürüb, paytaxta yola düşdülər. Bir müddətdən sonra saraya gəldilər və pişik şahzadənin dizləri üstə atılıb üzüyü ağzından atdı. Şahzadə üzüyü götürdü, barmağına taxdı, onların evdən yox olmalarının səbəbini indi başa düşüb göz yaşları içində pişiyi və iti öpdü.

Ertəsi gün şahzadə üzükdən xahiş etdi ki, onun sarayı, bağı, xan və ərəb əvvəlki yerində olsunlar. Onun xahişi yerinə yetdikdən sonra o, bütün sarayda öz sevgilisini səbirsizliklə axtarmağa başladı. Onların görüşü çox riqqət doğuran idi və çoxlu göz yaşları ilə müşayiət olundu. Ərəb isə dərhal öldürüldü. İbrahim şah işdən xəbərdar olan kimi qızı və kürəkəni ilə görüşmək üçün gəldi.

Bundan sonra hamı xoşbəxt yaşadı. Çox vaxt keçdi. İbrahim şah hiss etdi ki, həyatının sonu çatıb və ona görə də öz taxtını kürəkəni – şahzadə Qəmbərə verdi, o isə dünyada ən şöhrətli və ən varlı şah oldu.

## 5. ŞAH İSMAYIL

Biri vardı, biri yoxdu, Allahdan başqa bir kimsə yoxdu. Bir vilayətdə şah Abdulla adında bir şah vardı. Şah Abdulla var-dövləti, qoşunu, gücü, qüvvətilə çox məşhur idi. Odur ki, hamı ondan qorxurdu. Şah Abdullanın gözünün ağı-qarası Şah İsmayıl adında bir oğlu vardı.

Şah İsmayıl on altı yaşına gəlib çatanda o da atası ilə bərabər davalarda qılınc çaldı, at oynatdı, bərkdən-boşdan çıxdı, ad qazandı. O, atın belində meydana çıxıb qılınc oynadanda heç kim ürək edib onun qabağına çıxa bilmirdi. Şah Abdulla da oğlunun döyüşə, savaşa həvəsini görüb, qonşu vilayətlərdəki şahlarla müharibə edir və oğlunu da özü ilə aparırdı.

Şah İsmayılın bir şakəri də vardı, o da şikar idi. Günlərin bir günü o, yenə şikara çıxmışdı, bir də gördü ki, bir maral qabağınca qaçır. O, atına bir qamçı vurub maralın arxasınca atını çapmağa başladı. Şah İsmayıl maralı diri tutmaq istəyirdi. Maral qaçhaqaç gəlib gözəl, yamyaşıl, bağlı-bağatlı bir düzənliyə çıxdı. Düzənliyin ortasında bir gözəl saray vardı. Sən demə, bu saray çariçə Pərinin sarayı imiş. Elə bu vaxt çariçə Pəri sarayın həyətində gəzirdi. Şah İsmayıl qızı görən kimi maralı buraxıb qıza tamaşa eləməyə başladı. Pəri xanım onu görən kimi onun məğlubedilməz qəhrəman Şah İsmayıl olduğunu bilib tanıdı və kənizlərindən birini göndərdi ki, onu yanına çağırsın. Şah İsmayıl atını sürüb onun yanına gəldi. Pəri xanım dedi:

– Bu vaxtadək bir çox şah və pəhləvanlara əlimdən tutmaq şərəfini layiq bilməmişəm, əgər bu görüşdən sonra sən məni tapa bilsən, sən ona layiq olacaqsan. Budur, başmaq və üzüyümü sənə xatirə kimi verirəm.

Şah İsmayıl Pəri xanımdan ayrılıb əhvalı pozulmuş halda saraya qayıtdı. Atası onu belə kədərli, qəm-qüssə içində olduğunu görüb, nə olduğunu xəbər aldısa da, o, bir söz demədi.

Şah İsmayıl çox düşünüb daşındıqdan sonra atasının yanına gəlib, əhvalatı ona nəql etdi. O, Pəri xanımın dalınca getmək üçün atasından rüxsət istədi. Şah Abdulla əvvəl razı olmadı, sonra oğluna xeyir-dua verib yola saldı.

Sevgilisi Pəri xanımı axtarıb tapmaq üçün yola çıxan Şah İsmayıl az getdi, üz getdi, dərə-təpə düz getdi, gəlib bir düzəngah yerə çatdı. O, burada çox gözəl bir ev gördü, evə girmək istədi, amma qapını tapa bilmədi. O hirslənib qılıncını siyirdi və evi iki yerə böldü. Şah İsmayıl evə girib gözəl bir qız gördü. Bu qıza görə bir çox padşahlar onun hər biri bir qoşuna bərabər olan yeddi qardaş ilə müharibə etmişdilər. Qız önündə özü kimi bir gözəl oğlanı görüb, o saat ona vuruldu, onu qonaq saxladı, qoymadı ki, gecə vaxtı yola çıxsın. Şah İsmayıl onun dediyinə razılıq verdi, o, burada qalıb qızla söhbət etdi. Qız ona başına gələnləri nəql edib xəbər verdi ki, qardaşları indi onun üstündə Şah Verdi ilə müharibə edirlər.

Şah İsmayıl gecəni dincəlib səhər tezdən atına minib döyüş meydanına yola düşdü. O, gəlib gözəl qızın qardaşlarına kömək etməyə başladı, çox keçmədi ki, birlikdə Şah Verdinin qoşununu qırıb çatdılar. Sonra qardaşlar Şah İsmayılla bərabər öz evlərinə gəlib gördülər ki, evləri ortadan iki yerə bölünüb. Bacıları onlara hal-qəziyyəni nəql etdi, onlar bacılarını Şah İsmayıl kimi pəhləvana verməyə razı oldular.

Şah İsmayıl qızı da götürüb Pəri xanımı axtarmağa yola düşdü. Bir xeyli yol gedəndən sonra bir ərəb onların yolunu kəsdi. Şah İsmayıl həmin ərəblə döyüşə başladı. O, ərəbi yerə yıxıb elə öldürmək istəyirdi ki, ərəb onu dayandırdı və xahiş etdi ki, sinəsini açsın. Şah İsmayıl ərəbin sinəsini açanda gördü ki, o, qızdır. Şah İsmayıl onu da özünə arvad edib, hər iki arvadı ilə yoluna davam etdi.

Onlar az getdilər, üz getdilər, dərə-təpə düz getdilər, axırı gəlib Pəri xanımın gizləndiyi bir şəhərə çatdılar. Şah İsmayıl Pə-

ri xanımın olduğu evə getdi, orada bir neçə gün qalandan sonra Pəri xanım və iki arvadı ilə atasının vilayətinə yola düşdülər.

Şah Abdulla oğlunu gözüyaşlı şəhərin qapısında qarşıladı. Bir müddət keçəndən sonra atanın oğluna paxıllığı tutdu ki, nə üçün bir vaxt o, Pəri xanımı özünə arvad edə bilməmişdi. Odur ki, oğlunun başını birtəhər batırmaq üçün tədbirlər fikirləşməyə başladı. Bir gün o, oğlunun üstünə bir nəfər göndərdi ki, gedib onun gözlərini çıxartsın və özünü də çölli-biyabana atsın. Həmin adam gedib Şah Abdullanın əmrini yerinə yetirdi.

Bundan sonra Şah Abdulla Pəri xanımı öz yanına gətizdirdi. Amma Pəri xanım ona əl vermədi. Bir gün Pəri xanım sarayın qabağındakı bağda fikirlərə, dərdə-qəmə qərq olub gəzərkən Şah İsmayılın ikinci arvadı hardansa at belində peyda oldu. Pəri xanımı tərkinə mindirib apardı ki, öz oğlunu öldürən ataya qismət olmasın. Şah bu xəbəri eşidib çox qeyzləndi, onun üstünə bir böyük atlı dəstəsi göndərdi ki, gözəl Pəri xanımı geri qaytarsın.

Bunlar burada qalmaqda olsunlar, görək Şah İsmayıl nə oldu. Bu vaxt bir qarğa gəlib Şah İsmayılın sinəsinə qondu, sonra onun çıxarılmış gözlərini tapıb yerinə qoydu, iki dağ arasındakı bulaqdan abi-həyat suyu gətirdi. Bu suyu çox az adam gətirə bilirdi, çünki həmin bulağın yanında bir əjdaha vardı. Qarğa suyu gətirib bir hissəsini onun gözlərinə tökdü, onun gözləri yenidən görməyə başladı.

Şah İsmayıl dirilib atasının xəyanətini yadına saldı və ondan intiqam almaq qərarına gəldi.

O, atasının vilayətinə yaxınlaşanda gördü ki, şahın qoşunu onun ikinci arvadı ilə vuruşur. O, arvadına kömək üçün atı sürüb onun yanına gəldi. Ər-arvad birlikdə Şah Abdullanın qoşununu qırıb saraya gəldilər, atasını öldürüb taxtına çıxıb şah oldu. Şah İsmayıl ölənədək şahlıq etdi.

Göydən üç alma düşdü, biri mənim, biri özümün, biri də

nağıl söyləyənin, mən sağ-salamat yüz yaşayım, siz iki əlli, hansı çoxdu, siz götürün, qalanını mənə verin.

## 6. ŞƏRİF

Biri vardı, biri yoxdu, bir varlı-dövlətli bir adam vardı. Onun üç oğlu vardı, kiçik oğlunun adı Şərif idi. Ata ölüm ayağında oğlanlarına vəsiyyət etdi ki, onlardan hər biri üç gecə növbə ilə onun qəbrinin qaravulunu çəksinlər.

Ataları öləndən sonra birinci gecə böyük oğul qəbiristanlığa atasının qəbrinin qaravulunu çəkməyə getdi, amma o, yarı yoldan dönüb sevgilisinin yanına yollandı. Sən demə, kiçik qardaş Şərif bunu görür, atasının qəbri nəzarətsiz qalmasın deyə özü onun qaravulunu çəkməyə gedir. Gecəyarısı qara libaslı, əlində siyirmə qılınc bir nəfər at belində qəbirə yaxınlaşır və mərhumu yamanlamağa başlayır. Şərif onunla döyüşə başlayıb onu öldürür, sonra onun atını, libas və silahını götürüb yeraltı mağarada gizlədir, səhər isə evə qayıdır. Halvəziyyətdən heç kimə bir söz belə deməyir. Böyük qardaş da sevgilisinin yanından evə gəlib qardaşlarına deyir ki, qəbiristanlıqda bir kimsəni görməyib.

İkinci gecə ortancıl qardaş qəbiristanlığa atasının qaravulunu çəkməyə gedir. O da yoldan qayıdıb sevgilisinin yanına əlisilahlı yollanır. Qaravula isə yenə kiçik qardaş gedir. Gecəyarısı ağ libaslı bir adam atın belində qəbirə yaxınlaşır, o da mərhumu yamanlamağa başlayır. Şərif bu adamı da öldürür, onun libasını, atını yeraltı mağarada gizlədir. Səhər ortancıl qardaş da evə qayıdır və o da deyir ki, atasının qəbiri üstündə bir şey görməyib.

Üçüncü gecə növbə Şərifin idi və o, atasının qəbrinin qaravulunu çəkməyə gedir. Gecəyarısı əlində silah göy libaslı bir adam, göy atın belində qəbirə yaxınlaşıb mərhumu yaman-

lamağa başlayır. Şərif onu da öldürür, onun atını, silah və libasını yeraltı mağarada gizlədir. O, səhər evə gəlib qardaşlarına bir söz də deməyir.

Bu vaxt bir padşah əmr edir ki, vilayətinin bütün şəhər və kəndlərinə car çəksinlər ki, cavan oğlanlar öz atları ilə sarayın qabağındakı meydana yığışsınlar. Padşah car çəkdiyi gün cavan oğlanlar at belində meydana yığışdılar. Şərifin qardaşları da meydana getdilər. Özü isə qəbiristanlıqda atları, libasları və silahları gizlətdiyi yeraltı mağaraya gəldi. O, ağ libas geyinib ağ ata mindi və əlində silah meydana yola düşdü. Bu padşahın üç gözəl qızı var idi, padşah əhd etmişdi ki, kim at belində yüz əlli sayın enindəki xəndəyin üzərindən atlanıb keçsə, böyük qızını həmin adama verəcək. Çoxları padşahın qabağında özlərini göstərmək istədilərsə, olmadı. Şərif hamını öz arxasında buraxdı. O, atının belində asanlıqla xəndəyi atlayıb keçdi və padşahın böyük qızını özü ilə götürdü. Nə qardaşları, nə də bir kimsə onu tanımadı. Şərifin qardaşları evə gəlib meydanda olan hal-qəziyyəni ona nəql etdilər.

Ertəsi gün meydana yenə çoxlu cavanlar, o cümlədən Şərifin qardaşları da gəldilər. Bu dəfə Şərif göy atın belində, göy libasda və əlində silah gəlib yenə də hamını ötüb keçdi və padşahın ortancıl qızını da özü ilə götürdü.

Üçüncü gün yenə də meydan dolu idi, bu dəfə padşahın kiçik qızının taleyi həll olunmalı idi. Bu qız özünün böyük bacılarından daha gözəl idi. Əlqərəz, Şərif bu qızı da özü ilə götürüb apardı. Padşah heç özü də bilmədi, qızları kimə qismət oldu.

Ertəsi gün Şərif qardaşlarına dedi ki, birlikdə qəbiristanlığa getsinlər. Qardaşlar razı oldular. Şərif onları yeraltı mağaraya gətirəndə onlar üç gözəl şahzadə qızı və üç gözəl atı görüb heyran oldular. O, burada qardaşlarına hal-qəziyyəni nəql edəndən sonra böyük qızı böyük qardaşına, ikinci qızı ortancıl qardaşına verdi, kiçiyi isə özünə saxladı.

Qardaşlar Şərifin bu işlərini görüb ona həsəd apardılar, bir bəhanə axtarmağa başladılar ki, onun başını batırsınlar.

Günlərin bir günü səhər vaxtı onların üçü də şikara çıxdılar. Bu vaxt pəhləvan Qaradan Şərifin evinə gəlib onun arvadından su istədi. O, su içdikdən sonra birdən Şərifin arvadını tutub özü ilə apardı. Çox keçmədən qardaşlar şikardan qayıtdılar. Şərif arvadının qaçırıldığını öyrənib onu axtarmaq üçün baş götürüb getdi.

Şərif doqquz gün, doqquz gecə gəzib dolaşdıqdan sonra yolda bir qarıya rast gəldi, başına gələnləri ona nəql etdi. Qarı onun başına gələnləri bilib dedi ki, arvadını boşuna axtarmasın, onu dənizin ortasında yaşayan pəhləvan Qaradan aparıb. Şərif qarının sözünə baxmayıb yelqanad atının belində yoluna davam etdi. Birdən üç pəhləvan onun yolunu kəsdi. Şərif onlarla vuruşub üçünü də öldürdü. Bu vaxt pəhləvanların evindən onların üç gözəl arvadı çıxdı. Onlar Şərifin gözəlliyinə vurulub ondan təvəqqe etdilər ki, heç olmasa, bir gecəni onların yanında qalsın. Şərif razı oldu və ertəsi gün səhər tezdən yola çıxdı, axır gəlib dənizə çatdı. Dənizin ortasında pəhləvan Qaradanın gözəl evi görünürdü. Şərif atını dənizə sürüb Qaradanın evinə gəldi. O, Qaradanla vuruşub onu öldürdü, sevgilisi ilə orada qalıb şad-xürrəm yaşamağa başladı.

Göydən üç alma düşdü, biri mənim, biri sənin, bir də bacadan baxanın.

## 5-ci buraxılış, 1886-cı il

## KALAŞEV NIKOLAY. BAKI QUBERNİYASI, CAVAD QƏZASININ SALYAN QƏSƏBƏSİ

## İNANCLAR-SINAMALAR

– Əgər səhər tezdən qarşına molla çıxarsa, həmin gün sənin üçün uğursuz olacaq.

– Əgər səhər erkən birisi yola çıxanda dovşana rast gələrsə, həmin gün onun üçün uğurlu olar.

– Qarşıya çıxan qoyun sürüsünün arasından keçib getmək işlərin uğursuz olacağından, mal-qara naxırının arasından keçmək isə uğurlu olacağından xəbər verir.

– Əgər yolda ilana rast gəlsəniz, onu öldürüb iki yerə bölsəniz və sonra bir yarısını yolun bir tərəfinə, digərini isə yolun qarşı tərəfinə atsanız, bu, çox yaxşı olacaq və həmin gün sizin üçün uğurlu olacaqdır.

– Gün uğurlu olsun deyə, səhər evdən çıxanda başqa tərəfə getməli olsan belə əvvəlcə az da olsa, üzü cənuba tərəf getməlisən, sonra isə getməli olduğun tərəfə yönəlməlisən.

– Əgər birisi hər hansı bir iş barədə söhbət vaxtı bir dəfə asqırdısa (səbr gətirərsə), bu, uğursuzluq, əgər iki dəfə asqırarsa, uğur deməkdir.

– Əgər birisi yola çıxmağa hazırlaşarkən kiminsə bir dəfə asqırdığını eşitsə, həmin adam öz səfərini təxirə salmalıdır.

Xəstəliyə qarşı kiçik köhnə əski parçalarını xəstənin başı ətrafında dolandırırlar, sonra aparıb müqəddəs bildikləri yerlərdəki daş və kolları onlarla sarıyırlar.

Göyçay ikiillik normal məktəbinin nəzarətçisi Nikolay Kalaşev.

*Göyçay kəndi, 1884-cü il.*

## 6-cı buraxılış, 1888-ci il

# ZAXAROV A. ZAQAFQAZİYA TATARLARININ XALQ NAĞILLARI

## 1. VİCDANLI VƏ VİCDANSIZ İKİ TACİRİN NAĞILI

Belə nəql edirlər ki, keçmiş vaxtlarda iki tacir vardı, hər ikisi var-dövlətli, adlı-sanlı və hörmətlidirlər. Lakin birinin var-dövləti təmiz, o birininki isə əyri yolla qazanılmışdı. Biri Allahı sevir, o birisi isə şeytanı, biri kasıblara kömək edir, o birisi əksinə, onları incidir, qarət edir, birinin sinəsində can və vicdan varıydısa, o birisinin sinəsinin üstündə ilanlar qıvrılırdılar.

Bir dəfə bu iki tacir öz aralarında mübahisə etdilər ki, hansı var-dövlət yaxşıdır, düz yolla, yoxsa əyri yolla qazanılmış var-dövlət? Vicdanlı tacir deyirdi ki, yalnız təmiz yolla qazanılmış var-dövlət əsl, həqiqi var-dövlət sayıla bilər. Vicdansız tacir isə əksini deyirdi. Nəhayət, vicdansız tacir dedi:

– Çox boş yerə danışdıq, gəl gedək üç nəfərdən xəbər alaq, əgər onlar səninlə razılaşsalar və desələr ki, təmiz yolla qazanılmış var-dövlət əyri yolla qazanılmışdan yaxşıdır, onda mən bütün var-dövlətimi sənə verəcəyəm, yox, əgər onlar mənimlə razılaşsalar, onda sən bütün var-dövlətini mənə verəcəksən.

Vicdanlı tacir özünün haqlı olduğuna tam əmin olduğu üçün razı oldu, əl-ələ verib rəylərini bilmək üçün üç nəfər axtarmağa getdilər. Azmı getdilər, çoxmu getdilər, bunu Allah bilir, bəlkə, bir gün, bəlkə, iki gün, bəlkə, üç gün, bəlkə də, bir il getdilər, ancaq o vaxtadək getdilər ki, onlara tərəf qaçan yeddi yaşlı bir oğlanı gördülər, onlar onu saxladılar və xəbər aldılar:

– Oğlan, sən necə düşünürsən, əyri yolnan qazanılan var-dövlət yaxşıdır, yoxsa düz yolnan?

Oğlan cavab verdi:

– Mən düşünürəm ki, əyri yolnan qazanılmış var-dövlət

düz yolla qazanılmışdan yaxşıdır.

Vicdanlı tacir çox təəccübləndi:

– Bu necə ola bilər ki....

Lakin oğlan ona sözünü bitirməyə imkan verməyib qaçıb getdi.

Hər iki tacir yollarına davam etdilər, çoxmu getdilər, azmı getdilər, Allah bilir. Bəlkə, bir gün, bəlkə, iki gün, bəlkə, üç gün, bəlkə də, bir il yol getdilər. Onlar o qədər getdilər ki, tarlada işləyən bir gəncə rast gəldilər.

Tacirlər ondan da xəbər aldılar:

– Sən necə düşünürsən, düz yolla, ya əyri yolla qazanılmış var-dövlət yaxşıdır?

Gənc oğlan düşündü-daşındı və axırda dedi:

– Mən düşünürəm ki, əyri yolla qazanılmış var-dövlət düz yolla qazanılmışdan daha yaxşıdır.

Vicdanlı tacir dedi:

– Bu necə ola bilər ki...

Lakin gənc oğlan ona sözünü bitirməyə imkan verməyib dönüb getdi və işinə davam etdi.

Belə olduqda vicdansız tacir dedi:

– Mənə elə gəlir ki, iki şəxsin şahidliyi səni rəyinin tutarsızlığına inandırdı. Əbəs yerə gəzib dolaşmaqdansa, ən yaxşısı evə gedək və sən var-dövlətini mənə ver.

Vicdanlı tacir dedi:

– Yox, hələ bir az da dolaşaq, bəlkə, bir qoca kişi görərik, onun da rəyini bilərik, əgər o da səninlə razılaşsa, mən bütün var-dövlətimi sənə verəcəyəm.

Razılaşdılar və yollarına davam etdilər. Azmı, çoxmu yol getdilər, Allah bilir, onlara tərəf gələn, əldən düşmüş bir qoca kişini gördülər, o, əlindəki ağaca söykənərək ayaqlarını güclə çəkirdi.

Vicdanlı tacir onu salamlayaraq dedi:

– Salaməleyküm, baba, sən necə düşünürsən, düz yolla qazanılmış var-dövlət yaxşıdır, yoxsa əyri yolla qazanılmış var-dövlət?

Qoca kişi düşündü və axırda cavab verdi:

– Mən düşünürəm ki, əyri yolla qazanılmış var-dövlət düz yolla qazanılmışdan daha yaxşıdır.

Vicdanlı tacir çox təəccübləndi, əldən düşmüş bu qoca kişiyə dedi:

– Baba, bir düşün, əyri yolnan qazanılmış var-dövlət düz yolla qazanılmş var-dövlətdən necə yaxşı ola bilər?

Onda qoca kişi dedi:

– Oğul, sən mənim rəyimi bilmək istədin və mən də sənə cavab verdim. Sən başqa cür düşünə bilərsən. Mən isə düşünürəm ki, biri o birindən pisdir.

Vicdansız tacir dedi:

– İndi artıq fikir söyləməyə ehtiyac yoxdur. Sən mərci uduzdun, gedək, bütün var-dövlətini mənə ver.

Onlar evə qayıtdılar. Yazıq tacir özünün bütün var-dövlətini vicdansız tacirə verdi, özü isə qəpiksiz, bir parça çörəksiz qaldı. Vicdanlı tacir pulsuz-parasız və bir parça çörəksiz qalaraq dedi:

– Allahım, şükürlər olsun sənə, şərəfsizliyi şərəfdən uca tutan insanları sən xəlq etmisən...

Var-dövlətindən, hər şeyindən məhrum olan vicdanlı tacir tanış olmayan bir şəhərə getmək fikrinə düşdü ki, gedib orada dilənçiliklə həyatını sürsün. O, şələ-küləsini, dilənçi çantasını da yığıb yola düşdü. Yolda vicdansız tacir onu görüb qımışdı və rişxəndlə dedi:

– Get, yazıq dilənçi, görünür, vicdanlı olmaq sənə çox kömək etmişdir. Vicdanını daha yaxşı günlər üçün saxla, bəlkə də, işinə yarayar.

Vicdanlı tacir isə öz yolu ilə getdi, çoxmu getdi, azmı

getdi, bunu Allah bilir, yalnız axşam dənizin sahilinə çatdı. Dənizin sahilində köhnə, yarıdağılmış bir gəmi gördü. O, bu gəmiyə qalxdı, burada axşam namazı qıldı, bir kayuta girdi. Kayutun bir küncündə bir qucaq saman tapıb uzandı və o saat dərin yuxuya getdi. Birdən gecənin ortasında gəmidə qorxunc səs-küy qalxdı. O, səs-küyə oyandı, səs-küyün qonşu kayutdan gəldiyini eşitdi, ehtiyatla, səssiz-səmirsiz qonşu kayutun qapısına yaxınlaşdı, qapıdakı çatdan içəri baxanda bərk qorxuya düşdü. İçəridə gördüyü nə insanlara, nə də heyvanlara bənzəyirdi, onlar çox eybəcər idilər, buynuzları üzərində zınqırovları cingildəyir, uzun quyruqları, tərs üzünə çevrilmiş uzun qulaqları var idi. Üzdən itə bənzəyirdilər. Vicdanlı tacir o saat anladı ki, bunlar insan deyil, şeytandırlar, görünür, burada yığışıb-görüşürlər. Şeytanlar isə ora-bura qaçışır, min bir oyundan çıxır, gah pişik kimi miyoldayır, gah da it kimi hürürdülər. Bu vaxt qapılar açıldı və çox çirkin bir şeytan − onların başçısı Xudat içəri girdi, bütün şeytanlar sakitləşdilər. Şeytanlar ehtiramla ona baş əyib, təzim etdilər. O, özü üçün əvvəlcədən hazırlanmış taxtda oturub şeytanlardan xəbər aldı ki, onlar bu gün nə kimi işlər görüblər, kimi məhv ediblər, kimin evini dağıdıblar, kimə ev tikiblər?

Şeytanlar növbə ilə ona yaxınlaşıb, baş əyib danışmağa başlayırdılar. Şeytanların biri danışmağa başladı:

– Mən bu gün çayın kənarında suya tərəf əyilmiş bir cavan qız gördüm, qız kuzə ilə çaydan su doldururdu, mən qızı suya itələdim o, suya düşüb boğuldu.

Başqası nəql elədi:

– Bir oğlan uşağı dolu tüfənglə oynayırdı, mən tüfəngin ağzını onun sinəsinə yönəltdim, tətiyi çəkdim, tüfəng açıldı və güllə düz oğlanın ürəyinə tuş gəldi, o öldü. Onun ata və anası dərd içindədirlər.

Üçüncü şeytan dedi:

– İki dost üç aşıq oyunu oynayırdılar. Mən onların oyununa qarışdım, onlar dalaşdılar, söyüşdülər, vuruşdular və axırda bir-birini xəncərlə öldürdülər.

Dördüncü şeytan dedi:

– Mən hörmətli bir hacıya bir kuzə çaxır hədiyyə göndərdim, o, huşunu itirənədək içib sərxoş oldu, davakarlıq etdi, qonşularını, arvad-uşağını, tanışlarını söyməyə başladı, axırda qardaşı ilə dalaşdı və onu öldürdü. O, özünə gələndə artıq gec idi, onu tutub zindana saldılar.

Beşinci şeytan dedi:

– Bir vilayətdə, bir şəhərdə ərlə arvad çox yaxşı, mehriban bir şəraitdə yaşayırdılar ki, qonşu və tanışları onlara həsəd aparırdı. Bu mənim acığıma gəlirdi. Mən onların qəlbinə nifaq toxumları səpdim. Ər arvadını qısqanmağa, sonra isə onu vurmağa, söyməyə və hər cür əziyyət verməyə başladı və axırda onu o vəziyyətə çatdırdı ki, arvadı bir lotu ilə əlaqəyə girdi. Bir dəfə kişi evinə gələndə arvadını lotunun qucağında gördü və ər arvadını öldürdü.

Altıncı şeytan dedi:

– Mən isə bir vicdanlı və bir vicdansız taciri mübahisə etməyə məcbur etdim. Hansı var-dövlət daha yaxşıdır? Düz yolla, yoxsa əyri yolla qazanılmış var-dövlət? Onlar özlərinin bütün var-dövlətini mərc etdilər, mən vicdansız tacirə kömək etdim ki, vicdanlı tacirdən mərci udsun. Vicdansız tacir mərci uddu və vicdanlı tacir bütün var-dövlətini ona verdi və özü isə bir parça çörəksiz və pulsuz qaldı.

Beləliklə, şeytanlardan hər biri özlərinin etdikləri işlərdən danışırdılar. Axırda axırıncı şeytan Xudata yaxınlaşıb danışmağa başladı:

– Bir vilayətdə, bir padşah yaşayır və bu padşahın gözəl-göyçək, ağıllı-kamallı tək oğlu var. Padşah da, rəiyyəti də onu mərhəmətinə, xeyirxahlığına görə çox sevir. Mən bu gün o

şəhərdə oldum və onu məhv etmək qərarına gəldim, o, günorta namazından qabaq su içəndə mən onun ağlını oğurladım. Onun atası və bütün xalq qəm-qüssə içindədir, hamı ağlayır, onun ağlını oğurlamış şeytanı lənətləyirlər. Çox məşhur həkim və loğmanları, cindarları sehirbazları çağırıblar, heç kim dəli şahzadəyə kömək edə bilmir.

Şeytanların başçısı xəbər aldı:

– Deməli, o, ömrü boyu ağılsız qalacaq?

– Yox, mən onun ağlını sevimli bir qara ov itinin başında gizlətmişəm. Əgər iti öldürəndən sonra onun beynini çıxarıb su ilə qarışdırsalar və şahzadəyə içməyə versələr, yalnız onda sağalar.

Şeytanların başçısı Xudat öz şeytanlarını təriflədi və onlara bəzi məsləhətlər verib çıxıb getdi, onun dalınca başqa şeytanlar da çıxıb getdilər, çünki hava artıq işıqlanmağa başlayırdı, məlumdur ki, şeytanlar işıqlı günü sevmirlər.

Vicdanlı tacir isə bütün bu vaxtı qapının arxasında durub onların söhbətlərini diqqətlə dinlədi. O, şahzadənin necə dəli olduğunu eşitdi və onu necə müalicə etməyi də öyrəndi. O, Allaha ürəkdən şükürlər edib sabah namazını qıldı və dəli şahzadənin yaşadığı şəhərə üz tutdu. Hələ şəhərə çatmamış, o, başdan-ayağa qara libaslar geyinmiş çoxlu adamlar gördü, şəhər səmtindən isə səs-küy, ağlaşma səsləri, itlərin hürüşməsi, mis qabların səsləri, təbil səsləri eşidilirdi, sanki şəhərdə qara xəstəlik tüğyan edir və padşahı basdırırdılar. Şəhərə çatan kimi vicdanlı tacir bir dükanın qarşısında yer tapıb oturdu və dükançıdan xəbər aldı:

– Hörmətli tacir, bir de, sizin şəhərdə nə baş verib, nə bədbəxtlik üz verib ki, adamlar belə səs-küy salıblar, qışqırırlar, ağlayırlar, təbillər çalınır?

Dükançı dedi:

– Əgər sən məndən bunu xəbər alırsansa, deməli, sən

buralı deyilsən. Məgər sən eşitməmisən ki, bizim sevimli şahzadəmiz ağlını itirib? Bax indi sən gördüyün kimi şəhərin yarısı ağlayır, digər yarısı isə səs-küy salır, qışqırır, tüfəng atır, təbillər çalır ki, şahzadənin ağlını çaşdıran şeytanı qorxutsunlar və qovsunlar.

– Bəs nədən padşah həkimləri, cindarları çağırmır? Axı onlar şahzadəni sağalda bilərdilər.

– Necə çağırmır? Padşah bütün məşhur həkimləri, cindarları çağırdı, lakin heç kim şahzadəni sağalda bilmədi. Padşah hətta öz çarlığının yarısını onu sağaldana vəd edir, lakin kömək edən bir kimsə yoxdur.

Vicdanlı tacir yerindən qalxdı, dükançıya təşəkkür edib düz birbaşa padşahın sarayına getdi. O, orada vəzir və vəkilləri gördü, onlar qapının yanında oturub ağlayırdılar. Vicdanlı tacir onlara yaxınlaşdı, təzim etdi və salamlaşdı. Vəzirlərdən biri ondan xəbər aldı:

– Sənə nə lazımdır?

O dedi:

– Mən padşahı görmək istəyirəm.

Vəzir təəccüblə dedi:

– Məgər sən bilmirsən ki, şahzadəyə üz vermiş bədbəxtliyə görə padşah öz otağından çıxmır və heç kimə görsənmir. Yaxşı insan, yaxşısı budur ki, öz yolunla çıx get, bizə də ağlamağa mane olma!

O dedi:

– Mən padşahı görmək və ona demək istəyirəm ki, mən şahzadəni sağaldacağam.

Vəzir və vəkillər onun sözünə gülümsəyib dedilər:

– Dünyanın ən yaxşı təbibləri onu sağalda bilməyəndə sən onu necə sağaldacaqsan?

– Baxıb görərsiniz, mən onu necə sağaldacağam, məni padşahın yanına aparın.

Axırda vəzirlərdən biri dedi:

– Bəlkə, o doğrudan da, düz deyir, bəlkə, o, şahzadəyə kömək edə biləcək bir çarə bilir. Gedək padşaha deyək.

Onlar da razı oldular və padşahın yanına getdilər. Padşah göz yaşları içində idi. Onlar hal-qəziyyəni padşaha nəql etdilər. Padşah əmr etdi ki, taciri onun yanına gətirsinlər. Vəzir və vəkil dərhal padşahın əmrini yerinə yetirdilər. Tacir padşahın hüzurunda baş əyib təzim edib onun libasının ətəyindən öpdü. Padşah ondan xəbər aldı:

– Sən mənim oğlumu sağalda bilərsən?

O, dedi:

– Allahın köməyilə ümid edirəm ki, sənin oğlunu sağaldacağam.

Padşah dedi:

– Əgər sən onu sağaltsan, ağlı başına qayıtsa, mən sənə çarlığımın yarısını hədiyyə edəcəyəm.

Vicdanlı tacir dedi:

– Allah-Təala uzun illər sənin çarlığını qorusun. Mənə heç bir hədiyyə, mükafat lazım deyil. Mən mükafatsız da sənin oğlunu sağaldacağam. Qibleyi-aləm, məni oğlunun yanına apar və nökərlərinə əmr et ki, onlar mənim bütün əmrlərimi yerinə yetirsinlər.

Tacir bildirdi ki, şahzadənin sevimli qara itini ona gətirsinlər. O, öz əlləri ilə iti öldürdü, onun beynini çıxartdı, su ilə dolu kasaya qoyub içmək üçün şahzadəyə verdi. Şahzadə suyu içəndə o saat sakitləşdi və yuxuya getdi. Ertəsi gün isə şahzadə yuxudan ayılanda tacir ona suyun qalığını verdi. Şahzadə içdi, ağlı başına qayıtdı və o, əvvəlki kimi ağıllı, xeyirxah şahzadə oldu, hətta əvvəlkindən də yaxşı. Tacir onu padşahın yanına apardı. Padşah oğlunu sapsağlam gördükdə sevincindən ağladı. O, taxtından düşdü və tacını tacirin başına qoymaq istədi və dedi:

– Sən padşah olmağa layiqsən və mən çarlığımın yarısını sənə bağışlayıram.

Vicdanlı tacir padşahın ayaqlarına düşüb dedi:

– Qibleyi-aləm, mən adi adamam və təxt-taca layiq deyiləm, o sənə məxsusdur və Allah tərəfindən sənə verilib, səndən başqa heç kim ona toxunmamalıdır.

Padşah onun gözütoxluğunu görüb onu qucaqlayıb öpdü və vəzir-vəkillərinə əmr etdi ki, xəzinənin qapılarını ona açsınlar və xəzinədən hər nə istəsə, götürsün. Tacir xəzinədən bir qəpik də götürmədi. Onda padşah əmr etdi ki, tacir üçün iki qayığa qızıl, iki qayığa gümüş və iki qayığa qiymətli daş-qaş yükləsinlər. Padşah həmçinin ona gözəl atlar və qullar da bağışladı.

Vicdanlı tacir öz şəhərinə geri qayıdanda mənzilbaşına çatmamış həmin vicdansız taciri gördü. O, vicdanlı tacirin əvvəlkindən artıq var-dövlətini, cah-cəlalını görüb gözlərinə inanmadı, ona baxıb xəbər aldı:

– Məgər sən öz var-dövlətini mənə uduzmuş vicdanlı tacir deyilsən?

O cavab verdi:

– Bəli, mən həmin vicdanlı tacirəm.

– Axı sən onda qəpiksiz qaldın, indi isə səndə belə var-dövlət vardır.

Vicdanlı tacir dedi:

– Allah vermişdir. Mən bir çuval kişmiş aldım və onu dənizin sahilinə apardım. Orada mən köhnə, dağılmış bir gəmi gördüm. Gəmiyə çıxıb çuvaldakı bütün kişmişi dənizə boşaltdım, balıqlar kişmişi yedilər və mənə indi gördüyün bu var-dövləti gətirdilər.

Vicdansız tacir öz-özünə dedi:

– Bu yaxşıdır. Əgər o, yalnız bir çuval kişmiş aparmışdısa, mən qırx çuval kişmiş aparacağam və qırx dəfə çox qazanacağam.

O, doğrudan da, qırx çuval kişmiş aldı, çarvadar tutdu, onların atlarını kişmişlə yüklədi və dənizin sahilinə yola düşdü. Tacir orada köhnə bir gəmi gördü, çarvadarlar kişmiş çuvallarını gəmiyə qaldırdılar, sonra o, çarvadarları buraxdı ki, getsinlər, onun nə etdiyini görməsinlər. Hava qaralanda o, çuvalları açdı və kişmişləri dənizə boşaltdı. Özü isə əlində boş çuvallarla gözləməyə başladı ki, balıqlar indi gələcək və onun çuvallarını gətirdikləri qızıl və qiymətli daşlarla dolduracaqlar. Birdən o, səs-küy eşitdi və arxaya dönüb şeytanların gəmiyə qalxdığını gördü. Qorxudan başındakı saçları belə dik qalxdı. O, tez əlindəki boş çuvalları bir küncə atdı və çuvalların altında gizləndi. Şeytanlar yenə min oyundan çıxdılar, onların başçısı Xudat gələndə sakitləşdilər. O, şeytanlardan gördükləri işlər barədə xəbər alanda şahzadənin ağlını oğurlayan həmin şeytan irəli çıxıb dedi:

– Mən bu gün ağlını oğurladığım şahzadəni gördüm, onun sapsağlam, ağlı başında olması qanımı qaraltdı. Görünür, o gecə mən sizə bu haqda məlumat verəndə insanlardan kimsə bizim söhbətə qulaq asırmış və mənim haqqında danışdığım vasitədən istifadə etmişdir.

Şeytanların başçısı şeytanlara dedi:

– Axtarın, bəlkə, yenə kimsə gəmidə gizlənmişdir.

Şeytanlar gəmini ələk-vələk edib axtardılar və çuvalların altında gizlənmiş vicdansız taciri tapdılar. Onlar onun ayaqlarından tutub çəkdilər, döyüb dənizə atdılar.

Ertəsi gün çarvadarlar nə taciri, nə də kişmişlə dolu çuvalları tapdılar.

Göydən üç alma düşdü: biri mənə, digəri söyləyiciyə, üçüncüsü də dərviş Mustafaya (söyləyicinin adı).

## 2. TALEDƏN QAÇA BİLMƏZSƏN

Biri var idi, biri yox idi, cavan bir şahzadə var idi. Bir gün o, vəzir-vəkillərlə ova getməli olur. Ovda bir ceyranın dalınca düşüb qovhaqov yoldaşlarından aralanır, onlardan o qədər uzaq düşür ki, yoldaşlarını gözdən itirir.

Şahzadə öz vəzir-vəkillərinin yanına getmək istəyəndə birdən baxıb görür ki, yolu azıbdır, qabağında qaranlıq meşə, arxasında isə nə ins-cins, nə də bir heyvan ayağı dəymiş geniş düzəngah var. Bir ətrafına baxdı, bir o tərəfə, bir bu tərəfə baxdı, nə bir yol, nə də bir iz görmədi. Bu arada da hava qaralmağa başladı.

Şahzadə Allaha təvəkkül edib, atını meşəyə sürdü. Atını bir ağaca bağladı, özü isə ağacın altında dincini almağa oturdu. Xurcunundan tapdığı çörək, nemətdən yedi, namaz qılıb yatdı.

Ertəsi gün səhər yuxudan qalxdıqda meşənin bir tərəfindən nazik tüstü qalxdığını gördü, bildi ki, haradasa bu yaxınlarda ev var. O, tez yerindən durdu, atının yüyənindən tutub tüstüyə tərəf getdi. Bir neçə addım atdıqdan sonra bir kiçik evə rast gəldi. Atını ağaca bağlayıb ehtiyatla evə girdi ki, görsün bu evdə yaşayan insdi, yoxsa cins, şeytandı, yoxsa mələk, dostdu, yoxsa düşmən? Evdə əldən düşmüş qoca kişidən başqa heç kim yox idi. Bu qoca taxtda, mindərdə oturub bir əlində uzun qara təsbehi çevirir, o biri əlilə taxtın üstündəki böyük kitabı vərəqləyir və ora nə isə yazırdı. Şahzadə qocanı salamlayıb içəri girdi, qoca da onun salamını alıb xəbər aldı:

– Oğlum, hardan gəlirsən?

– Meşədə azmışam, heç bilmirəm yolu necə tapım? Evini görüb gəldim, bir az dincimi alım.

– Qonaq Allah qonağıdır. Oğul, otur, dincini al. Mən indi işimi qurtarım, Allahın verdiyi nə varsa, səni qonaq edərəm.

Şahzadə qocanın yanında taxtda oturub, onun yazdığına baxmağa başladı. O, qocadan xəbər aldı:

– Əmican, sən burada nə edirsən və bu böyük kitaba nə yazırsan?

Qoca dedi:

– Oğlum, mənim burada gördüyüm iş və kitaba yazdıqlarım sənlik deyildir. Yaxşısı, sən burada dincəl və Allahın köməyi ilə öz yolunla çıx get!

Qocanın sözü şahzadəyə çox toxundu və o dedi:

– Yox, nə qədər ki, sən kitaba nə yazdığını demirsən, mən getməyəcəyəm.

Qoca sakitcə dedi:

– Oğlum, çıx get.

Şahzadə şeytan atına minmişdi[1] və qocanın yaxasından bərk tutmuşdu[2]. Qoca çox yalvardı, gördü ki, şahzadə əl çəkmir, nəhayət, yumşalıb dedi:

– Mən bu kitaba adamların talelərini, kimin alnına nə yazıldığını yazıram.

Şahzadə dedi:

– İndi ki belədir, zəhmət çək, kitabda mənim alnıma nə yazıldığını de!

Qoca kitabı vərəqləməyə başladı, bir neçə dəfə burnunun altında "Bismillahir-Rəhmanir-rəhim", – dedi və nəhayət, şahzadəyə diqqətlə baxıb dedi:

– Şahzadə, indən belə sənin taleyin bəlli oldu, sən kasıb bir tacirin qızı ilə evlənəcəksən, bu qız neçə illərdir ki, sağalmaz xəstəliyə düçar olmuşdur, hal-hazırda atasının komasında xəstə yatır.

Özündən çıxmış şahzadə ucadan qışqırdı:

– Ağılsız qoca, yalan deyirsən, mən sənin axmaq sözlərinə inanmıram! Mən padşah oğlu bir kasıb çobanın qızı ilə evlənəcəm?

---

[1] Şeytanın atına minmək – inadkarlıq etmək

[2] Yaxasından bərk tutmaq – əl çəkməmək

Qoca dedi:

– Mən sənin taleyin barədə kitabda yazılanı oxudum.

Şahzadə dönüb çıxıb getdi.

Bütün günü şahzadə yol axtararaq sərgərdan gəzdi. Nəhayət, dar bir cığır gördü, cığırı tutub getdi, cığır onu meşədən çıxardı.

Hava qaralmışdı, şahzadə meşədən çıxanda bilmədi hara getsin, – "nə olar, olar", – deyib baş götürüb getdi.

Az getdi, ya üz getdi, Allah bilir, bir də gördü qabaqda bir işıq var. İşığı tutub getdi. Gəlib uçmaqda olan komaya çatdı. Komanın qabağında bir ocaq yanırdı, ocağın yanında torpağın üstündə bir kasıb kişi oturub çarığını yamayırdı. O, şahzadəni görüb tez ayağa qalxdı, onu salamlayıb təzim etdi. Şahzadə də onu salamlayıb dedi:

– Mən yolu itirib azmışam, mənə yolu göstərə bilərsənmi? Zəhmətinin haqqı məndən.

Kasıb kişi də onun salamına cavab verib dedi:

– Ağa, şəhərə yol uzaqdır, gecə çətin ki, yolu tapaq. Əgər sən səhərədək gözləsəydin, mən səhər səni yola çıxardaram. Bir də gecə vaxtı yol getmək qorxuludur, hər yerdə həramilər at oynadırlar.

Şahzadə dedi:

– Onda gərək səhərə kimi gözləyim, mən harada gözləyə bilərəm?

– İstəsən, komamda gecələyə bilərsən, yalnız xəstə qızım da orda yatır.

Şahzadə xəbər aldı:

– Sən özün kimsən?

– Ağa, mən kasıb adamam, sənin nökərinəm.

– Sənin xəstə qızın da var?

– Bəli, ağa. Allah günahlarıma görə mənə bir xəstə qız verib. O, neçə illərdir sağalmaz xəstəliyə tutulub, hərəkət edə

bilmir.

Şahzadə o saat başa düşdü ki, bu, elə qocanın dediyi çoban qızıdır. O, çobana dedi:

– Yaxşı, mən sənin komanda yataram. Sən bu iki əşrəfini götür, mənə yeməyə bir şey ver, mən acam.

Çoban iki əşrəfi götürdü və arvadına dedi ki, yemək gətirsin.

Şahzadə yeyib-içəndən sonra çoban onu komaya apardı və onun yatağını göstərdi və özü isə çıxıb getdi. Çoban arvadı ilə açıq havada yatdı.

Şahzadə gecəyarısı yuxudan oyanıb yerindən qalxdı. Həyətə çıxdı görsün ki, çoban və arvadı yatıblar ya yox? Onlar heç bir şey ürəklərinə gətirmədən bərk yatırdılar. Onda şahzadə xəncərini əlinə alıb xəstə qızın yatağına yaxınlaşdı. Şahzadə, – "Axmaq qoca, baxaq görək, sənin sözün necə yerinə yetəcək?", – deyib var gücü ilə yatan qızı xəncərlə vurdu. Qız gözlərini açdı, bərkdən qışqırdı və o saat da susdu. Şahzadə qızı öldürdüyünü fikirləşib onun meyidinin yanında bir neçə kisə qızıl qoyub komadan çıxdı. Atına mindi və qaranlıqda gözdən itdi.

Ertəsi gün o, öz yol yoldaşlarını tapdı. Sən demə, onlar hər yerdə onu axtarıblarmış, indi isə onlar bir yerdə geri qayıtdılar. Onlar burada qalsın, görək çobanın qızı nə oldu?

Bu qız neçə illər idi ki, xəstə idi, qarnına su dolmuşdu, heç bir təbib də onun dərdinə çarə tapa bilməmişdi. Onu öldürmək niyyətində olan şahzadə elə ki, onu xənçərlə vurdu, qarnındakı yaradan su axdı, onun halı yüngülləşdi. Ertəsi gün çobanla arvadı qızdan hal-əhval bilmək üçün komaya girəndə qızı qan içində, yanında isə ağzınacan qızılla dolu bir kisə də gördülər. Onlar qızı yatağından qaldıranda onu sapsağlam görüb sevindilər, Allaha şükürlər etdilər.

Bir müddət sonra onlar şəhərə köçdülər, özlərinə çox gözəl ev alıb, orada şad-xürrəm yaşamağa başladılar. Bu arada

qız da böyüyüb boya-başa çatıb, elə gözəl-göyçək qız oldu ki, huri, mələk də ona həsəd aparırdı.

Bir gün şahzadə çobanın evinin yanından keçəndə evin artırmasında duran çoban qızını gördü, qız elə bil Günə deyirdi: “Sən çıxma, mən artıq çıxmışam”. Şahzadə bir könüldən min könülə qıza vuruldu, atasının ayaqlarına düşüb dedi:

– Atacan, dünyada çox gözəl qızlar var, mən sevdiyim qız Aydan da, Gündən də gözəldir. İzin ver, o qızla evlənim.

Padşah əvvəlcə razı olmadı ki, oğlu tanımadığı adamın qızını alsın, oğlu dedi ki, o ya həmin qızla evlənəcək, ya da özünü qayadan atacaq. Onda padşah xeyir-duasını verdi.

Padşah oğlu ilə çobanın qızı üçün gözəl bir toy məclisi qurdu, yeddi gün, yeddi gecə toy çaldılar, çağırdılar, yedilər, içdilər. Şahzadə heç bilmədi ki, bu qız elə çobanın qızının özüdür.

Günlərin bir günü şahzadə qız ərinin anası və bacıları ilə hamama gedir. Hamamda onlar gəlinlərinin qarnındakı çapığı görüb şahzadəyə xəbər verirlər. Şahzadə məsələnin nə yerdə olduğunu qızdan xəbər alanda arvadının həmin çobanın qızı olduğunu başa düşür. O, meşədəki qocanın sözlərini yadına saldı və dedi:

– Doğrudan da, yazıya pozu yoxdur, kimə nə yazılıbsa, gec-tez yerinə yetəcək.

## 3. LAL ŞAHZADƏ QIZ

Biri var idi, biri yox idi, bir padşah var idi. Bu padşahın bir oğlu və bir qızı var idi, ancaq qız lal idi. Lakin o, onbeşgünlük ay kimi gözəl, cənnət hurisi kimi füsunkar idi. Onun gözləri sabah ulduzu kimi parlayır, qaşları elə bil qələm ilə çəkilmişdi, ağzı elə bil huri-mələk tərəfindən cızılmış idi. O, ağıllı və ürəyiyumşaq, incə və kövrək idi. Atası və qardaşı onu çox sevirdilər. Padşah ölümünün yaxınlaşdığını hiss edərək oğlunu gö-

zəl bir şahzadə qızla evləndirdi. Padşah oğluna bacısını sevməyi və qorumağı tapşırıb, ömrünü oğlu və qızına bağışladı, oğlu atasının taxtına əyləşib padşah oldu. Padşah atasının vəsiyyətinə əməl edib, bacısını gözü üstündə saxlayırdı. Qardaşın bacısına olan bu məhəbbəti onun arvadının xoşuna gəlmirdi. O, gözəl olduğu qədər zalım idi və ərini bacısına qısqanırdı. Elə fikirləşirdi ki, ərinin bacısını necə məhv etsin.

Padşahın bir qolquşu var idi, bu quşu çox istəyirdi. Bir gün padşah ovda olanda zalım çariçə qolquşunu öz əlləri ilə öldürdü və əri ovdan qayıdanda ona dedi:

– Bir bax bacın nə etdi, o bilir ki, sən qolquşunu çox istəyirsən və bilərəkdən , sənə pislik etmək üçün onu öldürdü.

Padşah dedi:

– O qolquşu bacımın ayaq tozuna qurban olsun.

Padşah bundan sonra qolquşu haqqında bir söz də danışmadı. Zalım çariçə qardaş ilə bacının arasını vurmaq üçün belə bir tədbirə əl atdı. Padşahın çox sevimli bir ərəb atı var idi. Zalım çariçə öz əli ilə atın başını kəsdi, əri ovdan qayıdanda xəbər aldı:

– Mənim sevimli atımı kim kəsdi?

O dedi:

– Sənin sevimli bacın.

Padşah dedi:

– Qoy sevimli atım sevimli bacımın ayağının tozuna qurban olsun.

Bundan sonra padşah sevimli atını xatırlamadı.

Zalım çariçə öz fikrindən yenə əl çəkmədi, çox götür-qoy etdikdən sonra tək uşağını öldürüb meyidini bədbəxt lal şahzadə qızın otağına atdı, özü isə ağlaya-ağlaya padşahın yanına qaçıb gəldi və qışqırmağa başladı:

– Get, get, bax gör sənin sevimli bacın nə etmişdir, öz əli ilə sənin tək oğlunu kəsib öldürmüşdür. Allaha and olsun,

əgər sən bu dəfə onu bağışlasan, mən öz əllərimlə tək uşağımın qatilini boğacam.

Dərddən dilxor olmuş padşah dərhal bacısının qaranlıq meşəyə aparılmasını və orada buraxılmasını əmr etdi. Fərraşlar padşahın əmrini yerinə yetirdilər. Onlar bədbəxt lal şahzadə qızı meşəyə apardılar, gözlərini bağladılar ki, evə geri qayıda bilməsin, özünü də bir ağac kötüyünə oturdub saraya qayıtdılar. Yazıq şahzadə qız meşədə tək-tənha qaldı. O, ağlamağa, Allaha yalvarmağa başladı.

Bu halda onu yuxu apardı, özü də heç bilmədi nə qədər yatdı, amma gözlərini açanda qarşısında qızıltüklü gözəl bir dovşan gördü. Dovşan dil açıb ona dedi:

– Gözəl şahzadə qız, mənimlə oyna!

Birdən şahzadə qızın dili açılıb dedi:

– Ay dovşan, səninlə nə oynayım?

Dovşan dedi:

– Mən qaçacağam, sən də məni tut!

Dovşan bunu deyib qaçdı. Şahzadə qız dovşanın dalınca qaça-qaça gəlib bir yerə çıxdı, o, qarşısında gözəl bir saray gördü. Dovşan sarayın qapısından sivişib içəri girdi, şahzadə qız dovşanı gözdən itirdi. O, sarayda özünü ora-bura vurub, dovşanı axtarmağa başladı, amma heç yerdə tapa bilmədi. Birdən qarşısında qəddi-qamətli, gözəl bir cavan oğlanın durduğunu gördü. O, şahzadə qıza yaxınlaşıb dedi:

– Ey gözəl şahzadə qız, bu gündən mənim bu sarayım sənindir.

Şahzadə qız bir qədər qorxu içində dedi:

– Bəs məni bura gətirən dovşan nə oldu?

Cavan oğlan dedi:

– Ey gözəl şahzadə qız, məndən qorxma! Mən qüdrətli və şanlı Çini-Maçin padşahı Yengibarın oğluyam. Adım Şah Nurivandır. Zalım qohumlarımız xəyanətkarcasına mənim atamı

öldürdülər və məni taxtdan məhrum etdilər. Atamın yaxşı bir dostu cadugər və sehrbaz düşmənlərimin əlindən məni qurtardı və bu meşədə gizlətdi. O, mənə bu qızıldan olan sarayı bağışladı, elə həmin sehrbaz dovşan cildində səni bu saraya gətirdi. O, sənin başına gələnləri, zalım çariçənin səni saraydan necə qovduğunu bilir, o həm də səni meşədə vəhşi heyvanlardan qorudu. Sən yatanda o, sehr işlədib sənin dilini açdı.

Şahzadə qız gözlərində yaş şahzadəyə və onun dostuna – mərhəmətli sehrbaza təşəkkür etdi.

Şahzadə Şah Nurivan ona dedi:

– Ağlama, gözəl şahzadə qız, mən bilirəm, səni günahsız olaraq atanın sarayından qovublar. Mən öz sarayımı sənə bağışlayıram. Mənim arvadım olmaq istəyirsənmi?

Şahzadə qız ağlamağa başladı və bununla da razılığını verdi. O, ilk baxışdan gözəl və rəhmdil şahzadəni sevdi.

Həmin günü sarayda böyük məclis quruldu, şadyanalıq oldu. Cariyələr ona gözəl libaslar geyindirib başqa bir otağa apardılar. Burada şahzadə dostu sehrbazla onu gözləyirdi. Sehrbaz onlara xeyir-dua verib, şahzadə qıza iki qızıl alma bağışladı və dedi:

– Sənin iki oğlan uşağın olacaq, sən onlara bu iki qızıl almanı bağışlayarsan, onlar sənin uşaqlarına xoşbəxtlik gətirəcək.

O, bunu deyib o saat da gözdən itdi. Şahzadə qız gözəl şahzadənin arvadı oldu və çox xoşbəxt yaşamağa başladı.

Şahzadə qızın sehrbaz dediyi kimi iki gözəl oğlu oldu. Bir gün şahzadə qız otağının pəncərəsindən küçəyə baxırdı, bir də gördü ki, sarayın qapısında bir atlı durub. Diqqətlə baxanda atlının öz qardaşı olduğunu gördü. Atlı da ona nə qədər baxdısa da tanıya bilmədi. Atlı ona dedi:

– Ey gözəl şahzadə qız, mən gecə meşədə yolu azdım və yolu itirdim. Uzun yoldan mən də, atım da yorulmuşuq. Sənin sarayında gecələməyə icazə verərsənmi?

Şahzadə qız o saat nökərlərinə əmr etdi ki, atlını içəri buraxsınlar. Şahzadə qız xidmətçilərə tapşırdı ki, qardaşını yedirtsinlər, içirtsinlər, amma sarayın kimə məxsus olduğunu ona deməsinlər.

Axşam qardaşı yeyib-içəndən sonra yatanda şahzadə qız sakitcə onun otağına keçdi və uşaqlarının qızıl almalarını onun çantasına qoydu, özü isə sakitcə otaqdan çıxdı. Ertəsi gün onun qardaşı yuxudan ayılıb atına minib getmək istəyəndə nökərlər şahzadənin əmrinə görə onu tutub saxladılar.

– Sən kiçik şahzadələrin almalarını oğurlamısan, ona görə biz səni getməyə qoymayacağıq.

Qızın padşah qardaşı hirsləndi, güc işlətmək istədisə də olmadı, nökərlər onu tutub şahzadə qızın yanına apardılar. O, şahzadə qıza dedi:

– Ey şahzadə qız, mənə yazığın gəlsin, sənin xidmətçilərin məni oğurluqda günahlandırırlar. Allaha and içirəm, mən günahsızam.

Şahzadə qız dedi:

– Padşah, bax görürsən, günahsız adamı ittiham eləmək necə də asandır. Sən özünün zalım arvadının sözlərinə inanıb doğma bacını sənin uşağını öldürməkdə ittiham etdin və heç bir günahı olmayan bacını saraydan qovdurdun və onu meşədə tək-tənha buraxdırdın.

Şahzadə qızın padşah qardaşı dedi:

– Mən necə də bədbəxtəm, bacım günahsız ola-ola mən onu günahkar bilib cəzalandırmışam, yaşamaqdansa, mənə ölüm yaxşıdır. Şahzadə qız, mən ölümə layiqəm, nökərlərinə əmr elə, dərhal mənim boynumu vursunlar.

Şahzadə qız dedi:

– Əziz qardaş, sakit ol, mən sənin bacınam. Sən məni öz uşağının qətlində ittiham etdin, amma mən günahsız idim və Allah məni qurtardı.

Padşah bacısını qucaqlayıb öpdü, şahzadə qız da qardaşını tapdığından çox şad oldu. O, başına gələnlərin hamısını ona nəql etdi, zalım arvadının hiylələrindən onu hali etdi.

Həmin gün padşah öz vilayətinə atlılar göndərib zalım arvadını gətirdi. O əmr etdi ki, onu bədöv atın quyruğuna bağlasınlar və çöllü-biyabana buraxsınlar ki, sol qulağı ən böyük tikəsi olsun.

Zülm orada, xeyir burada. Göydən üç alma düşdü, biri mənə, digəri söyləyiciyə, üçüncüsü Molla İbrahimə (söyləyicinin adı).

## 4. ZALIM ANALIQ

Biri var idi, biri yox idi, ərlə arvad, bir də bunların gözəl qızı var idi. Bu qız elə gözəl idi ki, yemə, içmə, xətti camalına bax, bu qız bir qız idi ki, gəl görəsən, yıxılı evin dirəyi idi. Səhərdən axşama kimi dinclik bilmədən işləyir, su gətirir, ev süpürür, çörək, yemək bişirir, tikir, toxuyur, yamayırdı. Heç vaxt şikayətlənmir, hər vaxt da üzü gülürdü. O güləndə cənnətdəki hurilər də gülürdülər.

Lakin onların bu şad-xürrəm həyatı çox sürmədi. Qızın anası xəstələnib öldü. Qız atası ilə tək qaldı.

Arvadının ölümündən bir müddət keçəndən sonra qonşular, qohumlar qızın atasına tez-tez deməyə başladılar ki, o evlənməlidir:

– Arvadsız ər təməlsiz ev kimidir. Evdə arvad olmalıdır. Biz sənə layiq arvad taparıq ki, sənə, sənin əyin-başına, qızına, evin içinə, bayırına baxsın.

Qızın atası isə heç razı olmadı, qohum-qonşu, tanış-biliş çox dedilər, axır razılıq verdi. Kəbin kəsib ikinci arvadı kişinin evinə gətirdilər. Arvadın yanında bir böyük qızı da var idi. Bu qız heç gözəl deyildi, çirkin idi, özü də çox tənbəl idi, əli-

ni ağdan qaraya vurmazdı. İşi-gücü bütün günü mindərin üstündə yatmaq idi. Bildiyi bir iş var idi, o da ona-buna iş tapşırmaq. Onun əvəzinə bütün işləri kişinin qızı görürdü.

Analığı isə paxıllığından ögey qızını heç istəmirdi, gözü götürmürdü, lap qanını içməyə hazır idi. O, səhərdən axşama kimi ona rahatlıq vermir, dinc buraxmırdı. Bütün ev işlərini, su gətirməyi, çörək bişirməyi, gilyasarla evi rəngləməyi, pal-paltar yamamağı ona gördürürdü. Bu azıymış, hələ onu tənbəl adlandırırdı. Hər gün bir parça boyad çörək verir, özü isə qızı ilə plovla qovurma yeyirdi. Ögey ana gecə-gündüz ərinin baş-beynini aparıb deyirdi:

– Qızını buradan uzaqlaşdır, onu bir yerə azdır.

Ögey ananın fikri-zikri bu idi ki, ərinin qızını evdən göndərsin. Qızın atası əvvəl onun sözlərinə fikir vermirdi, arvadı isə onun baş-beynini yeməkdən əl çəkmirdi.

Axırda qızın atası əlacsızlıqdan təngə gəlib, qızını gül dərmək bəhanəsiylə meşəyə apardı, meşə qaranlıq, keçilməz idi. Atası qızına dedi:

– Qızım, sən get qabağa, güldən, çiçəkdən dər, mən də burada bir az dincimi alım.

Qızı qabağa gedib meşəyə girdi ki, güldən, çiçəkdən dərsin, atası isə çuxa və papağını çıxardıb ağacdan asdı və könülsüz çıxıb getdi. Qız meşədən çıxıb gələndə atasını görmədi, ora-bura baxıb gördü ki, atası yoxdu, nəhayət, atasının çuxa və papağını görüb başladı ağlamağa:

– Vay, vay atam ağaca dönübdür!

Qız qəm-qüssə içində yola çıxdı. Az getdi, üz getdi, Allah bilir, nə qədər getdi, o qədər getdi ki, yorulub əldən düşdü. Onda ağac altında oturub yatdı. Elə həmin gün meşədə gözəl bir şahzadə vəzir, vəkili ilə gəzə-gəzə gəlib həmin yerə çıxdı. Şahzadə qızı görüb bir baxışdan ona vuruldu. Bu dəmdə yuxudan oyanan qız şahzadəni gördü. Şahzadə ona yaxınlaşıb xəbər aldı.

– Ey gözəl qız, sən tək-tənha meşədə nə edirsən?

Qız ona başına gələnləri nəql etdi:

– Zalım ögey ana məni evdən qovdu, atam isə əlacsız qalıb məni meşəyə gətirdi, sonra da atıb getdi ki, mən heyvanlara yem olum.

Şahzadə dedi:

– Gözəl qız, gedək mənimlə, səni özümə arvad edəcəm.

O, şahzadə ilə atasının olduğu şəhərə getdi. Bir neçə gün sonra isə padşah oğlu ilə qıza toy elədi, qız şahzadənin arvadı oldu.

Qoca padşah ölәndən sonra şahzadə taxta çıxıb padşah oldu, qız isə padşah arvadı oldu. Bir müddət sonra onun oğlu da oldu. O, çox xoşbəxt oldu, hamı onu sevirdi.

Bir gün padşahın arvadı sarayda pəncərənin yanında durub küçəyə baxırdı, birdən o, darvazanın yanında durub dilənən bir qoca kişini gördü. Həmin kişi saray xidmətçilərindən pay dilənirdi. Şahın arvadı birdən onun atası olduğunu anladı. O, tez öz xidmətçilərinə əmr etdi ki, o qocanı onun yanına gətirsinlər. Xidmətçilər qorxusundan tir-tir əsən kişini onun yanına gətirəndə padşahın arvadı onu qucaqlayıb dedi:

– Ata, mən sənin qızınam, məgər sən məni tanımırsan?

Atası qızını tapanda çox sevindi, o, qızını qucaqlayıb öpdü, sonra da ondan üzr istədi. Qız nökərlərə əmr etdi ki, atasını aparıb yedirib, içirtsinlər. Qız atasına gözəl libas geyindirib, ona çoxlu qızıl, cəvahirat verdi, sonra da yola saldı. O, atasına dedi:

– Ata, get arvadını mənim yanıma gətir, o mənim anam olacaq, onun qızı isə bacım, mən pislik xatırlamıram.

Qoca evinə qayıdıb hər şeyi arvadına nəql etdi.

– Qızım padşah arvadı olub, sarayda yaşayır, qızıl qabqacaqda yemək yeyir, yalnız qızıl camdan su içir. O, pisliyi xatırlamır, səni və qızını yanına çağırır.

Zalım ögey ana biləndə ki, onun ögey qızı padşah arvadı olub, ağlamağa, qışqırmağa başladı:

O, ərinə dedi:

– Mənim qızımı da meşəyə apar, əgər sənin lənətə gəlmiş qızın padşah arvadı olubsa, mənim qızım da padşah arvadı olmalıdır.

Ər arvadının əmrini yerinə yetirib onun qızını meşəyə apardı və orada buraxıb öz evinə qayıtdı. Zalım ögey ananın qızı meşədə qalanda elə ucadan hönkürməyə və ağlamağa başladı ki, hər tərəfdən vəhşi, yırtıcı heyvanlar tökülüb gəldilər və qızı parçaladılar.

Bir neçə gündən sonra arvad ərinə dedi:

– Get meşəyə, gör bizim qız nə edir?

Kişi meşəyə getdi və orada öz ögey qızının sümüklərini gördü. O, qızın sümüklərini bir torbaya yığdı və evinə gəldi. Arvadı onu evin astanasında qarşılıyıb xəbər aldı:

– Nə oldu, qızımı gördün? O, padşah arvadı oldumu? Görünür, o, əlindəki torbanı qızıl və cəvahiratla doldurub? Tez göstər görüm, mənə hədiyyələr göndərib?

Əri dedi:

– Bu sənin qızının sümükləridir, onu heyvanlar parçalayıblar.

Zalım ögey ana elə yerində qonub qaldı. O, evin damına çıxıb özünü ordan yerə atdı və öldü.

Göydən üç alma düşdü, biri mənim, biri dinləyənlərin, biri də nağıl söyləyənin.

## 5. İKİ YETİMİN NAĞILI

Biri var idi, biri yox idi, bir varlı tacir var idi. Bu tacirin iki uşağı – Əsgər adında bir oğlu, Bibli adında da bir qızı var idi.

Günlərin bir günü tacir xəstələndi və ömrünü bağışladı

uşaqlarına. Qohum-qardaşlar tacirin var-dövlətini öz aralarında bölüşdürüb onun uşaqlarını da ata evlərindən qovdular. Bacı-qardaş bir-birinə qoşulub baş götürüb getdilər. O günü hava çox isti idi, susuzluq onlara yaman əziyyət verirdi. Əsgər bacısına dedi:

– Biblican, Biblican, su içmək istəyirəm.

– Bibli sənə qurban olsun, Əsgərcan, bir az səbrin olsun, qoy bulağa çataq, doyunca su içərsən.

Az getdilər, üz getdilər, Əsgər birdən su ilə dolu bir gölməçə gördü. Əsgər dedi:

– Biblican, bu sudan içim?

Bibli dedi:

– Əsgərcan, içmə, bu, atın dırnağının ləpiridir, içərsən, ata dönərsən. Bir az səbir elə, bir azdan bulağa catacağıq.

Yenə yollarına davam etdilər, az getdilər, üz getdilər. Əsgər su ilə dolu gölməçə gördü. Dedi:

– Biblican, bu sudan içəcəyəm.

Bibli dedi:

– Əsgərcan, içmə, bu, inəyin dırnağının ləpiridir, içərsən, inəyə dönərsən. Bir az səbir elə, bulağa çataq.

Az getdilər, üz getdilər Əsgər su ilə dolu gölməçə gördü.

– Biblican, izn ver, bu gölməçədən su içim, susuzluqdan ölürəm.

– Əsgərcan, içmə, bu, maralın dırnağının ləpiridir, içərsən, marala dönərsən. Bir az səbir elə, bulağa çataq.

Az getdilər, üz getdilər, Əsgər bir gölməçə gördü, bacısından xəbər almayıb, əyilib gölməçədəki suyu içdi və o saat gözəl bir ceyrana döndü. Bibli Əsgəri yanında görməyib onu çağırdı, qardaşının yerinə onun yanınca balaca, gözəl bir ceyran qaçıb gəldi. Bibli o saat başa düşdü ki, bu balaca gözəl ceyran onun qardaşıdır, o, qardaşını belə görüb acı-acı ağladı. Bibli qardaşını öpüb yoluna davam etdi. Nəhayət, onlar bir bulağa

çatdılar, sudan içib susuzluqlarını yatırtdılar. Bibli qardaşı üçün çoxlu yumşaq ot dərdi ki, qardaşı yesin. Bu vaxt bulağın yanından cavan və gözəl bir şahzadə keçirdi. O, gözəl Biblini ceyranla görüb dedi:

– Gözəl qız, bu ceyranı mənə sat!

Bibli dedi:

– Gözəl şahzadə, mən onu sənə sata bilmərəm, o, əsl ceyran deyil, o, mənim qardaşımdır.

Bibli başına gələnləri ona nəql etdi. Şahzadə Biblinin ağlına, gözəlliyinə valeh olmuşdu. Şahzadə ona dedi:

– Gözəl qız, gəl mənimlə gedək. Mən səni və qardaşını zalım adamlardan qoruyacam.

Bibli şahzadəyə razılıq verdi və onunla getdi. O, elə ağıllı, elə gözəl idi ki, şahzadə ona vuruldu və onunla evləndi.

Bibli şahzadə ilə evlənib şad-xürrəm yaşamağa başladı. Hamı onu çox istəyir və ona hörmət edirdilər. Bircə qara qulluqcu qızın gözü onu götürmürdü. Bu qız çoxdan şahzadə olmaq istəyirdi. O, Bibliyə çox paxıllıq edir, nə təhər olursa, olsun onu aradan götürmək istəyirdi. Bir dəfə o, qardaşı ilə dəniz kənarına gəzməyə getdi, həmin qara qulluqçu qız da onun dalınca gəlirdi. Qulluqçu qız Biblinin yanında adam olmayanda fürsət tapıb onu tutdu, boynuna bir ağır daş bağlayıb dənizə atdı və özü isə onun libasını geyinib saraya gəldi. Şahzadə aldanıb onu öz arvadı bildi. Bircə Biblinin ceyran qardaşı aldanmadı. O, nə yeyir, nə içir, dənizin kənarı ilə qaçır, öz bacısını çağırırdı. Xain qulluqçu qız ceyranın bir şey yeyib içmədiyini, yalnız yanıqlı-yanıqlı qışqırdığını görüb onu öldürmək fikrinə düşdü.

O özünü xəstəliyə vurub yatağa uzandı və ax-ox etməyə, şikayətlənməyə başladı. Şahzadə ondan xəbər aldı:

– Əziz Bibli, sənə nə olub?

O inildəyərək dedi:

– Görünür, mən ölürəm, axırım çatıb.

– Bibli, narahat olma, mən bütün həkimləri çağıraram, onlar da səni tez sağaldarlar.

– Lazım deyil, dünyada bir həkim məni sağalda bilməz. Təkcə bir şey mənə kömək edə bilər. Bilmirəm, sən mənim istəyimi yerinə yetirərsənmi?

– De, hər nə istəsən, hətta lazım olsa, quş südünü də sənə taparam.

Zalım qulluqçu qız dedi:

– Bizim sevimli ceyranı kəsmək lazımdır, mən onu ürəyini yesəm, sağalaram.

Şahzadə təəccübləndi. Ceyran axı onun arvadının qardaşı idi. Arvadı ceyranı elə sevirdi ki, başqalarının onu yedirməsinə belə razı olmurdu, öz əlləri ilə onu yedizdirirdi. Şahzadə əmr etdi, bıçaqları itiləsinlər, su qızdırsınlar və ceyranı kəssinlər. Bədbəxt ceyran başa düşdü ki, onu kəsəcəklər. O, dəniz sahilinə qaçdı ki, axırıncı dəfə bacısı ilə vidalaşsın.

O qışqırdı:

– Biblican, Biblican, bıçaqları itilədilər, suyu qızdırdılar, məni kəsmək istəyirlər.

Bibli isə suyun altından ona deyir:

– Əsgərcan, Bibli sənə qurban olsun, balıq məni uddu, ağır daş boynumu kəsdi, pambıq kimi ağ şah balası qucağımda dincəlir.

Sən demə, şahzadə uzaqda deyilmiş, o qardaşla bacının söhbətini eşitdi və qışqırdı:

– Mənim sədaqətli bəndələrim, ipək torları dənizə atın, böyük balığı tutub çıxardın, gözəl şahzadə qızı çıxardın, pambıq kimi şah balasını çıxardın!

Sədaqətli bəndələr gəlib yığıldı, ipək torları suya atdılar, böyük balığı çıxardılar, qarnını yardılar və orada oturmuş gözəl şahzadə qızı və onun qucağında pambıq kimi şah balasını

gördülər. Bibli qardaşını çağırdı. Onun qarşısında ceyran deyil, əvvəlki əsil qardaşı Əsgər dururdu. O, qardaşını qucaqlayıb öpdü.

Şahzadə əmr elədi ki, zalım, qara qulluqçu qızı vəhşi atın quyruğuna bağlasınlar və atı düzlərə, təpələrə, qayalıqlara buraxsınlar. Atı buraxdılar, zalım qulluqçu qızdan sol, yalnız sol qulağı qaldı.

Göydən üç alma düşdü. Biri Allahın, biri qulaq asanların, üçüncüsü də mənim.

## 6. QORXAĞIN NAĞILI

Biri var idi, biri yox idi, keçmiş zamanlarda bir şəhərdə arvadlı, uşaqlı bir kişi var idi. Bu kişi yaman qorxaq idi. O, elə qorxaq idi ki, arvadsız gecə vaxtı həyətə çıxmağa belə qorxurdu. Gecə vaxtı həyətə çıxmaq istəyəndə arvadını yuxudan oyadıb deyirdi: "Arvad, qalx, mən həyətə çıxmalıyam". Əlqərəz, Yəcuc çox qorxaq idi.

Bir dəfə gecə vaxtı arvadı və uşaqları yatanda o, hövlnak arvadını oyatmağa başladı:

– Arvad, tez qalx, mənə həyətə çıxmaq lazımdır!

Yazıq arvad öz bəxtini və qorxaq ərini lənətləyə-lənətləyə yatağından qalxdı.

İşıqlı və aylı gecə idi. Yəcuc o yana-bu yana göz gəzdirib dedi:

– Eh, nə gözəl gecədir, nə karvan vurmalı gecədir.

Arvadı dözməyib dedi:

– Kəs səsini, lənətə gəlmiş qorxaq, karvan vurub soymaq sənin işin deyil.

Yəcuc hirslənib qışqırdı:

– Sus, şeytan qızı, sən nə cəsarətlə sözümü kəsirsən. Bilmirsən ki, ər danışanda arvadı susmalıdır. Düz deyirlər, qadı-

nın saçı uzun olsa da, ağlı gödəkdir.

Arvadı onun bu sözünə hirslənib dedi:

– Ay qorxaq, lənətə gəlmiş müftəxor, sən hələ söz də danışırsan. Ay moltanı, mən sənin yanından bir dəqiqəliyinə çəkilsəm, qorxudan yerində ölərsən, sən hələ karvan vurmaqdan danışırsan.

Əri dedi:

– Bəs sən nə bilmişdin, əlbəttə, edərəm. Karvanda lap min adam olsun, yenə hamısını vurub çataram.

Əri bunu deyəndə arvad cin atına mindi, itələyib onu küçəyə saldı və qapını da bağladı.

– İndi get, lənətə gəlmiş, qorxaq, karvan vurub soy. Allaha and olsun, əgər qənimətsiz gəlsən, səni evə buraxmayacağam.

Yazıq Yəcuc gecə vaxtı özünü küçədə görəndə çox qorxdu. O, naəlac qalıb arvadına yalvarmağa başladı.

– Arvad, di bəsdir, qapını aç, evə gəlim, Allaha and olsun, səninlə zarafat etdim, mən hardan karvan həramisi oldum ki, karvan vurub soyum, adam öldürüm.

Arvadı ona qulaq asmayıb dedi:

– Yox, öldü var, döndü yoxdu, qənimət gətirməsən, səni evə buraxmayacağam. Get, əvvəl karvan soy, sonra evə gəl!

Bədbəxt qorxaq arvadının inadını görüb özünü lənətlədi:

– Elə bil məni şeytan dilləndirdi, mən heç karvan soya bilərəm? İndi mən başıma nə çarə qılım? Yaxşısı budur, elə gedib özümü suya atım.

Yəcuc bunu deyib baş göturub yola düşdü. O, az getdi, üz getdi, Allah bilir nə qədər getdi, şəhərə yaxin bir kəndə gəlib çatdı. O, qarşısına çıxan ilk qapını döydü və bir parça çörək istədi. Qapını ona açan qoca arvad əsl kaftar – kürsü idi. O, Yəcuca bir parça çörək və çiy yumurta verdi. O, çörəklə yumurtanı götürüb bir tərəfə çəkildi. Yumurtanı bir cibinə qoydu, sonra isə bu tövləyə girib çörəyi yeməyə başladı. Bir də

onu gördü ki, tövlədəki milçəklər ona hücum çəkib. O qədər milçək qırdı ki, əldən düşdü. Tənbəllik etməyib qırdığı milçəkləri saymağa başladı. Saydı gördü ki, qırx milçək öldürüb. O, ətrafına göz gəzdırıb dedi:

– Heyif ki, arvad burada yoxdu, yoxsa qəhrəmanlığımı görərdi. Heç Rüstəm Zal da belə qəhrəmanlıq etməyib.

O, tövlədən bir taxta parçası tapıb üstündə yazdı: "Qəhrəman Yəcuc bir zərbəyə qırx can aldı". O, bu taxta parçasını sinəsi üstündən asıb yoluna davam etdi. Yolda onun qabağına çıxanlar sinəsindəki yazını oxuyub qorxularından kənara çəkilirdilər.

Yəcuc az getdi, üz getdi, dərə, təpə düz getdi, Allah bilir nə qədər yol getdi, axır gəlib bir çaya çatdı. O, əyin-başını soyunub suya girdi. Çayın kənarında olan bir neçə tısbağa ondan qorxub suya girdilər. Təkcə bir tısbağa ondan qorxmayıb çayın kənarında qaldı. Tısbağanın yekəxanalığı Yəcucun acığına gəldi. O, tələsik sudan çıxıb, tısbağanın üstünə getdi. O, tısbağa ilə bir az döyüşdükdən sonra tısbağa ona təslim oldu. Yəcuc tısbağanı götürüb cibinə qoydu, sonra da yoluna davam etdi.

Az getdi, üz getdi, dərə, təpə düz getdi, Allah bilir nə qədər yol getdi, axır gəlib bir qaranlıq meşəyə çatdı. O, heç qorxmadan ürəklə meşəyə girdi, bir xeyli gəzib dolaşdıqdan sonra böyük bir saraya rast gəldi və saraya daxil oldu. Saraydakı otaqları gəzməyə başladı. Sonra isə sarayın həyətindəki tövləyə getdi. Tövlə cins atlarla dolu idi. O, öz-özünə xəbər aldı: "Görəsən, bu cah-calalın, bu büsatın sahibi kimdir?" Birdən bütün saray titrəməyə başladı. O, arxasına dönüb baxdı, az qala qorxusundan öləcəkdi. Qabağında eybəcər və qorxunc bir div dayanmışdı. O, hər dəfə nəfəs alanda sarayın divarları titrəyir, onun burun və ağızından alov çıxırdı. Div dedi:

– Əziz insan, sarayıma xoş gəlmisən. Çoxdandı ki, insan əti yemirəm. Bu gün axşam yaxşı şam yeməyim olacaq!

Yəcuc onun səsini eşidib çox qorxdu, amma sonra özünü

ələ alıb cəsarətlə divə yaxınlaşdı və uca səslə qışqıraraq dedi:

– Kəs səsini, lovğa div, yoxsa indi sənin axmaq kəlləni xırçım-xırçım edərəm.

Div onun sözlərindən, ötkəmliyindən və görünüşündən qorxaraq kənara çəkilib xəbər aldı:

– Ey adam, sən kimsən ki, mənimlə belə danışmağa cürət edirsən? Sən necə cürət edib mənim sarayıma daxil olmusan? Sən bilmirsən ki, ən hiyləgər və cəsur insan bura yaxınlaşmağa qorxur, quş quşluğuyla onun üstündən uçmağa, ilan isə onun divarlarının altından keçməyə belə ürək eləmir.

Yəcuc ona dedi:

– Ey lovğa div, sən necə cürət edib məndən kim olduğumu xəbər alırsan? Məgər sən bir dəfəyə qırx can alan Yəcuc barədə eşitməmisən? Yoxsa sinəmin üstündəki yazını da görmürsən?

Div onun sinəsinin üstündəki yazıdan qorxdu. Axır div ona dedi:

– Əgər sən belə qəhrəmansansa, gərək mənlə güləşəsən. Əgər sən məni yıxsan, mən sənin əsirin olacağam və mənimlə nə istəsən et, yox, əgər mən səni yıxsam, sən mənim əsirim olacaqsan.

Yəcuc cavab verdi:

– Heç şübhəsiz, bu güləşdə mən qalib gələcəyəm və bir yumruqla səni öldürəcəyəm, amma mən bizim mübahisənin sadə yolunu təklif edirəm, bizim ikimizdən kim daşdan rəngli su sıxsa, kimin üzərində böyük cücü tapılsa, kimin saçları daha qalın və uzun olarsa o, qalib olacaq.

Div razı oldu. O, bir böyük daşı əlinə alıb elə möhkəm sıxdı ki, daş kiçik parçalara parçalandı.

Yəcuc gülümsəyib dedi:

– Elə bu?!

O, yerdən daş götürürmüş kimi əyiləndə cibindən gizlicə

yumurtanı çıxarıb əlində sıxdı. Yumurtanı sıxdı və əlindən rəngli su – yumurtanın ağı və sarısı axdı. Div dedi:

– Ey adam, bu dəfə sən mənə qalib gəldin.

O, Yəcuca kəndir kimi uzun və qalın saçını göstərdi.

Yəcuc isə yenə gülümsəyib əlini qoynuna salıb oradan uzun və qalın kəndiri çıxartdı. Div gözlərini bərəltdi və təəccüblə ona baxdı.

Yəcuc ona dedi:

– Lənətə gəlmiş qorxaq, nə oldu, artıq tir-tir əsirsən. Bir az səbir et, hələ nələr görəcəksən.

O, qoynundan tısbağanı çıxarıb divə göstərdi və dedi:

– Bu da cücü. Sən də bunun kimi bir şey göstər! Qorxaq, hara qaçırsan?

Div isə qorxusundan çoxdan qaçıb gözdən itmişdi.

Yəcuc kefikök halda saraya daxil olub bir dəfə də otaqları gəzib dolaşdı, buradakı dövləti bir yerə cəm etdi. Sonra tövlədən atları gətirib divin var-dövlətini onlara yüklədi. Allaha şükür edə-edə yola düşdü.

O, evinə getməkdə olsun, görək div nə etdi. Div hövlnak qaça-qaça gəlib bir meşənin kənarına çıxdı. O, bir daşın üstündə oturub başına gələnləri götür-qoy edirdi ki, bir axsaq tülkü də bir yandan gəlib çıxdı. O, divə təzim edib xəbər aldı:

– Qibleyi-aləm, nədən qəm-qüssə içindəsən? Nə olub?

Div başına gələnləri ona nəql edib dedi:

– Ay tülkü, güclə özümü bir adamdan qurtardım.

Axsaq tülkü ucadan dedi:

– Belə şey ola bilməz, bəni-adəm bizim padşahı necə məğlub edə bilər? Qibleyi-aləm, bəni-adəm öz hiyləsilə səni aldadıbdır. İndi sən geri qayıt və o bəni-adəmin cəzasını ver!

Tülkünün sözləri divin ağlına batdı və o, tələm-tələsik öz sarayına tərəf yola düşdü, tülkü də axsaya-axsaya onun dalınca getdi. Yəcuc saraya tərəf gələn divi və tülkünü görəndə

məsələni başa düşdü. O, hələ uzaqdan dedi:

– Ay lənətə gəlmiş tülkü, mən səni öz hinimdə tutanda səni o şərtlə buraxdım ki, sən mənə iki div gətirəsən, indi də görürəm ki, bir div gətirirsən, o da onsuz da mənim divimdir.

Qorxudan divin tükləri durdu. O, var qüvvəsilə axsaq tülkünü bir tərəfə atıb dedi:

– Lənətə gəlmiş tülkü, öl, məni bura sən gətirdin.

Div bunu deyib o saat da gözdən itdi.

Yəcuc onu yenə də divdən xilas etdiyi üçün Allaha şükürlər edib yola düzəldi. O, axşama yaxın evinə gəlib çatdı, qapını döydü. Arvadının səsi gəldi:

– Kimdir qapını döyən?

– Arvad, qapını tez aç, atlar yorulublar, onların qızıldan yükləri ağırdır.

Arvad dərhal qapını açdı. Ər-arvad öpüşüb-görüşdülər. Bundan sonra onlar şad-xürrəm, kasıbçılıq nədir bilmədən uzun illər yaşadılar. Yəcuc yenə axşamlar həyətə çıxanda arvadı yanında olsa da, o, daha deyinmirdi. Göydən üç alma düşdü, biri mənim, biri sənin, biri də nağıl söyləyənin.

## 7. DİLƏNÇİ ŞAHZADƏ QIZ

Biri var idi, biri yox idi, bir cavan şahzadə var idi. Günlərin bir günü şahzadə öz vəzir və vəkilləri ilə şikara çıxdı. O, günortayacan şikar vurub əmr etdi ki, düzəngahda çadır qursunlar ki, həm dincəlsinlər, həm də günün istisindən kölgələnsinlər.

Çadır da çox boğanaq və isti idi, bir tərəfdən də şahzadə çox susamışdı. O, nökərlərini göndərdi ki, gedib su gətirsinlər. Nökərlərin getməkləri ilə gəlməkləri bir oldu, əliboş geri gəldilər. Onda şahzadə öz vəzir və vəkillərini göndərdi ki, ətrafı ələk-vələk etsinlər. Onlar da əliboş gəlib çıxdılar. Belə olduqda şahzadə qərara gəldi ki, özü durub su axtarmağa getsin.

O, atına süvar olub, düzəngahı dolaşmağa başladı, gah bir tərəfə atı sürdü, gah o biri tərəfə bir yerdə də su tapa bilmədi.

Axır atın belində dolaşa-dolaşa gəlib bir böyük ağaca rast gəldi. Bu ağacın da altında quyu varmış. Şahzadə sevincək quyuya yaxın gəldi. Atından düşüb quyuya baxanda gördü ki, quyu bal kimi şirin, buz kimi soyuq su ilə doludur. O, susuzluğunu yatırtmaq üçün əyilib sudan içmək istəyəndə ildırım vurmuş kimi birdən qışqırıb geri sıçradı. Suda gözəl bir qız görmüşdü. Şahzadə bu gördüyündən özünü o qədər itirmişdi ki, təkcə Allahın adını dilinə gətirə bilmişdi. O, bir qədər toxtayıb özünə gəldikdən sonra bir də yaxın gəlib quyuya baxdı. Baxanda gördü ki, quyuda qız-zad yoxdu, gördüyü quyunun üstündəki ağacda oturan bir gözəl qızın əksi imiş. Şahzadə başını qaldırıb yuxarı baxdı. Gördü ki, doğrudan da, ağacın üstündə elə gözəl bir qız oturub ki, dünyada misli-bərabəri yoxdu. Şahzadə nə qədər etdisə, gözünü qızdan çəkə bilmədi.

Qız da ona baxırdı, o, elə bil oğlanın baxışından qorxurdu. Axır şahzadə yuxudan ayılmış kimi silkinib özünə gəldi, əllərini ona tərəf uzadıb ucadan dedi:

– Sən kim olursan ol, cənnət hurisisən və ya bir ananın qızısan, məni çox gözlətmə, ağacdan yerə en!

Qız gözəl bir səslə dedi:

– And iç ki, məni incitməyəcəksən!

Şahzadə dedi:

– Ey gözəl qız, məndən qorxma, mən sənə heç bir yamanlıq etmərəm. Allaha and içirəm ki, başındakı bir tükə də əl vurmayacağam.

Qız ağacdan yerə endi, şahzadə yalnız indi gördü ki, o, kasıb bir qızdır, özü də az qala yarıçılpaq idi.

Şahzadə ondan xəbər aldı:

– Ey gözəl huri, sən kimsən, ağacda kimdən gizlənmisən?

Gözəl qız dedi:

– Mən evsiz-eşiksiz kasıb dilənçiyəm, şəhərə gedirdim, səni uzaqdan gələn görüb qorxdum ki, məni incidərsən, ona görə də ağaca çıxdım.

Ümidi boşa çıxmış şahzadə ondan xəbər aldı:

– Deməli, sən dilənçisən və sədəqə yığmaq üçün gedirdin?

Şahzadə gözəl qızı gördüyündə elə düşünürdü ki, qarşısındakı qız şahzadədir.

Qız dedi:

– Bəli, mən dilənçiyəm, atam da dilənçidir. Biz yaxşı adamların sədəqələri ilə yaşayırıq. Atam xəstədir, ona görə də bu gün mənim yanımda ola bilmədi.

Şahzadə dedi:

– Yox, ey gözəl qız, sən dilənçi deyilsən və dilənçi olmamalısan. Mən şahzadəyəm, səni öz həyatımdan da çox sevirəm. Sən mənim arvadım olacaqsan və sarayda yaşayacaqsan, padşahlara layiq libaslar geyinəcəksən, qızıl qablarda yemək yeyəcəksən. Qul və cariyələr xidmətində duracaqlar.

Şahzadə bunu deyib qızı qucaqladı, onu da atının tərkinə alıb vəzir və vəkillərinin yanına yola düşdü. O gələn kimi əmr etdi ki, çadırı yığıb evə getməyə hazırlaşsınlar.

Şahzadə saraya çatan kimi qulluqçu qız və cariyələrə tapşırdı ki, qıza padşahlara layiq libaslar geyindirsinlər.

Dilənçi qız şahanə libaslar geyinib, bəzənib-düzənib şahzadənin qarşısına çıxdıqda o, az qala ağlını itirəcəkdi. O, qızı şah atasının yanına apardı, o, şahın da çox xoşuna gəldi. Şahzadə qızın kim olduğundan əsil-nəcabətindən atasını hali etdikdə o dedi:

– Oğul, unutma, hər bir adam özünə arvadı öz əhatəsindən seçməlidir. Sən şahzadəsən, şah qızı və yaxud vəzir, vəkil qızı ilə evlənməlisən, daha dilənçi qızı ilə yox. Dilənçi qızı heç vaxt padşah arvadı olmayacaq.

Amma oğlu atasının sözlərinə qulaq asmayıb dedi:

– Atacan, öldü var, döndü yoxdur.

Şahzadə şahın gözünün ağı-qarası bir tək oğlu idi deyə o, oğlunun sözünü yerə salmadı, istər-istəmız xeyir-duasını verdi, odur ki, dedi:

– Oğul, istədiyin kimi et, amma bax sonra peşman olmayasan.

Şahzadə yeddi gün, yeddi gecə toy edib dilənçi qızla evləndi. Dilənçi qız şahzadə oldu. Aylar, illər keçdi. Şahzadənin gözəl-göyçək bir oğlu da oldu.

Bir müddətdən sonra şahzadə qız birdən-birə arıqlamağa, zəifləməyə başladı, rəngi də sapsarı oldu. Əhvalı dəyişdi, hamıdan qaçırdı, heç ərini belə görmək istəmirdi. Şahzadə arvadını belə görüb çox narahat oldu. O, vilayətinin hər yerindən bütün loğman və təbibləri çağırtdırdı ki, arvadının bu dərdinə bir çarə etsinlər, amma heç kim onu sağalda bilmədi. Axırda şahzadə arvadına dedi:

– Gözəlim, bir de dərdin nədir, nəyin xiffətini çəkirsən? Ürəyindən nə keçirsə mənə de, quş südü də olsa, dünyanın hər yerindən sənə tapıb gətirərəm.

Arvadı ona dedi:

– Sevgilim, rüsxət ver, bir həftə öz otağımdan dışarı çıxmayıb elə orada qalım. Heç kimi görməyib rahatlanım. Özün görəcəksən ki, bir həftəyə sağalacağam.

Şahzadə razılığını verdi. Doğrudan da, arvadı bir həftədən sonra sapsağlam, əvvəlki kimi rəngi-ruhu yerində otağından çıxdı.

Bu əhvalat bir neçə dəfə təkrar olundu. Axır şahzadə bu işdən pəjmürdə oldu. Çox götür-qoy etdikdən sonra burada nəsə olduğunu öyrənmək istədi. Bir gün arvadı yenə də öz otağına çəkilib oturmuşdu, otağın qapısını da hamının üzünə bağlamışdı. Şahzadəni fikir apardı. Görəsən, arvadı otaqda nə edir, nə işlə məşğuldur? O, arvadının otağının qapısına yaxın

gəlib açar deşiyindən içəri baxdı. Şahzadə otaqda gördüyündən dəhşətə gəldi, otağın cah-cəlalından bir şey qalmamışdı. Hər yerə çörək parçaları qoyulmuşdu. Arvadı isə dilənçi libası ilə otaqda çörək qoyulmuş yerlərə yaxınlaşıb dilənirdi:

– Allah rizasına, mənə bir parça çörək verin, üç gündür acam!

Şahzadə bunu eşidəndə dünya gözündə qaraldı, atasının sözünü yadına saldı, o, özünü birtəhər arvadının otağına saldı, onun qolundan tutub küçəyə itələyib saldı.

Göydən üç alma düşdü, biri mənim, biri özümün, bir də nağıl söyləyənin, mən sağ, siz salamat, mən yüz yaşayım, siz iki əlli, hansı çoxdur, siz götürün, qalanını mənə verin.

## 8. GÖZƏL ŞAHZADƏ QIZIN NAĞILI

Biri var idi, biri yox idi, Allahdan başqa heç kim yox idi. Bir şah var idi, şahın da gözünün ağı-qarası bir oğlu var idi. O, İsgəndər Zülqərneyn kimi gözəl, loğman kimi ağıllı, Rüstəm Zal kimi cəsur idi. Şahın oğlunun adı Şah İsmayıl idi.

Bir dəfə Şah İsmayıl ova getdi. O, çöllərdə, çəmənlərdə, bağlarda, meşələrdə at çapdı, amma heç bir ov əldə edə bilmədi ki, ovlasın. Artıq evə qayıtmaq istəyəndə bir kolun altında balaca qızıltüklü bir dovşan gördü. Dovşan o qədər gözəl idi ki, Şah İsmayıl onu diri tutmaq istədi. O, atdan endi və gizlicə dovşana yaxınlaşmaq istədi ki, onu tutsun, lakin dovşan kolun altından sıçrayıb qaçdı. Şah İsmayıl da onun dalınca qaçdı. Şah İsmayıl qaçdı, qovhaqov o qədər çəkdi ki, Şah İsmayıl artıq davam gətirə bilməyib yerə yıxıldı, dovşan da gözdən itib yox oldu.

Şah İsmayıl baş götürüb getdi. Az getdi, üz getdi, bir gün getdi, üç gün getdi, axır gəlib bir ağacın altında oturdu ki, dincini alsın. Çox geçmədi ki, yuxuya getdi.

Yuxudan oyanıb gördü ki, üç div öz aralarında mübahisə edir. Şah İsmayıl istədi ki, divlərin gözünə görünməyib çıxıb getsin. Divlər onu görüb dedilər:

– Bu bəni-insan bizim mübahisəmizi həll edər.

Onlar ona yaxınlaşıb dedilər:

– Bizim üç şeyimiz var: uçan xalça, sehrli papaq və Süleyman peyğəmbərin süfrəsi. Uçan xalçaya desən, ey uçan xalça, məni filan yerə apar, o saat həmin yerdə olacaqsan, sehrli papağı geyinsən, heç bir ins-cins səni görməyəcək, sən isə hamını görəcəksən, Süleyman peyğəmbərin süfrəsini ac olanda qabağına qoyub desən, "açıl, süfrə, açıl", o dəqiqə ürəyindən nə yemək keçsə, hazır olacaq. İndi mübahisə edirik ki, bu süfrə kimə çatmalıdır. Sən bizim mübahisəmizi həll etməlisən.

Şahzadə dedi:

– Mən sizin mübahisənizi həll edərəm. Mən kamandan bir ox atacağam, sizlərdən kim mənə onu birinci gətirsə, süfrəni alacaq.

Divlər şahzadənin sözündən razı qaldılar. Şahzadə kamanı möhkəmcə çəkib oxu atdı və divlər onun dalınca qaçdılar.

Bu vaxt şahzadə süfrəni götürüb cibinə qoydu, sehrli papağı başına qoydu, sehrli xalçaya oturdu və dedi: "Məni dovşanın evinə apar". O saat sehrli xalça geniş çöllərdən, uca dağlardan, dərin dənizlərdən keçib, şahzadəni bir yuvanın ağzına çatdırdı. Şahzadə xəncərini çıxartdı və yuvanın ağzını genişləndirməyə başladı. O, yuvanın ağzını bir az da genişləndirdikdən sonra qarşısında qızıldan bir pilləkan gördü, pilləkanla aşağı düşdü və özünü gözəl bir bağda gördü. O, bağda gəzərkən qızıldan bir saray gördü. Saraya daxil olub otaqları gəzəndə otaqların birində qızıl taxtın üstündə yatan bir gözəl qıza rast gəldi. Şah İsmayıl qızı görər-görməz ona vuruldu. O, ehmalca ona yaxınlaşıb dodaqlarından öpdü. Gözəl qız səksəndi, gözlərini açdı, ətrafa baxdı, bir kimsəni görmədi və yenidən yuxuya get-

di. Şahzadə bir dəfə də onu öpdü. Qız qışqırıb yatağından qalxdı. Şah İsmayıl qızı qucaqlayanda o, yalvararaq dedi:

– Bəsdir, səni Allaha and verirəm, mənə əziyyət vermə, inssən-cinssən, hər kimsən, özünü göstər, mənə yazığın gəlsin.

Şahzadə dedi:

– Ey gözəl, mən sənin dostunam, çünki səni sevirəm.

– Əgər, doğrudan da, məni sevirsənsə, özünü niyə gizlədirsən?

– Ey gözəl, əgər sən mənə ərə gəlməyə söz versən, mən sənə görünərəm.

– Söz verirəm ki, mən səninəm.

– And iç!

– Atam və anamın başına and içirəm, Allaha və peyğəmbərə and içirəm!

– Yox, yaxşı olar ki, ananın südünə and iç!

Qız bir az düşündü, nəhayət, dedi:

– Anamın südünə and içirəm, əgər andımı pozsam, qoy gözlərim kor olsun! Bundan sonra mən səninəm. Özünü göstər!

Şahzadə sehrli papağını çıxardı və gözəl qız onun gözəlliyinə valeh oldu, ilk baxışdan ona bir könüldən min könülə vuruldu. Bir gün şahzadə gördü ki, qızın neçə gündü qanı qaradır, qəm-qüssə içindədir. Şahzadə xəbər alanda qız dedi:

– Sevgilim, neçə gün idi xoşbəxt idim, heç düşünmürdüm ki, sabah zalım div yanıma gələcək.

Şahzadə dedi:

– Narahat olma, o gələn kimi mən onu öldürəcəyəm.

Qız dedi:

– Onu öldürmək belə asan deyil. Onu nə qılınc kəsir, nə də ox öldürür.

Şahzadə dedi:

– Ölərəm, səni ona verməərəm.

Qız dedi:

– Ey şahzadə, bil və agah ol, mən dənizlər padşahı Kalay-Lamanın qızıyam. Zalım div atamın düşməni idi. O, məni istəyirdi. Ona görə də atam dənizin dibində saray tikdirdi, böyük balıqlar sarayı dövrəyə alıb, onun keşiyini çəkirdilər. Onlar məni divdən qorumalı idilər. Div mənim qaravulçularımı aldadıb məni saraydan qaçırtdı, gətirib bu qalada həbs etdi. O, məni qaladan azad edəndə əvvəlcə məni qızıl tüklü dovşana çevirdi ki, mən ondan gizlənə bilməyim. Div həftədə bir dəfə mənim yanıma gəlir və məndən tələb edir ki, mən onun arvadı olum. Bu vaxta qədər mən ona razılıq verməmişəm, hər dəfə də o, buradan qeyzlənmiş halda çıxıb gedir.

Şahzadə ona qulaq asıb dedi:

– Sevgilim, sabah div gələndə sən özünü elə göstər ki, ona ərə getməyə razısan. Sonra ondan xəbər al ki, onun canı harada yerləşir.

Ertəsi gün onlar qüvvətli tufana bənzər qorxunc səs-küy eşitdilər. Bütün saray silkələndi. Şahzadə təzəcə gizlənmişdi ki, bədheybət bir div peyda oldu. Onun ağzından və burnundan alov çıxırdı, nəfəsindən yer titrəyirdi. Div içəri daxil olub dedi:

– Adam-badam iyisi gəlir, dadlı ətin xoş iyi gəlir. Çoxdandır ki, adam əti yeməmişəm.

Şahzadə qız dedi:

– Ağam, sənin qorxundan bura kim gələ bilər? Bura quş quşluğuynan gələ bilmir, ilan onun divarlarının altından keçməyə cəsarət etmir.

Div şahzadə qıza dedi:

– Adamı harada gizlətmisən? Onu mənə göstər, yoxsa sol qulağın ən böyük tikən olacaq.

Şahzadə qız dedi:

– İndi ki, mənə inanmırsan, özün axtar.

Div hər yeri axtardı, lakin heç kimi tapmadı. Div sakitləşib başını qızın dizi üstə qoydu. Div qızdan xahiş etdi ki,

onun arvadı olmağa razılıq versin. Qız ona dedi:

– Əgər sən, doğrudan da, məni sevirsənsə, bir de görüm sənin canın harada yerləşir?

Div dedi:

– Məndən nə istəyirsən xəbər al, bircə bunu xəbər alma!

Şahzadə qız dedi:

– Bax, görürsən, sən məni sevsəydin, dediyimi yerinə yetirərdin.

Div xəbər aldı:

– Sən bunu nə üçün öyrənmək istəyirsən?

Şahzadə qız dedi:

– Mən bilmək istəyirəm, görüm sənin canın təhlükəsiz yerdədirmi?

Div onun sözlərinə inanıb dedi:

– Uzaqlarda bir vilayətdə uca bir dağın başında saray var. Bu sarayda bir qaranlıq otaq var. Bu otağın tavanından bir sehrli qılınc asılıb, mənim canım bu qılıncın ucundadır. Əgər bu qılıncla məni bir dəfə vursalar, mən ölərəm, iki dəfə vursalar, mən yenidən dirilərəm.

Div bunu deyib yenidən başını şahzadə qızın dizi üstə qoydu. Bu vaxt şahzadə uçan xalçaya minib dedi: "Məni sehrli qılıncın asıldığı uca dağın başındakı saraya – qaranlıq otağa apar!" Elə bunu demişdi ki, bir də özünü həmin yerdə gördü. Şah İsmayıl tez qılıncı götürüb yenidən sehrli xalçanın üstündə oturdu və bir göz qırpımında şahzadə qızın otağında oldu. O gələndə div hələ yatırdı. Şah İsmayıl qılıncı qaldırıb divə bir zərbə endirdi, div gözlərini açıb dedi:

– Oğlan, bir zərbə də vur, mənə əzab vermə!

Şah İsmayıl dedi:

– Yox, mən anadan bir dəfə doğulmuşam.

Elə ki div cəhənnəmə vasil oldu, Şah İsmayıl qılıncı qınına qoydu və şahzadə qızı qucaqlayıb dedi:

– Sevgilim, sən indi sərbəstsən. Biz gedərik atamın yanına və sən mənim arvadım olarsan.

Şahzadə qız dedi:

– Yox, mən hələ tam azad deyiləm, mən gərək qırx gün, qırx gecə yatam ki, ovsunlanmış sehr, cadudan qurtulam. Mən yalnız bundan sonra sənin ola bilərəm.

Şah İsmayıl dedi:

– Qırx gün mən sənsiz darıxacam.

Şahzadə qız dedi:

– Mən sənə bu saraydakı qırx otağın açarını verəcəyəm. Bu otaqlarda o qədər qəribə, gözəl və qiymətli şeylər vardır ki, onlara valeh olacaqsan. Amma nəbadə qırxıncı otağın qapısını açasan. Açarsan özünü də, məni də məhv edərsən.

Şahzadə qız bunu deyib, başını məxmər yastığın üstünə qoyan kimi o saat yuxuya getdi.

Şah İsmayıl açarları götürüb otaqlara baxmağa getdi. O, bir otağı açdı. Bu çox gözəl otaq idi, burdakı ləl və cəvahiratdan olan əşyalar onun ağlını apardı.

Beləliklə, Şah İsmayıl hər gün bir otağı açıb baxırdı. Nəhayət, qırxıncı gün gəlib çıxdı. O, heç özü də bilmədən baxıb gördü ki, qırxıncı otağın qapısında durub. Şahzadə qızın sözü yadına düşdü, o biri tərəfdən də öz-özünə xəbər aldı: "Görəsən, şahzadə qız nə üçün bu otağa baxmağımı istəmir, nə olursa olsun, baxacam". Bunu deyib həmin otağın qapısını açdı və içərisində heç bir şeyi olmayan sadə kasıb bir otağa daxil oldu, otağın bir küncündə ağır, dəmir zəncirlərə vurulmuş böyük bədheybət bir div gördü. Div güclə nəfəs ala-ala otağın bir küncündə oturmuşdu. Onun qabağında su ilə dolu bir mis cam vardı. Ağır zəncirlər onu hərəkət etməyə qoymurdu. Div Şah İsmayılı görüb dedi:

– Ey insan, mən susuzluqdan ölürəm, Allah xatirinə, qurumuş dodaqlarımı islat.

Şahzadə barmaqlarını isladıb onun dodaqlarına sürtdü, o, acgözlüklə onun barmaqlarını yalamağa başladı. Div ona dedi:

– Ey şahzadə, Allah üçün, sevimli şahzadə qızın üçün mənə yazığın gəlsin, mənə heç olmasa, bir qurtum su ver. Sənin yaxşılığına xeyir-dua edərək ölüm.

Şah İsmayıl camı su ilə doldurub ona verdi, o, suyu içib dirçəldi, gözləri işıqlandı, qollarına qüvvət gəldi. Qollarındakı zəncirlər zəiflədi. Dedi:

– Yenə bir cam su ver, yalnız bir cam!

Şah İsmayıl yenə ona bir cam su verdi. Div yenə bir cam su içdi. Div yanğısını söndürüb zəncirləri qırdı. Çeçələ barmağıyla Şah İsmayılı vurub bir tərəfə atdı, tez otaqdan çıxıb şahzadə qızın yatdığı otağa getdi, onu əlləri ilə yerindən qaldırdı, buludlardan yüksəyə qaldırıb gözdən itdi.

Şah İsmayıl özünə gələn kimi şahzadə qızın otağına tərəf qaçdı, gəlib gördü ki, qız yoxdu. Bir əli oldu, bir başı. Başa düşdü ki, səhv edib şahzadə qızın sözünü eşitməyib. Şah İsmayıl işi belə görüb çox peşman oldu. Kor-peşman saraydan çıxıb baş götürüb getdi.

Az getdi, üz getdi, bir gün getdi, üç gün getdi, axırda gəlib bir mağaraya rast gəldi. Mağarada burnu dizə qədər olan, dişləri başından yuxarı dikələn, saçları keçilməz meşə, təkcə bir gözü o da əmgəyində olan qoca, eybəcər Kaftar Kürsü gördü. Qoca qarı ağlayanda bulaqlar axır, güləndə ildırım çaxır, danışanda yer silkələnir, burnu ağzında od püskürürdü. Öz əmcəklərinin üstündə oturur, dabanları üstündə çapır, dağlar yeyir, bulaqları içir, öz saçlarından olan zəncirə bənd olub oturur. Şah İsmayıl ona yaxınlaşıb dedi:

– Salaməleykum, nənə!

– Əleykum-əssalam, oğul! Allah qoysa, hara yol tutubsan?

Şah İsmayıl başına gələnləri Kaftar Kürsüyə nəql etdi.

Kaftar Kürsü dedi:

– Mən görürəm sən yaxşı adamsan, zəncirlərimi bir az aç, mən sənə gözəl şahzadə qızı necə tapmağı deyərəm.

Şah İsmayıl qılıncı çəkib bir zərbə ilə onun zəncirlərini kəsdi.

Kürsü dedi:

– Buradan çox uzaqlarda bir vilayətdə qızıldan gözəl bir saray vardır. Zalım div gözəl şahzadə qızı həmin sarayda tutub saxlamışdır və div qoyduğu iki şir gecə-gündüz sarayın ətrafında dövrə vurub onun keşiyini çəkir. Şahzadə qız gecə-gündüz ağlayır, öz sevgilisini gözləyir. Sən bir gün, iki gün yol gedərsən, axırda üçüncü gün həmin sarayı, iki şiri görəcəksən. Quşlar onlardan qorxub sarayın üstündən uçub geçə bilmir, ilanlar sarayın divarları altından sürünüb keçə bilmirlər. Bu iki çörəyi götür! Saraya çatanda çörəyin birini bir şirə, o birini də o biri şirə atarsan. Onlar səni içəri buraxacaqlar. Saraya girərsən və orada gözəl şahzadə qızı görəcəksən. O oturub ağlayır, div isə başını onun dizinin üstünə qoyub yatıb. Div üç gün, üç gecə yatmalıdır. Sən qızı otaqdan çıxardarsan. Həyətdə gözəl, külək kimi sürətli ağ at görəcəksən. Sən göz açıb yumunca ağ at səni və şahzadə qızı divin sarayından uzaqlara aparacaq. Div yuxudan oyananda qızın yox olduğunu görəndə sənin dalınca yola düşəcək. Mən sənə üç şey daraq, iynə və yumurta verəcəm. Div sənə yaxınlaşanda darağı atarsan, o saat səninlə div arasında uca dağlar əmələ gələcək, iynəni atanda yer keçilməz meşələrlə örtüləcək, yumurtanı atanda dərin göl əmələ gələcək. Bu göldə də zalım div məhv olacaq.

Şah İsmayıl Kaftar Kürsüylə görüşdü və özü ilə çörək, daraq, iynə və yumurtanı götürdü.

Az getdi, üz getdi, bir gün getdi, iki gün getdi, üç gün getdi, dağları aşdı, meşələrdən, çaylardan keçdi, axırda divin sarayını, sarayın da qabağında iki şiri gördü.

O, şirlərin hər birinə bir çörək atıb tez saraya girdi. Şahzadə qız qızıl taxta oturub ağlayırdı, bədheybət div isə başını onun dizi üstə qoyub yatırdı. Qız onu görüb sevincindən yavaşca gülümsədi. Yerindən qalxıb Şah İsmayıl ilə görüşmək istədi. Lakin o, yerindən tərpənə bilmədi, çünki əl-ayağı divin uzun bığ və saqqalı ilə bağlanmışdı. Şah İsmayıl qılıncını çəkib divi vurdu, div heç yerindən tərpənmədi, ikinci dəfə divi vurdu, div isə hələ də yatırdı, divi üçüncü dəfə vuranda div gözlərini açıb öz-özünə danışdı: "lənətə gəlmiş birələr yatmağa qoymurlar". Div böyrü üstə çevrilib xoruldamağa başladı. Şahzadə qız Şah İsmayıla dedi:

– Tavandan bir qılınc asılıb, onu götür! Bu qılıncla onun saqqal və bığlarını kəs!

O, qılıncı götürdü və divin saqqal və bığlarını kəsdi və şahzadə qızı azad etdi. Şah İsmayıl qızı götürdü, ağ ata mindi, qızı tərkinə alıb yel kimi o saat gözdən itdi.

Div yuxudan ayılanda qızı yanında görməyib, özünün qızıl tüklü donuzunu səsləyib çağırdı, donuza mindi və Şah İsmayılın dalınca çapdı.

Şah İsmayıl bir arxaya baxdı, gördü div donuzun belində ona çathaçatdı, özü də qılıncını sıyırıb gəlir. Şah İsmayıl Kaftar Kürsünün sözünü xatırladı, darağı yerə atdı və darağın yerində aşılmaz uca dağlar əmələ gəldi. Div dağların arxasında qaldı. Şah İsmayıl atı mahmızlayıb irəliyə uçdu. Bir az keçəndən sonra Şah İsmayıl arxaya baxdı, gördü div yenə ona çathaçatdadı.

Allah böyükdür! Şah İsmayıl Kaftar Kürsünün sözünü xatırladı, bu dəfə iynəni arxasınca yerə atdı. İynənin yerində qaranlıq, qalın keçilməz meşə əmələ gəldi. Div meşənin arxasında qaldı.

Bir qədər çapandan sonra Şah İsmayıl yenə arxasına baxdı ki, görsün div gəlir, ya gəlmir. Gördü ki, div yenə ona çathaçatdadı. Bu dəfə şah İsmayıl yumurtanı arxasınca yerə atdı. Yu-

murtanın yerində ucsuz-bucaqsız dərin, dalğalı bir dəniz əmələ gəldi. Div dənizin arxasında qaldı, o, donuzu dənizə sürdü. Dalğalar divin üstündən aşıb onu batırdı. Şahzadə və şahzadə qız sevindilər. Allah bizə xoşbəxtliyimizi tapmaqda yar olsun!

## 9. QURBAĞA ŞAHZADƏ QIZ

Biri var idi, biri yox idi, Allahdan başqa heç kim yox idi. Bir padşah var idi, bu padşahın da üç oğlu var idi. Böyüyünün adı Vəli, ortancılın adı Balı, kiçiyinin adı isə Şah Nurivan idi. Bir gün padşah oğullarını yanına çağırıb dedi:

– Oğullarım, düzə çıxın, yaylarınızı çəkin və oxlarınızı atın! Oxlarınız kimin həyətinə düşsə, oradan da qız istəyin.

Padşahın oğulları düzə çıxdılar, yaylarını çəkdilər, oxlarını at dılar. Vəlinin oxu vəzirin, ortancıl qardaş Balının oxu vəkilin həyətinə və kiçik qardaş Şah Nurivanın oxu isə padşahın sarayının qabağındakı gölməçəyə düşdü. Vəli vəzirin evinə, Balı isə vəkilin evinə getdi. Şah Nurivan isə gölməçəyə tərəf getdi. Gölməçədən iri, yaşıl qurbağa atılıb çıxdı, o, ağzında şahzadənin oxunu tutmuşdu. Şah Nurivan ondan öz oxunu götürmək üçün əyiləndə qurbağa suya tullandı. Qurbağa şahzadədən bir neçə addım aralı onun oxunu ağzında tutaraq yenə də sudan atılıb çıxdı. Şahzadə onun dalınca cumub suya atıldı. Bir neçə dəqiqə sonra qurbağa bir də göründü. Şahzadə yenə ona yaxınlaşmaq istədisə də, qurbağa suya atıldı. Bu işə məəttəl qalan şahzadə atasının yanına getdi və dedi:

– Qibleyi-aləm, mənim oxum gölməçəyə düşdüyündən onu bir yaşıl qurbağa tapmışdır. Mən nə qədər etdimsə, oxu ondan ala bilmədim.

Padşah dedi:

– Görünür, tale sənə qurbağayla evlənməyi təyin edib, yazını pozmaq olmaz. Get, qurbağayla evlən.

Şah Nurivan öz-özünə fikirləşdi: "Əgər tale mənə qurbağa ilə evlənməyi təyin etmişsə, mən taleyə qarşı bir şey edə bilmərəm". O bunu deyib gölməçəyə tərəf getdi. Qurbağanı götürdü, onu bir yaylığa bükdü, evə gətirib pəncərəyə qoydu, özü isə qəm-qüssəsini dağıtmaq üçün düzləri, çölləri, dağları gəzməyə getdi.

Qurbağa isə pəncərədən yerə hoppanaraq özünün qurbağa cildini çıxardı və çox gözəl bir qıza döndü, elə bir qız oldu ki, gözəlliyini nə sözlə demək, nə də qələmlə çəkmək olardı. Qız əl-qolunu çırmalayıb süpürgəni əlinə alıb evi süpürdü, səliqə-səhman yaratdı. Sonra mətbəxə keçib şahzadə üçün bir-birindən dadlı yeməklər bişirdi.

Axşam şahzadə gəlib evini görəndə gözlərinə inanmadı, öz-özünə fikirləşdi: "Görəsən, bunu kim edib?" O, masanın arxasında oturub qızın bişirdiyi yeməklərdən doyunca yedi. O yeyib-içdikdən sonra atasının yanına getdi. Şahzadə atasının hüzurunda durub gördüklərini ona nəql etdi.

Padşah ona bu işdən xəbərsiz olduğunu dedi. Şahzadə qardaşlarının yanına gələndə onlar gülüb dedilər:

– Sən bu işi yaxşı olar ki, qurbağa arvadından xəbər alasan.

Şahzadənin qurbağa arvadı isə bu vaxt yenə qurbağa cildini dəyişib gözəl bir qıza döndü. Şahzadə gələnə kimi evdə səliqə-səhman yaratdı, yenə dadlı yeməklərdən bişirdi. Şahzadə evə gələndə bütün bunları görüb xeyli təəccübləndi. O yeyib-içəndən sonra bir söz deməyib başqa otağa keçdi, qapının arxasında gizlənib gözləməyə başladı. Bir az keçmiş gördü ki, qurbağa pəncərədən yerə tullanıb cildini dəyişdi, misli-bərabəri olmayan gözəl bir qıza döndü. Şahzadə qızı görüb tez qaçıb otağa girdi, onu tutdu, qız qışqırıb dedi:

– Şahzadə, Allah xatirinə məni burax!

– Səni buraxan deyiləm, səni görən kimi bir baxışdan sevdim. Sən gərək mənim olasan.

– Əgər sən, doğrudan da, məni sevirsənsə, məni burax. Allaha and verirəm, sənin olacağam. Bir az səbr et, mənə möhlət ver! Bir müddət mən gərək bu cilddə olam. Allah xatirinə, bu barədə nə atana, nə qardaşlarına bir söz demə!

Şahzadə sevincək qızın dediklərinə razı oldu. Bu işdən bir müddət keçdi.

Günlərin bir günü padşah oğullarını yanına çağırıb dedi:

– Filan günü arvadlarınızla yanıma gələrsiniz!

Böyük qardaş Vəli və ortancıl qardaş Balı atalarının əmrini arvadlarına çatdırdılar. Onlar da qulluqçularına əmr etdilər ki, ənlik-kirşan gətirsinlər, pal-paltarlarını hazırlasınlar. Qardaşlar qurbağa arvadı ilə padşahın yanına gəlməli olan kiçik qardaşlarına gülürdülər.

Kiçik qardaş isə qəm və kədər içində evə gələndə arvadı ondan xəbər aldı.

– Şah Nurivan, nə oldu ki, sən belə kədərlisən?

Şah Nurivan dedi:

– Niyə də kədərlənməyim? Atam filan günü səni görmək istəyir. Mən də bilmirəm ki, səni atama və qardaşlarıma necə göstərim. Onlar mənə güləcəklər.

Arvadı dedi:

– Şah Nurivan, heç fikir çəkmə, bu düzələn işdir. Bax bu üzüyü götür, gölməçəyə tərəf get, üç dəfə səslən: Baba, baba, uzunsaqqal baba! Gölməçədən çıx, şaxtadan qorxma! Gölməçədən uzunsaqqallı baba çıxacaq. Sən ona üzüyü göstər və de: “Sənin qızın yel atı qoşulmuş qızıl araba istəyir”.

Şahzadə üzüyü götürüb gölməçəyə tərəf gedir və üç dəfə səslənir:

– Baba, baba, uzunsaqqal baba! Gölməçədən çıx, şaxtadan qorxma!

Gölməçədən dizinə qədər uzun saqqalı və bığları olan qoca bir kişi çıxdı.

O, şahzadədən xəbər aldı:

– Sən kimsən, məni niyə çağırdın?

Şahzadə üzüyü ona göstərib dedi:

– Sənin qızın istəyir ki, sən filan gün üçün ona yel atı qoşulmuş qızıl araba göndərəsən.

Qoca dedi:

– Get ona de ki, həmin gün araba onun yanında olacaq.

Qoca bunu deyib suyun altında gözdən itdi.

Bir neçə gün sonra padşahın böyük oğulları arvadları ilə padşahın yanına getdilər. Padşah böyük oğullarını qucaqlayıb öpdü, onların arvadlarını da təriflədi. Bu vaxt padşahın sarayının qabağında yel atı qoşulmuş qızıl araba dayandı. Arabadan şahzadə və cənnət hurisi kimi gözəl arvadı düşdü. Şahzadənin böyük qardaşları onun arvadının gözəlliyinə məftun olmuşdular.

Şahzadə Şah Nurivan arvadı ilə padşahın otağına keçdi və arvadını padşaha göstərdi. Padşah kiçik oğlunun arvadını gördükdə ağlı başından çıxdı. O, gözlərini gəlinindən çəkə bilmirdi, ömründə ilk dəfə idi ki, belə gözəl qız görürdü. Böyük gəlinlər də həsrətlə kiçik qardaşın arvadına baxırdılar.

O gündən padşah kiçik gəlininə vuruldu, kiçik oğlunun başını birtəhər batırmaq üçün yol axtarırdı ki, onun gözəl arvadına sahib olsun. Bir gün o, kiçik oğlunu yanına çağırıb dedi:

– Sən filan gün üçün elə bir qazan tapmalısan ki, onda bişirilən aşdan bütün qoşunum yesin, hələ də artıq qalsın. Əgər bu qazanı tapmasan, boynun vurulacaq.

Şah Nurivan qəm-qüssə içində evinə getdi, arvadı onu görüb dedi:

– Şah Nurivan, sənə nə olub ki, belə qəm-qüssəyə batmısan?

Şah Nurivan dedi:

– Mən necə qəm-qüssə içində olmayım, padşah məndən tələb edir ki, filan gün üçün elə bir qazan tapım ki, o qazanda bütün qoşun əhlini doyuracaq aş bişirilsin, yoxsa boynumu

vurduracaq.

Arvadı dedi:

– Şah Nurivan, heç kefini pozma, bu dərdin çarəsi var. Bax bu üzüyü götür, gölməçəyə tərəf get, elə ki gəlib çatdın, üç dəfə səslənərsən: Baba, baba, uzunsaqqal baba! Gölməçədən çıx, şaxtadan qorxma! Sənin qızın filan gün üçün anasının qazançasını istəyir.

Şah Nurivan gölməçəyə gedib üç dəfə səsləndi:

– Baba, baba, uzunsaqqal baba! Gölməçədən çıx, şaxtadan qorxma! Gölməçədən dizinə qədər uzun saqqalı və bığları olan qoca bir kişi çıxdı.

Qoca xəbər aldı:

– Kim məni çağırır?

Şahzadə üzüyü ona göstərib dedi:

– Sənin qızın istəyir ki, sən filan gün üçün anasının qazançasını ona çatdırasan.

Qoca dedi:

– Get qızıma de ki, həmin gün qazança onda olacaq.

Qoca bunu deyib suyun altında yox oldu. Şah Nurivan da evinə qayıtdı. Gün gəlib çatdı padşah qoşun əhlini çölə çıxardı və kiçik oğlunu çağırtdırıb xəbər aldı:

– Qazanı gətirdin ya yox? Əgər sən bir qazanla mənim qoşun əhlimi doyurmasan, boynun vurulacaq.

Çöldə böyük bir qazan dururdu, içində də aş bişirdi. Qoşun əhlinə aşı payladılar, hamı doyunca yedi. Axır hamı yeyib-içdikdən sonra padşah qazanın içinə baxdı, gördü ki, qazan heç yarılanmayıb.

Padşah qanıqara saraya qayıtdı, kiçik oğlunun başını batırmaq qəsdi onu rahat buraxmırdı. Bir gün o, nə isə fikirləşdi, oğlunu hüzuruna çağırtdırdı. Şah Nurivan gəlib ədəb-ərkanla atasının hüzurunda dayandı. Atası ona dedi:

– Səndən elə bir xalı istəyirəm ki, bütün qoşun əhli onun

üstündə gen boluna otursun, əgər tapa bilməsən, boynun vurulacaq. Şah Nurivan qəm-qüssə içində evinə getdi, arvadı ondan xəbər aldı:

– Şah Nurivan, niyə belə qəmlisən?

Şah Nurivan dedi:

– Niyə də qəmli olmayım, atam məndən elə bir xalı istəyir ki, bütün qoşun əhli onun üstündə gen boluna otura bilsin, yoxsa boynumu vurduracaq.

Arvadı dedi:

– Şah Nurivan, heç kefini pozma, bu dərdin çarəsi var. Bax bu üzüyü götür, gölməçənin sahilinə get, elə ki gölməçəyə gəlib çatdın, üç dəfə babanı səslə və ona de ki, qızın anasının ipək xalısını istəyir.

Şah Nurivan arvadından üzüyü alıb gölməçəyə getdi. Arvadının dediyi kimi üç dəfə səsləndi: "Baba, baba, uzunsaqqal baba! Gölməçədən çıx, şaxtadan qorxma!" Gölməçədən dizinə qədər uzun saqqalı və bığları olan qoca bir kişi çıxdı. Qoca xəbər aldı:

– Kim məni çağırır?

Şahzadə üzüyü ona göstərib dedi:

– Qızın səndən filan günə anasının kiçik ipək xalısını ona göndərməyi istəyir.

Qoca dedi:

– Get qızıma de ki, həmin gün anasının kiçik ipək xalısı onda olacaq.

Qoca bunu deyib o saat suyun altında yox oldu.

Həmin günü padşah bütün qoşun əhlini çölə çıxartdı, orada böyük bir ipək xalı yerə sərilmişdi. Bütün qoşun əhli xalının üstündə gen boluna əyləşdi, xalının yarısı boş qaldı.

Padşah qanıqara saraya qayıtdı, özü də elə hirsləndi ki, bıçaq vursaydın, qanı çıxmazdı. Bir gün padşah özünü xəstəliyə vurub, kiçik oğlunu hüzuruna çağırtdırıb dedi:

– Mən xəstəyəm, sən gərək mənə elə bir abi-həyat suyunu tapıb gətirəsən ki, içib sağalım, tapa bilməsən, boynun vurulacaq.

Şah Nurivan yenə qəm-qüssə içində evə gəldi. Arvadı ərini yenə bikef görüb xəbər aldı:

– Şah Nurivan, nə olub ki, belə qəm-qüssə içindəsən?

Şah Nurivan dedi:

– Mən necə qəm-qüssə içində olmayım? İndi də atam onun üçün abi-həyat suyunu gətirməyimi istəyir, yoxsa boynumu vurduracaq.

Arvadı dedi:

– Şah Nurivan, kefini pozma, buna da çarə var. Yenə üzüyü götür, gölməçəyə get. Qocanı səslə və ondan bir qara at istə, sonra isə yanıma gəl, mən sənə abi-həyat suyunun yolunu göstərərəm.

Şah Nurivan arvadından üzüyü aldı, gölməçəyə gedib qocanı səslədi. Atı minib arvadının yanına gəldi. Arvadı ona dedi:

– Əvvəlcə düz gedərsən, o qədər gedərsən ki, uca divarların arasında gözəl bir bağa rast gələrsən. Bu bağın qapısında iki şir görəcəksən. Bu şirlər heç kimi içəriyə buraxmırlar. Mən sənə iki çörək verirəm. Əvvəlcə bir çörəyi iki yerə bölərsən, bir yarısını bir şirə, o biri yarısını o birinə verərsən və onlar səni bağa buraxarlar. Bağa girəndə qızıl fəvvarə görəcəksən. Bu fəvvarə abi-həyat suyunun fəvvarəsidir. Kürzəni doldur, ətrafa baxma, sonra da bağdan çıx. Qapının yanında ikinci çörəyi bölərsən, çörəyin bir yarısını bir şirə, o biri yarısını o biri şirə verərsən.

Şah Nurivan iki çörəyi götürdü, ata mindi və yola rəvan oldu. Az getdi, üz getdi, bunu Allah bilir. Bir gün yol getdi, iki gün yol getdi, üç gün yol getdi, axır hündür divarların arasında gözəl bir bağ gördü. Bağ qapısında iki şir oturmuşdu. Bu şirlər gecə-gündüz bağın keşiyini çəkirdilər. Şahzadə atdan düşdü, çörəyi iki yerə böldü. Bir parasını bir şirə, o biri

yarısını o biri şirə verdi və bağa girdi. Bağda abi-həyat suyunun fəvvarəsini gördü. O, kürzəni su ilə doldurdu və ətrafa baxmadan bağdan çıxdı. Şahzadə yenə də həmin qaydada çörəyi şirlərə verib atına mindi və yoluna rəvan oldu.

O, sağ-salamat atasının hüzuruna gəlib bir kürzə abi-həyat suyunu ona verdi. Padşah oğlunu sağ-salamat görüb qanı qaraldı. Padşah bir gün, iki gün fikrə qərq oldu ki, oğlunun başını necə batırsın? Üçüncü gün yenə kiçik oğlunu hüzuruna çağırıb ona dedi:

– O dünyaya gedib anandan xəzinənin açarının harada gizlətdiyini öyrən, öyrənməsən, boynun vurulacaq.

Şah Nurivan yenə qəm-qüssə içində evə gəldi. Arvadı ərini yenə bikef görüb xəbər aldı:

– Şah Nurivan, nə olub, nədən belə qəmginsən?

Şah Nurivan dedi:

– Necə də qəmgin olmayım, atam məni o dünyaya göndərir ki, xəzinənin açarının yerini anamdan öyrənim.

Arvadı dedi:

– Şah Nurivan, heç də qəmgin olma. Bu üzüyü götür, gölməçəyə get. Qocanı səslə və ondan bir ağ at istə, at səni o dünyaya aparıb gətirəcək.

Şah Nurivan gölməçəyə gedib qocanı səslədi. Ondan ağ at istədi. Ağ ata minib yola rəvan oldu. Az getdi, üz getdi, Allah bilir, nə qədər getdi, bir gün getdi, iki gün getdi, üç getdi, axırda bir geniş yolda üç nəfər gördü. Bu üç nəfər boğaza qədər qanın içində durub sahilə çıxmaq istəyirdilər, lakin daha çox qanın içində batıb qalırdılar.

Şah Nurivan onlardan xəbər aldı:

– Siz kimsiniz, hansı günahlarınıza görə belə cəzalandırılmısız?

Onlar dedilər:

– Öz yolunla get, geri qayıdanda bilərsən.

Şah Nurivan yoluna davam elədi. Az getdi, üz getdi, Allah bilir, nə qədər getdi. O, yol ilə gedir və dirəyə zəncirlə bənd edilmiş bir nəfəri görür. Onun qulaqlarına ucu iti dəmir çubuqlar batırılmışdı. Şahzadə xəbər aldı:

– Sən nə üçün dirəyə bənd edilmisən?

O cavab verdi:

– Geri qayıdanda bilərsən.

Şah Nurivan yoluna davam etdi, az getdi, üz getdi, Allah bilir, nə qədər getdi. Yolda bir qadın gördü, o, döşlərini isti sobaya sallayıb özü isə dişləri ilə sobanın közərdilmiş kənarını çeynəyirdi. Şahzadə ondan xəbər aldı:

– Sən sobanın kənarını nə üçün çeynəyirsən?

Arvad dedi:

– Geri qayıdanda bilərsən.

Şah Nurivan yoluna davam elədi. Az getdi, üz getdi, nə qədər getdi Allah bilir, gözəl, geniş bir bağ gördü, bu bağda da əlində təsbeh çevirən anasını gördü. O, oğlunu görüb dedi:

– Oğul, bağa girmə! Bu bağa girən bir də heç vaxt buradan çıxa bilməz.

Şah Nurivan dedi:

– Atam, xəzinənin açarlarını harda gizlətdiyini öyrənmək istəyir.

– Sənin lənət olmuş atan məgər açarların harda gizləndiyini bilmir? Oğlum, o səni yalnız məhv etmək istəyir.

– Mən bunu bilirəm.

– Yaxşı, oğlum. Atanın yanına get və ona de ki, açarlar pilləkanın altında gizlədilmişdir. Ona de ki, mən onun taxtdan düşməyini, onu quduz qurda, vəzir, vəkillərinin isə quduz itə çevrilib onu parçalamalarını istəyirəm.

Şah Nurivan atının başını çevirib geri qayıtmaq üçün yola düşdü. Bir az yol getdikdən sonra o döşlərini isti sobanın közərmiş daşlarına sallayaraq sobanın kənarını çeynəyən arvadı

gördü. Şahzadə ondan xəbər aldı:

– Arvad söylə, sən nə işinə görə belə cəzalandırılmısan?

Arvad dedi:

– O dünyada mən yoldan keçən dilənçiyə çörək vermədim, ona görə də bu dünyada belə cəzalandırıldım.

Şahzadə yoluna davam etdi və dirəyə bənd edilmiş adamı gördü. O adamdan xəbər aldı:

– İndi söylə, sən nəyə görə belə cəzalandırılmısan?

Həmin adam dedi:

– O dünyada mənim özgələrin söhbətlərini dinləmək adətim var idi.

Şahzadə yoluna davam etdi və boğazlarınacan qanda olan adamları gördü. Onlardan xəbər aldı:

– Siz nəyə görə belə cəzalandırılmısınız?

– O dünyada biz çox nahaq qan tökmüşdük. Bu dünyada həmin qan bizə yol getməyə imkan vermir.

Şah Nurivan sağ-salamat atasının yanına qayıtdı və dedi:

– Mən o dünyada oldum, anamı gördüm, o deyir ki, xəzinənin açarları pilləkanın altında gizlədilib.

Padşah xəbər aldı:

– O daha nə dedi?

– Anam mənə əmr etdi ki, onun bir arzusunu sənə çatdırım. O, arzu edir ki, sən taxtından yıxılıb düşəsən və quduz qurda çevriləsən, vəzir, vəkillərin də quduz itlərə.

Şah Nurivan bunu deyən kimi padşah taxtdan yıxılıb düşdü. O, quduz qurda çevrildi, onun vəzir, vəkilləri isə quduz itlərə və onlar bir-birlərini gəmirməyə başladılar.

Şah Nurivan bundan sonra padşah oldu və öz gözəl arvadı ilə uzun illər padşahlıq etdi.

Göydən üç alma düşdü, biri söyləyiciyə, biri dinləyicilərə, biri də Allaha.

## 10. ŞAHSEVƏNLİ HACININ KÖPƏYİ
## (tatarcadan tərcümə)

Şahsevəndə varlı bir Hacı yaşayırdı. Onun çoxlu qızılı, var-dövləti, gümüşü, mal-dövləti, qoyun-quzusu və atları var idi. Şahsevənin ucsuz-bucaqsız çəmənliklərində onun saysız-hesabsız sürüləri otlayırdı. Onun bir də böyük qorxmaz köpəyi var idi. Bu köpək onu saysız-hesabsız sürülərinin fəxri, qoyunlarının arxası, atlarının sadiq dostu idi. Hacı onu özündən çox istəyirdi. Lakin bu dünyada heç nə əbədi deyildir. Bir nəhs gündə Hacı yuxudan oyanıb ayaqlarının altında sadiq köpəyini cansız gördü. Yazıq köpək! Sən demə, o, sümük udubmuş və bu sümük də onun ölümünə səbəb olubmuş. Bədbəxt Hacı, yazıq Hacı! O, acı-acı göz yaşları töküb sadiq cəsur dostunun ölümünə ağladı. Lakin bu hələ az idi. O, əmr etdi ki, onun meyidini kəfənləyib möhtərəm və hörmətli adamlar kimi dəfn etsinlər. Molla üç gün, üç gecə onun qəbri üstündə Quran oxumalı idi. Hacı sadiq köpəyin xatirəsinə yeddi gün ərzində bütün dilənçiləri, şikəstləri, fəqir-füqəranı yedirib-içirdi, onlara sədəqələr payladı və xeyrat verdi. Bu hadisə haqqında xəbərlər baş mollanın qulağına çatdı. O, dəhşətə gəldi! O, başına toz tökdü, paltarını parça-parça etdi: “Vay, müqəddəs din tapdanmışdır. Peyğəmbərin dini çirkabla qarışdırılmışdır. Quran unudulmuşdur, iman unudulmuşdur. Şəriət təhqir edilmişdir, Allaha rişxənd edilmişdir! Ey günahkarlar, köpəyin meyidini ehtiramla dəfn etməyə və onun qəbri üstündə Quran oxumağa cürət etmiş insanlar yüz min dəfə ölməyə layiqdirlər!”

Molla Hacını layiqincə cəzalandırmaq üçün ata mindi və Hacının yanına yola düşdü. Hacını mollanın gəlişindən xəbərdar etdilər. O, dərhal öz sürüsündən əlli yağlı qoyunu ayırmağı əmr etdi və özü isə mollanın yanına getdi. O, mollaya təzim edib onun paltarının ətəyindən öpdü və dedi:

– Ey böyük imam, bizim müqəddəs dinin dayaq və vicdanı! Mənim valideynlərim sənin ayağının tozuna qurban olsunlar! Özünün itaətkar qulunun dərdini dinlə! Mənim var-dövlətimin dayağı, sürülərimin arxası, düşmənlərin qənimi, mənim köpəyim, mənim sadiq, adlı-sanlı Bozdarım öldü! O, xeyirxah və ağıllı, əsl müsəlman idi, mollalara və imamlara hörmət edirdi, hətta ölümündən əvvəl sənə əlli yağlı qoyun vəsiyyət etmişdi.

Heyran qalmış molla ucadan dedi:

– Ah, sən onu köpək adlandırma. Onu mənim qardaşım, mənim dostum adlandır... Onun qəbrini mənə göstər, mən ora gedib ona rəhmət oxuyacağam.

***Şamaxı şəhər məktəbi müəliminin köməkçisi***
***A. Zaxarov yazıya aldı. Şamaxı şəhəri 1886-cı il***

## BAĞIROV HƏSƏNBƏY. YELİZAVETPOL QUBERNİYASI YELİZAVETPOL QƏZASININ GORANBOY, ƏHMƏDLİ KƏND SAKİNLƏRİNİN BƏZİ SƏCİYYƏVİ XÜSUSİYYƏTLƏRİ

***Yumoristik xalq hekayətləri***

### 1. AĞILSIZ CÜTÇÜ

Bir dəfə iki quldur: Zərgər və Dilağardı quldurluğa gedirlər, onlar özlərilə tüfəng götürmədikləri üçün asan fırıldağa əl atdılar və şərtləşdilər ki, cütçünün öküzünü əlindən alsınlar. Hiyləgərliyiylə məşhur olan Dilağardı öz dostunu meşədə qoyur, özü isə safürəkli kəndlinin tarla şumladığı talaya gəlir. Hiyləgər uca səslə qışqırmağa başlayır, o, gah uşaq kimi hönkürür, gah öz başını vurur, nəhayət, başına torpaq səpib dayan-

madan elə hey deyir: “Bu nə müsibətdir, mən ağlımı itirmişəm!” Yazıq, bədbəxt cütçü belə bir mənzərəni görüb öz işini buraxıb, – yaxşı insan, sənə nə olub? – deyə soruşur. Dilağardı cütçünü yanında daha çox saxlamaq üçün cavab vermirdi. Bu vaxt Zərgər cütçünün diqqətinin hiyləgərdə olmasından istifadə edərək münasib fürsət tapıb meşədən çıxdı, öküzlərdən birini cütdən açdı və onu meşəyə qovladı. O, tamam gözdən itəndən sonra hiyləgər təbəssümlə dedi: “Mənə heç nə olmayıb, ağlım başımdadır, məni yalnız bir şey təəccübləndirir və heyrətləndirirdi ki, sən bu vaxtadək bir öküzlə tarlanı necə şumlamısan?

Cütçü dönüb arxaya baxdı və iki öküz yerinə yalnız bir öküz gördükdə ucadan dedi:

– Mən özüm təəccüblənirəm, mən necə bir öküzlə yeri şumlaya bilmişəm, burada bir möcüzə vardır!”

Hiyləgər oğru cütçünü cütün yanına gətirdi və ona başa saldı ki, burada heç bir möcüzə yoxdur, onun olmadığı vaxt öküzü cütdən açıb və aparıblar.

Nəhayət, kəndli başa düşdü ki, onun öküzü oğurlanıbdır və ətrafda bir kimsəni görməyib, – “Sən indi mənim öküzümü oğurladın, səndən başqa burada heç kim olmayıb”, – deyərək hiyləgərdən yapışdı. Kəndxudanın yanına şikayətə getdilər. Yolda fırıldaqçı özünü ölülüyə vurdu. Cütçü daha da təşvişə düşdü və yalançı ölünü qoyub öz yol yoldaşının gözlənilməz ölümündən kəndxudanı xəbərdar etmək üçün onun yanına getdi. Dilağardı bu vaxtdan istifadə edərək əkin yerinə qayıtdı, cütçünün paltarını götürüb digər öküzü də dostunun yanına qovaladı. Cütçü ilə kəndxuda qayıdıb gəlirlər, lakin yolda nə bir ölüyə, nə də əkin yerində paltara, ya öküzə rast gəlmirlər. Kəndxuda cütçünü ağılsız hesab edərək onu boş yerə narahat etdiyinə görə hirsləndi.

## 2. UĞURLU CAVAB

Mustafanın beyninə düşdü ki, hələ günorta göz qoyduğu xoruzun ətindən yesin. Budur, gecə böyük ehtiyatla toyuqların oturmuş olduğu palıd ağacına yanaşdı. Başmaqlarını çıxardıb sakitcə ağaca çıxdı. İtlər bir neçə çörək parçası alıb qonağı buraxdılar, toyuqları isə ələ almaq mümkün deyildi, buna görə də adamın yaxınlaşdığını hiss edib çox güclü hay-küy qaldırdılar. Səsə çıxan evin sahibi qoca tülkünün yenə də onun toyuqları üçün gəldiyini düşünərək özü ilə iri dəyənək götürür və daxmadan çıxır. O, ağacı çox nəzərdən keçirir, lakin bir şey görmür. Nəhayət, var gücünü toplayıb ağır dəyənəyi ilə üç dəfə yarpaqlara vurur. Birdən yaxın qonşusu gözləri önündə göründü, ondan xəbər aldılar:

– Sən burada nə edirsən?

Mustafa heç bir şey olmamış kimi ona cavab verir:

– Heç bir şey, gün altında isinirəm.

## 3. BİRİ DİGƏRİNDƏN DAHA AĞILLIDIR

Bir dəfə kəndlinin tarlasına dəvə girir, o heç nə yeməsə də tarlanı xarab edir. Tarlanın sahibi gəlir, az qala ağlamaq istəyir, dəvənin yanında dayanır, amma onu oradan nə cür qovacağını bilmir. Nəhayət, dəvəni tarlada qoyub məsləhət üçün qonşulardan ən ağıllısının yanına gedir. Ağıllı qonşu ona deyir:

– Get, dəvənin dörd ayağını da bağla. Sonra köməyə bir neçə adam çağır və onu tarla ilə sürüyüb çəkin, harada tarla qurtarır, elə orada da onu buraxın getsin.

Bir gün kəndli dovşan tutur. Onu ev heyvanı hesab edərək kəndli onu xalxala buraxır, girişdə boyunduruq qoyur, özü isə işə gedir. Axşam evə qayıdır və dovşana baxmaq istəyir. Xalxala tərəf gedir, lakin hayıf ki, dovşan yoxdur! Dovşanın xal-

xaldan çıxması onu çox düşündürür. Nəhayət, qonşusundan xəbər alır:

– Sən məndən ağıllısan, mənə bir izah et, dovşan haradan çıxa bilərdi?

Qonşusu xalxalı diqqətlə nəzərdən keçirdikdən sonra boyunduruğu götürür və deyir:

– Bax bu boyunduruqda burğunun açdığı kiçik bir dəlik var, yəqin sənin dovşanın elə oradan da çıxıb.

## 4. SONRAKI AĞILLA GÜCLÜDÜRLƏR

Ocaqlı [1] kəndinin sakinlərinin ağlına Bozdağın susuz zirvəsində su dəyirmanı tikmək fikri gəldi. Bunun üçün onlar uzun arx qazıdılar ki, bu da torpağın bərk olması səbəbilə onlara çox baha başa gəldi. Sonra möhkəm özül üzərində gözəl bir bina tikdilər, dəyirman daşlarının çarxları və dəyirman üçün gərəkən hər şeyi hazırladılar. O vaxt ki, onlar dəyirmanın tikilişini başa çatdırdılar, çoban qoyun sürüsünü suvarmaq üçün dəyirmanın qanovuna qovub gətirdi. İşləyənlərdən biri tez sürünü saxlamağa (dayandırmağa) tələsdi, amma bacarmadı. Onda digər fəhlələr qaçıb gəldilər və çobanın üstünə düşdülər ki, bəs onun sürüsü dəyirmanın qanovunu kirləndirir. Çoban onlardan soruşdu:

– Burada hansı qanov var ki? Siz bu sıldırım dağın zirvəsinə suyu necə çəkəcəksiniz?

Yalnız onda sakinlər su barədə düşündülər, amma artıq gec idi.

[1] Yelizavetpol quberniyasının Nuxa uyezdi

## 5. İTKİ TAPINTIDAN DAHA SƏRFƏLİDİR

Məmməd avara-avara gəzərkən təzə çərkəzi çuxa tapır. Onu götürüb böyük yolla gedir və elə hey ucadan tərkar edirdi:

– Mənim çərkəzi çuxam var, özümə keçə papaq və arxalıq alacağam, çərkəzi çuxa qoltuğumdadır, mütləq vəznə və köynək alacağam!

Bütün bu deyiləni sərsərinin izi ilə gedən gənc atlı eşidirdi. O, Məmmədin üzərinə atıldı və bir anda onun qoltuğundan çərkəzi çuxanı çıxartdı. Bədbəxt Məmməd çərkəzi çuxasız qaldı, lakin o, özünə onunla təskinlik verirdi ki, itki tapıntıdan sərfəlidir, çünki çərkəzi çuxaya başqa paltarlar almaq gərəkmiyəcək.

***Bağırov Həsənbəy.***
***Goran ikisinifli Zemski məktəbinin***
***nəzarətçi müəllimi***

## 7-ci buraxılış, 1889-cu il

# XALQ RƏVAYƏTLƏRİNƏ GÖRƏ, YELİZAVETPOL QUBERNİYASI, NUXA QƏZASININ NOUR VƏ YA NOVUR GÖLÜ

Qutqaşın və Vandam kəndləri arasındakı göl "Nohur" adlanır. Bu sözü iki cür izah etmək olardı: 1) Ney – avar (fars sözü olub "kamış bitən yer" mənası verir) və 2) Nohur (ərəb sözü olub "çay" deməkdir[1]).

Bu göl üç tərəfdən (cənub tərəfindən başqa) dağlarla əhatələnmiş düzdə yerləşir və dörd kvadrat verstdən artıq ərazini tutur. Dağın ətəyində gölə axıb tökülən çoxlu bulaqlar (qazan bulax və b.) vardır. Çöldə su son dərəcə çox azdır və çox nadir hallarda "Novur arx" deyilən kanalla axıb gedir.

Gölün suyu şəffaf və şirindir. Orada zəlilər, balıqlardan isə şirbitlər, bir qədər də alabalıqlar vardır. Gölün sahilləri vəhşi ördək, qaz, hacıleylək, durna və həmçinin qırqovul kimi bataqlıq quşlarının və digər quşların yuva saldıqları hündür qamışlarla örtülüdür.

Belə nəql edirlər ki, nə vaxtsa gölün yerində həmin bu "Nohur" adlı bir kənd olmuşdur. Bu kəndin sakini bir gözəl qızın atası arvadının ölümündən sonra mollanın yanına gəldi ki, ondan xəbər alsın, meyvə ağacının ilk barını kim dadmalıdır. Molla cavab verdi:

– Ağacı əkən!

Kəndli mollanın icazəsin alıb evinə qayıdır və öz doğma qızı ilə cinsi əlaqəyə girir. Elə həmin gecə Allah Nohur kəndini suda batırır.

---

[1] Nour və ya Nohur Yelizavetpol quberniyası xalq məktəblərinin müfəttişi A.İokimovun izahına görə nuxalılar tərəfindən göl adlanır. Redaksiyanın qeydi.

Yerli sakinlərin inamına görə, batırılmış kəndin sakinləri bugünədək xarici aləmlə əlaqə saxlamadan suyun altında yaşayır, öz təsərrüfatları ilə məşğul olurlar. Gölün yaxınlığında gecələyən ovçular suyun altında yaşayan sakinlərin səslərini, danışıqlarını, uşaqların ağlamasını, pişiklərin miyovlarını, itlərin hürüşünü və s. eşidirlər. Bir neçə il bundan əvvəl bu göldə belə bir hadisə baş verdi.

Nohur – Qışlaq kənd sakini yayda biçin üçün arabada bataqlığa gəldi və o, camışlarını boyunduruqla otlamağa buraxdı. Camışlar istidən həmişə olduğu kimi adəti üzrə suya girdilər. Nohur ona ayaq basan hər kəsi öz dibinə çəkdiyindən bu camışlar boyunduruğu ilə göldə batdılar, onların leşlərini bütün məlum əlamətlərilə və boyunduruqla Kür çayında tapdılar.

Bu göllə bağlı pis şayiə o qədər kök salmışdır ki, ətrafdakı tatarlar kimisə lənətləyəndə (qarğıyanda) deyirlər: "Allah Nohur kəndini batırdığı kimi səni də batırsın". Nuxa qəzası Vandam kəndinin qocaların dediklərinə görə, keçmiş vaxtlarda Nohur gölünün sularının altından bəzi vaxtlar əfsanəvi kəndin evlərinin tirləri görünürmüş.

***Qutqaşın kənd məktəbinin nəzarətçisi***
***Əfəndiyev yazıya aldı.***

## QALACEV İOSİF. ÇARİÇƏ TAMARA
## (Zaqatala dairəsi tatarlarının söylədikləri əsasında)

Bu qəsrdə Pəri xanım və ya çariçə Tamara yaşayırdı və buna görə də bu qala "Pəri qala", yəni Tamaranın qalası adlandırılırdı. Tamara öz köşkündə tənha yaşayırdı və ərə getmək istəmirdi. "Bütün şahlar mənə qarşı öz qoşunlarını göndərirlər, lakin mənə qalib gələ bilmirlər, məgər mən üzərimdə hər hansı bir hakimiyyəti, ən azından ərin hakimiyyətini qəbul edə bilərəmmi

?" – Pəri xanım belə deyirdi. Tamaranın gözəlliyi haqqında xəbərlər hər yerə yayılıb şərq ölkələrinin padşahlarına gəlib çatdı və onlar gözəl Tamaranı necə olursa olsun, görmək istədilər. İran padşahı Şah Abbas Tamaranı görməyə çox çalışırdı. Əvvəlcə onu şəxsən görmək istədi, lakin bu ona müyəssər olmadı, çünki Tamara öz sədaqətli adamlarından başqa heç kimə görsənmirdi.

Şah Abbas onun şəklini çəkmək üçün öz rəssamını göndərmək qərarına gəldi. Tamara bunu bilib ehtiyatlı olmağa başladı. Onda Şah Abbas özü onun yanına getmək qərarına gəldi. Elə bu vaxt bir qalayçı onun yanına gəlib dedi:

– Mən hər il çariçənin yanına qab-qacaq qalaylamaq üçün gedirəm, iş zamanı gəlir və mənimlə söhbət edir. Əgər onu görmək istəyirsənsə, mənimlə gəl, sanki mənim şagirdimsən.

Şah Abbas kəndli libası geyindi və usta ilə Pəri xanımın yaşadığı qəsrə gəldi, onlar saraya gəldilər və qab-qacaqları qalaylamağa başladılar. Bu vaxt Tamara gəlib qalayçılarla danışmağa başladı. Şah Abbas Tamaraya baxdı və ondan gözünü ayıra bilmədi. Tamara onun baxışını sezərək gözüaçıq bir qadın olaraq anladı ki, onun qarşısındakı adi adam deyildir.

O, ayağa qalxıb öz otağına getdi. Doğrudan da, ertəsi gün ona xəbər gətirdilər ki, Şah Abbas qalayçı ilə onun yanına gəlibmiş. Onda Tamara qalayçının dalınca bir adam göndərsə də o, artıq digər dövlətə keçə bilməmişdi.

Bu işdən bir il keçir, sonrakı ilin başında Şah Abbas böyük qoşun yığaraq gözəl çariçəni əldə etmək ümidi ilə Tamaranın qəsri üzərinə hücum edir. Döyüş başlayır, bu döyüşdə hər iki tərəfdən çox adam həlak oldu. Nəhayət, iranlılar Tamaranın ordusunu məğlub etdilər, lakin çariçə Şah Abbasın əlinə sağ düşməmək üçün özünü öldürmək qərarına gəldi. O, kilsənin günbəzinə qalxıb aşağıya atıldı.

***Zaqafqaziya Müəllimlər Seminariyasının sinif şagirdi İosif Qalacev yazıya aldı.***

# KALAŞEV A. TATAR NAĞILLARI[1]

## 1. Ovçu Pirim

Keçmiş zamanlarda yer üzündə möcüzələr baş verəndə günahsız insanların sayı günahkarlardan çox idi. Ovçu Pirim adında məşhur bir ovçu var idi. O, bütün gününü vəhşi heyvanları, quşları və digər heyvanları ovlamaqla keçirirdi. Bir gün Ovçu Pirim ovda olarkən özünün yaxınlığında bir-birinə sarılmış iki ilan görür. Onlardan erkək olanı qara, çirkin və eybəcər bir ilan idi. Digər ilan isə qorxunc ilanlar padişahın gözəl qızını idi. Onun başında daş-qaşlarla bəzədilmiş tac günün şüaları altında par-par yanır, bərq vururdu. Ovçu Pirim ilanlar padşahının qızının bu çirkin, iyrənc qara ilana olan eşqindən çox hirsləndi. O, çox düşünmədən oxu kamana qoyub qara ilanı nişan alıb atdı və ömründə birinci kərə yan atdı və onun oxu qara ilana bir xətər yetirməyib şahzadə qızın quyruğunu qopartdı. Qara ilan o saat gözdən yox olub getdi, padşahın qızı da gizləndi. Yazıq Ovçu Pirim ümidsiz bir halda saçlarını yoldu. O, taleyini lənətləyib, kamanı və oxlarının hamısını kiçik hissələrə doğradı və and içdi ki, bir daha ox atmayacaq. Ovçu Pirim kor-peşman evinə gəldi.

Ertəsi gün səhər tezdən birdən evinin qapısı döyüldü. Ovçu Pirim ürəyi səksəkəli qapıya çıxdı və qorxudan diksindi. Baxıb gördü ki, qarşısında quyruqları üstündə qanadlı ilanlar durub, ilanlar ondan tələb etdilər ki, dərhal padşahın hüzuruna gəlsin.

Ovçu Pirim arvad-uşağı ilə görüşüb halallaşdı, onların qabağına düşüb ilanlar padşahının sarayına yollandı. İlanlar bütün yolu fısıldayır və fit çalırdılar. Onlar yeddi gün, yeddi

---

[1] Burada çap edilən nağıllar toplayıcı tərəfindən Bakı quberniyası Şamaxı qəzası, Sagiyan kəndi kəndliləri – xalası, 90 yaşlı Manisat Qaroğlanovanın, əmisi, 85 yaşlı Moisey Kalaşev və atası, 70 yaşlı İsaak Kalaşevin sözlərindən yazıya alınmışdır.

gecə yol gedib axırda ilanlar padşahının yerin altındakı qızıl sarayına çatdılar. İlanlar Ovçu Pirimi sarayda çox gəzdirib axırda onu böyük cah-cəlallı bir bir otağa gətirdilər. Bu otağın tam ortasında fil sümüyündən işlənmiş bir taxt var idi. İlanlar padşahı başında daş-qaşlı tac həmin taxtda oturmuşdu, gözəl qızı da yanında idi, cəlladlar da burada hazır durmuşdular. Padşah Ovçu Pirimi görən kimi ona tərəf dönüb fısıldadı:

– Ey ötkəm insan, sənin nə həddin var ki, padşah qızına əl qaldırasan! Bilirsənmi, səni nə cəza gözləyir?

Padşah fısıltısını qurtaran kimi cəlladlar Ovçu Pirimin üstünə atılmaq istədilər, o diz çöküb, yalvarmağa başladı:

– Ey yer üzündəki ilanların padşahı, nə qədər ki, sağam, izn ver, bu bədbəxt hadisənin bütün təfsilatını sənə nəql edim.

Padşah fikirləşib izn verdi. Belə olduqda şahzadə qız qızardı, atasından utandığından və qorxduğundan bilmədi nə etsin. Lakin Ovçu Pirim hiyləgər idi, o, padşahın qızının tərəfini saxlayıb əhvalatı padşaha elə nəql etdi ki, guya qara ilan onun qızını güclə zorlamaq istəmiş, şahzadə qız isə ondan canını qurtarmağa çalışmışdır.

Şahzadə qız bunu eşidib öz sevgilisi üçün qorxuya düşdü. Ovçu Pirim əhvalatı nəql edib qurtaranda ilanların padşahı çox hirslənmişdi, o, vəzirlərini yanına çağırıb əmr etdi:

– Gedin, elə indicə yer üzündə nə qədər ilan varsa, çağırın gəlsinlər. Sən isə ey nəcib insan, həmin ilanı mənə gətirməlisən, onu bircə mən bilirəm necə cəzalandıracağam.

Qanadlı vəzirlər dərhal çavuşlarla birlikdə bütün ilanları ilanlar padşahının sarayına çağırmağa getdilər.

Padşah Ovçu Pirimə əmr etdi ki, sarayın darvazasında durub gözləsin, ilanlar da həmin darvazadan bir-bir keçib padşahın hüzuruna gəlməli idilər.

Heç bir neçə dəqiqə keçmədi ki, dünyanın hər yerindən gəlmiş ilanlar Ovçu Pirimin qabağında bir-bir dayanıb darva-

zadan keçməyə başladılar. Bu əsnada Ovçu Pirim oğrun-oğrun saraya keçmək istəyən bir ilanı gördü. Ovçu Pirim o saat onu saxladı və sevincək həmin ilanı tanıdı, o isə tanınmasın deyə üzünə sarı palçıq sürtmüşdü.

Ovçu Pirimin işarəsi ilə buynuzlu sərvazlar[1] gəlib qara ilanı buynuzlarına qaldırıb padşahın yanına apardılar. Padşah əmr etdi ki, onu zindana salsınlar. Sonra padşah üzünü Ovçu Pirimə tutub dedi:

– Ey insanaların ən nəcabətlisi, sən qızımın namusunu müdafiə etdiyin üçün mən sənə bunun əvəzini verməliyəm. İki şeydən birini seç: mən sənə o qədər var-dövlət verə bilərəm ki, bəni-insanlardan heç kim səninlə ayaqlaşa bilməz və mən sənin ağzına tüpürərəm və sən ilanlar kimi müdrik olub dünyadakı bütün heyvanların, yarpaqların, qamışların xışıltısını, suların şırıltısını başa düşəcəksən.

Ovçu Pirim çox fikirləşdi və axırda razı oldu ki, padşah onun ağzına tüpürsün. O, ağzını açdı və ilanlar padşahı onun ağzına tüpürüb hədiyyələrlə evinə yola saldı. O, ilanlar padşahın sarayından çıxaçıxda birdən kimsə onu saxladı, o, geri dönüb baxanda kəsik quyruqlu gözəl şahzadə qızı gördü. Şahzadə qız pıçıltı ilə fısıldadı:

– Ey vicdansız və pis insan, sən bilirsən ki, nə etmisən? Sən məni öz sevgilimdən məhrum etmisən, o nə qədər çirkin və iyrənc olsa da, mənim üçün hamıdan istəklidir, sabah onu edam edəcəklər. Sənə lənət olsun! Atam səni yer üzündəki bütün insanların ən müdriki edib. Sən özün bu müdriklikdən ömür boyu əziyyət çəkəcəksən. Əgər sən öz müdrikliyini kiməsə açsan, həmin an bir leş kimi qurdlara yem olacaqsan.

Ovçu Pirim şahzadə qızın bu sözlərindən təsirlənib onun qabağında diz çökdü, ona yalvarmağa başladı.

---

[1] Sərvaz-padşahın cangüdəni

– Ey gözəl şahzadə qız, mənə ən ağır cəzanı verə bilərsən, amma inan ki, mən bilərəkdən sənə pislik etməmişəm, mən sənin ancaq namusunu qorumaq istəmişəm, mən bilmədim ki, o, sənin üçün belə əzizdi. Məni bağışla, mənə yazığın gəlsin!

Şahzadə qız da onun bu sözlərindən mütəəssir olub dedi:

– Ey bəni-insan, çox da üzülmə, mən bir vasitə tapıb sevgilimi zindandan qurtaracağam və onunla bir yerdə gizlənəcəyəm, mən bunu edəcəyəm, lənətimi sənin üzərindən götürürəm. Bundan sonra səndə heç kimə öz müdrikliyini açmaq arzusu olmayacaq və...

Birdən bu anda bir qədər aralıda saray sərvazlarından biri göründü və şahzadə qız Ovçu Pirim üzərindən bütün lənətlərini götürə bilməyib gözdən itdi.

Ovçu Pirim kor-peşman saraydan çıxdı və yeddi gün, yeddi gecə yol gedib öz evinə gəlib çıxdı. Arvad-uşağı onu görüb çox sevindilər, hamı onu ölmüş bilirdi.

Bu işin üstündən xeyli vaxt keçdi. Ovçu Pirim yenə əvvəlki kimi yaşayıb dövran sürürdü, amma daha ova çıxmırdı, özü də çox fikirli, qayğılı idi. Çoxları elə hesab edirdilər ki, o, ağlını itirib, belə ki, bir at kişnəyəndə, it hürəndə, qurd ulayanda, toyuqlar qaqqıldaşanda, külək vıyıldayanda o ya gülümsəyir, ya da dərin fikrə gedirdi. Ovçu Pirimin arvadı isə ona hamıdan yaxın olduğundan onu çox ağıllı hesab edirdi, o, bir neçə dəfə ərini özlərinin iti, atları ilə, bir neçə dəfə isə inəkləri ilə danışdığını görmüşdü. Hamı bir şeyi sezmişdi, heç kimin iti Ovçu Pirimə hürmürdü və onlar ona sanki hörmət edirdilər.

Bir gün Ovçu Pirim ailəsini yaxın bir kəndə öz qohumlarıgilə qonaq aparırdı. Onun boylu arvadı və iki uşağı madyanın üstündə oturmuşdular. Demə, bu madyan da hamilə imiş, yanında da bir yaşar qulunu da var idi. Ovçu Pirimin oğlu isə madyanın cilovundan tutub piyada gedirdi. Dayça anasından geri qaldıqda kişnəyib anasından xahiş etdi ki, ona çata bilsin.

Anası geri dönərək ona cavab verdi onu gözləsin:

– Ay tənbəl oğlan, məgər görmürsən mən yaşlı arvad beş nəfəri üstümdə aparıram, sən isə cavan oğlan məni ötə bilmirsən!

Ovçu Pirim madyanın dayçasına olan məzəmmətini eşidib gülümsədi. Bu onun arvadının gözündən yayınmadı və o, ərindən nə üçün gülümsədiyini xəbər aldı. Ovçu Pirim arvadının sualını zarafata salıb bir cavab vermədi. Arvadı ondan əl çəkmədi ki, əl çəkmədi. Axırda Ovçu Pirim başa düşdü ki, arvadı nəsə bilir, məcbur olub ona dedi ki, nə olursa olsun, ona heç nə deməyəcək. Və ən yaxşısı budur ki, əgər bundan sonra da güzəranın yaxşı olmasını istəyirsə ona belə suallar verməsin.

O vaxtdan ovçu Pirimin qara günləri başladı, arvadı sualları ilə ondan əl çəkmədi. Arvad onu heç eşitmək də istəmir, elə dediyini deyirdi:

– Bir de görüm, madyanla dayça nə üçün kişnədilər, sən də gülümsədin?

Axırda Ovçu Pirim daha dözməyib ona dedi:

– Ay arvad, bil və agah ol, əgər mən bu məsələnin üstünü açsam, qurdlar məni parça-parça edib yeyəcəklər.

Arvad yenə də inad edib heç eşitmək də istəmədi. Ovçu Pirim baxıb gördü ki, arvad ondan əl çəkən deyil, yazıq çox götür-qoy etdikdən sonra öz-özünə dedi ki, belə arvadla yaşamaqdansa, ölmək daha yaxşıdır. O, arvadına dedi:

– Ay arvad, rahat ol, sirrimi sənə açacağam.

Arvadının sevincinin həddi-hüdudu yox idi, o, səbirsizliklə gözləməyə başladı ki, əri nə vaxt onu bu sirdən əyan edəcək? Ovçu Pirim qurdların tezliklə onu yeyəcəklərini bildiyindən ölməyə hazırlaşmağa başladı.

Ovçu Pirimin sevimli bir iti var idi. Bu it sahibinin fikrini bilib qəmə qərq oldu. Bu vaxt isə həyətdəki xoruz toyuqları ilə rahat həyatını, dövranını yaşayıb şadyanalıq içində idi. Xoruzun bu halı itə yaman toxundu və o, xoruza dedi:

– Ey vicdansız, məyər sən görmüsən ki, sevimli sahibimizin ömrünə az qalıb. Heç olmasa, bu günlər kef-damağından əl çək!

Xoruz ona cavab verdi:

– Sən də söz danışdın! Sən görürsən ki, mənim otuz arvadım var, mən onların hamısını itaətimdə saxlayıram, biri də cınqırını çıxarda bilmir, bəs sahibimiz nə edir? Onun vur-tut bir arvadı var, onu da itaətində saxlaya bilmir, özü də arvadının quluna çevrilib. Mən nəyə görə onun üçün dərd-qəm içində olmalıyam?

Bu əsnada yaxınlıqda olan Ovçu Pirim onların söhbətini eşitdi, o, xoruzun dediyini bəyənib, özünü zəiflikdə məzəmmət etməyə başladı və qərara gəldi ki, nə olursa olsun, öz vədinə xilaf çıxıb arvadına heç nə deməyəcək.

Ovçu Pirim burda qalsın, görək arvadı nə etdi? Ovçu Pirimin arvadı çox gözlədi, elə ki, gördü ərindən bir xəbər çıxmır, yenidən ondan əl çəkmədi. Onda Ovçu Pirim hiddətlə onun üstünə atılıb, – "şeytanın qızı, sən hələ də bilmək istəyirsən? Səni öldürərəm, amma demərəm!", – deyərək var gücü ilə döyməyə başladı. Arvad yenə də dinc durmadı, ağlaya-ağlaya dedi:

– Rəhm et, məni döymə, amma hər halda de ki, madyanla dayça kişnəyəndə sən nə üçün güldün?

Ovçu Pirim bir neçə gün arvadını beləcə döydüsə, arvadı elə hey durmadan dediyini dedi. Axırda onu döymək Ovçu Pirimi bezdirdi. Ovçu götür-qoy etdikdən sonra madyanla dayça kişnərkən özünün nə üçün güldüyünün səbəbini ona dedi:

Ovçu Pirim bunu dedikdən sonra arvadına çox nifrət etməyə başladı, o, uşaqlarını öpərək gözlərində yaş evdən çıxıb çölləri gəzməyə başladı.

Ovçu Pirim dağları, daşları, çölləri, meşələri çox gəzib-dolaşdı, hər dəqiqə qurdların hücumunu gözlədi, ölüm qorxusu onu izləyirdi.

Şər qarışan vaxtı o, yaxınlıqda bir çoban alaçığı gördü. O, çobandan təvəqqe etdi ki, ona gecələməyə yer versin. Çoban razı olub, onu alaçığa dəvət etdi və arvadına tapşırdı ki, qonağa axşam yeməyi hazırlasın. Çoban Ovçu Pirimdən hal-əhval tutub haradan gəlib haraya gedəcəyini xəbər aldı. Ovçu Pirim başına gələn hal-qəziyyəni ona nəql etdi və dedi ki, bu gecə qurdlar onu yeyəcəklər. Çoban özünün qorxunc on iki köpəyinə arxayın olub onu sakitləşdirdi. Çünki qurdlar onun köpəklərinin qorxusundan sürülərə yaxınlaşmağa belə ürək etmirdilər.

Birdən qurdların qorxunc ulaşması eşidildi. Ovçu Pirimlə çoban hər ikisi yerlərindən dik atıldılar. Çoban tez alaçıqdan çıxıb tələm-tələsik yağlı qoyun kəsib köpəklərinin qabağına atdı.

Qorxudan alaçığın ortasında yerində quruyub qalmış olan Ovçu Pirim ilanlar padşahının qızını pıçıltı ilə köməyə çağırdı, üzüqoylu yerə yıxılıb uşaq kimi ağlamağa başladı.

Bu arada çobanın köpəkləri qurdların ulaşmasını eşidib onların qabağına çıxdılar və hürməyə başladılar:

– Axmaqlar, siz, görünür, neçə kərə quyruq və dərilərinizi qoyub ac-yalavac qaçdığınızı unutmusunuz.

Qurdlar ulaşdılar:

– Ey nəcib və cəsur köpəklər, biz nə sizin, nə də sizin sahibiniz üçün gəlməmişik, biz müdrik Ovçu Pirimin dadlı ətindən yeyib ləzzət almaq üçün gəlmişik, onun ölüm vaxtı artıq gəlib çatıb, o, sahibinizin qonağıdır.

Köpəklər Ovçu Pirimin adını eşidib hürməyə başladılar:

– Ey alçaq qurdlar, biz sizə Ovçu Pirimin bir tükünə belə toxunmağa izn vermərik, son damla qanımızadək onu qoruyacağıq!

Çoban bu vaxtı onlara kəsilmiş iki qoyun atdı. Köpəklər qoyunları yeyən kimi qurdların üzərinə atıldılar, köpəklərlə qurdlar bir-birinə girişdilər, səhərədək bir-birlərini qırıb tökdülər.

Gecə yarısından qurdlar köpəkləri alaçığa tərəf sıxışdır-

mağa başladılar.

Sabah açılar-açılmaz sonuncu köpək alaçığın ağzında ölü düşdü. Ovçu Pirim palaza bürünüb bircə bunu deyə bildi: "Şahzadə qız, sən niyə burada deyilsən?" Bir dəqiqə belə keçməmiş onun heç sür-sümüyü də qalmadı.

Göydən üç alma düşdü: biri mənə, biri xeyirxah çobana, biri Ovçu Pirimin yetimlərinə, nə qalırsa, o da onun dul arvadına.

## 2. OXAYY

Biri var idi, biri yox idi. Bir qoca ilə bir qarı var idi. Onların Gülməmməd adında bir oğulları var idi. Qocalar öz oğullarını dəlicəsinə sevirdilər, onlar çox kasib olmaqlarına baxmayaraq onun hər arzusunu yerinə yetirməyə çalışırdılar.

Gülməmmədin on beş yaşı oldu. Ata-anası onu o qədər ərköyün saxlamışdılar ki, o, çox nadinc, ərköyün və dedikcə tənbəl bir oğlan olmuşdu. Yazıq qocalar onu daha hara apar-madılar, ona nə sənət öyrətmədilər. Heç bir faydası olmadı. Onlar onu qundaqsazın[1], xəncərsazın[2], papaqçının, dəmirçinin və axırda başmaqçının yanına apardılar ki, bir sənətə yiyələnsin. Amma Gülməmməd heç bir yerdə, heç nə öyrənmədi, hər yerdən qovuldu. Axırda heç kim onu qəbul etmədi, hamı onu tanıyırdı. Axırda yazıq atası əlacsız qalıb Gülməmmədi elə bir yerə aparmaq fikrinə düşdü ki, onu orada tanımamış olsunlar, bəlkə, həmin yerdə onu bir sənətkara tapşıra bilsinlər.

Bir gün səhər tezdən qoca oğlu ilə evdən baş götürüb getdi. Az getdilər, üz getdilər, Allah bilir nə qədər getdilər, axır gəlib bir bulağa çatdılar. Qoca gəzməkdən çox yorulmuşdu, gün də bir tərəfdən. Qoca əyilib bulaqdan doyunca soyuq su içdi, qalxanda dedi:

---

[1] Qundaqsaz-tüfəngsaz, silah ustası.
[2] Xərcərsaz-xəncərqayıran usta.

– Oxayy!

Birdən sudan başı, saçı ağarmış, saqqalı dizədək və bığları da çiyinədək olan bir qoca kişi çıxdı və dedi: "Oxayy mənəm, sənə nə lazımdı?"

Gülməmmədin atası əvvəl bir az qorxdu, sonra isə ürəklənib sevindi ki, bəlkə, Oxayyla məsləhət edib, oğlunu bir yerə işə düzəldə, o, dərdini Oxayya nəql etdi. Oxayy dərhal ona dedi ki, birilliyə oğlunu ona versin.

Qoca Oxayydan oğluna hansı peşəni öyrədəcəyini belə xəbər almayıb sevincək razı oldu, oğlu ilə görüşüb öz evinə yola düşdü. Oxayy Gülməmmədin əlindən tutdu və bulağın içindən onu yerin altındakı evinə apardı.

Oxayyın qızı elə ilk baxışdan Gülməmmədə vuruldu. O, atasının bütün cadu, sehrlərini bilirdi, onu da bilirdi ki, Oxayy bir il keçəndən sonra ondan cadu-sehr öyrənən şagirdlərini öldürür. Heç bir şey öyrənməyən şagirdlərini isə qovurdu ki, çıxıb getsinlər, bilirdi ki, onlar onun sirlərini başqalarına aça bilməzlər, çünki özləri də bir şey bilmirlər.

Oxayyın qızı sevgilisi Gülməmmədi atasının əvvəlki şagirdlərinin başlarına gələnlərdən xilas etmək üçün ona hər şeyi nəql etdi və dönə-dönə tapşırdı ki, nə qədər ki, buradadı, özünü bir şey anlamayan kimi göstərsin.

Gülməmməd gerçəkdən də qızın bütün məsləhətlərinə əməl edir və özünü Oxayya bacarıqsız şagird kimi göstərirdi. Əslində isə Gülməmməd çox gözüaçıq, ağıllı gənc idi, o nəinki Oxayyın təlimlərini yaxşı mənimsədi, hətta onun ən gizli sirlərini belə öyrəndi, Oxayyın bu sirlərini özündən başqa yalnız qızı bilirdi.

Vaxt gəldi, vədə tamam oldu, bir ilin tamamında Gülməmmədin qoca atası bulağın başına gəldi ki, öyrənsin oğlu necədir. O, bulağa yaxınlaşdı, sudan içdi və ucadan dedi:

– Oxayy!

Həmin Oxayy Gülməmmədlə sıçrayıb çıxdılar və sehrkar hirslə onu qocaya tərəf itələyib dedi:

– Heç bir şeyə yaramayan axmağını götür, mən nə qədər vurnuxdumsa, ona bir şey öyrədə bilmədim, götür onu apar.

Yazıq qoca bu xəbərdən çox məyus olub Oxayydan xəbər aldı:

– Sən ona nə öyrətməliydin?

Oxayy ona bir cavab verməyib bulaqda gözdən itdi.

Qoca öz-özünə fikirləşdi: "Nə etməli, yaramaz oğulu öldürmək olmaz ki, bəlkə, Allah onu mənə cəza olaraq göndərib". Qoca bu fikirlə evinə döndü.

Gülməmməd məsələni evdə açmaq istəyirdi, odur ki, atasının bütün məzəmmətlərinə susub cavab vermədi. O özünü bir yoxlamaq istədi və bir bəhanə ilə atasından yolda geri qaldı, bir yaralı qırqovula çevrildi, atasına gəlib çatdı və qabağında ora-bura qaçmağa başladı. Qoca yaralı qırqovulu görüb sevindi və onu tutmaq istədi. O nə qədər əlləşdisə, onu tuta bilmədi, qırqovul isə qaçıb gizləndi. Gülməmməd yenidən adama çevrilib, atasına çatdı. Atası onu görən kimi onun üstünə düşüb dedi:

– Ay tənbəl köpək, harada itib batmışdın, məndən niyə geri qalmışdın? Bax indicə burada yaralı bir qırqovul vardı, sən burada olsaydın, onu tutmuşduq, mən onu necə tuta bilərdim, evdə isə özün bilirsən yeməyə bir şey yoxdu.

Gülməmməd isə bir söz demir, dinməz-söyləməz atası ilə yoluna davam edir. Bir qədər keçəndən sonra Gülməmməd yenə də atasından geri qaldı, bir axsaq ceyrana çevrildi, ona çatdı və qabağında ora-bura qaçmağa başladı. Qoca qabağındakı axsaq ceyranı görüb yenə sevindi və ceyranı qovmağa başladı, amma tuta bilmədi. Ceyran yenə gözdən itdi, adama çevrildi və atasına gəlib çatdı.

Qoca yenə oğlanın üstünə düşüb onu söyməyə başladı:

– Köpəkoğlu, Allah səni məni cəzlandırmaq üçün göndə-

rib! Sən nə üçün yenə də məndən geri qaldın? Əgər burda olsaydın, axsaq ceyranı tutardın, heç olmazsa, ananı bununla sevindirərdin, axı onun yanına əliboş gedirsən!

Gülməmməd yenə susdu. Axır onlar evə gəlib çatdılar. Gülməmmədin anası qocanın deyinməsinə heç fikir vermədi, sevimli oğlunu bağrına basdı, yanında oturtdu və Allahın verdiyindən qonaq etdi.

Axşam yeyib-içəndən sonra Gülməmməd başına gələnləri anasına nəql etdi və hətta onu dedi ki, yolda qoca atasının qabağına çıxan yaralı qırqovul və axsaq ceyran elə o özü idi. Qocalar eşitdiklərinə donub qaldılar, bir söz də deyə bilmədilər. Handan-hana qoca özünə gəlib oğluna dedi:

– Bunun nə faydası var, axı bizim yeməyə bir şeyimiz yoxdu.

Gülməmməd dedi:

– Tələsmə, bax mən qatıra çevriləcəyəm, sən isə səhər məni bazara apar və yüz bacaqlıya sat! Amma yadından çıxmasın, məni yüyənlə satma, yoxsa hamımız məhv olarıq. Elə ki satdın, ertəsi günü mən sizin yanınızda olacağam.

Bu sözlərdən sonra Gülməmməd gerçəkdən də yüyənli gözəl bir qatıra çevrildi.

Səhər qoca qatırı bazara aparıb yüz bacaqlıya satdı, amma yüyəni vermədi.

Ertəsi gün Gülməmməd sapsağlam ata-anasının evinə gəlib çıxdı. Ata-anasının sevincinin həddi-hüdudu yox idi. Onların üçü də ehtiyacın nə olduğunu bilmədən yaşamağa başladılar.

Bacaqlı qurtarhaqurtarda Gülməmməd atasına dedi:

– İndi dadaş, mən ata çevriləcəyəm, məni üç yüz bacaqlıya satarsan, amma unutma, yüyənləri verməyəsən!

Gülməmməd bunu deyib nə padşahlarda, nə də Məkkədə belə olmayan bir ata çevrildi. Qoca atı bazara apardı və o saat

üç yüz bacaqlıya satdı, müştəri yüyənləri çox istəsə də o, yüyənləri vermədi və evinə getdi. Ertəsi gün Gülməmməd yenə ata-anasının evinə gəldi və üçü də üç yüz bacaqlını xərcləməyə başladılar.

Bu pullar da qurtarhaqurtarda olanda Gülməmməd dedi:

– İndi dadaş, mən dəvəyə çevriləcəyəm, məni beş yüz bacaqlıya satarsan, bax yüyənləri vermə!

Gülməmməd bunu deyib heç Bağdad padşahlarının belə sahib olmadıqları çox gözəl bir dəvəyə çevrildi. Qoca dəvəni bazara apardı. Dərhal dəllaların böyük dəstəsi onu əhatəyə aldı, amma heç kim onunla alver etməyə cürət etmədi, onlar bilirdilər ki, bu qeyri-adi dəvənin qiyməti çox böyük olacaq.

Birdən varlı bir sövdəgər qocaya yaxınlaşdı və xəbər aldı:

– Dostum, dəvə üçün nə qədər istəyirsən?

Qoca dedi ki, yüyənsiz dəvənin qiyməti beş yüz bacaqlı olacaq. Sövdəgər onu inandırmağa başladı ki, adətən heç bir heyvan yüyənsiz satılmır və bu adəti pozmaq istəmir. Qoca yüyəni verməməyə çox çalışdı. Axırda sövdəgər min bacaqlı çıxartdı və dedi:

– Ay tərs hacı, budur sənə beş yüz bacaqlı dəvə üçün, o qədər də yarım qrandan artıq olmayan yüyən üçün, mən sənin inadkarlığını qırmaq üçün bu qızılı qurban verirəm.

Qoca bir yığın qızıl gördükdə gözləri qamaşdı və o, dəvəni yüyənlə verdi.

Sövdəgər (o isə sövdəgər cildində olan Oxayyın özü idi) həyəcan içində dəvənin yüyənindən tutub bulağa tərəf apardı. Oxayy dəvəni görən kimi öz şəyirdini tanıdı və çox hirsləndi ki, belə amansızcasına aldanmışdır. O, dəvəni bulağın yanında bağladı, özü isə yer altındakı evinə getdi ki, xəncər gətirib onu kəssin. Yüyənli dəvə azad ola bilmədi və acı-acı ağladı. Oxayyın qızı dərhal məsələdən xəbər tutdu, atasından əvvəl bulaqdan sıçrayıb çıxdı, dəvənin başından yüyəni çıxartdı və onu

öpüb buraxdı. Dəvə anında qırqovula çevrildi və uçub getdi.

Oxayy əlində xəncərlə bulaqdan çıxdı və uçmaqda olan qırqovulu gördü, o, işin nə yerdə olduğunu bilib, bir şahinə çevrildi və qırqovulun dalınca uçdu. Şahin qırqovulu çox qovdu. Beləliklə, onlar yeddi gün, yeddi gecə qovhaqov uçdular.

Birdən qırqovul çox gözəl bir padşah sarayı gördü. Həmin sarayın eyvanında Xorasan xalıları ilə örtülmüş taxtın üstündə dərd-qəm, fikir içində çox gözəl bir şahzadə qız oturmuşdu. Qızın atası bir az bundan qabaq Allah rəhmətinə getmişdi, o da tək, yetim qalmışdı. Padşahın özündən sonra bir varisi var idisə, o da qızı idi.

Qırqovul qızı eyvanda görüb, o saat bir gözəl qızılgül dəstəsinə çevrildi və onun dizi üstə düşdü. Şahzadə qız səksənərək qızılgül dəstəsini əlinə alıb öpdü və dərd-qəmini bir az unutdu.

Şahin qırqovulun hiyləsini gördü, qoca bir dərvişə çevrildi, şahzadə qızın oturduğu eyvana yaxınlaşdı və qəsidə oxumağa başladı. Dərvişin qəsidəsi şahzadə qızın çox xoşuna gəldi. Axırda dərviş qəsidəsini oxuyub qurtardı və qızdan oxuduğu qəsidə üçün haqq istədi. Şahzadə qız əmr etdi ki, dərvişə istədiyi qədər qızıl versinlər. Amma dərviş qızıl və hər cür var-dövlətdən imtina etdi, o, bunun yerinə onun əlindəki qızılgül dəstəsini istədi. Dərviş nə qədər höcət etdisə, qız razı olmadı ki, olmadı. Axırda o, sözkəsənlik edib dərvişdən yaxasını qurtarmaq üçün ona ləçək, gül yarpağı vermək istəyəndə əlindəki ləçək darıya çevrildi və hər tərəfə səpələndi. Həmin dəqiqə dərviş cücəli anaş toyuğa çevrildi. Toyuqla cücələr ora-bura səpələnmiş darını dənləməyə girişdilər. Bu vaxt şahzadə qızın oturduğu taxtın altından bir çaqqal çıxıb toyuğu və cücələri bir-bir boğub öldürdü. Sən demə, darının dənələrindən biri dığırlanıb taxtın altına düşübmüş və cücələr onu görməmişdilər. Çaqqal toyuq və cücələrini boğub, gözəl cavan oğlan çevrildi. Şahzadə bu işə çox məətəl qalmışdı, o, han-

dan-hana özünə gəlib oğlana dedi:

– Ay oğlan, bir mənə söylə, bu nə işdir?

Gülməmməd başına gələnləri ona nəql etdi və axırda dedi:

– Ey şahzadə xanım, bil və agah ol, sən məni zalım və qəddar sehrkardan xilas etdin. Ömür boyu sənə borcluyam.

Şahzadə qız onu dinləyib dedi:

– Əgər sən dediyin kimi mən səni xilas etmişəmsə, sən də məni xilas et, məni az da olsa sev, məni özünə qul et!

Gülməmməd belə gözlənilməz xoşbəxtlikdən özünü itirib, bilmədi nə etsin.

Gülməmməd həmin vilayətin padşahı oldu, şahzadə qızla uzun ömür sürdülər. Əcəl gəlib ölüm yaxınlaşanda isə taxt-tacı öz varislərinə tapşırdılar.

Göydən üç alma düşdü, biri Allaha, biri mənə, biri sənə, yerdə qalan isə küçədən ötənə.

## 3. MÜDRİK PADŞAH

Biri var idi, biri yoxdu, hələ böyük Peyğəmbər Məhəmmədin və möminlərin olmadıqları bir vaxtda, adamların bütlərə, müxtəlif cansız əşyalara sitayiş etdiyi bir zamanda Gülüstan məmləkətində son dərəcə çox ciddi bir padşah var idi.

Gülüstanın bağları o vaxtlar üzümlüklərlə dolu idi, Gülüstan əhli elə bir şərab içirdi ki, indi heç padşahlar belə şərab içmirlər. Əhali az-az şərab içə-içə həddi aşdılar, xalq sərxoşluğa düçar oldu. Adamlar işləməyi birdəfəlik tərk etdi, kişilər heç əhli-əyalının, uşaqlarının ehtiyaclarının fikrinə də qalmadılar, xəzinəyə tövcü ödəməkdən də əl çəkdilər.

Həmin padşah çox da fikirləşmədən öz qoşunlarına əmr etdi ki, Gülüstandakı bütün üzümlükləri məhv etsinlər, şərabla dolu bardaqların hamısını qırsınlar. Padşah axşam vaxtları rəiyyətinə əmr etdi ki, gün batandan sonra bayıra çıxmasınlar. Padşahın elə

öyrənmiş bir şiri var idi, o, rəiyyətini lap qorxutmaq üçün həmin şiri gün batandan sonra küçəyə buraxardı. Şirin qorxusundan heç kim küçəyə çıxmırdı, hamı evində oturub qalmışdı.

Padşah və rəiyyəti burada qalmaqda olsun, eşit bir qoca kişidən. Bu qoca padşahın bu işini görüb, evində olan üç bardaq şərabı padşahın qoşununa verməmək üçün həyətin bir tərəfində dərin bir çala qazıyıb orada basdırdı.

Bu işin üstündən bir neçə il keçdi. Həmin qoca Allah rəhmətinə getdi, onun var-dövlətdən nəyi vardısa oğlu Mustafaya qaldı.

Yenə də bir neçə il keçdi, Mustafa var-dövlət sahibi oldu. Bir gün o, evinin həyətində bir ev tikmək qərarına gəldi. Fəhlələr evin özülünü qazıyarkən onlardan birinin kürəyi bərk bir şeyə toxunub cingildədi. Fəhlələr Mustafanı çağırdılar. Mustafa gəlib baxdı. O, bardaqları görən kimi sevincindən qışqırdı, çünki elə bildi ki, bardaqlardakı qızıldır. Fəhlələr bardaqların içindəkiləri görməsinlər deyə onları buraxdı ki, evlərinə getsinlər. Mustafa elə ki, tək qaldı, bardaqlardan birinin ağzını açanda onun içində qızıl yox, şərab görəndə qanı qaraldı. Bir az keçəndən sonra qərara gəldi ki, şərabdan dadsın, ətrafına baxdı, heç kim yox idi, şərabdan bir az içdi, üç dəfə içdi. O, birdən özündə bir güc-qüvvət hiss etdi ki, özünü az qala bir padşah bildi, elə oradan da evinə yollandı.

Evinə gəlib qeyzlə arvadlarından öz əbasını istədi, onlar qorxularından tələm-tələsik tez əbasını ona verdilər. O, geyinib küçəyə çıxmaq istəyəndə arvadları gözüyaşlı yalvarırdılar ki, evdən bayıra çıxmasın, yoxsa padşahın şirinə tuş gələr.

Mustafa onların yalvarışlarına məhəl qoymayıb küçəyə çıxdı, şəhərdə gəzməyə başladı. Birdən bir evin küncündən padşahın şiri çıxıb Mustafanın üstünə şığıdı, o, heç halını da pozmadı, hər iki əliylə şirin çənəsindən tutaraq onu ikiyə bölüb şirin leşini bir tərəfə atdı. Mustafa şəhərdə daha bir vaxt gəzib dolaşaraq sağ-salamat evinə qayıtdı.

Ertəsi gün küçədə padşahın iki yerə parçalanmış şirinin leşini tapıb saraya apardılar. Padşah şirin ikiyə parçalanmış leşini görüb yerində quruyub qaldı, bildi ki, bu şəhər əhlindən kiminsə işidir.

Padşah bunu öyrənmək üçün carçılara əmr etdi ki, xalqı meydana çağırsınlar.

Bir neçə saatdan sonra xalq meydana toplanıb padşahı gözləməyə başladı. Axır padşah gəlib xalqın qabağına çıxdı, sərvazlar da onun arxasınca şirin leşini meydana gətirdilər. Padşah leşi göstərib xalqa müraciət etdi:

– Deyin, sizlərdən kim qəhrəmanlıq göstərib şiri öldürüb? Bu kimdir? Qoy həmin adam irəli çıxsın! O, bu işə görə çoxlu ənam, var-dövlət alacaq, mənim xəzinəm hər vaxt onun üzünə açıq olacaq!

Bunu eşidib Mustafa camaatın içindən çıxıb dedi:

– Şiri mən öldürmüşəm.

Padşah ona o saat inanmadı, elə xalq da inanmadı. Onu tanıyırdı və ondan belə qəhrəmanlıq gözləmirdilər, o heç bişmiş toyuğu da iki yerə parçalaya bilməzdi. Padşah Mustafanı sınamaq üçün ona dedi ki, başqa bir şirlə də güləşsin.

Mustafa padşaha "göz üstə" deyib razı oldu, amma bu şərtlə ki, o, bir neçə dəqiqəliyə evinə getsin, əhli-əyalı ilə görüşüb halallaşsın. Padşah rüxsət verdi və Mustafa tez evinə yollandı. O, evinə gələn kimi hər üç bardaqdan üç dəfə şərab içdi. Mustafa elə ki, özündə güc-qüvvət hiss etdi, yenidən meydana tərəf qaçdı, gəlib dedi ki, şiri qəfəsdən buraxsınlar.

Şiri qəfəsdən buraxdılar. Mustafa o saat şirin üstünə atıldı və şiri iki yerə parçalayıb atdı. Padşah Mustafanı qucaqlayıb alnından öpdü. Amma bu iş padşaha bir az şübhəli göründü, o, axır dözməyib ondan xəbər aldı:

– Mustafa, axı sən küçəyə çıxmağa qadağa qoyduğumu bilə-bilə, necə cürət edib küçəyə çıxdın?

Mustafa padşaha dedi:

– Qibleyi-aləm, rüsxət ver, bu suala cavab verməzdən əvvəl sizdən üzrxahlıq istəyim.

Padşah dedi:

– Mustafa, səni bağışlayıb günahından keçdim, ürəyini sıxma!

Mustafa padşahın hüzurunda, camaatın qabağında şərab bardaqlarının məsələsini açıb olduğu kimi nəql etdi.

Padşah Mustafanın söylədiklərini eşidib dərin fikrə getdi və üzünü camaata tutub dedi:

– Mən bu gündən şərab içməyi qadağan edən fərmanımı ləğv edirəm, üzümlüklər salın, şərab çəkin və için, amma elə için ki, şiri ikiyə parçalayasınız, elə içməyin ki, qarğalar gözlərinizi dimdik eləsin.

Camaat dağılışıb evinə getdi, amma axmaq xalq padşahın müdrik sözlərinə əməl etmədi, çünki Böyük Peyğəmbər Məhəmməd hər şərab içənə heç boş yerə cəhənnəm əzabı vəd etməmişdi.

Göydən üç alma düşdü, biri nağıl söyləyənin, biri nağıla qulaq asanın, biri də mənim.

## 4. ABUT[1]

Biri var idi, biri yoxdu, belə nəql edirlər ki, keçmiş zamanlarda – o vaxt ki, çoxlu peyğəmbərlər vardı, Allahdan qorxan, mömin, çox dindar bir adam vardı. Həmin adam bu dünyadan uzaqlaşıb bir dağda güşənişin oldu ki, özünün əməli-saleh həyatı ilə, Allaha dualar ilə Allahdan özünə cənnətdə bir yer qazansın. Bu vilayətin əhalisi Abutu tanıyır və xətrini çox istəyirdi, onu Allah adamı olduğunu bilirdilər.

---

[1] Abut – zahid, tərkidünya. Nağıl Lənkəran qəzasının Kəlaxan kənd sakini Zemstvo qaravulunun atlısı, 30 yaşlı Abdulladan yazıya alınmışdır (Toplayıcının qeydi).

Abut çox uzun illər özünü hər cür möhnətlərə düçar edib hər məhrumiyyətlərə dözür, insan üçün vacib olan bir çox əşyalardan imtina edib gün və gecələrini namaz, dua etməkdə, ibadətdə keçirirdi. Əvəzində onun əziyyətləri öz bəhrəsini verdi, onun ölümünə iki həftə qalmış ona cənnətdə yaxşı yer hazırladılar. Mənfur şeytan bu işdən xəbər tutdu və Abutun cənnətə düşməsinə mane olmaq arzusu ilə alışıb yandı. Möminlər şeytanı sevmədikləri kimi o da cənnəti sevmir.

Budur, şeytan cənnət hurilərinin belə onunla müqayisə edilə bilmədiyi gözəl bir qıza çevrildi. Sonra o, qaş qaralanda Abutun hücrəsinə getdi. O, yalandan özünü meşədə azmış qız kimi göstərərək Abutdan onun hücrəsində gecələməsinə icazə istədi.

Abut heç bir şeydən şübhələnməyərək və ağlında bir pis fikirlər olmadan yazıq qıza sığınacaq verməyə razılıq verdi, xüsusən ona görə ki, bundan əvvəl də o, evsiz-eşiksiz yoldan ötənlərə dəfələrlə sığınacaq vermişdi. Gözəl qız Abutun yanında, onun yeganə və bərk taxtında oturdu və hər vasitə ilə onunla danışmağa çalışdı. O, vaxtdan-vaxta mənalı-mənalı, gözünü çəkmədən, diqqətlə Abuta baxır, bununla da onun bədənini vicvicə tuturdu. Gözəl qız onun halının dəyişməkdə olduğunu görüb daha da cəsarətləndi, olduqca çox ehtiraslı baxışları ilə ona baxdı, sanki bu baxışlar deyirdi: “Nə gözləyirsən, cənnət sənin hücrəndədir!”

Abut artıq öz andını, əhdini, ibadətlərini unutmuşdu, əlli il ərzində qabağını aldığı ehtiras onun canına hakim kəsilmişdi, ağlını əlindən almışdı o, gözəl qızın üstünə atıldı, qız onun hücrəsindən çıxıb qaçmağa macal tapmamış o, qızı ağuşuna aldı və…

Şeytana da elə bu lazım idi! O, dərhal qız cildindən dərviş cildinə girib bütün şəhər və kəndlərdə Abutun günah işləməsi barədə xəbəri yaymağa başladı. Bu xəbər Abutu yaxşı tanıyanları dəhşətə gətirdi, çünki onlar düşünürdülər ki, artıq cənnətdə Abut üçün yer hazırdır və birdən-birə bir səhvin, bir gü-

nahın ucbatından cənnətdən məhrum ola bilər. Lakin onlar bununla bərabər ümid edirdilər, bəlkə, Allahın buna yazığı gələr, onun əlli il ərzindəki əziyyətləri boşuna getməz. Onlar bu məsələni öz aralarında çox götür-qoy edib öz şübhələrinə bir cavab axtarmağa çalışdılar. Axırda onlardan biri dedi:

– Böyük Peyğəmbərə dua edək və ondan xahiş edək ki, bizə görünsün, onda biz ondan bu məsələni yaxşıca soruşarıq.

Hamı bu fikrə sevindi və namaz qılıb böyük Peyğəmbərdən xahiş etməyə başladılar ki, bir neçə dəqiqəliyə onlara görünsün.

Böyük Peyğəmbər onların xahişini yerinə yetirdi və onlara göründü. Hamı onu görüb dərin hörmətlə diz çökdü və ucadan dedi:

– Ey böyük Peyğəmbər, bir de görək Abut cənnətdən məhrum olmuşmu, ya Allahın ona yazığı gəlib, səhvini bağışlar?

Böyük Peyğəmbər təəccüblə onlardan xəbər aldı:

– Bir söyləyin, onun başına nə iş gəlib ki, o, cənnətdən məhrum edilə bilsin? Bir müddət bundan qabaq cənnətdə ona yaxşı yer hazırlamaq və onun sərəncamına üç son dərəcə gözəl huri vermək barədə əmr var idi.

Hamı bir səslə dedi:

– Bəs necə, bədbəxt Abut məhv oldu, o, dünən axşam qız cildinə girmiş şeytanı zorladı.

– Axmaqlar, siz nədən narahatsınız, indi Abut cənnətdə daha yaxşı yer alacaq, belə ki, o, Allahın düşmənini zorlamışdır.

Beləliklə, Böyük Peyğəmbər oradakıların bütün şübhələrini dağıtdı və onlara əmr etdi ki, bir də belə boş işlərdən ötrü onu narahat etməsinlər.

Bundan sonra Böyük Peyğəmbər gözdən itdi. Abutu tanıyanlar isə dağılışıb öz evlərinə getdilər.

# 5. ŞEYDULLA[1]

Belə nəql edirlər ki, bir vaxtlar Şeydulla adında olduqca kasıb bir adam var idi. Şeydullanın böyük külfəti var idi. Yazıq gündəlik ruzisini güclə qazanır, əhli-əyalı hər gün yarıtox-yarıac qalır, əyin-baş haqqında heç xəyal da etməzdilər.

Amma Şeydulla heç vaxt ümidini itirmir və həmişə ümid edirdi ki, Allah ona həyan olacaq və kasıbçılığın daşını atmağa kömək edəcək.

Yazıq Şeydulla Allahdan köməyini çox gözlədi, axırda külfətinin halı dözülməz oldu, lüt, çılpaq, ac-yalavac uşaqlar ağlayır, arvadı başını aparıb deyinir ki, bəs o, pul qazana bilmir, tənbəldir. Yazıq Şeydulla dərin fikrə getdi, naqafildən onun başına bir fikir gəldi. Bu fikir ağlına batdı, kefi açıldı, sevincək arvadına dedi ki, özü şəxsən Allahın yanına gedib ondan kömək istəyəcək. Arvadı onun bu niyyətini bəyəndi və xeyir-dua verib yola saldı.

Şeydulla üç gün, üç gecə yol getdi və yolda ölgün və yazıq bir qurda rast gəldi. Qurd ondan xəbər aldı:

– Ey yaxşı adam, hara gedirsən?

Şeydulla cavab verdi:

– Allahın yanına kömək istəməyə gedirəm.

Qurd ona yalvarıb dedi:

– Yeri gəlmişkən, mənim də xahişimi ona çatdır. Üç ildir ki, qarnımda çox güclü ağrılar var, nə gecəm var, nə də gündüzüm, bir rahatlığım da yoxdur. Qoy Allahın mənə yazığı gəlsin, əgər dərdimə çarə yoxdursa, məni öldürsün!

Şeydulla dedi:

– Yaxşı, deyərəm.

O, yoluna davam etdi.

---

[1] Şeydulla – xüsusi isimdir, mənaca gicbəsər məfhumuna yaxındır (toplayıcının qeydi).

Şeydulla yenə üç gün, üç gecə yol getdi və bir alma ağacına tuş gəldi.

Alma ağacı ondan xəbər aldı:

– Ey yaxşı adam, hara gedirsən?

– Allahdan kömək istəməyə gedirəm.

Alma ağacı ona yalvarıb dedi:

– Zəhmət olmasa, mənim də xahişimi ona çatdır. Anadan olduğum gündən mən hələ öz meyvələrimi görməmişəm. Zəhmət çəkirəm, işləyirəm, gül açıram, hər dəfə güllərimin tozlanma vaxtı onlar birdən-birə qol-budaqlarımdan tökülür. Əgər mənə kömək etmək mümkün deyilsə, qoy Allah mənə ölüm göndərsin.

Şeydulla cavab verir:

– Yaxşı, deyərəm.

O, yenidən yoluna davam edir. Şeydulla yenə də üç gün, üç gecə yol gedib bir böyük gölə çatır. Həmin göldə isə çox böyük bir balıq burnunu sudan çıxarıb gündə qızınırdı. Şeydulladan xəbər aldı:

– Ey yaxşı adam, hara gedirsən?

– Allahdan kömək istəməyə gedirəm.

Balıq ona yalvarıb dedi:

– Zəhmət olmasa, mənim xahişimi ona çatdır. Budur, artıq yeddi ildir ki, mən gəyirmədən əziyyət çəkirəm, boğazım həmişə ağrıyır:

Şeydulla dedi:

– Yaxşı, deyərəm!

O, yenə yoluna davam etdi.

Şeydulla yenə də üç gün, üç gecə yol getdi, axırda bir qızılgüllüyə gəlib çıxdı. Qızılgüllüyün ortasında cürbəcür rəngli qızılgüllərlə örtülü böyük bir kol vardı. Həmin koldan çəhrayı qızılı rəngli alov qalxır və bütün qızılgüllüyü qəribə bir işıqla nurlandırırdı. Şeydulla heyrət içində bu kolun qarşısında da-

yandı və o qədər özünü itirdi ki, hara və nə üçün getdiyini də unutdu. Birdən o, alovdan çıxan bir səs eşitdi. Həmin səs dedi:

– Şeydulla, sənə nə lazımdır?

Şeydulla böyük bir həyəcan içində ucadan dedi:

– Ey böyük Allah, səsini eşidirəm.

Alovdan gələn səs ikinci dəfə dedi:

– Sənə nə lazımdır? De!

Şeydulla dərin hörmətlə diz çökdü və Allahın qarşısında həm öz xahişini, həm də qurdun, alma ağacının və balığın xahişlərini söylədi.

Bundan sonra koldan üçüncü dəfə səs eşidildi:

– Balığın boğazında çox qiymətli bir daş ilişib qalıb, bu daşı onun boğazından çıxardanda o sağalacaq. Alma ağacının kökündə əşrəfilərlə dolu böyük bir bardaq var, bu bardağı qazıyıb çıxardanda alma ağacı da meyvə gətirəcək. Qurd isə qarnındakı ağrıdan xilas olmaq üçün bir axmaq adamı yeməlidir. Sənin xahişin yerinə yetdi, indi isə get!

Şeydulla sevinc içində və üzügülər halda evinə yollandı. O, üç gün, üç gecə yol getdi və balığa tuş gəldi. Balıq onu səbirsizliklə gözləyirdi və onu görən kimi xəbər aldı:

– De, nə oldu?

Şeydulla balığa Allahın məsləhətini çatdırdı, getmək istərkən balıq onu saxladı və dedi:

– Ey yaxşı adam, bu lənətə gəlmiş daşı boğazımdan çıxart, sən həm məni azad edərsən, həm də özün varlanarsan.

Şeydulla dedi:

– Yox, mənə sənin var-dövlətin lazım deyil, mənə Allahın özü var-dövlət verəcək!

O, bunu deyib yoluna davam etdi.

Şeydulla üç gün, üç gecə yol getdi və alma ağacına rast gəldi.

Alma ağacı onu görər-görməz həyəcandan titrəməyə baş-

ladı və yalnız bunu deyə bildi:

– De, nə oldu?

Şeydulla Allahın məsləhətini alma ağacına çatdırdı və dönüb getmək istədi. Elə bu vaxt alma ağacı ona dedi:

– Ey yaxşı adam, özköməyini axıra çatdır, köklərimi qazıb bardağı çıxart və yeri gəlmişkən özün də var-dövlət sahib olarsan.

Şeydulla dedi:

– Yox, mənə sənin var-dövlətin lazım deyil, mənə Allahın özü kömək edəcək, ümidim yalnız onadır!

Şeydulla bunu deyib yoluna davam etdi. O, yenə uç gün, üç gecə yol getdi və nəhayət, qurda tuş gəldi. Qurd da səbirsizliklə onun qayıtmasını gözləyirdi. O, Şeydullanı görən kimi dərhal xəbər aldı:

– Tez de, Allah mənə hansı mərhəməti göstərir?

Şeydulla qurda da Allahın məsləhətini çatdırdı. Qurd sevincək ona təşəkkür etdi və ondan xahiş etdi ki, yol boyu gördüklərini və eşitdiklərini ona nəql etsin.

Şeydulla alma ağacı, balıq və Allahla görüşlərini ətraflı şəkildə ona nəql etdi.

Qurd daha da sevindi. Şeydullanın üstünə atıldı, onu yerə yıxdı və dartışdıraraq dedi:

– Allaha və böyük Peyğəmbərə and olsun, bütün yer üzündə səndən axmağını tapa bilmərəm!

Beləliklə, axmaq Şeydulla yaxşılıq bilməyən qurdun qurbanı oldu.

Göydən üç alma düşdü, biri nağıl danışanın, biri mənim, biri də yoldan keçənin.

***Şəhər müəllimi rütbəsi olan Aleksandr Kalaşev yazıya aldı. Şamaxı ş. 1888-ci il.***

# KALAŞEV A. İKİ MÜQƏDDƏS TATAR PİRİNİN (YERİNİN) YARANMASI TARİXİNDƏN

## 1. MÜQƏDDƏS BARDAQ

Hal-hazırda Şamaxı şəhərində böyük bazarda yoldan ötən yetmiş yaşında koruş qoca tatarı görünür. Onu Pirqulu deyə adlandırırlar. Budur o, artıq əlli ildir ki, qara neft alveri edir. Pirqulunun bu yaxınlarda ölmüş Hüseyn adında bir böyük qardaşı var idi. Hüseyn tatarların sevdai adlandırdıqları bir psixi xəstəliyə mübtəla olmuşdu (tutulmuşdu). O, hərdən bir cinlənir, şəhər kənarına qaçır, bir dəfə bir gün, başqa vaxt isə iki-üç gün sərkərdan gəzib dolaşır, sonra isə yenidən sapasağlam, lakin pərişan və çox solğun evə qayıdırdı.

Pirqulunun nefti torpağa basdırılmış gil bardaqlarda saxlanırdı. Bardaqlardan biri isə taxta budkada torpağa basdırılmışdı. Bax, söhbətimiz axırıncı bardaq haqqında olacaq.

İyirmi il bundan əvvəl, yəni 1867-ci ildə bir dəfə Hüseyn və Pirqulu Bakıdan dəvələrə yüklənmiş tuluqlarda bir partiya neft aldılar. Nefti gətirib çıxardanda hava artıq qaraldığından dolu tuluqları bir boş dükana qoydular ki, səhər onları boşaltsınlar. Hüseyn neftlə dolu tuluqların qarovulunu çəkməyə qaldı, nefti gətirənlər isə gecələmək üçün dəvələri ilə şəhər kənarına çıxıb getdilər.

Hüseyn bazarda hələ heç kim olmayanda hava işıqlananadək yuxudan oyandı. O, qardaşı evdən gələnədək işini qurtarmaq tez qurtarmaq üçün tuluqlardan birini boşaltmağa başladı. O, bir bardağı artıq ağzınadək doldurmuşdu ki, həmişəki kimi cinlənməsi başladı və o, boş tuluqları özündən uzağa atıb şəhər kənarına qaçıb getdi.

Bardağın ağzınadək doldurulmuş neft qıcqırmağa başlamış kimi köpüklə örtüldü, fışıldayıb ağzından daşmağa başladı.

Bu vaxt bir neçə tatar işə gedirdilər, onlar bu bardağı gördülər, bununla yanaşı onlar yaxşı bilirdilər ki, Pirqulunun satılıq nefti yoxdur və son beş-altı gün alıcıların hamısı əliboş gəlib getmişdirlər, onların Bakıdan gələn neft haqqında bir xəbərləri yox idi. Bu tatarlar bardağı əhatəyə aldılar və hay-küy qaldırdılar, şiə-tatarları yeni "pir"ə ibadət etməyə çağırırdılar, onlar belə fikirləşirdilər ki, bardaq öz-özünə yeni "pirin" gücü ilə dolur. Hər tərəfdən tatarlar gəlib yığışdılar və heç bir fikir yürütmədən birinci tatarların dediklərinə inandılar, onlar da öz tərəflərindən hay-küy, qalmaqal qaldırdılar, onlar ucadan dualar oxuyur və "Bismillahir-rəhmanir-rəhim!" qışqırırdılar.

Nəhayət, bardağın sahibi Pirqulu gəlib çıxdı. Hamı onun yanına gəlib təbrik etməyə başladı, hamı onu öpür, qucaqlayır "pirin qulu" adlandırırdılar (elə o vaxtdan hamı onu Pirqulu adlandırır), o vaxtadək onu sadəcə Qulu deyə çağırırdılar. Bir sözlə bu bardağın müqəddəsliyinə inam tatarlarda dini vəcd – cinlənmə halına qədər gəlib çıxdı, olduqca anlaqlı adam olan Qulu tez işin nə yerdə olduğunu başa düşdü, lakin bununla belə tatarlarda şəkk, şübhə yarada biləcək səbəbləri gizlətməyə çalışdı, yəni tuluqları tamam gizlətdi və qardaşı Hüseyni axtarıb tapmaq bəhanəsi ilə şəhər ətrafına getdi və orada yerində dəvəçilərlə hesablaşdı.

Axşama yaxın Hüseyn özünə gəldi və bazara qardaşının yanına qayıtdı, o, dərhal işin nə yerdə olduğunu anladı, dinib danışmadı və öz növbəsində cinlənməyə başladı.

Tatarlar pul yığıb müqəddəs bardağın üstündə taxtadan bir budka tikdilər. Şamaxı qəzasının hər tərəfindən, hətta Bakıdan və digər şəhərlərdən şiə-tatarlar axışıb gəlməyə başladılar, kimi təzə pirə sadəcə sitayiş etməyə, kimi sağalmaq üçün, kimi uşaq, adaxlı və s. diləmək üçün.

Bu, Hüseyn və Pirqulunun xeyrinə idi, belə ki, onlara pirin xidmətçiləri, bir qədər də sahibləri olaraq pul və məhsul

şəklində bahalı hədiyyələr gətirirdilər.

Nəhayət, yerli polis o şiə-tatarların bu əsassız məşğuliyyəti ilə maraqlandı və Pirqulu neft bardağının müqəddəsliyi inamından daşındırmaq üçün tədbirlər gördü. Polis məmurları müqəddəs bardaqdakı neftin hamısını yerə boşaltdılar və tatarlara bildirdilər ki, əgər o, öz-özünə neftlə dolsa, onlar da bu piri tanımağa, onun haqlarına hörmət etməyə hazırdılar, əks halda isə rəhbərlik bardağın müqəddəsliyini tanımayacaq və ona sitayiş etməyi qadağan edəcəkdir. Onlar, əlbəttə, bardağa qarovul qoymağı da unutmadılar ki, sahibləri gizlicə onu doldurmasınlar.

Pirqulu polis gəlib çıxanadək gecələr gizlincə bardaqları doldururdu.

Bardaq təbii ki, boş qaldı, hətta bardağın müqəddəsliyi fikrindən az da olsa, daşınmadılar. Onlar bunu belə izah edirdilər ki, "pir" kafirlərin onun işlərinə qarışmları nəticəsində hirslənib və öz gücünü dayandırmışdır.

Lakin vaxt keçdikcə yeni "pir" bir qədər öz əhəmiyyətini itirdi və indi Pirqulu neft bardağının müqəddəsliyinə şübhə ilə yanaşan tatarlar az deyillər.

## 2. "PİRİN" QƏBRİ

Altmışıncı illərdə Şamaxı qəzası Xançoban qəbiristanlığının Qaravəlli kənd icmasından bir köçəri tatarın son dərəcə yaxşı köpəyi var idi. Ümumiyyətlə, itlər köçəri həyatının ən böyük ehtiyacını təşkil edirdilər. Bu itlər köçərilər tərəfindən yüksək qiymətləndirilir, xüsusi ilə yaxşı itlər üçün bəzən onlara bir neçə at təklif olunsa da, it sahibləri bu təklif ilə razılaşmırlar.

Bu köçəri tatar öz köpəyini göz bəbəyi kimi istəyir və qayğısını çəkirdi.

Yaz gəldi. Bütün köçərilər qışlaqlardan (qış otlaqlardan) yaylaqlara (yay otlaqlarına) köç etdilər. Yeri gəlmişkən,

bizim tatar da özünün bütün ailəsi, sürüləri, ilxıları və itləri köç edirdi. Yolda onun sevimli köpəyinin xatirəsini hörmətlə anmaq arzusu ilə onun leşini qurdlara yem etmək istəmədi və buna görə də yolun kənarında qəbir qazaraq onu basdırdı, qəbirə nisan qoymaq üçün ona söyüd budağı sancdı. Tatar, beləliklə, öz köpəyini basdırıb köçünə davam edərək yayda dağlarda köçüb oturdu.

Payız gəldi. Köçərilər geriyə qışlaqlara köç etdilər və bizim tatar da onlarla idi. O, köpəyinin basdırıldığı yerə yaxınlaşanda onun gözlərinin qabağında belə bir mənzərə açıldı: onun köpəyin qəbrinə sancdığı söyüd budağı bol yaz yağışları nəticəsində tutdu, zoğlar verdi və ağaca çevrildi. Qəbrin yanında isə o, böyük izdiham gördü. Burada qadınlar, kişilər, uşaqlar, xəstə və sağlam adamlar var idi. Bəzilər "pirə" qurbanlıq qoyun, başqaları dua oxuyur, qəbrin torpağını öpür, ona sitayiş edirdilər. Bir sözlə, hər kəs bir xahişlə gəlmişdi.

Bizim tatar çaşqınlıq içində onlara yaxınlaşdı və buraya nə üçün yığışdıqlarını xəbər aldı. Ona cavab verdilər ki, onlar yeni bir "pir" kəşf etmişlər və bu bir müqəddəs adlanan qəbirdir və söyüd ağacı isə insanın iştirakı olmadan öz-özünə onu qəbrinin üstündə bitib böyümüşdür.

Bu yanılmanın səbəbkarı öz dindaşlarını it qəbrinin müqəddəsliyi ilə bağlı fikirlərdən daşındırmaq üçün məsələnin nə yerdə olduğunu onlara danışdı.

O, öz hekayətini danışıb qurtarmamış burada olan tatarların hamısı onun üzərinə atılıb xəncərləri ilə onu küfrünə görə doğram-doğram etdilər. Lakin çox keçmədən bu təzə "pir" də öz əhəmiyyətini itirdi və son illər onun haqqında heç nə eşidilmir.

***Şəhər müəllimi rütbəsi olan Aleksandr Kalaşev yazıya aldı. Şamaxı ş. 1888-ci il.***

## 9-cu buraxılış, 1890-cı il

## ZAXAROV A.
## ZAQAFQAZİYA TATARLARINDA XALQ TƏHSİLİ

## UŞAQ NAĞILLARI

### 1. Qarı və buz

Biri var idi, biri yox idi, bir qarı var idi. Bir gün o, küçəyə çıxdı, buzun üstündə ayağı sürüşüb yıxıldı. Qarı dedi:

– Ay buz, görünür, sən güclüsən?

Buz ona cavab verib dedi:

– Əgər mən güclü olsaydım, günün istisindən əriyərdimmi?

Bu dəfə qarı dedi:

– Ay günəş, sən güclüsən!

– Əgər mən güclü olsaydım, məgər buludlar məni örtərdilərmi?

– Buludlar, siz çox güclüsünüz!

– Əgər biz güclü olsaydıq, bizdən yağış damcılardımı?

– Ay yağış, sən güclüsən!

– Əgər mən güclü olsaydım, məgər məndən ot bitərdimi?

– Ay ot, sən güclüsən!

– Əgər mən güclü olsaydım, məni qoyun yeyərdimi?

– Ay qoyun, sən necə də güclüsən!

– Əgər mən güclü olsaydım, qəssab məni kəsərdimi?

– Qəssab, sən necə də güclüsən?

– Əgər mən güclü olsaydım, siçanlar dükanımdakı piyləri yeməyə cürət edərdilərmi?

– Siçanlar, siz çox güclüsünüz!

– Əgər biz güclü olsaydıq, pişik bizi parçalaya bilərdimi?

– Pişik, sən necə də güclüsən!

– Mən – pişik güclüyəm, çox güclüyəm, kürəyim qılınc

kimidir, qarnım təbil kimidir, gözlərim alov kimidir, bığlarım qorxuncdur, caynaqlarım poladdandır, pəncələrim yumşaqdır, yayda pəncərə altında sərinlənirəm, qışda kürsü (tatar sobası) altında qızınıram.

## 2. Şah xoruz

Biri var idi, biri yox idi, biri Şah xoruz var idi. Şah xoruz həyətdə gəzir, o yana, bu yana baxır, nəsə fikirləşir və toyuqları yanına çağırır.

– Mən Şah xoruzam, padşah xoruzam, xan xoruzam! Quqquluqu, mənim əzizlərim, koppuş, qaraca, ağca, ala-bula fərələrim. Yanıma gəlin, siz mənə bir deyin: "Quşların arasında kim daha gözəl və daha qoçaqdır?"

Quşlar qaçışıb gəldilər, səfehciyəz, koppuş, qaraca, ağca, bala-bala quşlar şahı, böyük padşahı dövrəyə aldılar, təzim etdilər:

– Qaq, qaq, qaq, şah xoruz, padşah xoruz, xan xoruz, yer üzündə səndən daha gözəl, səndən daha qoçaq quş yoxdur!

– Quqquluqu, mənim əzizlərim, koppuş, qaraca, ağca, ala-bula fərələrim, yanıma gəlin, siz bir mənə deyin: "Kim başında qızıl tac gəzdirir?"

– Qaq, qaq, şah xoruz, padşah xoruz, xan xoruz, sən başında qızıl tac gəzdirirsən.

– Quqquluqu, mənim əziz, koppuş, qaraca, ağca, ala-bula fərələrim, yanıma gəlin, siz mənə deyin: "Kimin səsi gurdur, ayaqları güclüdür, lələkləri qızıldır?

– Qaq, qaq, qaq, şah xoruz, padşah xoruz, xan xoruz sənin səsin gurdur, sənin lələklərin qızıldır.

– Quqquluqu, mənim sevimli, koppuş, qaraca, ağca, ala-bula fərələrim, yanıma gəlin, siz mənə söyləyin: "Sizin şah kimdir, sizin padşah kimdir?"

– Qaq, qaq, qaq, şah xoruz, padşah xoruz, xan xoruz! Sən bizim şahsan, sən bizim şahımızsan, sən bizim padşahsan!

– Quqquluqu, toyuqlar, axmaq, pinti, qorxaq, acgöz, böyük və kiçik quşlar rədd olun evlərinizə, hinlərinizə, sizi döyəcəyəm, sizi öldürəcəyəm. İtilin gözümdən, tez evə! Haydı, gedin.

## 3. Şah və xoruz

Biri var idi, biri yox idi, bir xoruz var idi. Bir gün xoruz bir kiçik noxud dənəciyi tapdı, uçub dama qondu, çox ucadan çığırdı:

– Quqquluqu, mən bir noxud dənəciyi tapdım!

Şah əmr etdi ki, noxud dənəciyini xoruzdan alsınlar.

Xoruz yenə uçub dama qondu və daha çox ucadan çığırdı:

– Quqquluqu, şah mənə bir noxud dənəciyi borcludur!

Şah əmr etdi ki, noxud dənəciyini qaytarıb xoruza versinlər.

– Quqquluqu, şah məndən qorxur.

Şah qeyzləndi və əmr etdi ki, xoruzun başını vursunlar. Bıçaqları itilədilər, suyu qızdırdılar. Xoruzun başını kəsmək istəyəndə o qışqırdı:

– Quqquluqu, nə küt bıçaqdır!

Xoruzu içində qızdırlmış su olan qazana salanda dedi:

– Quqquluqu, necə də isti hamamdır!

Xoruzu plovun üstündə şahın qabağına qoydular. Xoruz qışqırdı:

– Quqquluqu, necə də yumşaq taxtda oturmuşam.

Şah yeməyə başladı, xoruz isə qışqırdı:

– Quqquluqu, necə də yaman dəyirmandır! Quqquluqu, necə də dar cığırdır!

Şah yeyib qurtaran kimi xoruz qışqırdı:

– Quqquluqu, nə pis yerə düşdüm!

Bu vaxt şah qeyzləndi, əmr etdi ki, xoruzu qarnından çı-

xarsınlar. Şahın qarnını yardılar, xoruz isə uçub dedi:

– Quqquluqu, şahı öldürdülər, məni qaranlıq zindandan qurtardılar.

### 4. Lətifə

Günlərin bir günü heyvanların padşahı şir dəvələrə vergi qoymaq fikrinə düşüb hər tərəfə qasidləri göndərdi ki, dəvələri bir yerə yığsın.

Axsaq tülkücük bunu bilib tələm-tələsik, özünün ev şeylərini yığıb-yığışdırdı və getdi ki, öz kirvəcikləri ilə vidalaşsın.

– Əlvida, kirvəciklər, əziz dostlar, mən gedirəm.

Onlar xəbər aldılar:

– Tülkücük, sən hara gedirsən, nə olub?

– Necə nə olub, məgər siz eşitməmisiniz, heyvanların padşahı dəvələrə vergi təyin edib?

– Bundan sənə nə var, sən ki dəvə deyilsən!

– Kim bilir, bəlkə, qasidlər məni dəvə hesab edəcəklər! Mən məhkəmədə dəvə olmadığımı, tülkü olduğumu sübut edənədək dərimi soyacaqlar. Yox, yaxşısı budur, çıxıb gedim, sağlıqla qalın, adımı pisliyə çəkməyin, dostlar.

## A.ZAXAROV.
## "MOLLA NƏSRƏDDİNİN LƏTİFƏLƏRİ"

### TOPLAYICIDAN BİR NEÇƏ SÖZ

Molla Nəsrəddin – tatar lətifələrinin sevimli qəhrəmanıdır. Onun adı yalnız tatarlar arasında deyil, həmçinin iranlılar, türklər, ermənilər və digər şərq xalqları arasında yayılmışdır. Belə düşünürlər ki, Molla Nəsrəddin ərəb xəlifi Xarun-ər-Rəşidin sarayında yaşamışdır, halbuki lətifələrdə bir dəfə də olsun mənə onun adına rast gəlmək müyəssər olmamışdır. "Teymurlən-

gin tarixi" adlı bir fars kitabında deyirlər ki, bu rəhmli fatehin sarayında müdrik, bilikli bir nəfər yaşamışdır, o düz və doğru "şəkildə gələcəkdən xəbər verə bilirdi. Teymurləng onu sevirdi, onun sözlərinə inanırdı, o, əvvəlcədən onunla məsləhətləşməmiş bir iş görməzdi. İstirahət saatlarında isə Nəsrəddin özünün ağıllı cavabları ilə rəhmli fatehi əyləndirirdi. Həqiqətən də, Molla Nəsrəddin haqqındakı bir çox lətifələrdə Teymurləngin adı çəkilir. Bu lətifələrdə Molla Nəsrəddin qaşqabaqlı filosof, gah qatı abırsız, gah da tam mənası ilə axmaq olur. Hal-hazırda Molla Nəsrəddin özü ilə xalq axmaqlığının və xalq hazırcavablığını təmsil edən tipik şəxsdir.

Mən 200-dən çox lətifə toplamışam, lakin onlardan nəşr üçün yalnız 64-nü seçə bildim, belə ki, tatarlar, ümumiyyətlə, öz lətifələrini ədəbsiz şəklə salmağı sevirlər. Molla Nəsrəddin haqqındakı ən ağıllı və maraqlı lətifələr də belə bir şəklə salınmışdır.

1

– Molla, sən kimi axmaq sayırsan?

– O kəsi ki, həqiqəti xalqın üzünə söyləyir.

2

Bir dəfə mollaya xəbər verirlər ki, bir neçə camış onun bağına girmişdir. Molla əlinə bir dəyənək alaraq oğulları ilə bağa qaçıb gəlir. Lakin bağda camışlardan başqa bir axundu görür.

– Aman, uşaqlar! – deyə molla qışqırır, – camışları sakit buraxın, hər şeydən əvvəl axundu bağdan qovmağa çalışın.

3

Bir dəfə mollanın yanına bir dərviş gəlir və ona xoş şeylərdən danışır. Bu mollanın çox xoşuna gəldiyi üçün deyir:

– Sabah yanıma gəl, sənə yüz tümən verəcəyəm.

Dərviş sevincək gedir və ertəsi gün yenə mollanın yanına gəlir.

– Sən nə üçün gəlmisən? – molla soruşur.

– Pulların dalınca gəlmişəm, sən dünən mənə onları vəd etmişdin.

– Mən nəyə görə onları sənə vəd etmişdim?

– Öz söhbətimlə sənə ləzzət verdiyim üçün.

– Nə olsun ki! Sən öz söhbətinlə mənə ləzzət verdin, – mən də öz növbəmdə sənə öz vədimlə ləzzət verdim, deməli, biz bərabərik. Sənə daha nə pul verməliyəm.

4

Molla 10 qəpiyə on yumurta alır və 5 qəpiyə də satır.

– Molla, sən belə etməklə zərər edirsən, – deyə tanışları ona deyir.

– Heç nə olmaz, təki desinlər ki, Nəsrəddin də ticarətlə məşğuldur!

5

Bir dəfə məsciddə ibadət vaxtı ibadət edənlərdən biri bilmədən mollanı güvvətlə itələdi. Molla bir söz demədən qabağa əyildi və qüvvətlə özünün qabağında duran imamı itələdi. İmam əsəbi halda ondan soruşur:

– Molla, nə uçün itələyirsən?

– Bax məndən sonra dayanandan xəbər al, – molla cavab verir.

6

Bir dəfə gecə mollanın evinə oğru girir, o, mollanın bütün əşyalarını yığır və çıxıb gedir. Molla ayağa durur, öz yorğanını və oğrudan qalan bəzi əşyalarını özü ilə götürüb onun dalınca qaçır. O, özünün evinə gəlir, molla da onun dalınca. O, mollanı evində görüb xəbər alır:

– Sən niyə gəldin ?

– Necə yəni niyə? Məgər mən bura köçmürəm?

7

Mollanın iki danası var idi. O, onları həyətində bir ağaca bağlamışdı. Onlardan biri ipi qırdı və qaçdı. Molla dəyənəyi əlinə alıb, o biri dananı vurmağa başladı.

– Molla, sən nə üçün onu vurursan, onun günahı nədir? – ondan xəbər alırlar.

– Siz bilmirsınız! Mən əminəm ki, əgər bu dana ipi qırsa, o birisindən də bərk qaçacaq!

8

Molla özünə yeni papaq alır.

– Molla, nə qədər pul verdin? – tanışlarından biri ondan xəbər alır.

– Otuz qəpik.

– Molla, nə qədər verdin? – başqası ondan xəbər alır.

Bu sualla üçüncü, dördüncü, beşinci tanışı xəbər alır, sözün qısası hər rast gələn xəbər alır. Molla bir addım da ata bilmir ki, ondan papağın pulunu xəbər almasınlar. Bu mollanı təngə gətirdi, ona görə də o, bir hiylə işlətmək fikrinə düşdü. O, özünü ölülüyə vurur, arvadı şüvən qoparır. Bu arada qohumlar, tanışlar, bütün şəhər yığışıb fəryad içində, göz yaşı içində onu dəfn etməyə aparırlar. Elə ki, onu qəbrə qoymaq istəyirlər o, ayağı ustə dik qalxaraq qışqırır:

– Otuz qəpik verdim! Otuz qəpik verdim! Otuz qəpik!..

9

Molla boyaqçı emalatxanası açır. Bir nəfər sifarişçi gəlir və deyir:

– Molla, bu parçanı mənə elə rənglə ki, nə qırmızı, nə ağ, nə qara, nə yaşıl, nə sarı, nə göy olsun, sözün qısası, bildiyimiz rənglərdən heç biri olmasın.

– Çox yaxşı.

– Nə vaxt gəlim?

– Sən elə bir gün gəl ki, nə birinci gün, nə ikinci gün, nə üçüncü, nə dördüncü gün, qısası, bildiyimiz günlərin heç birisi olmasın.

10

Bir gün bir xəsis mollanı evinə qonaq çağırır. Molla gəlir. Xəsis masanın üstünə boşqabla bir neçə mərcinin üzdüyü isti su qoyur.

– Bu nədir?

– Mərci şorbasıdır.

Molla soyunmağa başlayır.

– Molla, nə edirsən?

– Bu suya baş vumaq istəyirəm, bəlkə, bir neçə mərci tuta bildim.

11

Dəllək küt ülgüclə mollanın başını qırxır. O, mollanın başını bir neçə yerdən kəsib bu yerlərə pambıq qoyur. Molla ondan xəbər alır:

– Tez qurtaracaqsan?

– Yarısı hələ qalıb, – dəllək deyir.

– Hə, bəsdir! Digər yarısını da mənə saxla, bir yarısına sən pambıq səpdin, o biri yarısına da mən darı səpməyi düşünürəm.

12

Molla bir hacının paltarını çırpışdıraraq onu satmağa bazara aparır, lakin burada paltarı ondan oğurlayırlar. Molla evə qayıdır. Arvadı xəbər alır:

– Neçiyə satdın?

Molla deyir:

– Aldığıma da satdım.

13

Molla hamamda mahnı oxuyur, səsi də özünə xoş gəlir. "Mənim yaxşı səsim var, azancı olaram", – düşünür.

Ertəsi gün o, minarəyə qalxıb oxumağa başlayır. Yoldan keçən bir nəfər deyir:

– Bir bax, bu azançının nə pis səsi var.

Molla deyir:

– Əgər bu minarədə hamam tikilmiş olsaydı, sən bunu deməzdin.

14

Bir dəfə gecə molla bir dükanı yarmaq istəyir. Yoldan keçən bir nəfər onu görür, xəbər alır:

– Sən burada nə qayırırsan?

– Saz çalıram.

– Bəs necə olur ki, heç nə eşidilmir.

– Yəqin, sabah eşidiləcək.

15

Molla bir varlının evini yarmaq fikri ilə bir dəfə gecə pilləkəni onun evinə söykəyir. Pilləkənlə varlının otağına girib pilləkəni də özü ilə çəkib gətirir. Varlı yuxudan oyanıb xəbər alır?

– Sən burada nə qayırırsan?

Molla çəkinmədən deyir:

– Nərdivan satıram.

– Bura nərdivan satılan yerdi?

– Nərdivanı hər yerə satmaq olar, təki yaxşı alıcı olsun.

16

Bir neçə adam xanın yanına molladan şikayət edir ki, camışını alıb aparmışdır. Xan mollanın yanına gəlməsini tələb edir. Lakin molla əvvəlcə vəzirin yanına gəlir və ona bir neçə

cücə hədiyyə gətirir.

Hədiyyəyə görə vəzir xanın hüzurunda mollanı müdafiə edir. Xan mollaya müraciətlə deyir:

– Sən özünə bəraət qazandırmaq üçün nə deyə bilərsən?

– Mən heç nə deməyəcəyəm, qoy cücələrim mənim yerimə danışsınlar.

17

Molla yorğanın üstündən tullanıb keçmək istərkən arxa düşür.

– Ay cavanlıq, cavanlıq, – deyir, dərindən də bir ah çəkir. Sonra ətrafında heç kimin olmadığını görüb deyir: "Düzünə qalsa, heç cavanlıqda da bir işə yaramırdım".

18

Molla bir neçə qovun apararkən bir tanış ondan xəbər alır:

– Molla, hara belə?

– Xana hədiyyə aparıram, – molla cavab verir.

– Mən sənin yerinə olsaydım, xana palıd qozaları aparardım.

Molla evinə qayıdır, qovunları bir tərəfə qoyur, dəsmala palıd qozası doldurub xana aparır. Xan əmr edir ki, palıd qozalarını mollanın başına vursunlar.

– Allaha şükür! Allaha şükür! – molla deyir.

Xan ondan xəbər alır:

– Allaha nədən şükürlər edirsən?

Molla deyir:

– Ona görə ki, tanışımin vasitəsi ilə mənə məsləhət gördü ki, sənə palıd qozaları gətirim, əgər mən əvvəl istədiyim kimi sənə qovunlar gətirsəydim, çox çətin ki, başım salamat qalardı.

19

Bir dəfə molla arvadından xəbər alır:

– Hansı əlamətlərlə bilmək olar ki, adam ölüb, ya yox?

– Əl-ayaq soyuyursa, bu o deməkdir ki, adam ölüb, – arvadı cavab verir.

Bir dəfə qışda molla meşəyə odun dalınca gedir, birdən hiss edir ki, əl-ayağı soyumuşdur.

– Deməli, mən ölmüşəm, – molla fikirləşir və yerə uzanıb hərəkətsiz dayanır. Beləliklə, onun eşşəkləri başsız qalır. Bu arada qurdlar yığışıb gəlir və eşşəkləri parçalamağa başlayırlar. Molla başını qaldırır və qurdların eşşəkləri parçalamağını görüb deyir:

– Ey lənətə gəlmiş qurdlar, Molla Nəsrəddin sağ olsaydı siz onun eşşəklərini parçalamağa cürət etməzdiniz.

20

Başqa bir vaxt yol ilə gedərkən molla görür ki, onun əl-ayağı soyumuşdur.

– Mən öldüm, – molla deyir və yorğana atılıb gözlərini yumur. Elə bu vaxt yanından bir karvan keçir.

“Mən ölmüş olsam da, bu karvanın nə olduğuna baxmaq pis olmazdı”, – molla fikirləşir. Bu sözləri deyərək o başını qaldırır, onu görüb qorxan qatırlar yüklərini ataraq qaçıb dağılışırlar. Çarvadarlar buna görə mollanı döyüb yarı ölü vəziyyətə onu yenidən yorğana atdılar. Bir neçə vaxtdan sonra qohumları mollanı ölümcül vəziyyətdə yorğanın içində tapıb çətinliklə ayıldırlar.

– Molla, sənə nə olub, harada idin?

– Mən o dünyada idim, – molla cavab verir.

– O dünya necə idi, xoşuna gəldi?

– Pis deyil, hər şey yaxşıdır. Yalnız mən sizə bir məsləhət vermək istərdim, elə ki o dünyaya keçdiniz, çalışın orada qatırları qorxutmayın.

21

Mollanın eşşəyini oğurlayırlar. Molla isə elə hey "Allaha şükür! Allaha şükür!" deyir.

– Molla, sən nə üçün Allaha şükür edirsən.

– Onun üçün ki, mən eşşəyin üstündə deyildim, yoxsa mən də eşşəklə bərabər oğurlanmışdm.

22

Bir neçə cavan mollanı hamama dəvət edir, molla onların dəvətini qəbul edib hamama gedir. Onlar əllərində bir yumurta gizlədərək hamama girirlər, molla da onların ardınca. Birdən onlardan biri qaqqıldayıb əlində tutduğu yumurtanı göstərir, digərləri də eyni şeyi edirlər.

– Kimdə yumurta olmasa, hamamın pulunu həmən adam verməli olacaq, – deyirlər.

Molla işin nə yerdə olduğunu başa düşüb skamyaya qalxıb xoruz kimi "quqquluqu" qışqırır.

– Sən nə edirsən? – onlar soruşur.

– Bu qədər toyuğun heç olmasa, bir xoruzu olmalıdır, – deyə molla cavab verir.

23

Mollanın yanına dərviş gəlir. Xəbər alır:

– Molla, bizim ulu babamız kim olub?

– Adəm, – molla cavab verir.

– Bəs ulu nənəmiz?

– Həvva.

– Deməli, biz qohumuq?

– Qohumuq.

– Elə isə sən öz əmlakının bir hissəsini mənə ayırmalısan.

– Çox yaxşı, – molla deyir və dərvişə yarım qəpik verir.

– Molla, bu nədir sən özünün bütün əmlakından öz qohu-

muna yarım qəpik ayırırsan?

– Sakit, əgər bizim digər qohumlarımız bu haqda xəbər tutsalar, sənə heç yarım qəpik də çatmaz.

24

Bir gün molla görür ki, bir erməni qarı acı-acı ağlayır:

– Nənə, nə olmuş, niyə ağlayırsan? – Molla xəbər alır.

– Mən niyə də ağlamayım, bir tək oğlum müsəlmançılığı qəbul edib.

– Bəs mən nə edim, nənə, mənim yeddi oğlum var, hamısı müsəlmandır.

25

Mollanın əbasını oğurlayırlar, o, meydana çıxıb deyir:

– A mənim əbamı oğurlayan, qoy gətirsin, Allaha and verirəm, onun işi pis olacaq.

Oğru bu sözlərdən qorxaraq mollanın əbasını gətirir.

– Molla, sən oğruya nə edəcəksən? – Oğru molladan xəbər alır.

– Heç bir şey, yeni bir əba alacaqdım, – molla cavab verir.

26

Bir dəfə molla yas paltarı geyinib bazara gəlir.

– Molla, sən nə üçün yasdasan?

– Özüm üçün yas saxlayıram, axı öləndən sonra bunu edə bilmərəm.

27

Başqa bir vaxt molla yas paltarında görünür.

– Molla, sən nə üçün yaslısan? Kimin üçün yas saxlayırsan?

– Özüm üçün yas saxlayıram ki, Əzrayıl mənim öldüyümü düşünsün.

28

Bir dəfə gecə molla həyətə çıxanda həyətdə ağacın altında adam görür. Onun oğru olduğunu düşünərək tüfəngi götürüb ona atəş açır. Yaxına gəlib baxanda təsəvvür etdiyi oğrunun yerinə günorta həyətə asdığı öz əbasını görür.

– Allaha şükür, mən əbada yox idim, yoxsa indi mən o biri dünyada idim.

29

Qonşusu molladan eşşəyi istəyir.

– Eşşəyi oğlum elə dünən dəyirmana apardı.

Lakin elə bu vaxt eşşək tövlədə anqırır.

– Molla, yalan söyləməkdən utanmırsan? – qonşusu soruşur.

– Bəs sən utanmırsan, axmaq eşşəyə inanırsan, mənə, ağsaqqal qocaya inanmrsan?

30

Molla kənddən qayıdır, yolun ortasında eşşəyi yorulur, onun hər cür xahiş və bizləmələrinə baxmayaraq yerindən tərpənmir. Yoldan keçən bir nəfər mollaya məsləhət görür:

– Quyruğunun altına bir az naşatır qoy, gedəcək.

Molla bu məsləhəti yerinə yetirdi. Eşşək quyruğunun altında naşatır təsirini hiss edib yerindən götürüldü, molla da onun dalınca. Lakin eşşək elə sürətlə qaçırdı ki, molla ona çata bilmirdi.

“Naşatır gözəl vasitə imiş, mən də bir yoxlayım, bəlkə, eşşəyə çatdım, – deyə molla düşünür. Molla naşatırın təsirini hiss edib irəli atılır, bir az keçmiş öz eşşəyinə çatır, lakin dayana bilmir, dəli kimi qaçmağa davam edir. O, öz evinədək qaçıb küçədə öz arvadını görür.

– Arvad, eşşək evə gələn kimi onun taylarını yerə qoy, mən özümə bir az naşatır qoymuşam, indi Allah bilir mən hələ nə qədər çapacağam, – molla uzaqdan qışqırır.

31

Mollanı toya çağırırlar, o, köhnə cırıq çuxada toya gəlir, lakin onu qəbul etmirlər. Molla evə qayıdır, təzə çuxa geyinir və yenidən gedir. Bu dəfə onu çox mehriban qəbul edirlər və hər cür ehtiramlar göstərirlər. Yemək verilən vaxtı molla çuxasının qırağını qaldırır və boşqabın üzərinə əyərək deyir:

– Ye, möhtərəm çuxa! Ye, hörmətli çuxa!

Ev sahibləri təəccüblə ondan xəbər alırlar:

– Molla, sən nə edirsən?

– Öz çuxamı qonaq edirəm, bütün ehtiramları siz ona edirsiz, mənə yox, kimə ehtiramlar göstərilirsə, yeməklər də onun üçündür!

32

Bir tacirin dükanında molla bal bankasını görür, çörək parçasını götürür, çörəyi bala batırıb yeyirmiş kimi görk edib çörəyi yeyir.

– Axı mən sənin balına heç əlimi də vurmadım.

– Hər halda sən gerçəkdən belə baldan yeyirmiş kimi ləzzət aldın.

– Nə etməli! – molla tacirə müraciətlə “pulunu al!” deyir.

Tacir əlini uzadır və molla pulu onun əlinə sayırmış kimi saymağa başlayır.

– Budur, sənə bir, budur, sənə iki, budur, sənə üç.

– Molla, nə edirsən? Dayan, bəs pullar haradadır?

– Yediyim sənin belə balın üçün belə pullar da verirlər.

33

Molla qonşu şəhərə gedir və yolda qarpız alır. Qarpızın yarısını yeyib o biri yarısını atır:

– Yoldan keçənlər deyəcəklər ki, bu yoldan bəy keçmişdir.

Lakin bir neçə addım gedəndən sonra o, geri qayıdır,

qarpızın yerə atılmış yarısnı götürür və yeyir:

– Qoy yoldan keçənlər desinlər ki, bəyin yanında nökəri də var imiş və qarpızın o biri yarısını ona verirmiş.

Lakin bir az getmiş o, yenə də geri qayıdır, qarpızın qabıq və çəyirdəklərini yığıb yeyir:

– Qoy yoldan keçənlər fikirləşsinlər ki, bəy atlı imiş, qabıq və çəyirdəkləri onun atı yeyibmiş.

34

Bir dəfə qonşusu mollanın yanına gəlir, deyir:

– Molla, mənim səndən bir xahişim var.

– Nə xahişin?

– Mənə yüz tümən borc ver.

– Bircə bu?

– Yox, üç ayda möhlət ver ki, mən bu pulları sənə ödəyə bilim.

– Sənin birinci xahişini yerinə yetirə bilmərəm, ikincini isə məmnuniyyətlə yerinə yetirərəm, üç ayın yerinə altı ay möhlət verirəm.

35

Bir dəfə molla qonşusundan qazan alır və bir neçə vaxtdan sonra onun içinə öz kiçik qazanını qoşub sahibinə qaytarır.

– Molla, bəs bu nədir? – qonşusu soruşur.

– Dünən sənin qazanın bir də doğdu, bu qazança da onun uşağıdır.

Qazan sahibi heç bir söz deməyib balaca qazanı da özünə götürür.

Bir neçə gündən sonra molla yenə qonşusunun yanına gəlir və ondan qazan istəyir. Qonşusu sevincək o saat onun xahişini yerinə yetirir.

Bir neçə gün keçir, lakin molla qazanı geri qaytarmır,

axırda qonşu mollanın yanına gəlir.

– Molla, mənim qazanıma nə olub? Niyə bu vaxtadək onu qaytarmırsan? – deyə xəbər alır.

– Əfsuslar olsun ki, mən sənə bəd xəbər verməliyəm, sənin qazanın öldü.

– Molla, sən nə axmaq-axmaq danışırsan, məgər qazan da ölə bilər?

– Bəs qazan doğa bilər? Amma sən inandın ki, qazan doğa bilər, bəs indi niyə inanmırsan ki, sənin qazanın ölüb.

36

Molla qəbiristanlıqda gəzərkən orada qoca bir it görür. Düşünür ki, onun öhdəsindən gəlmək elə də çətin bir iş deyil, əlinə ağac alıb düz birbaşa itin üstünə gedir. İt mollanı görüb dişlərini qıcaldır və onun üstünə atılmaq istəyir. Molla görür ki, it qocalığına baxmayaraq dişlilərdəndir, o əlindəki ağacı atır və deyir:

– Sakit ol, qoçaq! Sakit ol, dəliqanlı!

Mən səninlə yalnız zarafat etmək istədim!

37

Tülkü mollanın toyuğunu oğurlamışdı. Molla iki əli və iki ayağı üstə öz qonşusunun hininə tərəf sürünərək dişlərilə onun toyuqlarından birini tutub onu evinə gətirir.

– Molla, sən nə edirsən? – qonşusu xəbər alır.

– Mən tülkü olmuşam, – molla cavab verir.

38

Bir dəfə gecə mollanın evinə bir oğru girir.

– Molla, qalx, evimizə oğru girib, – arvad deyir.

– Arvad, səsini çıxartma, bəlkə, oğru bir şey tapdı, onda biz tutub onun əlindən alarıq.

39

– Molla, plov aparırlar.

– Mənə nə?

– Sənə aparırlar.

– Onda sənə nə?

40

Bir dəfə gecə vaxtı mollanın evinin qonşuluğunda dava düşür.

– Molla, qalx, bax gör orda nə olub? – Arvadı soruşur.

Molla yerindən qalxır, üstünə yorğanı çəkib küçəyə çıxır. Kimsə qarışıqda yorğanı onun üstündən çəkib aparır, elə bu vaxt dava da dayanır, ara sakitləşir. Soyuqdan titrəyərək molla evinə qayıdır.

– Dava nəyin üstündə idi? – arvadı xəbər alır.

– Bizim yorğanımızın üstündə, elə ki yorğanı üstümdən çəkib apardılar, həmin saatda dava da qurtardı.

41

Bir gün molla bir şəhərə çıxır və görür ki, bu şəhərin bütün əhalisi şənlənirlər, yeyir, içir, rəqs edir. Mollanı da dəvət edib çox gözəl qonaq edirlər.

– Necə də yaxşı şəhərdir! – molla deyir.

– Bu gün bayramdır, – deyirlər.

– Əgər elə isə siz niyə hər gün bayram etmirsiniz?

42

Bir dəfə molla xalqı aldatmağı düşünərək deyir:

– Filan evdə aş paylayırlar, kim istəyir, qoy tələssin.

O saat qoca da, cavan da, kimi boşqabla, kimisi boş qabla, kimisi qazanla, kimisi isə qabsız-qacaqsız ora tələsirlər. Bir də molla baxıb görür ki, hamı getdi və özü də evinə qaçır, qazan götürür və başqalarına çatmağa tələsir:

– Bəlkə, elə doğrudan da, orada aş paylayırlar, – deyə fikirləşir.

43

Molla eşşəyini itirir və evinə piyada qayıdır, yolda bir tanışına çatıb soruşur:

– Şəhərdə yeni nə xəbər var?

– Heç nə.

– Məgər danışmırlar ki, molla eşşəyini itirib?

– Yox, danışmırlar.

– Hə, Allah eləsin mollanın eşşəyini itirməsi yalan olsun.

44

Bir dəfə molla araba ilə xeyratdan qayıdırmış. O, ağırlaşmış kipriklərini qaldırıb göydə sayrışan ulduzları görür.

– Orada nə edirlər? – Arabaçıdan xəbər alır.

– Orada xeyrat...

– Aha, elə isə kəlləri birbaşa sür!

45

Bir dəfə molla başqa bir şəhərə yola düşür. Quldurlar ona hücüm edib atını, yüz tümənini və paltarını əlindən alır, özünü isə döyürlər.

– Məni nə üçün döyürsünüz, gec gəlmişəm, yoxsa az gətirmişəm? – molla xəbər alır.

46

Xan mollanı at yarışına dəvət edir. Molla kəlin üstündə gəlib çıxır, xan gülür. Molla deyir:

– Bu kəl cavan olanda heç bir at onu ötüb keçə bilməzdi.

47

Mollanın bir qoyunu var idi. Bir dəfə bir neçə cavan onun yanına gəlib deyirlər:

– Molla, sabah qiyamət olacaq, qoçunu kəs, biz də yeyək.

Molla inanmır. Başqaları da gəlir, eyni şeyi deyirlər. Molla qoçu kəsir və öz tanışalarını, qohumlarını qoyunu yeməyə dəvət edir. Bu arada molla qonaqların əba və başmaqlarını götürüb bazara aparır.

– Bizim əbalar, başmaqlar hanı? – qonaqlar getməyə hazırlaşarkən xəbər alırlar.

– Sizin əbalar və başmaqlar sizdən bir gün qabaq qiyaməti gördülər.

48

Bir dəfə Teymurləngə bir qaz hədiyyə gətirirlər. Teymurləng mollaya tapşırır ki, onu nahar vaxtına bişirsin. Molla əmri yerinə yetirir, lakin qaza tamahlanaraq nahar yeməyinədək qazın bir ayağını yeyir. Yemək vaxtı Teymurləng molladan xəbər alır:

– Qazın o biri ayağı haradadır?

– Qaz birayaqlı olur, – molla onu inandırır.

– Molla, sən nə axmaq-axmaq danışırsan.

– İnanmırsan, bax, – molla gölün sahilində bir ayaqları üstə dayanan qazları göstərir. Teymurləng boşqabı götürür və qazlara atır, qazlar iki ayaqları üstə dağılışırlar.

– Hə, necə oldu, qaz bir ayağı üstəmi qaçır?

– Əgər bu boşqabı sənə də atsaydılar, sən də iki ayağın üstə qaçardın, – molla etiraz etdi.

49

Bir dəfə Teymurləng mollanın yanında nə isə bir yalan-palan danışır. Molla onun sözünü kəsərək özü daha inanılmaz başqa bir yalan-palan danışır.

– Molla, sən nə cəfəngiyat danışırsan? – Teymurləng soruşur.

– Əgər imam adamları xələtsiz qəbul etməyi özünə eyib bilməyirsə, düşünürəm ki, rəiyyət də şalvarsız gəzib lovğalanmaqdan utanmamalıdır, – deyə molla cavab verir.

50

Bir dəfə Teymurləng saraya aparmaq üçün mollaya bir neçə şaftalı verir. Molla onları qəbiristanlığa aparır və orda qoyur. Teymurləng şaftalıları tapmayıb mollanı yanına çağırır.

– Mən şaftalıları sən əmr etdiyin kimi sənin sarayına apardım, – molla deyir və Teymurləngi qəbiristanlığa aparır.

– Bax sənin gec-tez həmişəlik köçəcəyin əsl sarayın budur, hal-hazırda yaşadığın saray isə sənin deyil, sən orada yalnız qonaqsan, – molla deyir.

51

Bir dəfə Teymurləng molladan xəbər alır:

– Molla, sən nə düşünürsən, dünyada arvad çoxdur, yoxsa kişi?

– Arvad, – molla cavab verir.

– Bu necə olur?

– Arvadlar artıq arvaddırlar, arvadın düdüyü ilə rəqs edən kişilər də arvaddırlar, deməli, arvadlar daha çoxdular.

52.

Mollanı qazı seçirlər. Onun yanına iki sikayətçi gəlir, onlardan biri o birisini göstərərək deyir:

– O, mənim burnumu dişlədi.

– Yox, mən deyiləm, o, özü dişlədi, – o biri etiraz edir.

Molla onlara deyir:

– Gedin və yarım saatdan sonra gələrsiniz. Bunu deyib

molla başqa otağa girir və öz burnundan tutaraq onu dişləmək istəyir, lakin bacarmır, yerə yıxılır və başını yaralayır. Başını dəsmanla sarıyıb bu otaqdan çıxır və şikayətçiləri yanına çağırtdırır. İkinci şikayətçiyə üz tutub deyir:

– Sən yalan danışırsan, əgər o, doğrudan da, öz burnunu dişləmiş olsaydı, onun başı məndə olduğu kimi yaylıqla sarılmış olardı.

53

Axşam mollanın uşağı qışqırır. Arvadı deyir:

– Molla, qalx uşağı yırğalayıb yatırt, axı onun bir yarısı da sənindir.

Molla deyir:

– Qoy mənim olan yarısı qışqırsın, sən öz yarını yırğalayıb yatırt, – deyə molla o biri böyrü üstə çevrilərək cavab verir.

54

Mollanın uzun və iri buynuzları olan bir öküzü var idi. Molla elə hey fikirləşirdi ki, əlinə bir fürsət düşəydi öküzün buynuzlarının ortasında oturaydı. Bir dəfə gecə molla həyətə çıxaraq görür ki, öküz həyətdə sakit uzanıb gövşəyir.

– Hə, indi ən uyğun fürsətdi, molla fikirləşir və öküzün başına hoppanıb onun buynuzlarının ortasında oturur. Qorxuya düşmüş heyvan ayaqları üstə qalıb, başını silkələyir və mollanı özündən uzağa atır. Molla yerə düşüb huşunu itirir. Arvadı gəlib görür ki, əri huşsuz vəziyyətdə, yaralı baş və sınmış ayaqla yerdə uzanıb, ağlayır. Qonşular yığışıb gəlirlər və mollanı huşa gətirirlər. Molla başına nə gəldiyini və harada olduğunu başa düşür. Molla arvadına deyir:

– Arvad, ağlama, ayağımı sındırsam da, başımı yaralasam da, istədiyimə nail oldum.

55

Bir dəfə molla bir neçə tanışı ilə balıq tutmağa gedir. Toru atanda molla tora atılır, onu çıxardırlar. Ondan xəbər alırlar:

– Molla, sən nə üçün tora atıldın?

– Özümü balıq təsəvvür etdim, – deyə molla cavab verir.

56

Bir dəfə bir necə cavan mollanın başmaqlarını ələ keçirməyi düşünərək onu bir ağacın altına çağırırlar. Onlar mollaya deyirlər:

– Molla, düzdümü bu ağaca heç kəs çıxa bilməz?

– Mən çıxaram, – molla deyir.

– Ola bilməz!

Onda molla başmaqlarını çıxardır və onları kəmərinin altına soxub ağaca çıxmağa başlayır. Ondan xəbər alırlar:

– Bəs başmaqları ozün ilə niyə götürürsən?

– Kim bilir, bəlkə, oradan buludlara yol açılacaq! Hər halda əvvəlcədən bəzi tədbirləri görmək işə mane olmaz.

57

Bir dəfə bir kəndli mollaya dovşan hədiyyə gətirir, molla onu qonaq edir. Bir neçə gündən sonra mollanın yanına başqa bir kəndli gəlir.

– Sən kimsən? – molla xəbər alır.

– Mən sənə dovşan hədiyyə gətirən kəndlinin qonşusuyam.

Molla onu da qonaq edir. Bir neçə gündən sonra yeni bir kəndli gəlib çıxır.

– Sən kimsən? – molla xəbər alır.

– Mən sənə dovşan hədiyyə gətirən kəndlinin qonşusunun qonşusuyam.

– Xoş gəldin, – molla deyir və ona bir boşqab bulanlıq su verir.

– Bu nədir? – kəndli xəbər alır.

– Bu isə sənin qonşunun qonşusunun mənə hədiyyə gətirdiyi dovşanın suyundanddır.

58

Bir dəfə molla bir neçə adamı evinə qonaq çağırır. Onları küçədə saxlayıb, özü evə girir.

– Siz burada gözləyin, mən indi çıxacağam. Lakin bir neçə vaxt keçir, molla isə görsənmir, nəhayət, mollanın arvadı çıxır və deyir ki, molla evdə yoxdur.

– Molla bizim yanımızda evə girdi, – dəvətlilər deyirlər.

– Nə olsun ki sizin yanınızda evə girib, bəlkə, evin iki girişi var, birindən molla girmiş, digərindən isə çıxmışdır, - molla başını pəncərədən çıxarıb deyir.

59

Bir dəfə öküz mollanın bağına girir və bitkiləri korlayır. Molla əlinə ağac alıb bağa enir, lakin öküz mollanı görüb qaçır. Bir neçə gün sonra həmin öküzü arabaya qoşulmuş görür, o, dəyənək götürüb onu vurmağa başlayır. Öküzün sahibi onu saxlayıb deyir:

– Sən mənim öküzümü niyə döyürsən?

– Sus, o özü təqsirini yaxşı bilir.

60

Bir dəfə xan mollanı ova dəvət edir, əlində bir qarğa gəlib çıxır. Xan gülür:

– Molla, bu nədir? Sən qarğa ilə ov eləmək istəyirsən?

– Nə üçün də yox? Mən bir çox qarğalar tanıyıram ki, şahinlərdən yaxşı ov edirlər.

61

Bir dəfə molla bataqlığla üzən bir neçə qaz görür və onlardan heç olmasa birini tutmaq istəyir, lakin onlar uçub ge-

dirlər. Onda o, bir parça çörək götürür, bataqlığın sahilində oturub çörəyi suya batırıb yeməyə başlayır.

– Molla, nə edirsən? – yoldan keçənlər ondan xəbər alırlar.

– Qaz şorbası yeyirəm, – molla cavab verir.

62

Bir dəfə gecə molla arvadını yuxudan oyadıb deyir:

– Arvad, tez qalx, mənə qələm və kağız ver, şeir yazmaq istəyirəm. Tez ol, nə qədər ki ilham dəqiqəsi ötüb keçməyib.

Arvadı ona qələm və kağız verir. Molla yazmağı qurtarıb işıq saçan bir sima ilə kağızı arvadına verir.

– Hə, molla, bir oxu nə yazmısan?

Molla oxuyur:

– Yaşıl yarpaqlar arasında yaşıl toyuq mənim qızıl buruncuğazımı dişlədi!(dimdiklədi)

63

Mollanın arvadı doğuş ərəfəsində idi və çox əziyyət çəkirdi.

– Molla, Allaha dua et ki, arvadın sağ-salamat doğsun, – mamaça deyir.

– Mən başqa vasitə bilirəm, – molla deyir və bazara qaçır, bazarda bir girvənkə kişmiş alır və evə gətirir. Arvadının qabağına kişmiş töküb deyir:

– Arvad, sakit ol, sənin uşağın bu kişmişi yığmaq üçün indi dünyaya gələcək.

64

Bir dəfə molla camaatı məscidə yığır və deyir:

– Bilirsiniz, Quranda nə deyirlər?

– Yox, bilmirik.

– İndi ki belədi, sizinlə nə danışmaq?

Başqa bir vaxt molla xəbər alır:

– Siz Quranda nədən danışıldığını bilmirsiniz?
– Bilirik.
– İndiki bilirsiniz, mənim sizə deməyə sözüm yoxdur.

Bundan sonra camaat öz arasında şərt bağlayır ki, mollanın o sualına belə demək lazımdır ki, bir yarımız bilir, o biri yarımız bilmir.

Bir başqa vaxt molla yenə xəbər alır:
– Quranda nədən danışıldığını bilirsiniz?
– Bir yarımız bilir, o biri yarımız bilmir.
– Belə olduğu halda bilən tərəf, bilməyən tərəfə öyrətsin.

***Minqrel şəhər məktəbinin müəllimi***
***A.Zaxarov yazıya aldı.***
***1889-cu il, Poti şəhəri.***

## KAZBEK NIKOLAY. BAKI QUBERNİYASININ GÖYÇAY QƏZASINDA YAZILMIŞ TATAR NAĞILLARI

## ALABƏZƏK BALIQ

Bir vilayətdə çox qəddar padşah var idi, rəiyyəti onun əlindən cana gəlmişdi. Bir gün o, ağır xəstələndi, hər yerdən həkimlər, loğmanlar gəldilər, amma onu sağalda bilmədilər.

Nəhayət, padşahın yanına bir həkim gəlib dedi:

– Qibleyi-aləm, balıqçılara əmr et, sənə alabəzək balıq tutsunlar. Sonra əmr edərsən, balığı bişirərlər, ətini yeyərsən, suyunu da yaxşıca bədəninə sürtsünlər. Qibleyi-aləm, dediyim kimi etsən, sağalacaqsan.

O, padşahdan bahalı ənamlar alıb çıxıb getdi. Padşah balıqçıları dənizə göndərdi, balığı tutana böyük ənam vəd etdi.

Balıqçılar hər cür çoxlu balıq tutdular, amma padşaha lazım olan balığı heç kim tuta bilmədi. Nəhayət, padşahın oğlunun özü də bəxtini sınamaq istədi. Allah şahzadəyə yar oldu, onun toruna həmən balıq düşdü. Lakin balıq o qədər gözəl idi ki, şahzadənin ona yazığı gəldi və dedi: "Gözəl balıq, özün üçün dənizdə yaşa! Atam artıq qocadır, yaşamağına az qalıb, bir də o o qədər kinli, zalımdır ki, sənin bir puluna da dəyməz!"

Şahzadənin yaxınları, ətrafındakılar onun nə etdiyini görüb şaha çuğulluq etdilər, şah çox hirslənib əmr etdi ki, şahzadəni tutub edam etsinlər.

Çariçə bundan xəbər tutub özünə sadiq adamlara əmr etdi ki, oğlunu onun yanına çağırsınlar. O, hönkür-hönkür ağlayaraq atasının qəzəbindən danışdı və ona yalvardı ki, tez qaçıb canını qurtarsın. Çariçə oğlu ilə vidalaşarkən ona belə bir məsləhət verdi:

– Oğul, əgər yolda bir yoldaşa rast gəlsən, onu sınaqdan keçirməmiş inanma!

Şahzadə anası ilə görüşüb yola düşdü.

Şahzadə az getdi, üz getdi, birdən gördü ki, bir atlı cavan ona çathaçatdı. Şahzadə fikirləşdi ki, kimsə onu təqib edir və istədi, çapıb getsin, arxadan "dost" sözünü eşidib dayandı və tanımadığı adamı gözləməyə başladı. Həmin adam şahzadəyə çatıb onu salamladı!

– Salaməleykum!

Şahzadə də, – "əleykum əssalam", – deyib onun salamına cavab verdi.

İlk baxışdan tanış olmayan adam şahzadənin xoşuna gəldi. Bu adam şahzadəyə xəbər verdi ki, vətənindən, uğursuz məhəbbətindən qaçmışdır. Şahzadə isə təsadüfən rast gəldiyi yoldaşına açıqdan-açığa başına gələnləri nəql etdi.

Onlar az getdilər, üz getdilər, nəhayət, meşədən çıxdılar, gəlib bir çayın kənarında böyük məscidləri, kölgəli bağları

olan bir gözəl sahə gördülər.

Şahzadə anasının məsləhətini yadına saldı və öz yoldaşını sınamaq üçün bilərəkdən qamçısını əlindən saldı, atı dayandırdı və öz yoldaşından xahiş etdi ki, qamçını ona versin. Yoldaşı işin nə yerdə olduğunu bildi, tez atdan əyilib şahzadənin qamçısını yerdən götürüb ona verdi, şahzadə yoldaşının bu hərəkətindən çox razı qaldı.

Çayın kənarında onlar atlarından düşdülər, atlarının yəhərlərini götürdülər və onları otlamağa buraxdılar, sonra şahzadə çantasından çörək çıxarıb yoldaşını onunla nahar etməyə dəvət etdi. O isə öz çörəyini götürdü və şahzadəyə yaxınlaşıb dedi:

– Dostum, sənin çörəyin yaxşıdır, lakin mənim çörəyim sənə, bəlkə, daha xoş gələr.

Şahzadə öz yoldaşından çox razı qaldı.

Tezliklə bir qoca kişi onların kim olduğunu və şəhərə nə üçün gəldiklərini öyrənmək üçün onlara yaxınlaşdı. Onlar qocanın sorğusuna cavab verib şəhər, şəhərin padşahı haqqında soruşmağa başladılar.

Qoca dedi:

– Bizdə hər şey yaxşıdır, bizdə hər şey çoxdur, lakin bizim bir adətimiz var, o da budur, bizim sevimli padşahımızın təkcə qızı iki ildən bəri lal olub danışmır, şahzadə qıza şəfa verəcək bir həkim də yoxdur, padşah onu müalicə edə bilməyən doxsan doqquz həkimin boynunu vurdurubdur.

Səhər şahzadə şəhəri gəzməyə çıxdı, lakin tezliklə darıxıb yoldaşının yanına qayıtmağa qərar verir. O, fikir içində əlindəki qamçını yelləyə-yelləyə gedəndə birdən istəmədən əlindəki qamçı ilə küçənin ortasında duran təbili vurdu. Təbilin keşiyini çəkən adamlar o saat onu tutub padşahın yanına apardılar.

Sən demə, padşah belə fərman veribmiş ki, küçənin ortasında böyük təbil qoysunlar, şahzadə qızı müalicə etmək istəyən arzusunda olan həkimlər təbilə vurmaqla öz arzularını bildirsinlər.

Padşah ondan xəbər alır:

– Sən, şahzadə qızı müalicə edə bilərsənmi?

Şahzadə "yox" deyəndə padşah çox qəzəblənir və əmr edir ki, onu zindana atsınlar. Şahzadə padşahın qabağında diz çöküb yalvarır ki, onu heç olmazsa, yoldaşı ilə görüşmək üçün buraxsınlar. Padşah ona icazə verir.

Şahzadə başına gələnləri yoldaşına nəql edir. Yoldaşı onu sakitləşdirib ona məsləhət verir ki, padşaha desin ki, o, təbili yoldaşını padşaha təqdim etmək üçün vurmuşdur, çünki onun yoldaşı çox yaxşı həkimdir və o, şahzadə qızı mütləq müalicə edəcək.

Şahzadə yoldaşı necə demişdisə, elə də edir. Padşah sevincək əmr edir ki, həkimi onun hüzuruna gətirsinlər.

Şahzadənin dostu padşahın hüzuruna gəlib xahiş edir ki, şahzadə qızı ona göstərsinlər. O, qızın otağına girib əmr edir ki, otağın ortasına pərdə çəksinlər ki, otaq iki yerə bölünsün, otağın bir tərəfində şahzadə qız, o biri tərəfində isə o özü olsun. Bir az keçdikdən sonra həkim otağın qapısına bu sözlərlə müraciət edir:

– Ey qapı, istəyirsənmi sənə bir nağıl danışım?

O, özü-özünə cavab verir:

– İstəyirəm!

– İndi ki, belədir, onda qulaq as!

Həkim bu nağılı danışmağa başlayır:

– Biri var idi, biri yox idi, bir vilayətdə varlı-dövlətli tacirlə qardaşı var idi. Tacirin üç oğlu, qardaşının isə bir gözəl qızı var idi. Tacirin oğlanları əmiqızlarını çox sevirdilər. Qızın atası isə qardaşı oğlanlarından heç birini küsdürməmək üçün hərəsinə min rubl verib dedi:

– Sizlərdən kim bir ildən sonra bu min rublu birinci olaraq iki min rubl etsə, qızımı ona verəcəyəm!

Qardaşlar əmilərinə "sağ ol" deyib öz bəxtlərini axtarmaq üçün yola düşürlər.

Onlar az getdilər, üz getdilər, nəhayət, yolun ortasında böyük bir daş gördülər, bu daşdan üç yol ayrılırdı. Qardaşlar belə şərtləşdilər ki, geri qayıdanda bu daşın yanında görüşsünlər və onlar bir-birləri ilə görüşüb, hərəsi bir yol tutub getdi: böyük qardaş sağ tərəfə, ortancıl qardaş sol tərəfə, kiçik qardaş isə orta yolla getdi.

Kiçik qardaş az getdi, üz getdi, birdən iki nəfərin öz aralarında mübahisə etdiyini gördü. Sən demə, onlar atalarından qalmış üç şeyi: uçan xalçanı, özü açılan süfrəni və sehrli papağı aralarında bölüşdürə bilmirlər. Onlar oğlandan xahiş etdilər ki, mübahisəsini həll etsin, o, razı oldu, kamanını çəkib dedi:

– Atacağım oxun dalınca qaçın, kim onu mənə gətirsə, özü açılan süfrəni və sehrli papağı alacaq, o birinə isə uçan xalça çatacaq.

Ox atıldı və qardaşlar oxun dalınca qaçdılar, elə ki onlar gözdən itdilər, oğlan özü açılan süfrəni və sehrli papağı götürüb uçan xalçaya mindi və uçub getdi.

O, bir xeyli uçandan sonra, nəhayət, görüş yerinə qayıtmaq vaxtı çatdı, orada onu səbirsizliklə gözləyən qardaşlarını tapdı.

Qardaşlar bir-biriləri ilə görüşüb başlarına gələnləri danışmağa başladılar. Böyük qardaş dedi:

– Qardaşlar, mənim hekayəm elə də böyük deyil və burada elə maraqlı bir şey yoxdur. Mən sizdən ayrılandan sonra çox yol getdim, nə bir evə, nə də bir adama rast gəlmədim, nəhayət, bir şəhər qarşıma çıxdı. Mən burada özümə bir iş axtardım. Bir dəfə qoca bir həkimlə tanış oldum, o məni özünə şagird götürdü. Həkim mənə çox böyük məhəbbət bağladı və bir dəfə məni yanına çağırıb dedi:

– Oğul, mən səni çox sevdim, mənim ömrümə az qalıb, mənə təskinlik ver, mənə oğul ol, nəyim varsa, var-dövlətim, evim-eşiyim, bütün bildiklərim sənin olacaq.

Mən qocanın dediyinə razılıq verdim, ona baxmağa başladım, özüm də canla-başla onun elmini öyrənməyə başladım.

Çox keçmədən onun köməyi olmadan xəstələri, müalicə etməyə başladım və şəhərdə hamı məsləhət üçün yanıma gəldi. Nəhayət, qoca rəhmətə getdi. Onun nəyi var idisə, mənə qaldı, evə qayıtmaq vaxtım gəldi və mən həkimdən qalan evi, həyət-bacanı satıb yola düşdüm və burada sizinlə görüşdüm. Bax bu da mənim hekayətim!

Böyük qardaşdan sonra ortancıl qardaş öz hekayətini nəql etməyə başladı:

– Sizdən ayrıldıqdan sonra mən çox bəlalara tuş olduğum bir meşəyə rast gəldim, vəhşi heyvanlar gecələr mənə rahatlıq vermədi, səhərlər isə özümə yemək axtarmaqla məşğul idim. Baxdım gördüm bu meşədən heç vaxt çıxa bilməyəcəm və özümə bir koma tikməyə başladım. Mən vəhşi heyvanları əhilləşdirdim, müxtəlif heyvanları ovlayıb qışda özümə azuqə hazırlamağa başladım. Bir dəfə öz komamdan çox aralanıb meşədə azdım. Bütün günü meşədə gəzib dolaşdım, axşam düşdü və mən artıq burada özümə bir yer tapıb gecələmək isdəyirdim ki, uzaqda işıq gördüm, yaxınlaşıb qapını döydüm. Əldən düşmüş bir qoca kişi qapını açdı və mehribancasına məni içəri dəvət etdi. Qoca mənə torpağın üstünə döşənmiş təzə otun üzərində oturmağa yer göstərdi, dedi:

– Ey cavan oğlan, mən səni çoxdan gözləyirdim, bu axşam sənin bəlaların qurtaracaq, o daşa gedən yolu sənə göstərəcəyəm və sən qardaşlarınla görüşəcəksən.

Mən qocanın bu sözlərini eşidib təəccübləndim. O, məni haradan tanıya bilərdi? Mən bu haqda ondan xəbər aldım. Sən demə, o, adamların taleyini biləndir və bütün adamların indisi, keçmişi və gələcəyi onun üçün gün kimi aydın idi. Sonra çox keçmədən mən yatdım, amma gecəyarısı mən oyandım, qoca yatmamışdı, hansısa çox qalın bir kitab oxuyurdu. Mən kitaba baxdım, o mənə aydın olmayan cızma-qaralarla doldurulmuşdu. Qoca mənim marağımı görüb gülümsədi və dedi:

– Oğul, mən görürəm ki, sən bu kitabla çox maraqlanırsan! Bu kitabdan insanların taleyini öyrənmək olar! Əgər istəsən, mən sənə bir çox insanlar üçün anlaşılmaz olan bu cızma-qaraları yaxşı araşdırmağı, təhlil etməyi öyrədərəm.

Mən sevincək buna razı oldum və cidd-cəhdlə "talelər kitabını" öyrənməyə başladım. Çox keçmədən artıq insanların taleyini bilməyə başladım, belə ki, heç kim yer üzündə məndən gizli qala bilməzdi. Elə ki, qoca mənim onun sevimli kitabından yaxşı öyrənməyimi gördü, mənə evə getməyimi məsləhət etdi, mən də, qardaşlarım, xeyirxah qocanın sayəsində indi sizinləyəm.

Növbə kiçik qardaşa çatdı, lakin o, qardaşlarına dedi ki, elə bir şey öyrənməmişdir, buna görə də o, ortancıl qardaşa müraciət edib dedi:

– Di bir kitabına bax gör, gəlinimizin halı necədir ?

Ortancıl qardaş kitaba baxdıqdan sonra rəngi qaraldı və dedi:

– Qardaşlar, gəlinimiz ağır xəstədir. Əgər biz bu gün evdə olmasaq, onda biz onu sağ görməyəcəyik!

Böyük qardaş ucadan dedi:

– Ah, niyə mən indi evdə deyiləm, mən onu amansız ölümə verməzdim. İndi biz heç möcüzə ilə də axşama ora gedib çıxa bilmərik!

Kiçik qardaş böyük qardaşa dedi :

– Kədərlənmə, bizim hələ sənin biliklərindən əmin olmağa vaxtımız olacaq.

O, bunu deyib uçan xalçaya oturdu və qardaşlarını da oturmağa dəvət etdi. Sonra öz-özünə nəsə dedi, hansısa bir qüvvə xalçanı göyə qaldırdı və qardaşları evlərinə apardı.

Evə çatdıqda onlar gəlinin, doğrudan da, ölüm ayağında olduğunu gördülər, böyük qardaş ona müxtəlif cür dərmanlar verdi və qız o saat sapsağlam ayağa qalxdı, sanki heç xəstələnməmişdi.

Birdən həkim qapıdan xəbər aldı:

– Qapı, söylə, gəlin kimə çatmalıdır?

Həkim özü qapının yerinə cavab verdi:

– Əlbəttə, böyük qardaşa!

Həkim yenə böyük qardaşın yerinə cavab verdi:

– Yox, gəlin ortancıl qardaşa çatmalıdır!

Bu nağılı dinləyən şahzadə qız həkimin qapı ilə mübahisəsindən əsəbləşib dedi:

– Kiçik qardaşa çatmalıdır!

Sevimli qızının səsini eşidən padşah tez qızın yanına gəlib onu ağuşuna aldı. Lakin o, hələ tam sağalmamışdı.

Şahzadə dostunu gözləməkdən yorulub özü padşahın yanına getməyə qərar verdi, yolda o, dostunun lal şahzadə ilə getdiyini gördü. Şahzadə dostunun üstünə atılıb onu qucaqladı və dostu başına gələnləri ona nəql etdi. Sonra isə padşahın ona verdiyi hər şeyi bölüşməyə başladı. Şahzadə dostundan bunu etməməyi xahiş etdi. Lakin dostu öz işinə davam edərək dedi:

– Həqiqi dostlar mənim kimi hərəkət etməlidirlər.

Padşahın hədiyyələrini iki yerə bölüb lal şahzadə qıza baxıb şahzadəyə dedi:

– Onu da iki yerə bölmək lazımdır.

O belə deyib qılıncını sıyırdı. Şahzadə dostuna yalvarmağa başladı ki, şahzadə qızı öldürməsin. Lakin o, dostunu itələyib dedi:

– Mən nə etdiyimi bilirəm.

Bunu deyib qılıncı şahzadə qızın başının üstündə yellətdi, şahzadə qız qorxudan qışqırdı və onun ağzından iri bir qurbağa çıxdı. Şahzadənin dostu dedi:

– Bax, buna görə sənə qulaq asmadım. Bu qurbağa onun danışmağına mane olurdu. İndi isə o, tam sağaldı. Şahzadə, onu özünlə götür, o sənindir. Onunla evlən, öz vilayətinə get! Sənin atan çoxdandır ki, ölmüşdür, xalq səbirsizliklə sənin

qayıtmağını gözləyir. Bax, kimsə bura gəlir və diqqətlə bizə baxır! Şahzadə, o sənimi axtarır?

Şahzadə başını dostunun göstərdiyi tərəfə çevirdi və elə həmin dəqiqə bir səs eşitdi:

– Bax, balıq belə təşəkkür etməyi bacarır!

Şahzadə tez başını arxaya çevirdi, lakin onun dostu izsiz-soraqsız yox olmuşdu, onun yanında yalnız gözəl şahzadə qız, padşahın hədiyyələri dururdu.

Xalq, doğrudan da, şahzadəni səbirsizliklə gözləyirdi, o, taxta oturub gözəl şahzadə qız ilə evləndi.

O, indi də sağdır. Xalq onu sevir, o özü isə tez-tez sadiq dostunu xatırlayır.

***İvanovka birsinifli kənd məktəbinin***
***müəllimi – Nikolay Kazbek***
***İvanovka kəndi 1889-cu il.***

## OĞRULARIN OĞRUSU

Çox keçmiş vaxtlarda bir şəhərdə Məmməd adında bir qoca kişi oğlu Əhmədlə yaşayırdı. Məmməd cavan vaxtı oğurluqla soyğunçuluqla məşğul olmuşdu və bu işləri elə məharətlə görürdü ki, bir dəfə də olsun ələ keçməmişdi. İlk baxışda çox sakit olan oğlu atasına oxşamırdı. Atası oğlunun onu əvəz edəcək varis kimi görmədiyindən çox ruhdan düşürdü.

Nəhayət, atası bir gün oğlunu sınamaq qərarına gəldi, görəsən, oğlu oğurluq işinə yarıyır, ya yox. O, oğlunu yanına çağırıb dedi:

– Oğul, mənimlə meşəyə gedək! Mən sənə göstərmək istəyirəm ki, insanlar nə qədər cəld və bacarıqlı ola bilərlər.

Bundan sonra qoca oğlu ilə meşəyə getdi. Meşənin kənarında üzərində qumru quşunun oturduğu bir palıd ağacı var idi. Ata palıd ağacını oğluna göstərib dedi:

– Əhməd, ağacda oturub bizi görən, indi isə uçmağa hazırlaşan qumrunu görürsənmi? İndi mən gizlicə bu ağaca yaxınlaşacam, ağaca çıxacam və qumrunun quyruğunun bir lələyini elə ehtiyatla çıxaracam ki, o bunu heç hiss etməyəcək!

Oğlu istehza ilə cavab verdi:

– Ata, sən bunu bacarmazsan, ağac açıq yerdədir və sənin belə bir cəhdin sadəcə gülüncdür.

– Bax, elə adamların məharəti və bacarıqları da bundadır.

Qoca bunu deyib gizlicə ağaca yaxınlaşmağa başladı. O, qəribə bir ehtiyatla ağaca çıxdı, qumrunun quyruğundan lələyi çəkib çıxartdı və qumrunu heç narahat etmədən oğlunun yanına qayıtdı.

Qoca əlində qumrunun lələyi oğluna yaxınlaşıb xəbər aldı:

– Hə, Əhməd, gördünmü mənim cəhdim gülünc yox, təəccüb doğurandır.

Oğlu cavab verdi:

– Elədir, ata, sən çox ehtiyatlı və məharətlisən, lakin sənin şalvarın haradadır?

Atası təəccüblə əvvəlcə özünə, sonra oğluna baxdı. Əhməd isə özünü saxlaya bilmədi, gülərək dedi:

– Eh, ata, sən qocalıb əldən düşmüsən, sən qəribə bir ehtiyatla yazıq qumruya gizlicə yaxınlaşanda mən sənin şalvarını çıxartdım!

Atası işin nə yerdə olduğunu bilib, oğlunun bu hərəkətinə hirslənmədi, əksinə sidqi-ürəkdən sevinərək oğlunu öpdü. Atası dedi:

– Oğul, mən böyük Allaha təşəkkür edirəm ki, sənin kimi bir oğlanı mənə bəxş edərək qocalığımda məni rahat edib.

Atası bunu deyib Əhmədin əlindən tutub ondan tam razı halda şəhərə yollandı.

Şəhərdə bütün əhalini qorxuya salan yeni oğrunun peyda olmasından bir neçə il keçdi. Naməlum oğrudan şikayətçilər hər gün padşahın hüzuruna gəlirdilər. Padşah şəhərin hər künc-

bucağında qarovul yerləşdirir ki, bu oğrunu ölü və ya diri tutub, padşahın hüzuruna təslim etsinlər. Oğrunun başı üçün böyük pullar təyin edilsə də, onu tutub gətirə bilən bir nəfər də olmadı.

Bir dəfə padşah otağında var-gəl edərkən ona qızıl nimçədə qonşu vilayətin padşahından bir məktub gətirdilər. Qonşu padşah məktubunda onu kinayə ilə lağa qoyurdu ki, vilayətini çalıb-talayan bir oğrunun əlində avara qalıb, bu vaxtadək onu tuta bilməyib.

Bu məktub ona rahatlıq vermədi və ciddi-cəhdlə oğrunu axtarmağa başladı, oğru isə onu lağa qoyurmuş kimi padşahın otağından xalça və başqa şeyləri də oğurlamağa başladı və padşahın xəzinəsinə də əl uzatdı. Onda artıq qonşu dövlətlərin padşahları da məktublarında ona istehza etməyə başladılar.

Nəhayət, səbri tükənən padşah bir fərman verib, oğrunun öz hüzuruna gəlməyini tələb edir və oğurluqdan əl çəkməsi şərti ilə kim olmağından asılı olmayaraq qızını ona verəcəyini və şahlığının yarısını ona bağışlayacağını vəd edir.

Elə həmin gün padşah fikir içində otağında var-gəl edəndə birdən Əhməd onun çarpayısınn altından çıxdı. Padşah qorxdu və qışqırmaq istədi, lakin Əhməd onu sakitləşdirdi.

– Qibleyi-aləm, qorxma! Mən sənə heç nə etməyəcəm, mən bura sənin əmrivə görə gəlmişəm. Mən sənin çoxdan axtardığın oğruyam, sənin şərtlərinə razıyam.

Padşah Əhmədin üzə çıxmasına çox sevindi və bir neçə gündən sonra vədini yerinə yetirdi, qızını ona verdi və şahlığının yarısını da ona bağışladı.

Həftələr keçdi və padşah Əhmədi yanına çağırıb ondan bir kürəkən, bir oğul kimi xahiş etdi ki, birinci onu lağa qoyan qonşu dövlətin padşahından onun intiqamını alsın. Əhməd razı oldu.

Əhməd bir neçə gündən sonra qonşu dövlətə yola düşdü. Əhməd həmən dövlətin paytaxtına gəlib bir kasıb qarının evində qaldı. Gecə düşəndə tərsinə çevrilmiş bir kürk geyindi, başına isə

şax-şax, zınqırovlu qalpak qoydu, arxadan özünə qanadlar düzəltdi və böyük bir sandıq götürüb padşahın sarayına yola düşdü.

Artıq gec idi, padşahla çariçə çoxdan rahat, dinc yuxu içində yatırdılar. Əhməd gizlicə saraya girdi, sonra isə xəlvətcə padşahın yataq otağına girdi. Çarpayıya yaxınlaşıb başını bərkdən yellədi, otaqda şax-şax və zınqırovların səsi eşidildi. Padşah və çariçə yuxudan oyandılar və dəhşət içində Əhmədin qəribə və anlaşılmaz görünüşünü gördülər. Əhməd uca səslə dedi:

– Qibleyi-aləm, bu dünyada ömrünün sonu gəlmişdir. Böyük Allah yer üzündəki əməli saleh həyatına görə səni mükafatlandırmaq istəyir, ona görə də məni göndərdi ki, səni çariçə ilə göyə aparım. Durun və ikiniz də sandığın içində uzanın, bu sandığın içində sizi böyük Allahın hüzuruna aparacam!

Padşahla çariçə bu saxta carçının qarşısında diz çökdülər və Allahın böyüklüyünü tərifləyərək sandığa yerləşdilər. Əhməd sandığı tez örtdü, onu çiyninə alıb gizlicə padşahın sarayından çıxdı.

İki gündən sonra Əhməd sandığı qayınatasına gətirib onun qarşısında yerə qoydu və dedi:

– Qibleyi-aləm, bax budur, qonşun arvadı ilə səndən üzr istəmək üçün sənin yanına gəlmişlər!

O, bunu deyib sandığı açdı, padşah qonşu padşahla çariçənin ən yazıq vəziyyətdə sandıqda oturduqlarını gördü, onlar dəhşət içərisində ətrafa göz gəzdirdilər və nəhayət, yalvarışlı baxışlarla padşaha baxdılar. Padşahın onlara yazığı gəldi və bir də belə iş gördükləri halda cəzalandıracağı ilə hədələdi və onları padşahlara layiq bir şəkildə şərəflə öz evlərinə yola saldı.

***İvanovka birsinifli kənd məktəbinin***
***müəllimi – Nikolay Kazbek.***
***İvanovka kəndi 1889-cu il***

## ŞAHZADƏNİN SƏYAHƏTİ

Biri var idi, biri yox idi, bir vilayətdə bir padşah var idi. Bu padşahın uzun illər uşağı yox idi. Axır padşaha Allah-təalanın yazığı gəldi və ona bir oğlan uşağı bəxş etdi. Uşağın adını İsmayıl qoydular.

Şahzadə günlərlə deyil, saatlarla böyüdü. Şahın sevincinin həddi-hüdudu yox idi, o, oğlundan heç bir şey əsirgəmirdi.

Bir gün İsmayıl atasının yanına gəlib ondan cürbəcür silahların və otaqların açarlarını istədi. Şah oğlunun ürəyini sındırmayıb açarları ona verəndə dönə-dönə tapşırdı ki, nəbadə axırıncı otağa girsin. İsmayıl otaqları bir-bir açıb içindəki var-dövlətə, silah-sürsata baxmağa başladı. Nəhayət, axırıncı otağa çatdı, otağın qapısında durdu, öz-özünə fikirləşməyə başladı ki, görəsən, atası niyə bu otağa girməyi ona qadağa edib? Nəhayət, maraq hər şeyə üstün gəldi və otağın qapısını açmaq qərarına gəldi. O, otağı açıb içəri girdi, otağa baxar-baxmaz qışqırıb huşsuz halda yerə yıxıldı, divarda qəribə gözəl bir qızın şəkli asılmışdı, şahzadə onun gözəlliyinə valeh oldu.

Şah oğlunu çox gözlədi, nəhayət, dözməyib nəsə bir bədbəxtliyin baş verdiyini hiss edirmiş kimi özü şahzadəni axtarmağa getdi. Oğlunu yerə sərilmiş görmək ona böyük dərd oldu.

Şahzadə uzun müddət ölümlə həyat arasında xəstə yatdı, lakin ağır xəstəliyi keçirib yataqdan qalxdı. Hələ o, tam sağalmamışdı, solğun və arıq idi. Atası isə oğlunun xəstəliyinin səbəbini bildiyindən ümid edirdi ki, o, çox keçməz gördüyünü unudar və təhlükə sovuşub gedər. Lakin İsmayıl onun qəlbini əsir etmiş gözəl qızı unutmaq barədə heç düşünmürdü də. Bir dəfə o, atasının yanına gəlib, gecə-gündüz ona rahatlıq verməyən gözəli axtarmaq üçün ona icazə verməyi xahiş etdi. Atası onu inandırdı ki, belə bir təhlükəli işə girişməsin, belə ki gözəl qız qüdrətli bir sultanın qızı idi. Qızın atası bu işdən xəbər tutsa, onu öldür-

məyi əmr edər, sonra isə onların şahlığını yerlə yeksan edərdi. Lakin oğlu elə nırx deyib durmuşdu. Onda şah ona yaxşı silahlanmış dəstə verdi və xeyir-dua ilə onu uzaq səyahətə yola saldı.

İsmayıl öz dəstəsi ilə çox getdi və axırda bir dənizə yaxınlaşdı, burada onları iki böyük gəmi gözləyirdi. Şahzadə və dəstəsi gəmilərə minib yola düşdülər. Dənizlə çox üzdülər. Əvvəl dəniz çox sakit idi, lakin bir gün o, çox bərk dalğalandı və gəmilərin hər birini talasa kimi o tərəfə, bu tərəfə atmağa başladı. Gəmidə onların hamısını dəhşət bürüdü, lakin İsmayıl qorxmurdu və gəmini idarə edirdi. Axşama yaxın göy qara buludlarla örtüldü və dənizə qorxunc qaranlıq çökdü. Gəmidə oturanlar özlərini Allahın iradəsinə və dənizə təslim etdilər, qoy dəniz onları istədiyi yerə aparsın. Birdən qorxunc bir şaqqıltı səsi eşidildi və hər iki gəmi sualtı qayaya toxunub parça-parça oldu. Son dəqiqədə cəsarətini itirməyən İsmayıl gəmi parçalarından birindən tutdu. Allahın mərhəmət və böyüklüyünə təvəkkül edərək möcüzəvi xilas olmaqdan ümidini kəsmirdi. Dalğalar özü ilə onu çox apardı və nəhayət, huşsuz halda onu bir qumlu sahilə atdı.

İsmayıl özünə gəlib dənizin sahili ilə yoluna davam etdi və çox keçmədən uzaqda bir şəhər gördü. Şəhərdə İsmayılı təəccübləndirən bir şey var idi ki, o da bütün evlərin boş olması, heç yerdə bir canlı məxluq, ins-cinsin olmaması idi. O, şəhərdə çox gəzib dolaşdı və nəhayət, evlərdən birinin qapısında təəccüblə ona baxan cavan bir qız gördü. Şahzadə ona tərəf yönəldi və ondan öyrəndi ki, bu şəhər onun bütün əhalisini qırıb çatmış qorxunc bir divindir və həmən div onu ata-anasının əlindən almışdır, onun ata-anası isə buradan otuz günlük bir yoldakı vilayətdə şahlıq edir. Onlar onun harada olduğunu bilmirlər. Qız şahzadəyə məsləhət gördü ki, əgər öz canına yazığı gəlirsə, buradan baş götürüb qaçsın. Lakin İsmayıl onu sakitləşdirdi və ona vəd etdi ki, əgər onu hər hansı bir yerdə gizlətsə, o, divi öl-

dürər və qızı ata-anasına çatdırar. Onda şahzadə qız onu evindəki otaqlardan birində gizlətdi və div yuxuya gedəndə ona xəbər verəcəyinə söz verdi. O, sözünü yenicə qurtarmışdı ki, həyətdə bir səs-küy qopdu ki, sən demə, div ovdan qayıdırmış. Şahzadə qız tez onu qarşılamağa qaçdı.

Uzun çəkmiş ovdan gələn div uzandı, çox keçmədən ölü kimi yuxuya getdi. Şahzadə qız tez İsmayılı bundan xəbərdar etdi. İsmayıl bunu bilib, tez divin üzərinə atıldı, bir zərbə ilə başını bədənindən ayırdı. Şahzadə və onun xilas etdiyi şahzadə qız gözəl ərəb atlarına minib ata-anasının şəhərinə çatdılar. Atası, anası qızlarını görüb çox sevindilər, axı onlar onu artıq ölmüş bilirdilər.

Qızın atası İsmayıldan onun səfərinin məqsədini biləndə onu inandırmağa başladı ki, özünü təhlükəyə atmasın və sonra dedi ki, o sultanın şahlığı böyük təşviş içindədi, belə ki, onun vilayətində qorxunc bir div peyda olub. Bu div oradakı gözəl qızları məhv edib, bu səbəbdən də şəhərin qapıları bağlanıb və ora heç kimi buraxmırlar. Şahzadə bu xəbərdən qorxmadı, əksinə çox sevindi və dərhal əzəmətli sultanın şahlığına yola düşdü.

Şahzadə az getdi, üz getdi, axırda gəlib sultanın öz gözəl qızı ilə yaşadığı şəhərə çatdı. Lakin İsmayıl heç cürə şəhərə girə bilmədi, çünki şəhər qapıları divin qorxusundan, doğrudan da, möhkəm bağlı idi. Şahzadə şəhərin ətrafında dövrə vurub içəri girmək üçün yer axtararkən birdən qorxunc div onun üstünə hücum etdi, onların arasında ölüm-qalım döyüşü başladı. Şəhər divarlarının üstündə sultan və çoxlu adamlar göründü, hamı döyüşün nə ilə qutaracağını gözləyirdi. Birdən şahzadə bir nərə çəkdi, onun qılıncı yuxarı qalxdı və divin eybəcər başı yerlə diyirləndi.

Sultan və xalq sevinc içində şahzadəni salamladılar, şəhər qapıları açıldı, şahın adamları şahzadəni sultanın hüzuruna dəvət etdilər. Soltan şahzadə ilə mehribancasına görüşdü və

şəhəri qorxunc divdən xilas etdiyinə görə təşəkkür etdi. Sultan ondan kim olduğunu, haradan və nə məqsədlə gəldiyini, səfər yolunda hansı çətinliklə qarşılaşdığını bildikdən sonra qızını ona verməyə razı oldu. Bir həftədən sonra toy elədilər, sultan İsmayıl qızına bahalı hədiyyələr verib, xeyir-dua ilə onu ata-anasının yanına yola saldı.

Onlar geri qayıdanda bir həftə şahın yanında qonaq qaldılar, o şahın ki, İsmayıl onun qızını divdən xilas etmişdi, sonra isə yollarına davam edib ata-anasının yanına gəldilər. Ata-ana böyük sevinc içində İsmayılı və qızı qarşıladılar. Beləliklə, şahzadənin səfəri sona çatdı.

***İvanovka birsinifli kənd məktəbinin***
***müəllimi – Nikolay Kazbek***
***İvanovka kəndi 1883-cü il***

## CEYRANƏ

Biri var idi, biri yox idi, bir şəhərdə iki qardaş yaşayırdı. Böyük qardaşın Aslan adında qoçaq bir oğlu, kiçik qardaşın isə Ceyranə adında gözəl bir qızı var idi. İki gənc bir-birini sevdi, ata-anaları da razılıq verib onları nişanladılar.

Bir dəfə padşahın oğlu qardaşların yaşadıqları küçədən keçəndə Ceyranəni gördü və ona vuruldu. Çox keçmədən onun evinə öz nökərlərini göndərdi və gənc qızı oğurladılar.

Ceyranə belə bir hiylə işlətməyi qərara aldı. O, şahzadədən xahiş etdi ki, hələ onunla evlənməsin və ona otuz gün möhlət versin ki, o, adaxlısını unutsun. Şahzadə gözləməyə söz verdi. Bu vaxt isə Ceyranə gizlincə harada olduğunu və başına nə gəldiyini Aslana bildirdi və onu qurtarmağı xahiş etdi.

Aslan bir dəqiqə belə gecikmədən öz yoldaşlarını yığdı,

gizlicə padşahın sarayına girib, nişanlısını qaçırtdı və yoldaşları ilə birlikdə onları gözləyən gəminin olduğu dənizə tərəf yola düşdülər. Onlar sağ-salamat gəmiyə çatdılar. Aslanla Ceyranə gəmidə olanda Aslan gördü ki, onların bəzi əşyaları sahildə qalıb. O, gəmidən atılıb əşyaları götürməyə getdi. Gəminin sahibi gənc qızın gözəlliyini görüb Aslanın getməsindən istifadə etmək qərarına gəldi. O, dənizçilərə yola düşməyi əmr etdi, Aslan isə ümidsiz halda əşyalarla sahildə qaldı.

Gəmi dənizdə xeyli üzüb, nəhayət, bir sahilə yan aldı. Gəminin sahibi Ceyranə ilə sahilə düşmək istədi, lakin qız xahiş etdi ki, onu rüsvay etməsin, gənc qızın naməhrəm kişi ilə getməsi ayıbdır, xahiş etdi ki, onun yanına arvad göndərsin. Gəminin sahibi razı oldu. O getdikdən sonra Ceyranə əvvəlcədən ələ aldığı dənizçilərə əmr etdi ki, mümkün olduğu qədər tez geriyə üzsünlər. Gəminin sahibi arvadıyla Ceyranənin dalınca gəldikdə gəmi artıq çox uzaqda idi.

Ceyranə dənizdə qaçırılmış gəmi ilə çox üzdü, lakin qaranlıq gecədə sualtı qayaya toxundu və bir gəmi parça-parça oldu. Ceyranədən başqa gəmidə kim vari disə, həlak oldular. Dəniz dalğaları Ceyranəni gözəl bir adanın sahilinə atdı. Bu ada isə qırx həramiyə məxsus idi, onlar Ceyranəni halsız-huşsuz halda dənizin sahilində tapdılar. O, özünə gələndə gördü ki, çox bərli-bəzəkli bir otaqdadır. Ətrafında isə hələ tanımadığı adamlar oturublar, onlar öz aralarında onun üstündə mübahisə edirdilər ki, qız kimə çatmalıdır. Onda Ceyranə başa düşdü ki, onlar həramilərdir. Nəhayət, həramibaşı dedi ki, qız heç kimin olmayacaq, burada qalıb onlara yemək-içmək hazırlayacaq.

Yazıq Ceyranə həramilərin yanında çox qalıb onların qulluğunda oldu. Bir dəfə o, həramilərə bihuşdarı verib, onları yatırdı. Həramilərin başçısından savayı hamının başını kəsib kişi libası geyindi, bir qayığa minib dənizə çıxdı. Dəniz dalğaları qayığı talaşa kimi ora-bura tullayırdı, Ceyranə isə ümidini

kəsmirdi, Allahın mərhəmətinə sığınırdı. Bir xeyli vaxtdan sonra dalğalar, nəhayət, onu bir vilayətin sahilinə çıxartdı.

Ceyranə özünə gəldikdə sahillə getdi və çox keçmədən bir şəhər gördü və ona tərəf yollandı. Gəlib şəhərə çatdı. Şəhər meydanında çoxlu adamın toplandığını gördü. Camaatdan öyrəndi ki, vilayətin padşahı ölüb, camaat indi özünə yeni padşah seçir. O vaxtlar padşahı dövlət quşunu uçurub seçirdilər. Quş kimin başına qondusa, o adam padşah olurdu.

Ceyranə da kişi libasında olduğundan camaata qarışıb gözləməyə başladı ki, kim padşah seçiləcək.

Bu arada dövlət quşunu uçurdular. Quş havaya qalxdı, dövrə vurub Ceyranənin başına qondu. Lakin onun padşah seçilməyinə razı olmadılar, çünki o, gəlmə idi və Ceyranəni aparıb zindana saldılar. Sonra dövlət quşunu bir də buraxdılar, quş zindana tərəf uçub, Ceyranənin olduğu otağın damına qondu. Camaat Ceyranəni daha da gizlətdi, onu aparıb şəhərdən çıxartdılar. Dövlət quşu üçüncü dəfə havaya qalxdı, şəhərdən uçub gəlib Ceyranəni tapdı. Bu vaxt dünyagörmüş bir nəfər dedi:

– Ay camaat, əgər siz öz adət-ənənələrinizə hörmət edirsinizsə və ata-babalarınız kimi hərəkət etmək istəyirsinizsə, dövlət quşunun padşah seçdiyi adama qarşı etdiyiniz hərəkət ədalətsiz hərəkət hesab olunur. Əgər siz dünyanın ən ağıllı quşuna bir əhəmiyyət vermirsinizsə, onda onu sakit buraxmaq və özümüzün içindən ən yaxşısını seçmək daha yaxşı deyilmi?

Camaat bu sözlərin haqlı olduğunu etiraf edib qədim adəti dəyişmək istəməyib Ceyranəni taxta çıxartdı.

Ceyranə müdrikcəsinə və sağ-salamat şahlığı idarə edirdi. Lakin padşah olduqda Ceyranə bir dəqiqəliyinə də olsa adaxlısı Aslanı unutmurdu və öz şəklini şəhər divarlarına vurmağı əmr etmişdi. Şəkillərin yanına da adamlar qoydular. Onlara da tapşırdılar ki, şəkillə çox maraqlanan hər bir kəsi padşahın yanına gətirsinlər.

Bu işin üstündən bir neçə ay keçdi və padşahın yanına onu nə vaxtsa ata evindən qaçırdan şahzadəni gətirdilər və o, layiq olduğu cəzanı aldı. Sonra onun yanına gəmisini qaçırtdığı gəmi sahibini gətirdilər və o, əvvəlki gəmisindən də yaxşı gəmi aldı. Sonra həramibaşını gətirdilər, padşah onu öz yanında qulluğa götürdü, nəhayət, onun yanına adaxlısı Aslan gəldi, amma o, padşah libasında olan nişanlısını tanımadı. Lakin Ceyranə o saat onu tanıdı, özünü onun qucağına atdı. Burada onlar toy edib xoşbəxtliklə vilayəti sağ-salamat birlikdə idarə etməyə başladılar.

***İvanovka birsinifli kənd məktəbinin***
***müəllimi Nikolay Kazbek***
***İvanovka kəndi 1889-cu il***

## GÜL VƏ SİNEYVİZ

Biri var idi, biri yox idi, bir əzəmətli sultanın üç oğlu var idi. Onlar böyüyüb həddi-buluğ yaşına çatanda atalarının yanına gəlib xahiş etdilər ki, onları evləndirsin. Sultan onlardan hər birinə bir alma verib dedi:

– Əziz oğullarım, mən sizə öz istəyimə görə gəlin seçə bilmərəm, qoy sizin taleyiniz özü sizə onları seçsin. Gözətçi bürcünə qalxın və oradan almaları bacardıqca uzağa atın, sonra onları axtarmağa gedin. Onların düşdüyü yerdə özünüzə nişanlı qız axtarın. Yaxşı nişanlı qız tapsanız, taleyə şükür edin, pisini tapsanız, onu lənətləyin.

Sultanın oğulları elə də etdilər. Böyük oğlanın alması gözəl qızı olan böyük vəzirin həyətinə düşdü. Böyük oğlan çox keçmədən onunla evləndi. Ortancıl oğulun alması vəkilin evinə düşdü, o da vəkilin qızı ilə evləndi. Kiçik oğulun alması isə də-

nizə düşdü. Kiçik oğul Əli isə səhərdən axşamacan taleyin ona müəyyən etdiyinin gözləntisində dənizin sahilində otururdu.

Bir gün gözəl aylı gecə idi və Əli adəti üzrə dəniz sahilində oturmuşdu, birdən dənizdən son dərəcə iyrənc bir qurbağa sıçrayıb çıxdı və şahzadənin dizinə hoppandı, lakin şahzadə nifrətlə onu yenidən suya atdı. Bu vaxt birdən dənizdən gözəl gənc qız çıxdı, şahzadənin qarşısında durdu və dedi:

– Şahzadə, sənə təşəkkür edirəm ki, məni cadulardan qurtardın. Mən dənizlər padşahının qızıyam, adım da Mələkdir. Bir zalım sehrbaz qadın gözəlliyimə həsəd aparmış və məni qurbağaya çevirmişdir. Əgər sən olmasaydın, mən həmişəlik iyrənc qurbağa olaraq qalacaqdım. Mən səni ilk baxışdan sevdim və sənin arvadın olacağam. Yalnız icazə ver, gedim atamı sevindirim!

Gözəl qız bunu deyib dənizə atıldı. Dəniz çox güclü dalğalandı, qumlu sahilə tələm-tələsik qaçışan minlərlə dəniz cinləri çıxdı. Bir anda boş dəniz sahilində hansısa möcüzə ilə möhtəşəm bina peyda oldu, onun damında günəşə bənzər qəribə parlaq ulduz binaya işıq saçırdı.

Bu sehrkar mənzərədən təəccüb içində qalan Əli Mələyin dənizdən yenidən necə çıxdığını görmədi. Mələk yaxınlaşıb onun ağuşuna atıldı. Onlar saraya tərəf getdilər, nökərlər, qulluqçular isə onların saraya gedən yollarına gözəl güllər səpdilər, sehrli musiqi çalındı, silahlı dəstələr sarayda onları qarşıladı.

Mələk adaxlısının əlindən tutub onu böyük, zəngin bəzədilmiş bir otağa apardı, burada böyük masaların üstündə hər cür nemət, yemək-içmək vardı. Masanın yanında əllərində yelpik xidmətçilər durmuşdu. Şahzadə öz nişanlısının arxasınca gedirdi. Onlar masanın arxasında əyləşdikdə bir ecazkar musiqi çalındı, rəqqasələr gəldilər və rəqsə başladılar. Əli öz toyunu belə qeyd etdi.

Bunlar burada qalmaqda olsunlar, Əlinin atası Sultan bir

gün səhər yuxudan oyanıb pəncərədən baxanda gördü ki, dəniz sahilində gözəl bir saray var. Ona elə gəldi ki, yuxu görür, lakin baxıb gördü ki, bu, yuxu deyil. Onda Sultan bu qəribə sarayın kimə məxsus olduğunu öyrənməyi əmr etdi.

Bir müddət sonra Sultanın adamları geri qayıtdılar və dedilər:

– Qibleyi-aləm, saray sizin kiçik oğlunuz Əliyə məxsusdur. O sizə təzim etməyimizi əmr etdi. Biz onu bir gözəl qızla gördük, o, dənizin sahilində gəzirdi.

Sultan baş verəndən təəccüblənmişdi, o, bir gecəyə belə möhtəşəm sarayın necə tikildiyini başa düşə bilmirdi.

Ertəsi gün Sultan oğlu ilə arvadını qonaq dəvət etdi. O, Mələyi görəndə onun gözəlliyinə valeh oldu və huşunu itirib yerə yıxıldı. Sultanın yaxınları onu özünə gətirməyə başladılar, Əli isə arvadı ilə öz evlərinə saraya qayıtdı. Mələk ərinə dedi:

– Əzizim Əli, atan məni elə sevib ki, bizi bir-birimizdən ayırmaq üçün hər cür tədbir görəcək. Çarəsiz qaldıqda, hətta səni öldürmək qərarına gələcək.

Belə də oldu. Sultan xeyli xəstə yatdı, yataqdan qalxanda baş vəziri yanına çağırıb dedi:

– Gəlinim gözəlliyi ilə məni valeh etdi. Mən çox əzab çəkirəm, əgər mən onu ələ keçirməsəm, hökmən öləcəyəm. Mənim sədaqətli qulluqçum, mən nə etməliyəm?

Baş vəzir gənc şahzadənin xoşbəxtliyinə paxıllıq edirdi, o, həsəddən ona zərər yetirməyə şad olardı və odur ki, Əlini məhv etmək üçün vasitələr axtarmağa başladı.

Ertəsi gün o, sultanın yanına gəlib dedi:

– Qibleyi-aləm, özünü xəstəliyə vur və oğlun Əliyə əmr et ki, o, üç günün içində dəniz padşahının madyanının südünü sənə gətirsin. O, əlbəttə, bunu edə bilməyəcək və qibleyi-aləm, sənin sağalmağını istəməyərək əmrini yerinə yetirmədiyi üçün əmr edərsən ki, onu edam etsinlər.

Sultan öz sədaqətli, ağıllı məsləhətinə görə vəziri təriflədi və əmr etdi ki, oğlunu hüzuruna çağırsınlar.

Əli gəldi və atası dedi:

– Oğul, mən çox xəstəyəm, mənə yalnız dənizlər padşahının madyanının südü kömək edə bilər. Onu mənə gətir! Əgər üç gündən sonra bu südü mənə gətirməsən, əmr edəcəyəm səni edam etsinlər.

Əli çox həyəcanlı halda evinə qayıtdı. Mələk ondan nə olduğunu xəbər aldı, Əli hər şeyi ona nəql etdi. Onda arvadı ona dedi:

– Ərim mənim, düzələn işdir, südü əldə etmək olar, belə ki, madyan atamındır. Lakin mənim etdiyim hər şeyi gizli saxlamaq lazımdır. Heç kimə mənim kim olduğumu söyləmə, yoxsa sən məni heç vaxt görməyəcəksən.

Burada o, atasına məktub yazıb öz madyanını ona göndərməyi xahiş etdi, sonra məktubu ərinə verdi ki, onu dənizə atsın.

Ertəsi gün şahzadə həyətdə gözəl bir dəniz madyanını dayçası ilə gördü və onları tez atasının yanına apardı. Sultan və yaxınları şahzadənin bu madyanı tapıb gətirməsinə çox təəccüb etdilər. şahzadəni məhv etmək üçün başqa bir vasitə fikirləşib tapmaq lazım idi. Sultanın yaxınlarından biri ona məsləhət gördü ki, Şahzadəni dənizin dibindən əlvan daşı axtarıb gətirməyə göndərsin.

Lakin Əli arvadının köməyi ilə daşı da tapıb gətirdi.

Sultan əlvan daşı əldə etdikdən sonra oğlunu məhv etmək üçün daha nə etməli olduğunu bilmirdi. Bir şey qalmışdı, o da Əlinin bildiyi sirri öyrənmək. Ona görə atası Əlini axşam yeməyinə qonaq çağırdı. Əli atasının yanına getməyə hazırlaşanda arvadı ona dedi:

– Əli, bax içki içmə və sultana mənim haqqımda bir söz demə, əgər desən, bir də məni görməyəcəksən.

O, söz verdi. Əli atasının yanına getdi və onun tərəfindən çox mehribancasına qarşılandı. Lakin o, axşam yeməyi vaxtı

arvadının xəbərdarlığına baxmayaraq çox içdi və arvadı haqqında nə bildisə, sultana danışdı.

Mələk ərinin sözünə sahib çıxmadığını hiss edib göyərçinə çevrildi və şahın sarayına uçdu, o, burada mərmər pilləkanın üstündə Əlinin anası çariçəni gördü. Onun yanına uçub sultanın oğlunu necə öldürmək və özünə də necə sahib olmaq istədiyini danışdı. Sonra Mələk çariçadan xahiş etdi ki, Əlini onu axtarmaqdan vaz keçməyə inandırsın, çünki onun bu axtarışları əbəs olacaq.

Çariça böyük hiddət içində sultanın yeyib-içdiyi otağa qaçıb gəldi, hönkürə-hönkürə onu qəddarlıqda qınadı və burada Mələkdən eşitdiyinin hamısını danışdı. Sultanın azğınlığına və oğlunu məhv olmasına görə özünü lənətlədi.

Əli dəli kimi həyətə qaçıb gəldi, atının belinə sıçradı və baş götürüb getdi.

Azmı getdi, çoxmu getdi, Allah bilir necə getdi, nəhayət, öz aralarında nəyisə bölən üç divə rast gəldi. Divlər onlara yaxınlaşan adamı görüb dayandılar və onlardan biri dedi:

– Dostlar, budur, bizim aramızda şeyləri ağılla böləcək insan[1] gəlir.

Əli onlara yaxınlaşdı və yerdə uçan xalçanı, Süleyman Peyğəmbər süfrəsini və sehrli papağı gördü. Divlər Əlidən bu şeyləri onların arasında bölməyi xahiş etdilər. Əli razı oldu. O, hər üçünün xüsusiyyətini öyrənib, müxtəlif tərəflərə üç ox atdı və divlər onları tapıb gətirməyə gedəndə o, Süleyman peyğəmbərin süfrəsini və sehrli papağı götürdü, uçan xalçaya oturdu və ona əmr etdi ki, onu dənizlər padşahının sarayına aparsın.

Xalça dənizin dərinliyinə cumdu və şahzadəni dənizlər padşahının sarayına gətirib çıxardı. Əli sehrli papağı başına qoydu və heç kim tərəfindən görünmədən gəzməyə başladı.

---

[1] "insan" sözü Allahın məxluqunun – insanın div və müxtəlif ruhlardan fərqləndirməyə xidmət edirdi – Toplayıcı

Nəhayət, o, bir otağa girdi, burada isə Mələk oturub acı-acı ağlayırdı. Əli uca səslə dedi:

– Ay gözəl qız, nə üçün ağlayırsan? Mənə de, mən sənə sakitləşməyə kömək edərəm.

Şahzadə qız təəccüblə ətrafına göz gəzdirməyə başladı, lakin heç kimi görməyib durmadan ağlamağa davam edirdi. Əli üç dəfə eyni sözləri təkrar etməyə başladı və yalnız onda Mələk dedi:

– Sən kimsən, ey gözəgörünməz? Mən səni tanımıram, əgər sənin mənə yazığın gəlirsə və sən mənə kömək etmək istəyirsənsə, onda izn ver, göz yaşlarımın səbəbini sənə söyləyim. Mən əzəmətli bir sultanın oğlu Əliyə ərə getmişdim. Mən onun atasının çox xoşuna gəldim və mənə sahib olmaq üçün o, oğlunu məhv etməyi düşünürdü. Mənim bədbəxt ərim sərxoş halda mənim hekayətimi öz atasına nəql etdi, halbuki bunu etməməli idi. Burada artıq mən onu tərk etməli və bura qayıtmalı idim. Mən ərimi əvvəlki kimi sevirəm, öz dərdimi boğa bilmədiyimdən ağlayıram. Onu da bilirəm ki, Əli heç vaxt bizim saraya gizlicə girə bilməz, atam onun dənizdə olduğunu bildiyində dəhşətli fırtına qaldırar və mənim yazıq ərim məhv olar.

Əli sehrli papağı başından götürərək dedi:

– Əzizim, səhv edirsən.

Mələk şahzadənin üstünə atıldı. Əli isə ona saraya necə keçdiyini nəql etdi. Mələk onun sözünü kəsib dedi:

– Əzizim Əli, əgər sən atama Gül və Sineyvizin hekayətini nəql etməsən, sənin yanına qayıtmağıma razı olmaz. Səni xəbərdar edirəm, atam yırtıcı heyvanlardan da amansızdır. O, hər adama öz hekayətini danışır, axırda isə həmin adamı yeyir. Atam bu hekayəti bilir, buna baxmayaraq səni adamyeyənin yanına göndərəcək. Kim qorxunc Sineyvizdən sağ-salamat ayrılıb gedərsə, atam məni ona ərə verəcək. Buna görə mən sənə məsləhət görürəm ki, evə qayıdasan, onda mən sakit olaram.

Əli dedi:

– Yox, mən sənsiz yaşaya bilmərəm, sənə sahib olmaq üçün mən qorxunc Sineyviz kimi yüzlərlə adamyeyənlə yarışmağa hazıram. Mən onun hekayətini öyrənəcəyəm.

Dəniz padşahı, doğrudan da, Əlini Gül və Sineyviz hekayətini öyrənməyə göndərdi. Əli öz xalçasında bir neçə dəqiqəyə adamyeyənin insan kəllələrindən qalanmış bütöv dağlar olan həyətində oldu. O, tez qapını döydü və olduqca mehribancasına Sineyviz tərəfindən qarşılandı. Sineyviz Əlidən hətta gəlişinin səbəbini də xəbər almadı. O, Əliyə dedi:

– Cavan oğlan, mən bilirəm, səni yanıma hekayətimi öyrənmək üçün dənizlər padşahı göndərmişdir. Yaxşı, mən sənə onu nəql edərəm. Lakin mən səni xəbərdar edirəm ki, hekayəti danışıb qurtarandan sonra səni yeyəcəyəm. İnsan kəllələrindən qalanmış bu dağa bax, onların hamısı Mələyi istəyənlərə məxsusdur, çoxusu hər şeyi bilmək həvəslərinin qurbanları olan şahzadələrdir. İndi mənə de, keçmiş həyatımı sənə nəql etməyimi istəyirsənmi? Bir şeyi bil, hekayətimi danışıb qurtardıqdan sonra bu kəllələrə biri də əlavə ediləcək.

Əli ona dedi:

– Sineyviz, mən sənin keçmişinlə elə maraqlıyam ki, onu öyrənmək üçün on başım da olsa, onları qurban vermək lazım olsaydı, belə heç düşünməzdim.

Sineyviz Əlini bir itin zəncirlə divara bağlanmış olduğu o biri otağa apardı. Adamyeyən Əliyə dedi:

– Bu it mənim həyatımda baş rol oynamışdır, o, xəyanət etdiyinə görə divara zəncirlə bağladığım keçmiş arvadım Güldür.

Bu sözlərdən sonra adamyeyən öz hekayətinə başladı:

– Bir vaxtlar mən çox xoşbəxt adam idim, gözəl arvadım və böyük var-dövlətim var idi. Lakin günlərin birində şəhərimizin ətraflarında quldurlar dəstəsi peyda oldu, onların başçısı da arvadımı yolundan çıxartdı. Mən bunu artıq gec hiss etdim,

lakin hiss etməsəydim, mənim üçün yaxşı olardı. Bir dəfə arvadımı at belində gördüm, o, kişi libası geyinmişdi və meşəyə tərəf yollanırdı. Mən uzaqdan onu izlədim və meşədə arvadımın xəyanətindən əmin oldum. Arvadım gecə evə qayıdanda gözlərimdən mənim onun sirrini bildiyimi sezdi, bu vaxt məni öz qamçısı ilə vurdu və məni eşşəyə çevirdi, sonra isə məni tuluqçuya satdı. O, məni, doğrudan da, eşşək sanaraq yeddi il mənə su daşıtdırdı. Mən hər şeyi başa düşür və hiss edir, lakin danışa bilmirdim. Bir dəfə mən su daşıyanda sehrbaz əmimoğluna rast gəldim. Əmimoğlu məni gözlərimdən tanıdı, boynuma bir dərman sürtüb məni yenidən əvvəlki Sineyvizə çevirdi və elə oradaca mənə dərman olan şüşə qab verib dedi:

– Öz yaylığını bununla islat və onunla arvadını vur, sənin intiqamın alınacaq və o, itə çevriləcək.

Mən bunu etmək qərarına gəldim. Bir dəfə mən öz evimə gəldim və orada Gülümü quldurların başçısı ilə gördüm, onlar gözlənilmədən məni gördükdə çox qorxdular. Mən quldurbaşının üstünə atılıb onu öldürdüm, sonra isə arvadımı yaylıqla vurdum və o, itə çevrildi. Sineyviz şahzadəni otaqda tapmayıb, öz hekayətinin axırında qışqırdı:

– Ay şeytan, ay quldur!

İş ondadır ki, Əli hekayətin sonunu artıq qabaqcadan gördü və vaxtında sehrli papağı başına qoydu. Sineyvizin son sözlərində uçan xalçaya oturdu və dənizlər padşahının yanına qayıtmaq üçün uçdu.

Əli Gül və Sineyvizin hekayətini dənizlər padşahına nəql edəndə o, gözəl qızını ona verməyə razı oldu. Elə o saat dənizin sahilində yenidən dəbdəbəli saray göründü. İkinci və axırıncı dəfə toy elədi. Lakin toyda sultan iştirak etmədi. Artıq o, uğursuz məhəbbətindən və məhv olmuş oğlunun kədərini çəkməkdən ölmüş idi. Əli şahlığı idarə eləməyə başladı.

Göydən üç alma düşdü. Biri Allahın, biri dinləyicilərin, biri də mənim, yazıq söyləyicinin.

***Birinci İvanovka kənd məktəb müəllimi - Nikolay Kazbek 1889-cu il.***

## VƏZİROV MİR HAŞIM. TATAR ƏFSANƏLƏRİ HAQQINDA BİR NEÇƏ SÖZ

### 1. CİNLƏR

İnsana cismani və əqli cəhətdən zərər verən şər ruhlardan ən başlıcası cinlər (damdabacalar, suadamları, qulyabanilər və s) sayılır. Bütün cinlər iki məzhəbə ayrılırlar. Mömin cinlər və digərləri isə kafir cinlərdir, birincilər kimi ikincilər də Allahın adından qorxurlar. Kafir cinlər müsəlmanlara ziyan verməyə çalışırlar. Onları nahara dəvət etməklə aldadıb tovlayırlar, əgər belə bir naharda qonaq Allahın adını tələffüz etsə, qarşısında dadlı plovun yerində təzək parçaları görəcək və üstəlik də təsirindən həmişəlik dəli qalacağı bir sillə yeyəcəkdir, onu dəlilikdən yalnız türkəçarəçi qurtara bilər.

Cinlər müxtəlif əşyalara – ən böyük şeydən ən xırda nöqtəyə çevrilə bilirlər. Budur, cinlərin çevrilməsi haqqında bir qoca qarıdan eşitdiyim əhvalat:

Mənim atam deyir, gözəl bir atın belində şəhərdən bizim kəndə yola düşmüşdü, o, qəbiristanlığın yanından keçir. Görür ki, orada bir qarı oturur və ağlayır. Atamın, – o, kimdir və nə üçün ağlayır, – sualına belə cavab verir ki, köçərilər, görünür, onu unudub getmişlər və onların köçü bu yaxın bir yerdə çayın yanında dayanmalıdır. Atamın ona yazığı gəldi və onu öz tər-

kinə mindirmək istədi, lakin at birdən şahə qalxdı və qarını özünə yaxın buraxmadı, o, qarının cin olduğunu hiss etmişdi. Lakin atam məsələnin nə yerdə olduğunu bilməyərək ata mindi, qarını da tərkinə aldı. On addım getməmiş at tam köpüyün içində dayandı. Atam qamçının zərbələri ilə atı daha bir neçə addım irəliyə getməyə məcbur elədi. Lakin bu vaxt at xoruldamağa başladı. Atam arxaya baxdı və görür ki, qarı olduğundan beş dəfə artıq böyüyüb və onun ayaqları az qala yerə çatır, o, həmin saat qarşısındakının kim olduğunu başa düşdü və əyilərək atın qulağına pıçıldadı: "Qorxma". O, yarım saatdan sonra birtəhər kəndə çatdı. At bundan artıq gedə bilmirdi, bu vaxt o, mehribancasına qarıya müraciət etdi: "Əzizim, sən özün görürsən ki, atın getməyə taqəti yoxdur! Atdan düşə bilərsənmi?" O, atdan düşdü. "Xoşbəxtsən ki, məni "əzizim" adlandırdın, yoxsa, sənə nə edəcəyimi bilirdim! – qarı belə deyib gözdən itdi.

Buna bənzər başqa bir əhvalat mənə bir kəndli danışmışdı.

Bizim yaxşı bir atımız var idi – o, deyirdi. Hər dəfə tövləyə girəndə görürdüm ki, o, tamam tərin içindədir, heç cür anlaya bilmirdim ki, məsələ nə yerdədir, yalnız onu düşünürdüm ki, kimsə atın üstündə gəzir. Bir dəfə onun bütün bədəninə qətran sürtdüm. Ertəsi gün tövləyə girdim, onun üstündə bir cin oturub dişlərini qıcadır və mənə baxır. "Vay, lənətə gəlmiş cin!", – mən qışqırdım və onun üzərinə atıldım və iynəni ona batırdım. Cin atdan düşdü, lakin qaça bilmədi, çünki bədənində iynə var idi. O, uzun müddət bizə xidmət elədi. Bir dəfə kiçik bacımı aldadaraq ondan xahiş etdi ki, iynəni bədənindən çıxartsın və özünə götürsün (o, özü iynəyə əl vura bilmirdi). Bacım iynəni çıxardan kimi o, bacımı vurdu və gözdən itdi.

Cinlər çox vaxt tənha yerlərdə − xarabalıqlarda, meşələrdə, böyük bağlarda, böyük ağacların altında, çay, göl və sahillərində yaşayırlar. Cinlər çox daha ağacların altında və su sahilində olurlar. İctimai yerlər (hamamlar, kilsələr və s.) də cin-

lərin gəldikləri yerlərdəndir. Bəzilərinin etiqadlarına, inanclarına görə, böyük binalarda insanı təqlid edən cinin səsi var və bununla o, insanı acıqlandırmaq istəyir. Cinlər əsasən adı yuxarıda çəkilən yerlərdə yaşayırlar, lakin onlara monastr və Quranın oxunduğu evlər istisna olmaqla hər yerdə rast gəlmək olar.

## 2. DİVLƏR

Pis ruhlara divlər aiddir. Onlar nəhəng boyları, əcaib bədən quruluşları ilə seçilirlər, bəzi divlərin qollu-budaqlı buynuzları, yeddi başı olur, digər divlər quyruqlu, əllərində tutduqları əmuda yeddi dəyirman daşı taxılmış şəkildə təsvir edilirlər.

Yaxın keçmişdən bəri divlər zəncirlənmişlər və tilsimlərin köməyi ilə müxtəlif mağaralara salınmışlar. Divlərlə o səbəbdən belə davranmışlar ki, onlar insanları ağır təhqirlərə məruz qoymuşlar. Deyirlər ki, əvvəllər divlər insanları öz həyətlərində saxlayırmışlar. Onları yemləmələri üçün çöllərə qovurdular (su gətirdirdilər), ümumiyyətlə, onlarla ev heyvanları kimi davranırdılar. Şuşa şəhərinin (Yelizavetpol quberniyası) yaxınlığında divlərin böyük bir ailəsinin yaşadığı mağara ("Məlik Şahnəzər kahası") vardır. Söyləyicilər deyirlər ki, buradan keçəndə divlərin qandallandıqları zəncirlərin səsi eşidilməkdədir.

## 3. ŞEYTAN

Pis, yaman ruhlar arasında ən əsas yeri şeytan tutur. Şeytan mələk imiş, lakin Adəmə baş əymək istəməmiş və bu səbəbdən də göydən qovulmuşdur. Belə olduqda o, insanlara zərər vermək, ziyan vurmaq üçün and içmişdir. Şeytan hər necə olursa olsun, insanı cana gətirməyə çalışır. Buna görə də belə bir inanc yaranmışdır ki, insan bütün günahları şeytanın təsiri altında işləyir, əgər bir kimsə adam öldürsə, deyirlər ki, öldürən günahkar deyil, onu bunu etməyi öyrədən şeytan günah-

kardır. Ümumiyyətlə, hər cür şər iş yalnız şeytanın iştirakı ilə baş verir. Şeytan yalnız ölüləri rahat buraxır.

## 4. TƏBİƏT HADİSƏLƏRİ

Güclü külək hər hansı bir ədalətsizliyin, cinayətin əlamətidir, məsələn: qətl, zorlama və ya dindar bir insanın öldürmə əzablarının əlamətidir.

Quyruqlu ulduz – yoluxucu xəstəliyi, bahalığı və ya uzunsürən qanlı müharibədən xəbər verir.

Zəlzələ − yoluxucu xəstəliyin yaxınlaşması deməkdir, o, isə belində yer kürəsinin durduğu qızıl öküzün hərəkətindən baş verir.

Ayın tutulması ondan baş verir ki, cinlər əllərini ayın qarşısına tutaraq onun işığının qarşısını kəsirlər. Əgər axan ulduzlar olmasaydı, Ayın tutulması hər gün baş verərdi. Axan ulduzlar mələklərin cinləri vurduqları oxlardır.

Günəşin tutulması da Ayın tutulması səbəbindən baş verir.

Durmadan yağan yağış, qar, dolu və buna bənzərlər – Allahın qəzəbinin nəticəsidir.

Şamın, lampanın və b. gözlənilmədən sönməsi yaxın gələcəkdə ailəyə baş verəcək bədbəxtlik deməkdir. Məsələn: ailənin böyük üzvü öləcək.

## 5.OD VƏ SU

Odu söymək və ya boş yerə and içmək böyük günahdır. Odu bir dəfəyə söndürmək, xüsusən də onu su ilə söndürmək olmaz. Yer üzündə olan bütün od (odun hamısı) cəhənnəmdən uçub çıxmış bir qığılcımdan əmələ gəlmişdir.

Su da müqəddəsdir, onu söymək və boş yerə ona and içmək olmaz. Su yer üzündə ümumdünya tufanı vaxtından qalmışdır. Tufana qədər su təndir şəklində olan bir yerdə olmuş-

dur və oradan qalxaraq bütün dünyanı bürümüşdür.

Suda batanlar haqqında deyirlər ki, onlar yəqin suyu çox söymüşlər, ona tüpürmüşlər və ya ümumiyyətlə, ona hörmətsizlik etmişlər, bax buna görə də su onları udmuşdur.

Su kimi odun da günahsız adamları batmağa və yanmağa qoymayan öz haramları (suda və odda yaşayan ruhları) vardır.

## 6. HEYVANLAR, HƏŞƏRATLAR VƏ SÜRÜNƏNLƏR

İt digər heyvanlardan qabaq hər hansı bir xəstəliyin meydana çıxmasını, xüsusən də öz sahibinin başına gələ bilən hər hansı bir bədbəxtliyi görə bilməyi bacarır, o ulayır və bununla da sahibinə baş verəcək (gələcək) hadisə barədə xəbər verir və bununla da bəzən ona xilas olmaqda yardım edir.

Tatarların rəyincə, meymun boyaqçının dəyişilmiş şəklidir, bu boyaqçı heç vaxt işə başlamaqdan qabaq dua etməmişdir. Buna görə də o belə çevrilmə ilə cəzalandırılmışdır. Meymunun boyaqçının dəyişilmiş şəkli olmasına sübut olaraq onun göy caynaqlarını göstərmişlər, onlar özlüyündə boyaqçının dırnaqlarını xatırladır.

Ayı buğdaya, ümumiyyətlə, taxıl dənlərinə olan etinasız münasibətinə görə heyvana çevrilmiş dəyirmançıdır.

Pişiyin mənşəyi barədə aşağıdakını nəql edirlər:

Ümumdünya tufanı vaxtı yırtıcılar Nuhun gəmisində özlərinə sığınacaq tapdıqlarında şir asqırdı və burnundan pişik sıçrayıb çıxmışdır və şirlə pişik arasındakı belə böyük bənzərlik bununla izah olunur.

Deyirlər, pişiklər tez-tez cinlərə çevrilirlər. Budur, bir qəbilədən olan hekayət:

Bir vaxtlar məşhur ərəb alimi Şeyx Bahəd-Dinin dərslərinə müxtəlif dinləyicilərlə yanaşı hər dəfə ağ bir pişik də gəlir və görünür, şeyxin dərsinə qulaq asırmış. Bir dəfə dərs

vaxtı şeyx və onun tələbələri gurultulu bir səs eşitdilər: "Sənəm!" Səs həyətdən gəlirdi. Bu vaxt pişik ağ paltar geyinmiş gözəl bir qadına çevrildi və evdən çıxıb getdi.

İlan və bir-bir peyğəmbərə sualla müraciət edib onlardan hər birini hansı taleyin gözlədiyini xəbər aldılar: "Bizi hansı tale gözləyir?" Peyğəmbər qeyd etdi ki, ilanın həmişə başı ağrıyacaq, onun sancdığı hər bir kəs öləcək, özü isə sağ qalacaq. Arının isə heç bir baş ağrısı olmayacaq, lakin əvəzində onun sancdığı ölməyəcək, özü isə ölməli olacaq.

İlan heç vaxt onu tərk etməyən baş ağrısının nəticəsi olaraq tez-tez sancmalar edə bilmir. İlanı görən hər bir kəs onu öldürməlidir, görüb öldürməyən kəs isə lənətlənmiş hesab olunur. İlanı öldürərkən onu basdırmaq lazımdır, çünki onun sümükləri də zəhərli olduğundan yoldan ötənin ayaqlarına bata bilər.

İlanların öz şahları və sərkərdələri vardır. Onlar çox vaxt bir-birlərilə müharibə edirlər. Müharibə vaxtı onlar bir adama da toxunmurlar və insan da öz növbəsində onlara qarşı nəzakətli olmalıdır, əgər mümkündürsə, ağ rəngi və başındakı tacla seçilən ilanların padşahını duz-çörəklə qarşılamalıdırlar.

Koramal da ilandır, lakin o böyük səbri olması ilə seçilir. Əgər koramala altı dəfə əziyyət verilsə, o insana heç bir şey etməz. Lakin yeddinci dəfə o, elə sancar ki, heç bir şeylə müalicə olunmaz.

Kərtənkələlər ilana zəhər verirlər, buna görə də onları da qırmaq pis olmazdı. Xüsusilə qurbağalara bənzəyən böyük kərtənkələləri öldürmək faydalıdır. Kərtənkələ və qurbağalar barədə aşağıdakı əfsanə vardır:

İbrahimi yandırmaq istədikdə, qurbağalar yaxınlıqdakı çaydan ağızlarına su alıb tonqala tökərək onu söndürmək istəyirdilər, lakin kərtənkələlər isə əksinə tonqalın ətrafına yığılaraq odu üfürüb alışdırırdılar. Bir qarı onlardan xəbər aldıqda ki, onlar burada nə edirlər? Cavab verirdilər ki, qurbağalar odu sön-

dürmək, kərtənkələlər isə onu qızışdırmaq istəyirlər. Qarı dedi:

– Axı sizin xidmətləriniz, xeyirxah işləriniz onların (yəni kərtənkələlərin) yaramazlıqları kimi əhəmiyyətsizdir.

"Biz özümüz bunu etiraf edirik, lakin biz peyğəmbərlərə olan dostluğumuzu, onlar isə düşmənçiliyini göstərirlər", – deyə qurbağalar cavab verdilər.

## 7. QUŞLAR

Bayquşun, yapalağın və digər gecə quşlarının uçub gəlməsi ailə üzvlərindən birinin ölməsi deməkdir (xüsusən də əgər onlar səslər çıxardırlarsa), lakin onların ardınca közərən kösöv atsalar, onların qabaqcadan xəbər verdikləri bədbəxtlikdən qorunmaq olar.

Uçub gəlmiş qarğanın qarıldaması da bədbəxtliyə işarə edir, çox vaxt qarğalara ət atırlar ki, o, təki qarıldamasın.

Sağsağan – xəbər gətirəndir, müjdəçidir. O, uzaq ölkədən xəbərlər gətirir və buna görə də uşaqlar və xanımlar uçub gəlmiş sağsağana "Sağsağan, yaxşı xəbər söylə!" deyə müraciət edirlər.

Vaxtında oxumayan (banlamayan) xoruz ev sahibinin başına gələ biləcək bədbəxtlikdən qabaqcadan xəbər verir, onu tez kəsmək, lakin ətini yeməmək lazımdır, onu bir mollaya və ya hər hansı bir kasıba göndərmək lazımdır. Xoruzun banına bənzər səslər çıxardan toyuq və cücələrlə də belə davranmaq lazımdır.

Qaranquş müqəddəs quşdur, belə ki, o, Qurandan ayələr oxuyur, onun uçub gəlişi nəinki zərərlidir, əksinə hətta faydalıdır.

Göyərçinləri öldürmək lazım deyil, çünki onlar pis quşlar deyillər. Göyərçini kəsməyə girişən adam göyərçinin gözlərində yaş görünən kimi bıçağı əlindən yerə atmışdır. Belə hadisələr az olmamışdır.

## 8. HAL ANASI

Hal anası (çox böyük məmələri olan nəhəng qadın) adətən gözəgörünmədən doğuşlarda hazır olur ki, yeni doğulan uşağa və onun anasına zərər yetirsin. Əgər zahı huşunu itirərsə, deyirlər ki, hal anası onu əldən saldı və bu zaman tüfənglərdən atəş açmağa başlayırlar ki, hal anasını qorxutsunlar.

Damdabacalar da yeni doğulmuş sağlam uşağı özlərinin hər hansı bir zəif doğulmuş körpələr ilə dəyişmək və ya həm uşağı, həm də zahını boğmaq məqsədilə doğuşda hazır olurlar. Bu olmasın deyə zahıya papaq geyindirirlər ki, damdabacaları aldatsınlar, sanki yataqda yatan xəstə kişidir, qadın deyildir. Bəzən qılınc və ya xəncər sıyırıb zahının başının üstündən asırlar və əsl adının yerinə onu "Məryəm" deyə adlandırırlar, belə düşünürlər ki, damdabacalar Məryəm adına görə ona yaxınlaşmağa cürət etməzlər.

## 9. RUHLARIN UŞAQLARA MÜNASİBƏTİ

Belə ki, ümumiyyətlə, 12 yaşına qədər olan uşaqlar günahsız, məsum olduqlarından pis ruhlar onlara toxunmurlar. Ruhlar yalnız nadir hallarda uşaqların valideynlərini cəzalandırmaq üçün uşaqlara zərər yetirməyə cəhd göstərirlər. Məsələn: Şeytan onları quyuya və ya çayın kənarına çəkib aparır.

Ağlağan uşaq yaxşı bir şey vəd etmir, belə uşaq tam bir ailənin bədbəxtliyinə səbəb olacaq və valideynlərindən erkən mərhum olacaqdır.

Uşaqlarını dəcəlliklərdən çəkindirmək üçün onların yanında daima damdabacalardan danışan valideynlər damdabacalar haqqında uşaqlarına belə məlumat verirlər: "Onlar uşaqlara "görünürlər", lakin heç vaxt uşaqlara ziyan vurmurlar".

Belə güman edirlər ki, heç vaxt çox danışan uşaqlar mələklərlə söhbət edirlər.

Çox vaxt qadın cinsindən olan uşaqlara pis ruhlar, həmçinin bəzi təhlükəli heyvanlar (ilanlar və s) vurulur.

Uşaqlar can üstə olurkən Əzrayıl onların uşaq oyunlarındakı bir yaşıdı kimi gəlir və onlara alma təklif edir, bu səbəbdən də uşaqların çoxu ölərkən üzlərində təbəssüm olur.

## 10. TOY

Həm nişanı, həm də nikahı "xoşbəxt saat"da başa çatdırmağa çalışırlar. Gəlinin belinə doqquz düyün olan yaylıq bağlayırlar, doqquz düyün gəlinin yeddi oğul və iki qız doğacağına işarədir. Bu vaxt elə həmin məqsədlə də gəlinin dizləri üstə oğlan uşağı oturdurlar. Gəlin adaxlının evinə girdiyi əsnada onun ayaqları altına dəmir parçası atırlar ki, o, dəmir kimi ağır olsun və ona adaxlısının evindən çıxıb getmək asan olmasın. Adaxlı və gəlinin görüşü vaxtı onların hər ikisi bir-birlərinin sağ ayağını tapdalamağa çalışırlar. Belə ümid edilir ki, kim o birisinin ayağını bassa, həmin adam onun üzərində hökmranlıq edəcək. Adaxlı gəlinin ayağından başmaqları çıxardır və başmaqların burunlarını gəlinə tərəf olmaqla onları gəlinin qabağına qoyur ki, gəlin onun evindən getmək fikrinə düşməsin. Nikahdan qabaq adaxlı özünün bütün düşmənləri ilə barışır, belə ki, bunlar onu cadulaya bilərlər və o, arvadı ilə cinsi əlaqədə olmaq halında ola bilməz.

Gəlinin ayaqlarının üstünə və ya ayaqlarının qarşısına pul və şirniyyat qoyurlar, adaxlı onları yerdən götürür, pulları kisəsinə qoyur ki, kisədə bolluq olsun, şirniyyatı isə yeyir ki, ağzı şirin olsun, yəni gələcək arvadından razı olsun.

## 11. ÖLÜLƏR

Tatarlar inanırlar ki, ölülər yuyulmanı hiss edirlər, bəzən ölü qışqırır və mürdəşirdən xahiş edir ki, onun bədənini eh-

malca sürtsün və onu isti su ilə yumasın, belə ki, onun bədəni xəstəliklərdən zəifləmişdir. Deyilir ki, mürdəşir onun qulaqlarına pambıq tıxayanadək ətrafında baş verənlərin hamısını eşidir. Qohumlar onu yola salanda onlara müraciət edir və müraciətdə çox təsirli, riqqətli söz və ifadələr yer alır.

Öz həyatları boyu çox günah işləmiş olan ölülər qəbirdə itlərə çevrilirlər və qəbirstanlığın ətrafında gəzib dolaşmaq üçün qəbirdən çıxırlar.

Deyirlər ki, günah işləmiş adamın qəbrindən çıxan alovu tez-tez görmək olar.

***Böyük Vedi kənd məktəbinin müəllimi***
***Mir Haşım bəy Vəzirov***

## SURKOV. RUS DÖVLƏT GERBİNDƏ İKİBAŞLI QARTALIN TƏSVİRİ HAQQINDA TATAR RƏVAYƏTİ

Firənglərlə ruslar çoxdan davalı idilər. Firənglər ruslara qalib gəldilər və artıq onların paytaxtını almağa hazırlaşırdılar. Rus çarı firənglər tərəfindən onu və bütün dövləti hədələyən təhlükənin yaxın olduğunu görərək şuranı topladı. Şurada çoxlu ağıllı, igid və tam cani qəlbdən çara sadiq sərkərdələr vardı, amma onların heç biri vətəni xilas etmək üçün heç bir şey düşünüb tapmadı. Hamı ruhdan düşmüşdü. Belə olduqda çar özü paytaxt yaxınlığında firəngərlə axırıncı və həlledici döyüş üçün qoşunlara başçılıq etmək qərarına gəldi. Döyüş başladı, firənglər qalib gəlməyə başladılar, amma elə bu vaxt rus qoşunlarının başı üzərində ikibaşlı qartal dövrə vurub uçmağa başladı. Rus döyüşçüləri qartalı görüb ruhlandılar, ürəkləndilər, güclərini birə-iki artırdılar. Firənglər isə qaçmağa başladılar. Allah bu qartalı ruslara göndərdi ki, düşmənlərdən

qurtulsunlar. Bax, elə buna görə də ruslar o vaxtdan öz dövlət gerbində ikibaşlı qartalı təsvir etməyə başladılar.

***Zaqafqaziya Müəllimlər Seminariyasının 2-ci sinif tələbəsi Surkov tərəfindən Lənkəran qəzasının Təngərud kəndində Qərib xan oğlu Əsədin dilindən yazılmışdır.***

## VƏLİZADƏ MİRZƏ. QAÇAQ KOROĞLU HAQQINDA RƏVAYƏT[1]

Məşhur qaçaq (Koroğlu) zaqafqaziyalı xanlardan birisinin ilxıçısının oğlu idi. Onun gözəl atı Qırat (qara at) o həmin ayğırdır ki, Koroğlunun atası onu öz ağası üçün seçmişdi. Bu ayğır xanın xoşuna gəlməmişdi, buna görə də xan öz cəlladına əmr etmişdi ki, ilxıçının gözlərini çıxarsın (elə buna görə də onun oğlu Koroğlu, yəni Korxan oğlu adlandırıldı), atasının xidmətinə görə də seçdiyi eybəcər, biçimsiz ayğırını elə onun özünə verilməsini əmr etdi.

Bu arada ilxıçının oğlu həmin ayğıra yaxşı təlim verdi, iki ildən sonra ayğır gözəl və son dərəcə yeyin gedən bir ata çevrildi.

Xan öz səhvini başa düşüb Qıratı geri istədi, amma Koroğlu atı vermədi, xan adamlarını onun üstünə göndərdi ki, atı ondan güclə alsınlar, Koroğlu onların hamısını qırıb çatdı, sonra o, Qırata minib dağlara çəkildi. O vaxtdan o, yolkəsənliyilə məşhur oldu. Hər tərəfdən qaçaqlar onun yanına gəldilər, çox keçmədən onun dəstəsində əlliyə yaxın qaçaq, quldur oldu. Onun Eyvaz adlı quldurlarından birisi özünün görkəmi, gücü, qüvvəti, igidliyi ilə diqqət çəkirdi. Koroğlu Eyvazın köməkliyilə xanın qızını qaçırtdı. Xan çox çalışdı, amma quldur-

[1] Bu rəvayət Tiflis qəzasının "Hacalar" kəndində xalq nəğməkarlarından yazılmışdır. Toplayıcı.

ları cəzalandıra bilmədi. Onlar əlçatmaz yerlərdə, məsələn, dağların başlarında, keçilməz meşələrin dərinliklərində, qayaların arasında özlərinə məskən salır, möhkəmlənirdilər. Quldurların sayı artırdı, karvan və tacirlər Koroğlunun basqınlarından rahatlıq tapa bilmirdilər, o, kəndləri soyur, xanın özünü qorxu içində saxlayır və onun bütün xanlığının rahatlığını pozurdu. Xanın dəstələri dəfələrlə pusquya düşür və Koroğlunun quldur dəstəsi tərəfindən məğlub edilirdilər.

Koroğlu həm də gözəl balalayka çalan və nəğməkar kimi də məşhurdur.

Zaqafqaziyalı tatarlar Koroğlunun, bu şair-quldurun yaradıcısı hesab etdikləri nəğmələri ruh yüksəkliyi ilə oxuyurlar. Xalq "aşıqları" (nəğməkarları) balalaykanın sədaları altında məşhur (məlum) hər hansı bir şeirin hansı şəraitdə Koroğlunun yaratdığını nəql edirdilər. Lakin buna baxmayaraq, Koroğluya mənsub edilən (Koroğlunun adına yazılan) nəğmələrin çoxunun mənşəyi qaranlıq və müəmmalıdır, çox güman ki, öz məsələlərilə onlar xalqa borcludur, belə ki, bu nəğmələrdə bütöv bir xalqın müxtəlif baxışları, görüşləri açıq şəkildə əks olunur.

Bax bu nəğmələrdən elə üçündə[1] tatarların dəlisov igidliyə olan ehtirası görünməkdədir.

## I
## MÜRƏBBE

1. Xan adam göndərsə bizim tərəfə,
   Kükrəyib, kükrəyib hirslənməlidir.
   Müxənnət namərdi ursa qoç oğlan,
   Bürüşüb tavuq tək səslənməlidir.
2. Ordu gəldi dört yanına düzüldü,

[1] Bu nəğmələr Tiflis qəzasının Hacalar kəndində xalq nəğməkarları tərəfindən oxunur. Burada onların əsli və tərcüməsi verilir. Toplayıcı.

Heyif, cavanlıqdan əlim üzüldü,
Tüfəng icad oldu, mərdlik pozuldu,
Əgri qılınc qınında paslanmalıdır.

3. Çağır bir Allahı, mingil Qırata,
Düşmən qabağında qızgıl qeyrətə,
Dur yaxa-yaxa, surat-surata,
Qoç sıfatında yaralanmalıdır.

4. Koroğluyam, söylənir ad və sanımdan,
Quş da uçurmazam bu meydanımdan.
Köhlən köpügündən, isnan qanından,
Çəkmə dolub, paltar islanmalıdır.

## II
## KOROĞLUNUN DAVA BAŞLAYANDA OXUDUĞU MÜREBBEDİR[1]

1. Yoldaşlar, bu gün dava günüdür.
Hazırlanın, mövlam bizə yar olsun.
Əhli-qeyrət isti qana bulansın,
Müxənnəti qoy tər bassın, xar olsun.

2. Mənəm deyən kəslər girsin meydana,
At çapsın meydanda mərdi və mərdanə
Utansın namərdi bəsləyən ana,
İşi daim onun ahu-zar olsun.

3. Həzrət Əli kimi narələr çəkən,
İgidlər cigər bağrını sökən,
Əgri qılınc çəkən, qızıl qan tökən,
Əsirgəmə, vur, əllərin var olsun.

4. Pəsinməyən həramidən, yağıdan,
Səflər pozan, düşmənləri dağıdan.
Meşə ilən enərkən Çamlu dağdan,

[1] .Mürəbbe deyil, müxəmməsdir.

Qabaqda düşmən var, xəbərdar olsun.
5. İgid odur ki, kəndi kəndiynən qaynada,
Dava günü baş meydanda oynada.
Mərhəba qeyrəti verməyən bada,
Meydandan qaçana namus, ar olsun.

## III
## BU ŞEİRDƏ KOROĞLU ÖZÜ-ÖZÜNƏ SUALLAR VERƏRƏK GUYA Kİ, ELƏDİYI İGİDLİKLƏRİN HESABINI GÖRƏR

Söylə, kəl oğlu Koroğlu,
Ayvazdan küsdügün varmı?
Bir belə igid yolunda,
Sərindən keçdigin varmı?
Mərdanə meydanda durub,
Dağlara qaçdığın varmı?
Ayvaz igirmi beş yaşında,
Eyb yox bu yoldaşımda,
Uca dağların başında,
Yel tək tünd əsdiğin varmı?
Qolum Ayvazın boynunda,
Canım qurbandır yolunda,
Düşmən çox sən tək olanda,
Hirsindən çoxduğun varmı?
Enib dağların belilən
Meşələrin sərt yoluynan
Min ordunun qırx dəlilən
Qabağın kəsdigin varmı?
Əlindən alıb meydanın
Saldırıb qılınc, qalxanın
Ovuc-ovuc düşmən qanın
İçibən qusduğun varmı?

Yandırıb dağları, daşı,
Tökdürüb gözlərdən yaşı,
Bir dönüşə on beş başı,
Tərkindən asdığın varmı?
Koroğlunun çoxdur lafı,
Davada olmaz insafı,
Misri qılınc dəmirqapı
Endirib kəsdigin varmı?

***Yazıya aldı: Qoru Müəllimlər Seminariyasının III sinif yetişdirməsi, Mirzə Vəlizadə. Qori şəhəri, 1889-cu il***

## A.İOAKİMOV. ETNOQRAFİK GÜNDƏLİKDƏN

### 1.“TAPDIN?” – “YOX!”

### Yelizavetpol ermənilərinin və müsəlmanlarının kor yapalaqla bağlı inanclarından

14 may, 1889-cu il. Kor yapalaqların öz aralarında bir-birini səsləmək adəti yerli sakinlərə (erməni və tatarlara) iki kor yapalağın növbələnən çığırtılarını dərk etmək üçün bəhanə verdi, onlar bu çığırtılarda aydın şəkildə sual və cavab eşidirlər. “Tapdın?” – “Yox!”. Həm ermənilərdə, həm də tatarlarda (türklər) iki gecəquşunun bu sirli və cansıxıcı danışığını izah etməyə cəhd edən bir neçə hekayətlər vardır.

Bəzi hekayətlərə görə, nə vaxtsa, iki kəndli əkin yerini sürərkən öküz birdən boyunduruqdan çıxır və tez də gözdən itir. Kəndlilər onu axtarmağa gedirlər. Onlar öküzü uzun müddət axtarırlar və hər dəfə də “Tapdın?” – “Yox!” deyirlərmiş. Əgər ürəyi yanan tale onları gecə quşlarına – məhz kor yapalaqlarına çevirməsə idi, onlar hələ meşələri, dağları gəzib

dolaşıb öküzü axtaracaq idilər.

Digər bir hekayətə görə, iki qardaş özlərinin tək bacılarını itiriblərmiş və birlikdə onu axtarmağa getmişlər, onlar durmadan, yorğunluq bilmədən bir-birlərini səsləyirdilər: “Tapdın?”-“Yox!” Qardaşlar faydasız, əbəs axtarışlardan sonra, nəhayət, quşlara (kor yapalaqlara) çevrilirdilər.

Üçüncü hekayətdə quzu itir, qardaş və bacı onu axtarmağa gedirlər.

Bənzər hekayələrə gürcü əhalisi arasında da təsadüf etmək olar.

## 2. YELİZAVETPOL ŞƏHƏRİ MÜSƏLMANLARINDA GÜNƏŞİN ÇAĞIRILMASI

13 iyun 1889-cu il. Keçən uzun sürən tutqun buludlu günlərin birində mən mənzilimin həyətindən gələn qəribə qışqırıqlardan narahat oldum. Həyətə çıxdım və gözlərimin önündə belə bir mənzərə açıldı. Yerli müsəlmanlardan olan bir neçə oğlan insafsızcasına əllərindəki ağacları tıqqıldadaraq vəznli, qafiyəli tatar sözləri qışqırırdılar. Oğlan susduqdan sonra onlardan biri kəhrəba təsbehlə sarınmış bir müqəvvanı mənə yaxınlaşdırdı. Müqəvva, şübhəsiz, qadın fiqurunu təcəssüm edirdi.

“Bu nə müqəvvadır?” sualıma oğlan dedi ki, bu “Qodu”dur (o, müqəvvanı belə adlandırdı).

“Qodu nə deməkdir”? – mən oğlandan yenə xəbər aldım.

“Günəş və Aydır”, – görünür, o düşünmədən cavab verdi.

“Qodu” ilə bağlı ağıllı cavab almayıb oğlandan xahiş etdim ki, qafiyəli sözləri mənə diktə etsin. Oğlan mənə bunları diktə etdi:

Qodu, Qodu. Hay Qodu, Qodu!
Qoduya salam verdinmi?
Qodu burdan ötəndə,
Qırmızı gün gördünmü?

Qara tavuq qanadı,
Kim vurdu, kim sanadı?
Gökçalıya getmişdim,
İt baldırımı daladı,
Yağ verin yağlamağa,
İp verin bağlamağa.
Verənin oğlu olsun,
Vermiyənin bir kor qızı olsun,
O da çatlasın ölsün.

Bu şeirləri mən Böyük Vedi məktəbinin müəllimi cənab Vəzirova göstərdim. Məlum oldu ki, aşağıdakı variant da məlumdur.

Dodu, Dodunu gördünüzmü?
Doduya salam verdinizmi?
Dodu gedənnən bəri,
Heç gün üzü gördünüzmü?

Və beləcə, birinci variantda olduğu kimi, lakin Qarabağ şivəsinin xüsusiyyətləri ilə davam edir.

Cənab Vəzirovun variantında "Qodu"nun yerinə "Dodu"-dur. Qodu və ya Dodu çox güman ki, bir bütpərəst ilahdır, bu ilahı təcəssüm edən müqəvva isə bütdür. Qodu və ya Dodu ilə günəşin münasibəti aydındır. Qodu və ya Dodu gizlənir, onunla da günəş də yox olur.

Yeri gəlmişkən, burada ermənilərdə günəşin çağırılmasını örnək gətirirəm:

Günəş müvəqqəti olaraq buludların arxasında gizləndikdə Anadoluda erməni uşaqları çığırırlar:

"Gün, gün görsən, görsən. Sənin anan gəldi, sənin atan qızıl bıçaqla gəldi!".

***İrəvan-Yelizavetpol müdiriyyətinin xalq məktəblərinin müfəttişi A. İoakimov yazıya aldı.***

## ƏFƏNDİYEV RƏŞİD BƏY. QUTQAŞEN KƏNDİ HAQQINDA BİR NEÇƏ SÖZ VƏ NUXA QƏZASINDA XALQ TƏBABƏTİ HAQQINDA

### Dua ilə müalicə

Ailənin xəstələnmiş üzvü üçün bir molla çağırırlar, o, həmin saat alçaq səslə ərəb dilində dua (əfsun) oxuyub xəstənin üzünə üfürür, sonra isə ağ kağızdan və ya ağ ipək parçadan (ağ tafta) uzun lentin üzərinə dua yazır və onu üçbucaq şəkildə bükür. O, zəhmətinə qarşılıq olaraq müəyyən mükafat (nəzir) alır, çünki yerli xalq inanır ki, belə olmasa, dua özünün sağaldıcı qüvvəsini itirər. O, xəstənin qohumlarına tapşırır ki, həmin duanı bir əskiyə büküb ya xəstənin paltarından, ya da boynundan assınlar.

Bəzən xəstəni müalicə edən şəxsin təyinatına əsasən dua su ilə dolu fincanın dibinə salınır və xəstə həmin suyu qurtum-qurtum içir.

### Fal açmaqla müalicə

Qızdırma içində olan arıq adam haqqında deyirlər ki, o özünün ölmüş qohumlarından birinin ruhu tərəfindən ovsunlanmışdır, çünki həmin şəxsə ehsanlar verərkən məclisdə plov və ya halva olmadığı üçün o cəzalandırılmışdır. "Ruh ölçən" və ya falçı kimi tanınan qoca kişi və ya qoca qadınlar bu əfsundan xəstəni qurtarırlar. Adət üzrə üç gün dalbadal xəstənin evindən onlara böyük baş yaylığının içində çörək parçaları duz, kömür, pendir və soğan (və ya sarımsaq) aparırlar. Falçı yaylığı öz qapısının astanasında sərərək sağ əlinin dirsəyini onun üzərinə qoyub yaylığını üç dəfə əlinə dolayır.

Bu əsnada o, aşağıdakı sözləri deyir: "Öz əlimlə deyil, müqəddəs babanın (və ya nənənin) əlilə ölçürəm". Görünür, ovsunun şəkli ilə belə bir məsələ arasında bağlantı vardır ki, sadə xalqın rəyinə görə, falçılar öz sənətlərini irsən alırlar: kişilər öz babalarından, qadınlar isə öz nənələrindən. Sonra isə

falçı yuxarıda adı çəkilənləri hissə-hissə yaylığa düyünləyir və onları gətirən adama tapşırır ki, onları xəstəyə aparsın və ona bir söz demədən düyüncə ilə onun kürəyinə vursun və onu xəstənin başı altına qoysun. Xəstə üçün ayrılımış hissə hava azacıq işıqlanan kimi heç kimi görmədən yaxınlıqdakı qəbiristanlığa atılır, digər hissə isə ayin yuxarıda göstərilən şəkildə üç dəfə təkrar olunandan sonra falçının yanında qalır.

Bu arada mərhumun adının müəyyən edilməsinin özü bu şəkildə baş verir: falçıda qalan hər bir əşya xəstənin vəfat etmiş qohumlarından birinin adını daşıyırdı. Məsələn, çörək atanın və ya əminin, duz ananın və ya nənənin, kömür dayının, soğan qardaşın və s. adlarını daşıyır. Falçı bu əşyaları yerdə (torpaqda) çəkilmiş dairə üzrə bir-birindən eyni məsafədə aralı (şəkildə) düzüb əlindəki şaqulu təqribən dairənin mərkəzinə torpağa yerə azacıq toxunacaq qədər aşağı endirir. Şaqulu iki verşok (giren)[1] torpaqdan yuxarı qaldırır. Əgər bu vaxt şaqulun onun istinad nöqtəsindən baş verən öz-özünə yellənməsi və ya hərəkəti hər hansı bir şeyə məsələn, kömürə tərəf yönələrsə, bu o demək olacaq ki, xəstə vəfat etmiş ata və ya əminin ruhu tərəfindən cadulanmışdır və s.

Vəfat etmiş şəxsin ehsanlarında hansı plovun bişirələciyinin müəyyən edilməsi də eyni qayda ilə icra edilir, yalnız burada çörək, duz və s. plovun adlarını daşıyır.

Bundan sonra falçı xəstəyə vəfat etmiş şəxsin qəbrindən götürülmüş iki ovuc torpaq qatılmış ılıq su ilə vanna qəbul etməyi və kasıbları plova qonaq etməyi tövsiyə edir.

## Müqəddəs yerlərin ziyarəti

Xəstəliyin xüsusiyyətindən asılı olaraq bir çox hallarda xəstəni müqəddəs yerlərə ("pirlərə") aparırlar. Belə ki, məsələn, qızdırması olan xəstələri "qızdırma müqəddəs yerinə"

[1] . Verşok, gireh-4,4 sm. Bərabər uzunluq ölçüsü

(isitmə piri), öksürənləri öksürək müqqəddəsinə" (öskürmə piri) və s. aparırlar. Xəstə müəyyən pirin ətrafında üç dəfə dolanaraq daşın və ya ağacın altından (hansının pir olmasından asılı olaraq) götürülmüş torpağı su ilə içməlidir, sonra isə əynində olan paltardan qoparılmış əskini pirə bağlamalıdır, xəstəlik bu əski ilə burada qalır.

### Qızdırmaya qarşı dərman

Davamlı və ya vaxtarışı qızdırmaya qarşı xəstəyə qarpız suyu verilir və onun bədəni üzüm suyu sirkəsi ilə sürtülür. Bəzən qarpız suyuna bal qatılır və qarpızın içində gecə boyunca açıq havada saxlanılır. Daha sonra isə bu qatqı qızdırmalıya verilir, xəstəni qusdurmaq və beləliklə də, ödün (səfra) axmasının dayanması üçün bu qatqını xəstəyə acqarına verirlər.

### Sarılıqdan qurtulmanın üsulu

Nəcib ailədən olan bir cavan oğlan mən bu mövzu üzrə məlumatlar toplayanda mənə aşağıdakı əhvalatı nəql etdi:

– Davamlı sarılıq məni təngə gətirmişdi, mən yataqda uzanmaqdan yorulmuşdum. Bax bu səbəbdən də mən bir dəfə çətinliklə də olsa, küçəyə çıxdım. Bu vaxt olduqca möhtərəm bir qoca mənə yaxınlaşdı, mən əvvəlcə elə düşündüm ki, o, səhhətimlə bağlı məndən nə isə xəbər almaq istəyir. O, bir söz demədən üzümə bir zərbə vurdu. Mən xəstəlikdən zəifləmiş olduğumdan bu zərbəyə davam gətirə bilmədim və yerə yıxıldım. Son dərəcə təhqir olunmuş və əsəbləşmiş bir halda çətinliklə ayağa qalxdım və qocadan intiqam almaq istədim. Lakin qoca özünün bu hərəkətini belə izah etdi:

– Əzizim, sən sarılıqdan əziyyət çəkirsən. Səni ondan qurtarmaq üçün məhz gözlənilməz zərbə vurmaqla səni qorxutmaq lazımdır.

Sarılığa qarşı bu vasitədən başqa xəstəyə 20 gün dalbadal

acqarına giləmeyvələrin suyunu verir və əlinə yeddidüyünlü və bir sarırəngli muncuğu olan pambıqdan sap taxırlar.

## Baş ağrısından müalicə üsulu

Belə düşünürlər ki, davamlı baş ağrıları kəllə sümüklərinin öz aralarında zəif birləşməsindən baş verir (başın düşməsindən). Xəstənin başına hər hansı bir ağır şey (məsələn, su ilə dolu kiçik bardaq) qoyub nazik bir taxta (oxlov) ilə başın ətrafına sarılmış lent möhkəm sıxılaraq burulur, bu vaxt isə su ilə dolu bardaq yuxarıdan aşağıya basır. Hər tərəfdən belə təzyiq olduğunda baş möhkəmlənir və ağrı keçib gedir.

## Sancıdan qurtulma üsulu

Sancı, adətən, “sancı oxları” (sancı atan) ilə məhv edilir. Bu belə edilir. Xəstənin sancılı böyürünə taxtadan qab (təknə tabaq) qoyulur, nişançı qollarını çirmələyib və sonra ox-yayını götürüb xəstənin yanında var-gəl edir. Evdə xəstənin yanında olanlardan biri ondan xəbər alır:

– Hara gedirsən?

– Sancını vurmağa gedirəm.

– Axı o hardadır?

– Budur, buradadır!

Bu vaxt o, təknə tabağa yaydan üç dəfə bir ox atır və ağrı anında kəsilir.

## 11-ci buraxılış, 1891-ci il

# ZAQAFQAZIYANIN BƏZİ ƏRAZİLƏRİNDƏ İPƏKÇİLİKLƏ BAĞLI İNANC VƏ RƏVAYƏTLƏR

Şərqi Zaqafqaziyada əgər qarışqalar ipəkqurdlarına hücüm edərsə və ya onlar xəstəliyə məruz qalarlarsa, ipəkçilər molladan xahiş edirlər ki, düyüyə dua oxusun və həmin düyünü qurdlara səpələyirlər.

Şərqi Zaqafqaziyada, ümumiyyətlə, bina, xüsusən də kümxana tikilərkən onun əsas sütununun altına çaylaq daş qoymaq adəti geniş yayılmışdır.

Nuxa qəzası udinləri kümxanaya girişdə tut ağacının qabığı üzərində "barama daşı" adlandırılan və ortası deşik olan çaydaşları asırlar. Onları çay kənarından axtarıb tapırlar. Yaşlıların fikrincə, çaydaşlarındakı dəlikləri ildırım açmışdır.

Göyçay məktəbinin nəzarətçisi N.Kalaşev baramaçıları Bakı quberniyasının Göyçay qəzasının baramaçıları arasında yayılmış aşağıdakı xurafat və rəvayətlər haqqında məlumat verdi:

1. Qəza sakinlərinin inanclarına görə, tut baramaqurdu Allahın Əyyuba göndərdiyi ağır sınaq vaxtı onun bədənini örtən qurdlardan əmələ gəlmişdir və Əyyub yara-xoradan xilas olduqdan sonra onlara yazığı gəlmiş, onları tut yarpağı üzərinə götürüb qoymuş və Allaha dua etmişdir ki, onları bu ağacın yarpaqları ilə yedirtsin. Allah onun xahişini eşidib yerinə yetirdi. O vaxtdan ipəkqurdları yaşamağa və çoxalmağa başladılar. Buna görə də ipəkçilər, baramaçılar, elə bütün əhali ipəkqurduna böyük ehtiramla yanaşır, bilərəkdən onun məhvini böyük günah sayırlar.

Rəvayətə görə, ipəkqurdu ilə yanaşı, bu yolla arı və qımızböcəyi törəmişdir.

2. Elə bu səbəbdən də natəmizlər, yəni gecə şeytan tə-

rəfindən aldanılmış aldanılanlar[1] kümxanaya girə bilməzlər. Belə şəxslər yalnız yaxşıca təmiz su ilə yuyunduqdan və namaz qıldıqdan sonra kümxanaya girə bilərlər.

3. Barama toxumu canlandığı vaxt Baruşət sahəsinin ipəkçiləri, baramaçıları arasında aşağıdakı adətlər vardır:

Tatarların "axır çərşənbə" adlandırdıqları novruzqabağı axırıncı çərşənbə günü kiçik kisəyə tökülmüş barama toxumunu bir-birinə qarışmış üç böyürtkən və yemişan kolunun üzərindən keçirirlər. Sonra barama toxumunu belə kolların üzərindən keçirdikdən sonra bu kolları bir-biri ilə birləşdirən budaqları kəsirlər.

4. Sonra elə həmin gün axşam qamışdan və ya samandan ocaq qalayırlar. Adətən bişirilmiş çörəyin saxlandığı təknə və ya teştə mövcud sayda çörəklə barama toxumu və dəhrə qoyurlar. Sonra isə bütün bunları baş üzərində və ya əllərində tutaraq qalanmış ocaq üzərindən üç dəfə atlanırlar. Bunu çoxlu və keyfiyyətli baramaların yetişməyi və böyüməsi üçün edirlər.

5. Səhər kümdar kümxanaya girməmişdən qabaq salavat çevirdikdən sonra, yəni ürəyində dua etdikdən sonra kümxanaya girərək yerə baxırlar, barama qurdlarına göz dəyməsin deyə onlara baxmamağa çalışırlar.

6. Kümxanaya heç vaxt nə su, nə dəhrə gətirmirlər və əgər kiçik uşaqlar bunları gətirmiş olsalar, onları çox məzəmmət edir və o saat gətirilmiş şeyləri bayıra atırlar.

7. Kümxanada nəinki papiros çəkmək, hətta tüpürmək və burunu təmizləmək olmaz.

8. Kümdar kimlərinsə barama qurdlarının pis olduğunu və ya onların məhv olacağını deməməlidir.

9. Kümxanaya kənar adamların və hətta qonşu və yaxud qohum kümdarların buraxılması yaxşı deyildir.

---

[1] 1888-ci ildə bu martın 24-də olmuşdur.

10. Çalışırlar ki, kümxanada tüstü olmasın. Soyuqlar düşəndə əgər kümxanada od qalasalar da, bunu hökmən təzəkdən edirlər, çünki yalnız təzəyin tüstüsünü baramaçılar ipəkqurdları üçün zərərsiz hesab edirlər.

11. Barama şahların quranda birinci şaxa əski bağlayır və deyirlər ki, bu "Allah payıdır", sonra isə bu şaxdan olan məhsulu kasıblara paylayırlar.

12. Barama toxumu canlananda Lahıc sahəsinin ipəkçiləri arasında elə bir adət vardır. Martın son günlərində yüzlərlə baramaçı erməni və ya tatar olmalarından asılı olmayaraq, kimi at belində, kimi kəl arabalarında, əllərində barama toxumları olan ağ kisəcikləri tutaraq ibadət üçün xarabalıqlara tərəf yol tuturlar. Rəvayətə görə, burada müqəddəs sayılan bir hacı və ya daha doğrusu, onun əli basdırılmışdır. Dörd uçmuş divardan ibarət olan bu müqəddəs yer Lahıc sahəsindəki Kink adlı erməni kəndinin qarşısındadır və ermənicə "Qadj korn", tatarca "Hacının əli" adlanır. Xürafatçı baramaçılar buraya gəlib özləri ilə gətirdikləri barama toxumunu divarın ətrafında gəzdirirlər. Ətrafda yaşayanlar, ermənilər və tatarlar inanırlar ki, "hacı" onun yardımına müraciət edən hər kəsin arzusunu, istəyini yerinə yetirir.

13. Barama toxumları vaxtından əvvəl canlandıqda onların yemsiz sağ qalacağını güman edərək yumurtadan çıxmış barama qurdlarını düyünün üstünə qoyurlar.

Şimali Qafqaz və Zaqafqaziyada ipəkçilik haqqında öz fəaliyyətlərinin xarakterinə görə xalqa yaxın olan adamlar tərəfindən toplanılmış məlumatlar əyani şəkildə ipəkçiliyin müasir vəziyyətini, onun nöqsanlarını, xalqın ona olan münasibətini, onun bu faydalı cücü ilə bağlı baxışlarını təsvir edir.

...Aşağıdakı əfsanə Zaqafqaziyanın bütün xalqlarında ipək qurdunun və arının mənşəyi haqqındakı əfsanələrin əsasını təşkil edir:

"Müqəddəs Əyyub bir qorxulu xəstəliyə mübtəla olmuşdu, qurdlar onun bədənini dağıdırdı. O, ağır əzablara baxmayaraq Allaha şikayətlənmədi, əksinə, ona şükr və dualar edirdi ki, onun iztirabları bəşəriyyətə fayda gətirsin. Bir də əgər hər hansı bir qurd yerə düşsəydi, O, "Allahın sənə əmr etdi: yerdə otur", – deyərək dua edir, onu yerdən götürüb yenidən öz üstünə oturtdu. Axırda qurdlar onun bütün bədənini didib dağıtdılar, belə ki, onun sümük və içalatları da göründü və iki qurd onun ürəyindən yapışdı. Onda Əyyub yalvarıb-yaxardı:

– Ey mərhəmətli Allah, qurdlar bədənimi yedilər və mən şikayətlənmədim, indi isə onlar onunla Sənə dua etdiyim ürəyimdən yapışıblar. Sən, doğrudanmı, onların onu da didib dağıtmaqlarına və mənim Sənə dua etmək imkanından məhrum olmağına razı olacaqsan?

Allah öz mömininin duasını eşitdi və Mələk Cəbrayılı göndərdi. O, qanadı ilə qurdları onun bədəninin üzərindən sürüyüb atdı və beləliklə, o sağaldı.

Onun ürəyinə yapışmış iki qurddan biri bal arasına və ipək qurduna çevrildi. O, hətta ağır iztirablar vaxtı bəşəriyyətin xoşbəxtliyi, rifahi üçün durmadan dua edən müqəddəs şəxsin itaətkarlığını həmişə yadında saxlamaq üçün onlardan birincisi dindarın zövqünə həzz qatmalı, ikincisi isə onun bədənini gözəl parçalarla örtməlidir".

Bu deyilənlərə onu da əlavə etmək lazımdır ki, əfsanəyə görə xəstəliyi vaxtı müqəddəs Əyyub xəstəliyi vaxtı bir tut ağacının altında peyin qalağının üstündə yatırdı.

## KITABIN İÇİNDƏKİLƏR


**Ön söz ........................................................................ 3**

**I buraxılış, 1881-ci il**
**Zelinski S. Tatar atalar sözləri, məsəlləri, tapmaca və qadın adları ............................................... 13**

**II buraxılış, 1882-ci il**
**Zelinski S. Erməni xalq aşığı Vartan Xoyskinin nəğməsi ........................................................ 23**

**Nikitin K.A. Naxçıvan qəzasında xalq rəvayətləri**
1. İlandağ haqqında əfsanə ...................................... 28
2. Əshabi-Kəhf dağı haqqında rəvayət ....................... 29
3. Xəsis Qara çörək və Yezid təpəsi haqqında rəvayət...36

**III buraxılış, 1883-cü il**
**Veniaminov B. Salahlı kəndi və orada yazılmış tatar nağılları**
1. Məlik Məmməd və Məlik Cümşüd........................ 39
2. Əvil Qasım və Əvil Məmməd ............................... 44
3. Şah Rüstəm.......................................................... 48
4. Şahzadə Qəmbər .................................................. 50
5. Şah İsmayıl.......................................................... 55
6. Şərif..................................................................... 58

**V buraxılış, 1886-cı il**
**Kalaşev Nikolay. Bakı quberniyası, Cavad qəzasının Salyan qəsəbəsi**
İnanclar-sınamalar ........................................................ 61

**VI buraxılış, 1888-ci il**
**Zaxarov A. Zaqafqaziya tatarlarının xalq nağılları**
1. Vicdanlı və vicdansız iki tacirin nağılı ................ 62
2. Taledən qaça bilməzsən ...................................... 72
3. Lal şahzadə qız .................................................. 76
4. Zalım analıq ....................................................... 81
5. İki yetimin nağılı ................................................ 84
6. Qorxağın nağılı ................................................... 88
7. Dilənçi şahzadə qız ............................................. 93
8. Gözəl şahzadə qızın nağılı .................................. 97
9. Qurbağa şahzadə qız ........................................... 106
10. Şahsevənli Hacının köpəyi (tatarcadan tərcümə) .... 116

**Bağırov Həsənbəy. Yelizavetpol quberniyası Yelizavetpol qəzasının Goranboy, Əhmədli kənd sakinlərinin bəzi səciyyəvi xüsusiyyətləri**
1. Ağılsız cütçü ....................................................... 117
2. Uğurlu cavab ....................................................... 119
3. Biri digərindən daha ağıllıdır .............................. 119
4. Sonrakı ağılla güclüdürlər ................................... 120
5. İtki tapıntıdan daha sərfəlidir .............................. 121

**VII buraxılış, 1889-cu il**
**Əfəndiyev. Xalq rəvayətlərinə görə Yelizavetpol quberniyası, Nuxa qəzasının Nour və ya Novur gölü . 122**

**Qalacev İosif. Çariça Tamara (Zaqatala dairəsi tatarlarının söylədikləri əsasında) .............................. 123**

**Kalaşev A. Tatar nağılları**
1. Ovçu Pirim .......................................................... 125
2. Oxxay! ................................................................ 132
3. Müdrik padşah ..................................................... 138
4. Abut ................................................................... 141
5. Şeydulla .............................................................. 144

**Kalaşev A. İki müqəddəs tatar pirinin (yerinin) yaranması tarixindən**
1. Müqəddəs bardaq ................................................ 148
2. "Pirin" qəbri ..................................................... 150

**IX buraxılış, 1890-cı il**
**Zaxarov A. Zaqafqaziya tatarlarında xalq təhsili**
**Uşaq nağılları**
Qarı və buz ........................................................ 152
Şah-xoruz ........................................................... 153
Şah və xoruz ........................................................ 154
Lətifə ................................................................. 155

**Zaxarov A. Molla Nəsrəddinin lətifələri .................... 155**

**Kazbek Nikoloy. Bakı quberniyasının Göyçay qəzasında yazılmış tatar nağılları**
Alabəzək balıq ....................................................... 177
Oğruların oğrusu ..................................................... 186
Şahzadənin səyahəti ................................................. 189
Ceyranə .............................................................. 192
Gül və Sineyviz ...................................................... 195

**Vəzirov Mir Haşım. Tatar əfsanələri haqqında bir neçə söz ........................................................... 203**

**Surkov. Rus dövlət gerbində ikibaşlı qartalın təsviri haqqında tatar rəvayəti .................................. 212**

**Vəlizadə Mirzə. Qaçaq Koroğlu haqqında rəvayət.........213**
I. Mürəbbe ............................................................ 214
II. Koroğlunun dava başlayanda oxuduğu mürəbbedir ... 215
III. Bu şeirdə "Koroğlu" özü-özünə suallar verərək guya ki, eylədiyi igidliklərin hesabını görər .................. 216

**İokimov A. Etnoqrafik gündəlikdən**
1. Tapdın? – Yox! ........................................................ 217
2. Yelizavetpol şəhəri müsəlmanlarında Günəşin çağırılması ........................................................ 218

**Əfəndiyev Rəşid bəy. Qutqaşen kəndi haqqında bir neçə söz və Nuxa qəzasında xalq təbabəti haqqında**
Dua ilə müalicə ........................................................ 220
Fal açmaqla müalicə ........................................................ 220
Müqəddəs yerlərin ziyarəti ........................................................ 221
Qızdırmaya qarşı müalicə ........................................................ 222
Sarılıqdan qurtulmanın üsulu ........................................................ 222
Baş ağrısından müalicə üsulu ........................................................ 223
Sancıdan qurtulma üsulu ........................................................ 223

**XI buraxılış, 1891-ci il**
**Zaqafqaziyanın bəzi ərazilərində ipəkçiliklə bağlı inanc və rəvayətlər ........................................................ 224**

**SMOMPK: Azərbaycan folkloru materialları, 1-ci cild.**
Bakı, Elm və təhsil, 2018.

Nəşriyyat direktoru:
**Prof. Nadir Məmmədli**

Kompüterdə yığdı:
**Ləman Qafarova**

Kompüter tərtibçisi və
texniki redaktoru:
**Aygün Balayeva**

Kağız formatı: 60/84 1/ 16
Mətbəə kağızı: №1
Həcmi: 232 səh.
Tirajı: 300

Kitab AMEA Folklor İnstitutunun
Kompüter Mərkəzində yığılmış, səhifələnmiş,
“Elm və təhsil” NPM-də ofset üsulu ilə
hazır diapozitivlərdən çap olunmuşdur.